# Sənə inanıram

roman

Bakı - 2010

**Baş sponsor:**

Varis

**«Sənə inanıram»**

*(roman)*

«Sənə inanıram» yazıçı Varisin (Varis Musa oğlu Yolçiyevin) oxucularla üçüncü görüşüdür. Onun böyük oxucu auditoriyası toplamış «Sonuncu ölən ümidlərdir» və «Bir ovuc torpaq» romanları kimi bu romanının da mövzusu, əsasən, real həyatımızdan götürülmüşdür. Sevgi və xəyanət, insanın cəmiyyətdə öz yerini tapa bilməməsi, xoşbəxtlik axtarışları son dərəcə dramatik və gözlənilməz süjet xətti ilə birlikdə axıradək oxucunu gərginlik içində saxlayaraq, maraqlı bir romanın yaranmasını təmin etmişdir. Əminik ki, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitabı da bəyənəcəksiniz.

# ÖN SÖZ
# YENƏ DƏ OXUCULARINDIR

İnişilin payızında «Sonuncu ölən ümidlərdir», ötən ilin payızında «Bir ovuc torpaq», bu payız isə «Sənə inanıram»...

Bu iki ilə yaxın müddətdə yazıçının aldığı oxucu rəylərinin sayı 4 mini haqlamışdır. Əlbəttə, yazar üçün ən böyük müvəffəqiyyət satılan kitablarının və aldığı oxucu rəylərinin sayıdır. Ənənəyə sadiq qalaraq təzə çıxan kitabla ondan əvvəl çıxan kitab arasındakı vaxt kəsiyində gələn e-mail və SMS-lərin bəzilərini dərc edirik. 13 yaşdan 78 yaşadək ən müxtəlif təbəqədən, ən müxtəlif ünvanlardan olan insanların minnətdarlıqla dolu ürək sözləri belə düşünməyə əsas verir ki, oxucuların qəlbinə yol tapmaq mümkün olub. Xüsusən indiki — mütaliənin kölgədə qaldığı bir vaxtda bu, çox vacibdir. Əlbəttə, çox istəyərdik ki, bütün oxucu rəyləri burada yer alsın. Ancaq... Odur ki, qoy adları bura düşməyənlər inciməsinlər. Fürsətdən istifadə edib bütün oxuculara minnətdarlığımızı bildiririk.

## *Ən müxtəlif ünvanlardan*

■ Son 10 ildə oxuduğum ən maraqlı kitablardır bu iki kitab: «Sonuncu ölən ümidlərdir» və «Bir ovuc torpaq». Varisə yeni-yeni uğurlar və bol oxucu arzulayıram.

**Əminə Cəfərova**
*Azərbaycan Milli Kitabxanasının elmi katibi*

■ «Bir ovuc torpaq» kitabına görə Varisi təbrik edirəm. Hazırda bu cür vətənpərvərlik və qəhrəmanlıq mövzusunda olan romanlara çox böyük ehtiyac var.

**Qənirə Paşayeva**
*Azərbaycan Respublikası Milli Məclisinin üzvü*

■ Mən sonuncu dəfə Yusif Səmədoğlunun «Qətl günü» kitabını birnəfəsə oxumuşdum. Sənin «Bir ovuc torpaq» romanını da birnəfəsə oxudum. Halaldır sənə!

**Elçin Şıxlı**
*Azərbaycan Jurnalistlər Birliyinin sədri,*
*«Zerkalo» qəzetinin baş redaktoru*

■ «Bir ovuc torpağ»ı birnəfəsə oxudum və məni yazı tərzinin, yazıçı manerasının özünəməxsusluğu daha çox düşündürdü. Romanın strukturunda, yazı texnologiyasında özünü göstərən qeyri-adi sərbəstlik ədəbiyyatşünaslığın məlum «izm»lərindən yan keçərək, həyat həqiqətlərini az qala naturalist çılpaqlıqla, sanki, birbaşa, «canlı yayım»la təqdim edir. Bu, «iştahanın vicdanla, ehtirasın namusla amansız müharibə apardığı və əksər hallarda da qalib çıxdığı bir zəmanə»dən götürülmüş bir ovuc torpağın kədərli həqiqətidir. Və bu həqiqətin yanar alovları elə güclüdür ki, kədərin bütün qaranlıqlarını işıqlandırır, Vətən və xalq naminə oxucuya göstərə bilir.

**Sadıq Elcanlı**
*Yazıçı, Əməkdar İncəsənət Xadimi*

■ Mən ancaq klassik ədəbiyyat oxuyuram. Özü də təkrar-təkrar. Bu gün belə gözəl müasir ədəbiyyat nümunəsinin yaranması məni çox sevindirdi. Mən Varisin təhkiyə üsulunu - yazma stilini özlüyümdə güzgü tutmaq adlandırıram. İki müxtəlif hadisəni, iki müxtəlif qəhrəmanı güzgüdə eyni zamanda əks etdirmək və sonda onları bir tam halına gətirmək, məncə, ədəbiyyatda yenilikdir.

**Mir Sədi ağa**
*Görkəmli övliyya Seyyid Nigar Qarabağinin kötücəsi*

■ Ümumiyyətlə, heç vaxt kitab oxumaq marağında olmamışam. Ancaq «Bir ovuc torpaq» çıxanda onu oxumaya bilmədim. Heç inanmazdım, bir əsər mənə belə təsir edər. Çox istərdim ki, bu əsərinizə film çəkilsin.

**Tələt Əliyev**
*Yunan-Roma güləşi üzrə dəfələrlə respublika*
*və beynəlxalq turnirlərin qalibi*

- «Bir ovuc torpaq» romanını indicə oxuyub bitirdim. Olanları özüm yaşamış kimiyəm. Çox bəyəndim. Çox sevdim bu romanı. Olduqca mükəmməldir.

**Mehman Qədimbəyli**
*Prezident Administrasiyası İctimai-siyasi şöbəsinin əməkdaşı*

- Onu deyim ki, sizin bu kitab əldən-ələ gəzir. Hamı bu romandan danışır. Oxuyanlar dəhşətə gəlir. Bu, mənim ən sevimli kitabımdır. Yazılarınızı biz oxuculardan əsirgəməyin. Xarici seriallara baxmaqdansa, öz əsərlərimizi oxusaq, yaxşıdır.

**Natəvan Ələkbərova**
*2009-cu il, İzmir, «Miss Sivilizasiya» beynəlxalq gözəllik müsabiqəsinin vitse-missi*

- Mən mütaliə sevən gəncəm. Ancaq əfsus ki, son dövrlər bizim tələbatımızı ödəyən bədii əsərlər yaradılmırdı. Bilirsiniz, biz köhnə ədəbiyyatı tam həzm edə bilmirik, oradakı düşüncə tərzi bizə tanış deyil, gündəlik həyat bizimki ilə üst-üstə düşmür. Məhz Varisin romanları bizə — bügünkü gəncliyə mövcud reallığı, bu günümüzü göstərdi.

**Könül Qurbanova**
*VI Beynəlxaq Türk Dili Olimpiadasının qızıl medalçısı*

- Siz kimliyindən asılı olmayaraq hər bir kəsin həyatını özündə əks etdirən, hər kəsin hisslərini ürpədən əsər yaratmısınız.

**Xəyyam Nəbiyev**
*Azərbaycanın Rusiya Federasiyasındakı səfirliyinin əməkdaşı*

- Mən «Bir ovuc torpaq» kitabını ezamiyyətə gedərkən təyyarədə oxudum. Çox bəyəndim. Mənə həddən artıq təsir etdi. Heç beləsini oxumamışdım. İndi müəllifin birinci kitabını axtarıram.

**Namiq Məmmədov**
*AR Təhsil Nazirliyi, Texniki Peşə Təhsili şöbəsinin müdiri*

- Romanı birnəfəsə, dörd saat ərzində oxudum, bitirəndə çox təəssüf etdim ki, niyə bitdi?! Bu dörd saat ərzində yaşamadığım

hissləri yaşadım. Romanı oxumaq üçün ayırdığım vaxt zəngin həyat təcrübəsi toplamaq şansı oldu.

**Elşən Mirzəyev**
*Daxili İşlər Nazirliyinin əməkdaşı*

- «Bir ovuc torpaq» romanınızı çox maraqla oxudum. Mən axırıncı dəfə Sidni Şeldonun əsərlərini belə gərginlik içində oxumuşdum. Maraqlı ideyalarınız var. Xüsusən məni bunlar cəlb etdi: Azərbaycan ordusunun ermənilərinkindən üstünlüyü, yeni nəslin köhnələrdən daha aqressiv və qorxmaz olması... Mən Azərbaycan nəsri üçün sevinirəm ki, artıq belə maraqlı yazılar yaranır. İnanıram ki, siz tezliklə dünyada tanınan və çoxoxunaqlı müəllif olacaqsınız. Sizin uğurunuz həm də millətimizin uğuru olacaq.

**Akif Nağı**
*Qarabağ Azadlıq Təşkilatının sədri*

- Mən sizin birinci kitabınızı çox bəyənmişdim. Mənəvi aləm də yeməkdir. O, yaxşı olsa, yaxşı, pis olsa, pis qidalanarsan. İkinci kitabınızı da çox bəyəndim. Burada oxucunu vətənpərvərlik ruhunda qidalandırmısınız.

**Nurlan Həsənov**
*Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının zabiti*

- Mən sizin kitablarınızın vurğunuyam. Bizdə sizin birinci kitabınız var idi, qonşu hərbi hissədə ikinci. Biz onlarla danışaraq oxuyub qurtardıqdan sonra kitabları dəyişdik. Bütün hərbi hissə sizin kitabları oxuyub.

**Aydın Nəsibov**
*№ saylı hərbi hissənin əsgəri*

- Bizim dövrümüzün qlobal hadisələrlə yanaşı, bəzi ictimai bəlaları da var. Görürsünüz, tanıdıqlarımız arasında çoxları bacarmadıqları, sevmədikləri işlərlə məşğuldurlar və ya buna məcburdurlar. Mən böyük hərflərlə deyirəm: Siz bu işi bacarırsınız! Qələmi əlinizdən yerə qoymayın!

**Qərənfil Mansurova**
*Milli Məclisin Mətbuat Xidmətinin əməkdaşı*

■ «Bir ovuc torpağ»ı məmnuniyyətlə oxudum. Şənbə günü vərəqləyib təxirəsalınmaz işlərimi gördükdən sonra oxumaq istəyirdim. Ancaq ona elə aludə oldum ki, işlərim qaldı. Birnəfəsə oxuyub tamamladım.

**Mikayıl Nuriyev**
*Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında şöbə müdiri*

■ «Bir ovuc torpaq» romanını birnəfəsə oxudum və çox bəyəndim. Varisin qələmindən nə çıxırsa, hamısı olduqca oxunaqlı və dəyərli alınır.

**Musa Həsənov**
*Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi*

■ İkinci kitabı da birinci kimi birnəfəsə oxudum. Bir daha qət etdim ki, heç bir televiziya verilişi, serial, İnternet səhifələrində gedən cürbəcür məlumatlar əsl sənətkar qələmindən çıxan əsəri əvəz edə bilməz. Belə bir əsər yazdığına görə çox sağ ol!

**Afət Bakıxanova**
*190 saylı məktəbin direktoru,*
*Respublikanın əməkdar müəllimi*

■ Əmin olduğum bir şey var: Bu, oxuduğum romanların içində ən gözəlidir. Adətən, xarici yazarlara üstünlük verirdim, amma kitabınız əlimə keçəndə çox diqqətimi çəkdi. Çox qısa zaman içində evdə, işdə, hər yerdə oxuyub onu bitirdim. Əsərdən götürdüyüm dərs bu oldu: Ətrafdakı insanlardan etika xətrinə olsa belə, nəyisə gizlətməməli, həqiqət nədirsə, deməli və bir də... Hər insana inanmamalı!

**Səfayə Kazımova**
*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı*

■ Mən Varisin yaradıcılığını maraqla izləyirəm. Onun vətənpərvərlik mövzusunda yazdığı «Bir ovuc torpaq» romanı müasir dövrümüzün tələbləri ilə büsbütün səsləşdiyi üçün çox qiymətlidir.

**Yadigar Məmmədli**
*Demokratik Jurnalistlər Liqasının sədri*

■ Əvvəla, sizə bu gün gənclərdə kitab oxumaq həvəsi yaratdığınız üçün təşəkkür etmək istəyirəm. «Bir ovuc torpağ»ı susuzluqdan əziyyət çəkənlərin su içməyi kimi birnəfəsə oxudum. Günümün gərgin, işlərimin çox olmasına baxmayaraq, romanı bir günə bitirdim, sözün bütün mənalarında həzz aldım.

**Fazil Talıblı**
*Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Mətbuat Xidmətinin rəhbəri*

■ Varisin romanlarını oxuyanda adam böyük həyat məktəbi keçmiş olur. Ən azından, insanları tanımaq olur bu kitablarla. Hamı oxusun!

**Nemət Vidadioğlu**
*Bakı Metropolitenin işçisi*

■ Belə kitablara görə sizə dərin minnətdarlığımı bildirirəm. Bütöv bir həyat var bu kitablarda. Sanki, adi kitablar deyil, tale yazılarıdır.

**Cavad Rzayev**
*«Azərsu» şirkətinin işçisi*

■ «Bir ovuc torpaq» romanını oxudum. Çox hörmətli Varis bəy, qələminizin gücünü yenə də bizə yaşatdınız. Çox gözəl mövzuya toxunmusunuz. Burada həm vətənpərvərlik, mərdlik, sevgi, həm də kriminal aləmin yaşantıları yer alıb. Ən əsası — nə vaxtsa torpaqdan yaranmış insan oğlu bir ovuc torpağın həsrətindədir.

**Arzu Yusubov**
*Azərbaycan Memarlıq və İnşaat Universitetinin dissertantı*

■ Sizin «Bir ovuc torpaq» əsərinizi oxudum və bir daha qələminizin gücünə heyran oldum. Adətən, hər hansı sənətkarın yaradıcılığında bir şah əsəri olur. Siz isə hər iki kitabınızla biz oxucuların qəlbinə öz möhürünüzü vurdunuz.

**Tural Ağarzayev**
*Ekologiya İnstitutunun elmi işçisi*

■ Sizin əsərlərinizə heyranam. Mənim anam xərçəng xəstəliyinə tutulub. Çox fikir edir, ağlayır, rahatlanmırdı. Başını qatmaq

üçün ona «Sonuncu ölən ümidlərdir» kitabını verdim, inanın, iki günə oxuyub bitirdi. Dərhal «Bir ovuc torpağ»ı verdim, onu da oxuyub tamamladı. Sanki, həyata daha ümidlə baxmağa başladı bu kitablardan sonra. Sizə çox minnətdaram.

**Səbinə Gözəlova**
*Beynəlxalq Ümumtəhsil məktəbinin müəllimi*

■ Mən bu kitabı elə-belə oxumurdum. Ondan əsl ləzzət alırdım. Ən yaxşı yerində dayanıb mətbəxə gedir, özümə çay süzüb içir, başqa bir maraqlı yerində çörək yeyirdim. Kitabı oxuyub tamamladıqdan sonra, hətta telefon nömrələrini, texniki işçilərin adlarını, reklam mətnini də oxudum. Mən necə də arzulayırdım ki, heç olmasa, bircə dənə də əlavə səhifə tapıb oxuya bilim...

**Rizvaniyə Qasımova**
*Əmək veteranı*

■ Keçən il oxuduğum 180-ə yaxın kitabın yalnız birində («Bozqurdlar») vətənə sevgidən bəhs olunurdu. Məncə, əsl Vətən sevgisi ifadəsi sizin «Bir ovuc torpaq» romanınızda öz əksini tapır.

**Pərviz Əliyev**
*Sumqayıt Telekomun işçisi*

■ Mən sizin əsəri bu gün əldə etmişəm, gecə saat 12-dən oxumağa başlayıb indi — səhər saat 7-də başa çatdırdım. Sizin ilk əsəriniz kimi bu da mənalı və xoş təəssüratlı idi. Sizin əsərləriniz mənim üçün böyük həyat dərsi oldu. Sağ olun ki, belə romanlar yazırsınız. Xahiş edirəm, üçüncünü tezliklə çap etdirin.

**Samin İbrahimov**
*ANT Şirkətlər Qrupunun mütəxəssisi*

■ Varisin bu əsəri də məni birinci əsər qədər özünə çəkdi. İstər Nailə, İlqar, Səidə, istərsə də Nigar və hər iki Zaurlar hələ uzun illər mənim xatirəmdə yaşayacaqlar.

**Müzəffər Quliyev**
*Xətai rayonu,*
*92 saylı MKİS-in rəisi*

■ 4 saat ərzində gözümü belə qırpmadan əsərinizi oxuyub bitirdim və hələ də yazdıqlarınızın təsiri altındayam. Bundan gözəl nə yazmaq olar, onu təsəvvür etmək belə çətindir mənim üçün. Həqiqətən, şedevr yaratmısınız.

**Aygün Əsgərova**
*Milli QHT Forumunun Beynəlxalq Məsələlər üzrə koordinatoru*

■ Mən kitab oxumağı sevirəm. Amma hələ «Bir ovuc torpaq» romanı kimi mənə təsir edən roman olmamışdı.

**Azər Həsənov**
*AR Dövlət Neft Şirkətinin əməkdaşı*

■ Mən romanınızın sonuna çatdım. Heç deməyə sözüm qalmayıb. Doğrudan da, həyat qəribəliklərlə doludur. Eh, nə bilim. Bir sözlə, çox xoşuma gəldi bu roman. Çox sağ olun ki, varsınız.

**Rəhilə Novruzova**
*«İmprotex MAN» şirkətinin əməkdaşı*

■ Mən həmişə insanlardan «kitabı birnəfəsə oxudum» sözünü eşidəndə təəccüblənirdim. Amma sizin kitablarınızı birnəfəsə oxuduqdan sonra buna əmin oldum. Çox xahiş edirəm, bizi belə kitablardan məhrum etməyin.

**Nərgiz Mehdiyeva**
*Azerfon LLC-nin əməkdaşı*

■ Varisin kitablarından çox şeyi öyrəndim. Hətta əsərlərimdən birini «Sonuncu ölən ümidlərdir» adlandırmışam. Maraqlı bir detal. Bir İnternet çatında adımın əvəzinə ən çox sevdiyim yazıçı kimi Varisin adını yazmışdım, bir qız məhz buna görə mənə öz sevgisini izhar etdi.

**Əli Əliyev**
*«K.Orkestro» rep qrupunun rəhbəri*

■ Salam. Son illərdə iki maraqlı roman oxumuşam. Hər ikisi Varisin yazdığı romanlardır. Hər ikisi çox maraqlı, ibrətamiz, düşündürücüdür, aydın dillə yazılıb. Çox bəyəndim, çox da təsirləndim.

**Sevinc Atakişiyeva**
*Sabunçu rayon İcra Hakimiyyətinin işçisi*

■ Mən «Bir ovuc torpaq» romanını sevə-sevə oxudum. Qəhrəmanların həyatını yaşadım, sandım ki, bu təlatümlü, dərdli talelərdən xəbər tutduqca saçlarım büsbütün ağaracaq.

**Çinarə Hüseynova**
*Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Sumqayıt şəhər Komitəsi nəzdində Gənclər Komissiyasının sədri*

■ Sizə dərin təşəkkürümü bildirirəm bu romana görə. Qələminiz uzunömürlü olsun. Əfsus ki, kitab mənim özümdə yoxdur, başqasından alıb oxumuşam. Bütün satış məntəqələrindən onu soruşmuşam, «satılıb, qurtarıb» deyiblər.

**Mirməhəmməd Süleymanlı**
*Azərbaycan Akademik Opera və Balet Teatrının əməkdaşı*

■ Kitabı axşam dostum verib, oxuyuram. 106-ci səhifədəyəm. Üç dəfə ağlamışam. Axı mən də qarabağlıyam. Fikirlər, düşünülüb yazılanlar, həyatda olanlar, reallar, ideallar, haqqsızlıqla barışmazlıqlar mənim əqidəmdir, amalımdakılardır. Çox mütəəssir olmuşam.

**Zaur İsgəndərov**
*Binə Ticarət Mərkəzində icarədar*

■ Əsəriniz çox uğurlu alınıb. Buna görə sizi təbrik edirəm. Əgər həyat heç olmasa, insanın üzünə bir dəfə də olsa gülübsə, o, bunu özü üçün onu dağa qaldıran yeganə funikulyor kimi fikirləşməlidir.

**Ruslan Cəlilov**
*«Azərsun Holdinq»in əməkdaşı*

■ Yazan əlləriniz var olsun. O qədər təsirlənmişəm ki. Heç deməyə söz tapa bilmirəm.

**Elvira İbişova**
*Ədliyyə Nazirliyinin Dövlət Qeydiyyatı və Notariat şöbəsinin əməkdaşı*

■ «Bir ovuc torpağ»ı çox bəyəndim. «Sonuncu ölən ümidlərdir» əsəri də mənə çox dərindən təsir etmişdi. Sizə hər iki əsərinizə görə təşəkkür edirəm. Kitablarınızı dostlarıma da tövsiyə etmişəm.

**Reyhan Səlimova**
*Bakı şəhər Təhsil İdarəsinin əməkdaşı*

- İnanın ki, şokdayam. Necə də mənalı, insana dərs verə biləcək bir romandır. Gözəl və təsirli, fəlsəfi fikirlərlə zəngindir. Bu əsər mənə çox şey öyrətdi. İnsanları hiss etməyi, yanında olmadıqda belə bir kimsənin nələr çəkdiyini duymağı, onları göz önünə gətirməyi öyrətdi.

**Rəşad Abbasov**
*UNİBANK-ın baş mühasibi*

- Bu cür reallıq, belə öldürücü maraq, hadisələrin bir-birini bu cür izləməsi, belə gözlənilməz gedişat... Bütün gecəmi «Bir ovuc torpağ»ı oxumağa sərf etdim. Bu, çox dahi bir əsərdir.

**Eltən Qədimbəyli**
*CTV telekanalının icraçı direktoru*

- Bilmirəm niyə, ancaq bu təsirli kitabı oxuduqdan sonra elə hey onun qəhrəmanlarını axtarmaqdayam — Novxanıda, Sarayda, Bakıda, Sumqayıtda... Polis işçilərindən, adi adamlardan belə sizin qəhrəmanlarınızı soruşmaqdayam.

**Günay Məmmədova**
*2 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşı*

- Kitabınızı artıq üç dəfə oxumuşam. Çox xoşuma gəlib. Kitabı oxuduqca gündəlik işlərini, qayğılarını belə unudursan. Siz inana bilərsiniz ki, çox geniş oxucu kütləsi toplamısınız.

**Lalə Axundova**
*H.Əliyev adına Beynəlxalq Hava Limanının əməkdaşı*

- Öncə bir söz söyləmək istəyirəm: Siz biz gənclərə: «Mən indiyə qədər kitab oxumağa heç cəhd də etmirdim, indi bunun aludəçisiyəm», - dedirdə bildiniz. Bədii ədəbiyyata gəncləri yenidən qazandırdınız. Əsərlərinizlə həm də kitabla texnologiya arasındakı rəqabətdə məğlub olmaq üzrə olan mütaliəni qalib etdiniz.

**Raminə İmanova**
*«Gənclər töhfəsi» İctimai Birliyinin koordinatoru*

- Bu gun Varisin çox populyar olması, sevilə-sevilə oxunması inkaredilməz bir faktdır. İşim İnternetlə bağlı olduğundan, daim informasiya axtarışında oluram. Mən müşahidə etmişəm ki, portalların

axtarış bölmələrində ən çox axtarılan sözlərdən biri də «Bir ovuc torpaq»dır.

**Eyvaz Qocayev**
*«Sumqayitxeber.com» saytının baş redaktoru*

- Dünən günortadan sonra başladım oxumağa. Gecə birdə oxuyub qurtardım. Hələ heç bir kitabı oxuduqda belə olmamışdım. Rəfiqələrim də sizin romanlarınızı bəyənirlər. «Bir ovuc torpağ»ı oxumaq üçün indi burada hamı növbəyə durub.

**Elza Allahverdiyeva**
*Mərkəzi Klinik Xəstəxananın işçisi*

- Elə indicə «Bir ovuc torpağ»ı oxuyub bitirdim. Göz yaşlarıma hakim ola bilmirəm. Nə hiss etdiyimi yazmaqda çətinlik çəkirəm.

**Könül Mustafazadə**
*«Qnet» firmasının satış üzrə meneceri*

- Sizin kitabları oxuyanda, sanki, insan qəhrəmanların taleyini yaşayır. Çox təsirli yazmısınız. Həm də hər kəs bu əsərlərdə özünü görür.

**Elnarə Mikayılova**
*«İv-Roşe» şirkətinin təmsilçisi*

- Öncəliklə, yazdığınız hər bir kitaba görə sizə təşəkkür edirəm. Hər iki kitabda öz həyatımın izlərini gördüm. 1-cidə atasızlıq, 2-cidə vətən həsrəti. Əla yazmısınız.

**Səbinə Rüstəmli**
*məcburi köçkün*

## *Uzaqlardan*

- İlk öncə, onu demək istəyirəm ki, ümidin nə olduğunu mənə öyrətdiyiniz üçün çox təşəkkür edirəm. «Sonuncu ölən ümidlərdir» və «Bir ovuc torpaq» oxuduğum kitabların arasında ən çox emosiya və həyəcan daşıdığım romanlardır. Həqiqətən, çox gözəl yazmısınız. Halal olsun!

**Nərmin Hüseynova**
*Vircinya, ABŞ*

- Romanı vərəqlədikcə mənə o qədər maraqlı gəldi ki, hətta personajlardan birinə şəxsi simpatiyam da yarandı. Dünən əldə etdiyim kitabınızı, bütün gecəni gözümü qırpmadan oxuyub bitirdim. Çox böyük zövq aldım.

**Nərgiz Nəsirova**
*Almaniya*

- İç dünyam alt-üst oldu desəm, inanın. Dörd saata bitirdim kitabı. Su kimi içdim. Necə gözəl bir mövzu, necə gözəl bir yazı tərzi. Sizi təbrik edirəm. Dünyaya bir kitab gətirəcək olsam, onun yalnız «Bir ovuc torpaq» kimi gözəl olmasını arzu edərdim.

**Aynur Rəhimova**
*Təl-Əviv, İsrail*

- Öncəliklə sizə o qədər təşəkkürlər ki, ömrünüzün sonuna qədər bəs edər. Hələ bir artıq da qalar. Sizin iki kitabın ikisini də oxumuşam, dəli olmuşam. Belə kitablarmı olar?! Adamın ağlını başından alır.

**Azər Rəcəbov**
*İnçöpinq, İsveç*

- Kitabınızı bir türk olaraq oxudum. Əllərinizə sağlıq. Allah yolunuzu açıq etsin. Sizə başarılar.

**Mitat Ünal**
*İstanbul, Türkiyə*

- «Bir ovuc torpaq»da dünya itib batır, yox olur. «Bir ovuc torpaq»da həm də dünya yenidən yaranır. Yazıçı, sən istədiyinə nail oldun, özünü oxucuna sevdirə bildin. Tanıdığım hər kəsə bu kitabı oxumağı məsləhət görəcəyəm.

**Tərlan Asnun**
*Böyük Britaniya*

- Mən sizin romanı oxudum, çox xoşuma gəldi. Hətta məni ağlatdınız da. Arzulayıram ki, həyatda namusu, insanlığı pulla ölçən adamlara Allah vicdan versin.

**Məlahət İbrahimova**
*Astana, Qazaxıstan*

■ «Sonuncu ölən ümidlərdir» kitabını oxumuşdum, bu gun də «Bir ovuc torpaq» romanını oxudum. Çox sevindim ki, mən bu günümü — 24 saatı bu kitabı oxumaqla keçirdim. Sizin hər iki kitabınızı bacım, rəfiqələrim və qardaşım da oxuyublar. Hamısı çox məmnundur.

**Nərgiz Abbaszadə**
*London, İngiltərə*

■ Azərbaycandan uzaqda yaşasaq da, sizin dillər əzbəri olan əsərlərinizi biz də oxumuşuq və çox məmnun olmuşuq. İxtisasca hüquqşünasam. Metroda, avtobusda, işdə, evdə, harada boş vaxtım olurdusa, dərhal açıb sizin kitabınızı oxuyurdum. Çox sevindirici haldır ki, indiki zəmanəyə uyğun, indiki gənclərin psixologiyasına, düşüncə tərzinə aid olan əsərlər yaradırsınız. Əsərinizə bizdəki marağı görən ruslar da onu oxumaq istəyir. Yaxşı olardı ki, əsərlərinizi rus dilinə tərcümə etdirəsiniz.

**Nadilə Şükürova**
*Moskva, Rusiya*

■ Sizin kitabı böyük çətinliklə əldə etdim. Çox maraqlı, ürəyə toxunan əsərdir. Oxuduqca çox təsirləndim. İnanın, göz yaşları içində oxudum.

**Asya Məmmədova**
*Tümen vilayəti, Qubkinskiy şəhəri*

■ «Bir ovuc torpaq» romanını inanın ki, hər gün təkrar-təkrar oxuyur, qəhrəmanların taleyi ilə yaşamaqdan yorulmuram.

**Ülviyyə Hacıyeva**
*Marneuli, Gürcüstan*

■ Kitabınızı böyük məmnuniyyətlə oxudum. Düzdür, azərbaycanlı olmadığım üçün çətinliklə oxuyub başa çatdırdım, ancaq çox xoşuma gəldi. Həqiqətən, emosional, insanı ağladan bir romandır.

**Argen Saparov**
*Bişkek, Qırğızıstan*

## *Yaxınlardan*

- Bu yaxınlarda kitabınızı oxudum. Hələ indiyə kimi belə bir kitab oxumamışdım. Əvvələr məndən soruşanda ki, həyatında oxuduğun ən maraqlı kitab hansıdır, cavab verməkdə aciz qalırdım. Amma bundan sonra asanlıqla bu suala cavab verə biləcəyəm.

**İbrahim Məmmədov**
*Şirvan şəhəri*

- Mən kitabınızı böyük maraqla oxuyurdum, ancaq tamamlaya bilmədim. Kitabın yiyəsi əlimdən aldı. Elə yerində qalmışam ki, heç cür özümə gələ bilmir, hadisələrin sonunu bilmək üçün lap səbirsizlənirəm. Çox xahiş edirəm, söyləyin, kitabı haradan əldə edə bilərəm?

**Şəfəq Rəsulova**
*Şamaxı şəhəri*

- «Bir ovuc torpağ»ı, həqiqətən də, çox gözəl qələmə almısınız. Bu kitabı kəndimizdə qapı-qapı hamıya vermişəm. İndi çayxanaya yığışan cavanlı-qocalı hamı bu kitabdan danışır. Hamı sizi kəndimizdə qonaq görmək istəyir.

**Vüsal Kamilov**
*Şəki, Orta Zeyzit kəndi*

- Çox əfsuslar olsun ki, Zaur kimi oğlanlarımızın az olması səbəbindən Xəlil kimi şərəfsizlər Nigar xanımın timsalında qızlarımızın paklığını əllərindən alıb, onları xoşbəxtlikdən məhrum etməkdədirlər. Acı həqiqətləri olduğu kimi bizə çatdırdığınıza görə sizə minnətdaram.

**Azər Yusifli**
*Şabran rayonu*

- Bu roman azərbaycanlı ailəsində böyüyən çox oğul-uşaqların gələcəyi, kişiliyi, mərdliyi, cəsurluğudur. Var olun, indiyə qədər eşitdiyim ən xoş kəlmələrə layiqdir «Bir ovuc torpaq».

**Tükəzban Süleymanqızı**
*Qazax rayonu, İncə dərəsi*

- «Sonuncu ölən ümidlərdir» romanında olduğu kimi «Bir ovuc torpaq» romanını da oxuduğum zaman çox təsirləndim. Mən heç vaxt heç bir kitabı bu dərəcədə maraqla və həvəslə oxumamışdım.

**Abbasəli Nəcəfov**
*Naxçıvan şəhəri*

- İnanın ki, kitabı oxuyandan sonra üç gündür ki, özümə gələ bilmirəm. Hələ mənim doğulduğum, yaşadığım yer alınan torpaqlar sırasında deyil. Ancaq mən nə hisslər keçirdim... Allah bizlərə səbir versin.

**Aygül Rəhimli**
*Naxçıvan MR, Babək rayonu*

- Bu gün iki gün öncə oxumağa başladığım «Bir ovuc torpaq» romanını bitirdim. Bu roman məni çox təsirləndirdi. Bayaqdan öz yaxınlarıma onun barəsində danışıram.

**Nərgiz Quliyeva**
*Şəmkir rayonu*

- Bir məcburi köçkün olaraq bu mövzuya toxunduğunuz üçün sizə təşəkkür edirəm və demək istəyirəm ki, Tələt kişi kimi çox babalarımız gözüaçıq köçüb bu dünyadan. Amma heç şübhəm yoxdur ki, nə qədər Azərbaycan var, Azərbaycan qadını var, Zaur kimi oğullar hələ çox gələcək bu dünyaya.

**Xanım Məhərrəmova**
*Ağdam rayonu*

- Bu SMS-i yazmağı özümə borc bildim. Romandakı mənfi Zaur, əslində, çoxlarına nümunə olacaq müsbət obrazdır. Sizə təşəkkürlər.

**Laçın Xəlilova**
*Ağstafa rayonu*

- Kitabı cəmi dörd saata, çay-çörək yemədən oxuyub tamamladım, bir həftə təsirindən çıxa bilmədim. Onu da deyim ki, kitablarınız əldən-ələ gəzir.

**Sona Səmədzadə**
*Qax rayonu*

- Sevə-sevə, maraqla, birnəfəsə oxudum kitabları. Hər yerdə onların haqqında o qədər danışdım ki, artıq tanışlar oxumaq üçün növbəyə dayanıblar. Onların təriflərini, razılıqlarını görəndə sevincimin həddi-hüdudu olmur.

**Könül Poladxanova**
*Sumqayıt şəhəri*

- «İstəmirəm, gül qoxusa, bal dadsa da, daha ömür. Sənli olub sənsiz keçən, heçdir ömür, puçdur ömür». Qəhrəmanınız Nigara ithaf etmişəm bu misraları. Və bir də... Yüksək mənəvi, əxlaqi alicənablıq, insanpərvərlik, ən ümdəsi, vətənpərvərlik, həyatı yaşamağı sevib dərinliklərə varmaq kimi münasibətləri özündə cəmləşdirir romanınız...

**İradə Məmmədova**
*Sabirabad rayonu*

- Bu günə qədər çox kitab oxumuşam. Amma oxuduğum kitabların içində deyərdim ki, mənim üçün ən dəyərli və mənalı olan qızıl əllərlə yazılmış «Bir ovuc torpaq» adlı kitabdır. İlk öncə bu istedadı sizə verən Allahıma, sonra isə bu xüsusilikdən bu qədər gözəl və dəyərli istifadə etdiyinizə görə sizə minnətdaram.

**Aygün Topçuyeva**
*Gədəbəy rayonu*

- Hələ uşaqlıqdan, daha dəqiq, 12 yaşından şəxsi kitabxanya malikəm. Olub ki, aylıq gəlirimin 70%-ni yaxşı kitablara xərcləmişəm. Etiraf edim, Varisin kitabları qədər acgözlüklə oxuduğum kitabı xatırlaya bilmirəm. Onun kitabları o qədər əldən-ələ keçib ki, sanki, əsrin nimdaş kitablarına dönüb. Bu gün belə kitablara ehtiyac çox böyükdür.

**Anar Hidayətzadə**
*Neftçala rayonu, Ballıcallı kəndi*

- Bu cür təsirli romanlara görə yazıçıya təşəkkür edir və böyük uğuru münasibəti ilə onu təbrik edirəm. Qəhrəmanların sonrakı talelərini bilmək, onları görüb tanış olmaq arzusu doğdu məndə.

**Gülbəniz Əliyeva**
*Masallı rayonu, Mollaoba kəndi*

- Kitabı tamamlayanda gecə saat 3 idi. Sizə dərin təşəkkür edirəm ki, belə bir kitab yazıb biz oxuculara təqdim etmisiniz. Oxuduqca istəmirsən ki, sona çatasan. Zərgər dəqiqliyi ilə yazırsınız.

**Türkan Qəmbərova**
*Gəncə şəhəri*

- Sizin kitabdan dörd gün qabaq Dostoyevskinin «Cinayət və cəza» romanını oxuyub bitirmişdim. Mən onu oxuyarkən ikinci bir əsər oxuyacağıma inanmırdım. Amma bu düşüncəm, sadəcə, dörd gün çəkdi. Həqiqətən, çox gözəl yazmısınız.

**Nülufər Rzazadə**
*Lerik rayonu*

- Bu yaşacan çox romanlar oxumuşdum, amma belə təsirlənməmişdim. Çox sağ olun ki, belə romanlar yazıb gənclərimizin gözlərini doğruya açırsınız.

**Günel Rəhimova**
*Lənkəran*

- «Bir ovuc torpağ»ı yazdığınız üçün sizə təşəkkür edirəm. Əsər gənclərə vətənpərvərlik hissinin aşılanması baxımından çox əhəmiyyətlidir.

**Yeganə Əlihüseynova**
*Salyan*

- Mən sizin əsərinizi böyük həyəcanla oxuyan ən emosional oxucunuzam. Çoxdandır, belə əsərlərə ac idim, xarici ədəbiyyatı oxumaqdan bezmişdim. Bu kitabınız həyatımın ən dəhşətli anlarında əlimə düşdü, həyatımdakı qaranlıq tunelin sonunda işığı görməkdən əlimi üzdüyüm halda, siz öz kitabınızla məni yenidən həyata qaytardınız.

**Ülkər Həsənova**
*Pirallahı adası*

## *Ali və orta ixtisas məktəbləri tələbələrindən*

**(Hər məktəbdən cəmi bir rəy)**

■ «Bir ovuc torpaq» kitabını yeni dövr ədəbiyyatımızda ərsəyə gələn ən nadir əsərlərdən biri kimi adlandırsam, yəqin ki, yanılmış olmaram. Süjet xətti baxımından hadisələrin tez-tez kulminasiyaya qalxması, oxucunu daim növbəti səhifələrə addımlamağa məcbur etməsi, hadisələri oxucunun birbaşa hiss etməsi baxımından əsər müqayisəolunmazdır.

**Cəfər Nağıyev**
*Oxford Brookes University*

■ Sizin yaradıcılığınız barədə mənə bir dostum danışıb, sizin kitablarınızı o qədər tərifləyib ki. Sağ olun ki, Azərbaycanın sizin kimi yazıçısı var. Moskvada heç cür sizin kitablarınızı tapa bilmirəm. Çox xahiş edirəm, romanlarınızın elektron variantını əldə etməyə mənə kömək edin.

**İlyas Məcidov**
*M.Lomonosov adına Moskva Dövlət Universiteti*

■ Mən dərslik və əlavələrdən başqa kitab oxumamışdım indiyə kimi. Amma dostlarımın məsləhəti ilə «Bir ovuc torpağ»ı oxudum. Çox həzz aldım, çox maraqlı, sevilməsi kitabdır.

**Sənan Mahmudov**
*Erciyes Universiteti, Türkiyə*

■ Həqiqətən də, həyat çox qəribədir. Bir həftə əvvəl həyatın tamamilə maraqsız, mənasız, yalan olduğunu düşünürdüm. «Bir ovuc torpaq»da siz, sanki, mənim insanlara susqunluğumla demək istədiklərimi qələmə almısınız. Kimsənin məni anlamadığını düşündüyümdən, mən də sizin qəhrəmanınız kimi daxili dünyamla danışıram. İndi anladım ki, məni başa düşə biləcək insanlar da var. Həyatıma maraq gətirdiyiniz üçün sizə təşəkkür edirəm.

**Səda Məhərrəmova**
*Azərbaycan Respublikası Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*

■ Bir gənc olaraq müasir ədəbiyyata marağım azalmışdı, amma siz bu hissləri yenidən mənim və mənim kimi minlərlə gəncin ürəyində cücərtdiniz. Yaşlılar öz nəvələrinə, ana öz qızına həyatdan necə dərs almağı izah etmək, məsləhətlər vermək üçün sizin kitablarınızı bağışlamalıdır, çünki onlarda əsl həyat dərsi var.

**Aynur Cəfərova**
*Bakı Dövlət Universiteti*

■ Artıq bir neçə ildir ki, vaxtımın az olması səbəbindən bədii ədəbiyyatı yalnız yolda oxumağa imkanım olur. Elə bu gün də «Sahil» metrosundakı köşkdə bir kitab diqqətimi cəlb etdi, onu aldım. O qədər diqqətimi cəlb etdi ki, hətta yolu keçərkən belə ayrıla bilmədiyim əsər az qaldı ki, həyatımda oxuduğum son kitab olsun... Uzun bir müddətdən sonra ilk dəfə idi ki, bədii əsəri bir neçə saata oxuyub tamamladım.

**Nicat Cavanşir**
*Azərbaycan Dövlət İqtisad Universiteti, Xüsusi İstedadlar qrupu*

■ Yeddi saat əvvəl sizin «Bir ovuc torpaq» adlı kitabınızı əldə etmişdim, bu dəqiqə oxuyub bitirdim. Siz hadisələri elə canlandırmısınız ki, inanın, mən hələ torpaqlarımızın işğalını konkret olaraq hiss etməmişdim, yalnız indi hiss etdim.

**Elnarə Mustafayeva**
*Azərbaycan Dövlət Neft Akademiyası*

■ Mən danışdığım dildə danışan yaşıdlarım çox azdır. Onları Tarqovıda, ya «McDonalds»-da tapmaq olmur... Kitabı açdım. Yazılar, müxtəlif adlar, sətirlər, fərqli insanlar. Onları birləşdirən bir əsər. İsindim. Mən kimə başa salım ki, məni quru səhifələr isitdi? Satıcı, psixoloq, jurnalist, tələbə... Hamısı necə də fərqli idi. Bunu siz bacardınız. Əhsən!

**Həmidə Əhmədova**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*

■ Kitabınız əldən-ələ gəzdi və sonda mənə çatdı. Ancaq mən - özüm hələ oxumamış onu gənc ana olan xalam qızına verəsi

oldum. Düşünürdüm ki, qayğılarından vaxt tapıb onu oxuya bilməyəcək. Çünki çox vaxt belə olurdu. Məndən aldığı kitabları ən uzağı on səhifə oxuyurdu. Ancaq iki gündən sonra xəbər elədi ki, əsəri oxuyub qurtarıb. Sevinirəm. Çünki kitab oxumağa barmaqarası baxanlar belə sizin əsərlərinizi həvəslə, birnəfəsə oxuyurlar.

**Aytən Əliverdiyeva**
*Bakı Slavyan Universiteti*

- Cümlələr o qədər mənalı idi ki, inanın, mənəvi zövq aldım. Sizin bu istedadınıza heyranam. Mən indi bu romanın davamını özüm xəyallarımda yaradacağam.

**Nigar Quliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

- Onu deyim ki, sizin bu istedadınızı bir möcüzə adlandırıram. «Bir ovuc torpaq» məni şoka saldı. Sizi təbrik edirəm.

**Anar Məmmədov**
*H.Əliyev adına Ali Hərbi Məktəb*

- Kitabınız haqqında İnternet saytlarının birində forumda müzakirə gedirdi. Mənə çox maraqlı gəldi. Onu bir çox kitab mağazasından soruşdum, amma hər yerdə «qurtarıb» dedilər. Çox gəzdikdən sonra çətinliklə də olsa, tapdım. Həqiqətən, çox gözəl, real, müasir dövrümüzdən bəhs edən əsərdir. Bacımın müəllim yoldaşları, demək olar ki, bütün məktəb kitabınızı oxuyub. Əlinə heç vaxt bədii kitab almayan qardaşım da həmçinin.

**Zümrüd Abdullayeva**
*Azərbaycan Dövlət Tibb Universieti*

- Universitetdə oxusam da, indiyə qədər heç bir bədii ədəbiyyatı axıra qədər oxumamışdım. Amma sizin kitabınızı ikicə günə oxudum. Onu da deyim ki, bizim universitetdə sizin kitabları oxumaq üçün əsl növbə yaranıb, təxminən 50 nəfərə bir kitab düşür.

**Aytən Əhmədova**
*Qafqaz Universiteti*

■ Dünən İçərişəhər metrosuna düşürdüm. Qəhrəmanlarınızın yağışdan qaçıb metronun içində daldalanmaları yadıma düşdü, göz yaşlarımı saxlaya bilmədim. Götürüb növbəti dəfə romanınızı oxumağa başladım. Artıq altıncı dəfə.

**Pərvanə Rzayeva**
*Azərbaycan Milli Konservatoriyası*

■ Ümidvaram, narahat etmirəm, yaradıcı insanlar, yəqin, bu vaxt oyaq olurlar. Axı onların ilham pəriləri, adətən, gecələr qonaq olur. Belə möhtəşəm əsərə görə təşəkkürlər. «İnsanın özünü dərketməsi elə Allahı dərk etməsidir» yazmısınız. Əslində, bir o qədər qeyri-adi olmayan sözlər qeyri-adi ruha malik insan tərəfindən yazılanda adamı titrədir.

**Vüsalə İbrahimova**
*Azərbaycan Dillər Universiteti*

■ İnanın ki, əsərlərinizin necə qəlb oxşadığını dillə demək qeyri-mümkündür. Sizdə mövzu o qədər geniş, dünyagörüşünüz o qədər möhtəşəmdir ki, hadisələri iki ailə əhatəsində göstərməklə oxucunu daim maraqda qoyursunuz. Hər şeyi elə dəqiqliklə qələmə almısınız ki. Heyran qaldım.

**Kəmalə Abbasova**
*Azərbaycan Müəllimlər İnstitutu*

■ Sizin hər iki kitabınızı qrup yoldaşlarımın oxuduqdan sonra qurduqları təsiredici söhbətləri sayəsində oxudum. Bu misli görünməmiş kitablar üçün sizə minnətdaram.

**Nərmin İsmayılova**
*Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti*

■ «Bir ovuc torpaq» kitabını dostlarımın birindən alıb oxudum, artıq iki həftədir ki, oxuyub qurtarmışam, amma hələ də bu əsər barədə düşünürəm. Heç vaxt adamı bu qədər düşündürən kitabla rastlaşmamışdım.

**Aygül Hacızadə**
*Azərbaycan Dövlət Texniki Universiteti*

■ Özümü dərk edəndən heç nəyə və heç kimə görə ağlamamışdım. Bircə ADNA-da olan terrorda özümü saxlaya bilməmişdim. Bir də indi - «Bir ovuc torpağ»ı oxuyanda özümdən asılı olmadan içimdə olan hisslər göz yaşı ilə bədəndən ayrılırdı.

**Zaur Həsənli**
*Azərbaycan Turizm İnstitutu*

■ Kitab oxumağı ixtisasım — rəssamlıq qədər sevirəm. Qrup qızlarının sayəsində kitabınızı oxudum və hədsiz dərəcədə bəyəndim. Hər zaman belə əsərlərlə bizləri sevindirin.

**Validə Əhməd**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyası*

■ «Sonuncu ölən ümidlərdir» kitabından dərhal sonra «Bir ovuc torpaq» adlı kitabı da alıb oxudum. Hər ikisini o qədər bəyəndim ki, sözlə deyiləcək deyil. Qısaca deyim ki, adamın əhval-ruhiyyəsinə işləyirlər. Hətta elə yerlər oldu ki, gözlərim doldu.

**Adil Əliyev**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

■ Sizin «Bir ovuc torpaq» əsərinizi oxuduq. Bundan əvvəl «Sonuncu ölən ümidlərdir»i də oxumuşduq. Hər ikisi çox xoşumuza gəldi. Bütün kursantların adından təşəkkürümü bildirirəm.

**Zaur İbrahimov**
*Azərbaycan Dövlət Sərhəd Xidməti Akademiyası*

■ Çox gözəl roman idi, bircə günə oxuyub qurtardım. Lap çox bəyəndim.

**Nicat Əhmədzadə**
*Milli Aviasiya Akademiyası*

■ Əsəri böyük maraqla, xüsusi acgözlüklə oxudum. Son dərəcə maraqlı idi. Doğrudan da, hər birimiz bir ovuc torpağıq. Bir ovuc torpaqdan yarandıq və bir ovuc torpağa qismət olacağıq. Yetər ki, torpağımız bütöv olsun.

**Səbinə Əliyeva**
*Azərbaycan Universiteti*

■ Yazdığınız bu gözəl roman üçün sizi təbrik etmək istəyirəm. Sanki, məni qəhrəmanlarınızın dünyasına apardınız, o həyatı mənə də yaşatdınız... Əmimgil ABŞ-da yaşayırlar, bu yay əmim qızı sizin romanı 1-cə günə oxudu, gedənə kimi də ondan danışdı. Bu, onun Azərbaycan dilində oxuduğu ilk roman oldu.

**Vəfa Hüseynova**
*Azərbaycan Kooperasiya Universiteti*

■ «Bir ovuc torpaq» romanını ADNA-da terror zamanı vəfat edən gənclərə ithaf etməyiniz məni çox duyğulandırdı. Etiraf edim ki, roman oxuyan deyildim, amma bu kitab dəfələrlə qarşıma çıxıb və sanki, mənə: «Oxu məni», - deyirdi. Dəyərli kitabdır.

**Sənubər Abbasova**
*Avrasiya Universiteti*

■ Hər iki kitabınızı dayanmadan oxudum. Çox xoşbəxtəm ki, bu cür gözəl romanlardan çox böyük örnək götürdüm. Həyatı öyrəndim və bildim ki, hələ öyrəniləsi çox şeylər var imiş.

**Nərmin Aslanlı**
*Odlar Yurdu Universiteti*

■ Hər dəfə kitabınızı oxumaq istəyirdim, ancaq həcmi məni qorxudurdu. Çünki mənim irihəcmli nəsr oxumağa hövsələm çatmır. Amma, nəhayət ki, onu oxudum. Mən sizə heç cür başa sala bilmərəm ki, əsəriniz mənə necə təsir etdi. Hələ heç vaxt bu cür maraqlı bir əsər oxumamışdım...

**Fəridə Musayeva**
*Xəzər Universiteti*

■ Məni ikinci dəfə təəccübləndirdiniz. Əsərləriniz həcmcə, məzmunca roman olsa da, mən onları daha çox novellalara bənzədirəm, çox gözlənilməz sonluqla bitir onlar. İşlətdiyiniz bəzi cümlələr isə məşhur aforizmlərdən də dəyərlidir.

**Gülarə Cəbiyeva**
*Bakı Biznes Universiteti*

- Bu son vaxtlar çoxunun ağzından «Sonuncu ölən ümidlərdir» və «Bir ovuc torpaq» romanlarının adlarını eşidirdim. Nəhayət, mənə də onları oxumaq qismət oldu. Tam bir gün kitablar əlimdən düşmədi. Çox dəhşət yazmısınız.

**Kəmalə Xəlilova**
*İctimai-Siyasi Universitet*

- Romanın təsirindən heç cür ayrıla bilmirəm. Kiçik Zaurun igidlikləri, vətənpərvərliyi, Nigarın acı taleyi məni çox təsirləndirdi. İlk romanınız kimi bu da gənclərə dərsverici xarakter daşıyır. Həqiqətən də, kitab oxumağın vaxtı yetişdi.

**Nərmin Balakişiyeva**
*Azərbaycan Beynəlxalq Universiteti*

- Bu roman çox əvəzsizdir, həyatda mənə çox şeyi öyrətdiniz. Sağ olun ki, bu cür əsərlərlə gəncləri ayıq olmağa səsləyirsiniz. Biz oxuduqca vətənə, torpağa daha da bağlanırıq.

**Elnarə Cavadova**
*Təfəkkür Universiteti*

- «Bir ovuc torpağ»ı oxudum, mənə çox təsirli gəldi. Sağ olun ki, qaçqın həyatını əks etdirirsiniz. Zaurun öz kəndlərinə qayıtması yeri çox təsirlidir. Mən də onun yerində olmaq, uşaqlıqda gəzdiyim həyəti, yaşadığım evi yenidən görmək istərdim.

**Aynur Baxşəliyeva**
*Bakı Qızlar Universiteti*

- Bu kitabları yazan əlinizdən iki əlimlə sıxıb qəlbdən: - «Çox sağ olun!» - deyirəm. Nə yaxşı ki, varsınız. Nə yaxşı ki, kitablarınız var.

**Elşən Cəfərli**
*Naxçıvan Dövlət Universiteti*

- İnanın, bir günün içində oxuyub bitirdim. Sizə çox təşəkkür edirəm ki, bu qədər maraqlı roman yazmısınız.

**Vəsilə Əzizova**
*Naxçıvan Müəllimlər İnstitutu*

■ İlk kitabınızı oxuyandan sonra yenidən onun qədər təsirli bir əsər qarşıma çıxmayacaq deyə çox təəssüflənmişdim. İndi isə heyrətlə «Bir ovuc torpağ»ın səhifələrini dönə-dönə, təkrar vərəqləyirəm. Birnəfəsə oxuduğum bu əsərin hər səhifəsində bir həyat, bir yaşam fəlsəfəsi gördüm. Təsirləndirdiniz, duyğulandırdınz və eyni zamanda, düşündürdünüz.

**Bəxtiyar Ağayev**
*Sumqayıt Dövlət Universiteti*

■ «Bir ovuc torpağ»ı çox sevdik. Azərbaycan qəhrəmanlığının, igidliyinin təsviri çox gözəldir. Əminik ki, Zaur kimi oğullarımız çoxdur və torpaqlarımız tezliklə işğaldan azad olacaq.

**Gülnarə Rəhimova, Zeynəb Gəncəliyeva, Reyhan Aslanova**
*Sumqayıt Müəllimlər İnstitutu*

■ Kitabınızı bu gün oxudum qurtardım. Çox yaxşı kitabdır. Təəssüf ki, bütün sevgi əsərləri yaxşı başlayıb pis qurtarır.

**Məhbubə Nağıyeva**
*Gəncə Dövlət Universiteti*

■ Mən sizin «Bir ovuc torpaq» romanınızı dünən səhər oxumağa başladım, başqa heç bir işlə məşğul olmadan axşama oxuyub qurtardım. Axıra çatanda o qədər kövrəlmişdim ki... Çox maraqlı romandır.

**Vüsalə Əliyeva**
*Lənkəran Dövlət Universiteti*

■ Birinci kitabınız kimi bu kitabınız da məni çox təsirləndirdi. Diləyim budur ki, qələminizdən süzülən bu kitablar axırıncı yox, axarıncı olsun. Sizə pərəstiş edirəm ki, belə kitablar yazırsınız.

**Esmira Kazımova**
*Şamaxı Müəllimlər İnstitutu*

■ Bilsəniz ki, ilin-günün bu vədəsində 22 yaşlı bir tələbə otaq yoldaşlarına mane olmamaq üçün şam işığında, bir gecədəcə, nəfəs almadan, hıçqırtı səsini içində batıraraq, səhər erkəndən qalxıb praktikaya, sonra işə getməli olmasına baxmayaraq gecə saat 3-dək sizin müəllifi olduğunuz kitabı oxuyub, özünüzü necə hiss edərdiniz?

**Şəfa Hüseynova**
*Şəki Dövlət Uinversiteti*

- Romanınızı çox bəyəndim. Yazan əlləriniz, düşünən beyniniz yorulmasın. Birinci romanınızdan sonra hələ özümə gəlməmişdim ki, ikincisi çıxdı. Səbirsizliklə növbəti romanı gözləyirəm.

**Jalə Dursunova**
*Azərbaycan Dövlət Pedaqoji Kolleci*

- «Bir ovuc torpaq» romanı çox xoşuma gəldi. Sağ olun ki, biz oxuculara həyatı anladacaq, oxuduqlarımızdan ibrət alacaq və dərs götürə biləcək kitablar ərsəyə gətirmisiniz.

**Aygün Xəlilova**
*Azərbaycan Dövlət Rabitə və Nəqliyyat Kolleci*

- Mən kitab oxumuram. Lakin bacımın sayəsində hər iki kitabınızı oxudum və çox xoşuma gəldi. Dilin sadələyi məni cəlb etdi. Elə bil, mənim kimi tənbəllər üçün yazmısınız. Sonra başqa kitabları da oxumağa cəhd etdim, ancaq alınmadı. İndi səbirsizliklə üçüncü kitabınızı gözləyirəm. Axı siz mənim yeganə, sevimli yazıçımsınız.

**Esmira Abbasova**
*Bakı Maliyyə-İqtisad Kolleci*

- Yazan əlləriniz var olsun. Əla romandır! Çox bəyəndim. O qədər maraqlıdır ki, oxuduqca oxumaq istəyirəm.

**Gülnarə Quliyeva**
*Bakı Biznes və Kooperasiya Kolleci*

- Əsər məni tutdu, bəlkə də, inanmazsınız, amma mən bu sözləri yaza-yaza ağlayıram. Çox təsirli, mənə yaxın oldu əsəriniz. Siz dünyanın ən dəyərli mükafatına layiqsiniz.

**Nərmin Əhmədova**
*Bakı Mədəni-Maarif Kolleci*

- İlk kitabınızı oxuyanda elə fikirləşirdim ki, bundan yaxşısını yaza bilməzsiniz. Ancaq yanıldım. İkinci kitabınızı bir neçə saata oxudum. Həyatın əsl üzünü göstərən kitabların arasında bu, ən yaxşısı idi.

**Adilə Dadaşova**
*Bakı Sosial-İqtisad Kolleci*

■ Mən çox istəyirəm ki, əsərinizə kino çəkilsin. İndiki dövrün gənclərinin bu əsərə ehtiyacı var. Mənə insanların Qarabağa olan laqeydliyi çox toxunur. Sizdən xahiş edirəm, vətənpərvərlik ruhunda daha çox əsər yazın, qoy əsgərlikdən qaçan, şəhidlərimizə hörmətlə yanaşmayan bir çox cavanlarımız oxuyub utansınlar.

**Nigar Məmədova**
*Bakı Rəssamlıq Kolleci*

■ Romanlarınız məni çox təsirləndirdi. Hardasa həyat dərsi oldu. Neçə müddətdir, onları oxuyub bitirmişəm, amma hələ də təsirdəyəm.

**Savat Əsgərova**
*Bakı Kompüter Kolleci*

■ Mən «Bir ovuc torpaq» romanınızı oxudum və çox bəyəndim. Çox təsirli əsərdir. Belə maraqlı əsərləri tez-tez yazın. İnanıram ki, kitaba marağı olmayanlar da bu kitabları oxuyacaq.

**Afət Orucova**
*Bakı Texniki Kolleci*

■ «Bir ovuc torpaq» adlı kitabınızı oxudum, çox gözəldir. Düşünmədən, tam əminliklə onu deyə bilərəm ki, siz artıq mənim favorit yazıçımsınız.

**Zeybə Cəfərli**
*Bakı İdaretmə və Texnologiya Kolleci*

■ «Bir ovuc torpaq» romanını birnəfəsə oxuduq. Bu roman da digər romanınız kimi bizi çox təsirləndirdi. Böyük səbirsizliklə üçüncü kitabınızı gözləyirik.

**Günay Abbasova, Ülviyyə Babayeva, Şəfəq Binnətova**
*Bakı Sənaye-Pedaqoji Kolleci*

■ «Bir ovuc torpağ»ı oxumağa başlayanda «Sonuncu ölən ümidlərdir» kimi xoşuma gəlməz deyə düşünürdüm. Ancaq indi əminəm ki, sonrakı roman bunların hər ikisindən də maraqlı olacaq. Səbirsizlənirəm.

**Güllü Kərimova**
*1saylı Bakı Tibb Kolleci*

- Kitab oxumaq həyatımın ayrılmaz hissəsidir. Müdriklərdən biri söyləyib: «Hər dəfə kitab alıb oxuyanda, sanıram, yeni dostla tanış oluram və neçə il sonra açıb vərəqləyəndə, sanki, köhnə, itirdiyim dostumla rastlaşıb kəlmə kəsirəm». Amma mən hər dəfə sizin kitabınızı oxuyarkən heç vaxt itirməyəcəyim dost qazanıram.

**Dünya Həziyeva**
*2 saylı Bakı Tibb Kolleci*

- Romanınız o qədər maraqlı idi ki, bir gecəyə oxudum. Çox sağ olun ki, oxumaq istədiklərimizdən yazırsınız, kitab oxumayanların marağına səbəb olursunuz.

**Aysel Şükürova**
*Sumqayıt Musiqi Kolleci*

- Gənclər bu romanı oxumaqla yanaşı, həyatdan dərs də alırlar. Yazıçı onlara düzgün yol göstərir. Əsərə sevgi o qədər böyükdür ki, gənclər biləklərinə Zz tatuirovkası döydürürlər.

**Məryəm Aslanova**
*Sumqayıt Kimya-Texnologiya Kolleci*

- Bu yaxınlarda güclü stress keçirmişdim. Bu roman mənə çox təsir göstərdi, özümə gəlməyimə kömək etdi. Çoxdandır, belə roman oxumamışam. İnanın, çox köməyiniz dəydi mənə.

**Zülfiyyə Əliyeva**
*Sumqayıt Tibb Kolleci*

- Çox təsirli bir əsər idi. Üç gündür oxuduğum, hələ də romanla yaşayıram.

**Leyla İbrahimova**
*Mingəçevir Tibb Kolleci*

- İkinci kitabınızı səbirsizliklə gözləyirdim, nəhayət, onu ala bildim. Çox mükəmməl əsərdir. Dəyərli müəllifdən üçüncü kitabı səbirsizliklə gözləyirik.

**Nazilə Quliyeva**
*Naxçıvan Tibb Kolleci*

## *Məktəblilərdən*

- «Bir ovuc torpaq» əsərinə görə sizə dərin təşəkkürümü bildirirəm. Vətənimizin sizin kimi bir yazıçısı olduğuna görə çox sevinirik, sizinlə fəxr edirik.

**Ümid Daşdəmirov**
*Azərbaycanın Türk Diyanet Veqfi Liseyi*

- Hər iki kitabınızı böyük zövqlə oxudum və çox təsirləndim. Həqiqətən, çox gözəl nüanslara toxunmusunuz. Aforizmlər isə həddindən artıq maraqlı idi.

**Şəbnəm Qarayeva**
*Bakı, 212 saylı məktəb*

- Çox sağ olun ki, belə kitablar yazırsınız. Çox emosionaldır, adamı düşünməyə vadar edir. Düzü, mən inanmırdım ki, bizim yazıçılar bu cür romanlar yazar. Sadəcə, əməlli-başlı aludə olmuşam bu kitablara.

**Nərmin Şahlarova**
*Bakı, 9 saylı məktəb*

- Sözün düzü, çox təəccübləndim ki, müasir dövrdə bu cür yüksəksəviyyəli romanlar yaranır. Bəlkə, sizə qəribə gələr, amma mən səkkiz yaşından kitab oxuyuram. Bəzən televiziya verilişlərindən eşidirəm ki, heç kim kitab oxumur. Bu, mənim xətrimə dəyir.

**Babək Abbaszadə**
*Bakı, 158 saylı məktəb*

- Budur, artıq sizin ikinci kitabınızı da oxudum. Heç bilirsiniz, necə böyük tərbiyə verirsiniz biz oxuculara? İnsanları bir kitab kimi oxumaq mümkün olarsa, inanın ki, artıq siz bunu bacarmısınız.

**Səidə Rəşidli**
*Bakı, 258 saylı məktəb*

- Mən heç vaxt bir kitabı sona qədər oxuya bilməmişdim, amma «Bir ovuc torpağ»ı bir gecəyə bitirdim. Kitabı oxuyub qurtaran-

dan sonra bir neçə gün təsirindən çıxa bilmədim. İnanın, kitabı göz yaşları ilə oxumuşam.

**Könül Həsəni**
*Bakı, V.Əzizov adına 30 saylı məktəb*

- Sizin romanı səhnələşdirərkən mən Nigar rolunu oynamışdım. Mənim öz adım da Nigardır. Mən rolu ifa edəndə əsərin içinə o qədər girmişdim, əsərlə o qədər yaşayırdım ki, göz yaşlarımı saxlaya bilmirdim.

**Nigar Səfərli**
*Bakı, 190 saylı məktəb*

- «Açıq qapıların döyülməsinə sərf edilən vaxt insanın ən böyük vaxt itkisidir». Əsərdə bunun kimi nə qədər maraqlı fikirlər var. Doğrusu, kitabı ilk dəfə əlimə alanda həvəssiz idim. Amma indi deyim ki, əsər, doğrudan da, iki yuxusuz gecəmə və göz yaşlarıma dəyər. Çox sevinirəm ki, mənim ölkəmdə belə yazıçılar var.

**Rufana Hüseynzadə**
*Bakı, 245 saylı məktəb*

- Sonadək intizarda saxladı əsər məni. Onun sonunun necə olacağını təxmin belə edə bilmədim. Çox xoşuma gəldi.

**Səkinə Rəfili**
*Bakı Texniki-Humanitar Liseyi*

- Sizə belə gözəl romanlar yazdığınıza görə təşəkkür edirəm. Çox maraqlı, təsirli yazırsınız. Siz məni özünüzə çəkmisiniz.

**Pərviz Nəcəfli**
*Bakı, 66 saylı «Tərəqqi» Texniki-Humanitar Liseyi*

- Həyatın bütün mənfiliklərini özündə əks etdirən çox oxunaqlı romanlar yazmısınız. Mafiya Zaura böyük simpatiyam da yaranıb. Çox dürüst, mərd, qorxmaz biridir. Çox istərdim ki, indiki oğlanlar da onun kimi olsunlar.

**Leyla Fərəcova**
*Bakı, 214 saylı məktəb*

- Mən «Bir ovuc torpağ»ı oxudum, Zauru özümə ideal seçdim. Hamı mənə deyir ki, o kitabı oxuyandan dəyişmisən.

**Kənan Səlimoğlu**
*Bakı, 194 saylı məktəb*

- İlk dəfə idi ki, roman oxuyurdum. «Bir ovuc torpaq» əla romandır, ona heyran qaldım. Oxucuların rəğbətini qazanmısınız.

**Bəyim Məmmədova**
*Bakı, 91 saylı məktəb*

- Mən, adətən, dünya ədəbiyyatını oxuyuram. Əmim qızının məsləhəti ilə «Bir ovuc torpağ»ı iki günə oxudum. Çox maraqlı idi. Biz sizdən çoxlu belə romanlar istəyirik.

**Sara Məcidova**
*Bakı, 164 saylı məktəb*

- Kitabınızı böyük maraqla oxudum. Zaurla Nigarın hekayəsi məni çox duyğulandırdı.

**Səadət Cəbiyeva**
*Mingəçevir, 14 saylı məktəb*

- Salam. Romanınızı oxuyub çox təsirləndim. Bəzi hadisələrə olan münasibətim dəyişildi. Belə əsərlərə ehtiyacımız var.

**Səriyyə Abuzərli**
*Gəncə, 6 saylı məktəb*

- Birinci kitabınızı oxudum. Hələ özümə gəlməmişdim ki, ikincini də oxudum. Çox təsirləndirmisiniz məni.

**Sona Bədəlova**
*Sumqayıt İstedad Liseyi*

- Vaxt məhdudiyyətinin olmasına baxmayaraq gecəni yatmadan əsərlərinizi çox böyük maraq və həyəcanla mütaliə etdik. Biz gənclərə belə örnəkverici əsərlər təqdim etdiyinizə görə təşəkkür edirik.

**Ləman Hacızadə, Günel Əliyeva**
*Sumqayıt, 23 saylı məktəb*

- «Bir ovuc torpaq» əsərinizi oxudum, çox bəyəndim. Oxuduqca həyəcanlanır, növbəti səhifəni oxumaqçun tələsirdim.

**Fatimə Sərdarova**
*Sumqayıt, 10 saylı məktəb*

- «Sonuncu ölən ümidlərdir» kitabı kimi bu kitabınız da çox əladır. Mən onu oxuduqca özümü hadisələrin içində sanırdım. Elə gözəl sözlərlə yazmısınız ki, adamı heyran edir. Həyat çox qəribədir. Kimə gülür, kimə ağlayır.

**Əli Əliyev**
*Sumqayıt, 11 saylı məktəb*

- Sizin qızıl əllərlə yazdığınız bu kitab mənə çox təsir etdi. Romanınızla bütün sinfimiz, hətta müəllimlərimiz də tanışdır. Çox sağ olun ki, bu kimi romanları bizlərə təqdim edirsiniz.

**Səlimə Əmirova**
*Sumqayıt, 7 saylı məktəb*

*Və ən nəhayət...*

- Artıq 14 ildir ki, uşaq evində böyüyürəm. Heç kəs bilə bilməz ki, mən bu mesajı yazanda ürəyim necə çırpınır. Sizin romanınız uşaq evində yaşayan bütün qızların ən çox sevdiyi romana çevrilib. Bir həftə öncə kitab əlimizə düşüb, amma, elə bil ki, illərlə bu kitabı oxuyub doymuruq.

**Sizin kimsəsiz oxucunuz**
*Nizami rayonu, 1 saylı uşaq evi*

# 1-ci FƏSİL

Bəs niyə uçuram, tufandı, yeldi,
Vurğun küləklərmi qəddimi əyir?
Onun gözlərinə baxanda bildim
Məni ölüm qovur, əcəl girləyir.

*Vaqif Bəhmənli*

# PROLOQ

Bir dəfə qoca hindu nəvəsinə həyat həqiqətini başa salmaq üçün söyləyir:

- Hər bir insanın daxilində savaş gedir. Bu, sanki, iki canavar arasındakı savaşdır. Canavarlardan biri şəri: nifrəti, yalanı, paxıllığı, xəyanəti təmsil edir. O biri isə özündə xeyiri: sevgini, mehribançılığı, həqiqəti, düzlüyü daşıyır...

Balaca hindu babasının sözlərindən mütəəssir olaraq soruşur:

- Bəs sonda hansı canavar qalib gəlir?

Qoca hindu xeyli düşünüb, nəhayət, söyləyir:

- Sən hansı canavarı yemləyirsənsə, o da qalib gəlir!

## 0-cı HİSSƏ

- ... Mümkünsə də, öz sənətiniz barədə danışın.

- Çox paradoksaldır - impressionistlər hiss və həyəcanı kətana köçürməklə daha çox qəlb rəsmlərini ortaya qoyurdular. Onlar hər şeyi göründüyü kimi yox, özləri təsəvvür etdikləri, düşündükləri kimi çəkirdilər. Daha az detal, daha çox təəssürat... Daha az reallıq, daha çox utopiya... Və bu rəsmlərdə qəlblər ucdantutma dərdli, kədərli, bir növ, xəstə təsiri bağışlayırdı. Hətta ən nikbin adam belə bu rəsmlərə baxıb bədbinləşirdi...

- Axı niyə?

- Onlarçün qəlb - dərdlərin aynası xarakterini almışdı. Dərdləri kətana köçürməkçün isə yalnız palitralarındakı al-əlvan rənglərdən istifadə edirdilər. Bütün incəsənət növləri, ədəbiyyat və fəlsəfə dərdi-kədəri tünd rənglərlə təsvir etdiyi halda, impressionistlər bunu al-əlvan rənglərlə ifadə edirdilər. Hətta bədbəxtçiliyin ən epogey nöqtələri - xəstəlik, şikəstlik, ölüm belə sarı, bənövşəyi və mavi rənglərlə təsvir edilirdi... Hətta kütləvi qırğınlara səbəb olan zəlzələlər, müharibələr, epidemiyalar belə rəngbərəng idi... Əslində, düşünürəm ki, onlar bununla yası toy-bayram kimi qarşılamağı təlqin edirdilər...

- Sizcə, bu, hansı səbəbdən baş verirdi?

- Mən özlüyümdə onları həmişə asketlərə bənzədirəm. Dünyanın naz-nemətlərindən imtina edən asketizm tərəf-

darları həm maddiyyatı mənəviyyata qurban verməklə, həm də yaşadığımız real həyatı o biri dünya utopiyasına təslim etməklə hansı əqidəyə xidmət edirdilərsə, impressionistlər də xeyirə məxsus olan rəngləri şərə verməklə həmin o nəsnəyə xidmət edirdilər...

- Axı siz konkret olaraq özünüz barədə heç nə danışmadınız.

- Əslində, mən də insan qəlbini, insanın hiss və həyəcanlarını çəkməyə üstünlük verirəm. Mən orada həmişə cüzi də olsa, sevinc işartıları axtarıram. Ancaq özümdən asılı olmayaraq, bu sevinc işartılarını yalnız tünd boyalarla əks etdirirəm. Mənim palitramda al-əlvan rənglər, demək olar ki, istisna təşkil edir...

# 1-ci HİSSƏ

Səməd Vurğun bağının yanında, üzərinə «Reklam, dizayn» sözləri yazılmış birmərtəbəli binanın qarşısında dayanmışdı Gündüz. Telefonu da qulağında idi:

- Yox, ora yox. Ay Həmid, Bakını tamam yaddan çıxarmısan e. Aerokassanı keç də. Düz gəl, yolun solundadır. Çıxıb qabağında durmuşam. Üstünə «Reklam, dizayn» yazılıb…

… Taksi düz onun qarşısında dayandı. Həmid düşən kimi: - Oo, Mixaylo! - söyləyib ona tərəf addımladı.

Gündüz: - Yox, cənab Şults, mən Mixaylo deyiləm, mən rəssam Krausam, - deyərək Həmidi qucaqladı.

- Düz üç ildir ki, görüşmürük, rusiyalı olub getmisən, ay Həmid.

- Day demə. Ofisin buradır?

- Ofis deyəndə ki… İcarəyə götürmüşəm, dar, şəraitsiz yer də olsa, birtəhər emalatxana yaratmışam… Burda niyə durmuşuq, içəri keçək…

İçəri dar, yarımqaranlıq, rütubətli, həm də səliqə-sahmansız bir yer idi. Kiçik pəncərədən düşən günəş şüasının böyük bir hissəsini şüşənin kiri udduğundan, içərini işıqlandırmaq yalnız şüanın digər - kiçik hissəsinin payına düşürdü…

Ortada iri bir molbertdə üzərində yarıyadək hansısa bir şərq miniatürü çəkilmiş kətan qoyulmuşdu. Bir divar qabaq-qabağa qalaqlanmış və toz basmış şəkillərlə dolmuş-

du, digər divar boyunca isə müxtəlif ölçülü fırçalar, boyalar səliqəsiz düzülmüşdü. Küncdə köhnə, hay-hayı gedib, vay-vayı qalmış, rəngi belə seçilməyən divan var idi. Qarşısındakı bir ayağı sınıq jurnal masasının üstündə kirli stəkan-nəlbəki, içində bir-iki karamel olan qəndqabı və ağzınadək siqaret kötüyü ilə dolu külqabı var idi.

Gündüz üzrxahlıq elədi:

- Sən Allah bağışla, bura bir az səliqəsizdir. Üç-dörd aydır ki, götürmüşəm. Tanış adamdır, icarə pulunu tələsdirmir.

Divanın üstünü çırpdı:

- Əyləş.

Həmid yaxınlaşıb kətandakı yarımçıq rəsmə baxdı:

- Deməli, zəmanəmizin böyük rəssamı burada yaradır.

Gündüz də gəlib onun yanında dayandı:

- Sən elə demə, sən deginən ki, zəmanənin it dəftərində də adı olmayan rəssamı…

Həmid gah sağa, gah sola keçib, gah başını yaxınlaşdırıb, gah da uzaqlaşdırıb rəsmə baxmaqda idi.

- Bu, nədir belə, yaratmısan? Min bir gecə kitabındakı şəkillərə bənzəyir.

Sifətinə gülüş qondu:

- Yadında, doqquzuncuda oxuyanda o kitab əlimizə keçmişdi? Necə oxuyurduq… Xüsusən bəzi nesenzurnı yerlərini…

Gündüz köks ötürdü:

- Bu, Nizami Gəncəvinin Sirlər xəzinəsi poemasına çəkdiyim illüstrasiyadır. Yağlı boya ilə çəkirəm. Sən bir mazoklara fikir ver. Hər mazokda bir fəlsəfi ifadə var…

Həmid gözlərini əsərdən çəkməyərək söylədi:

- Gündüz, elə bil, rəngdən kasaddır e. Ağ, qara, boz...

- Bu, mənim stilimdir.

- Ay sağ olmuş, vur rənglərdən bura, rəngbərəng, gözəl olsun. Tembole Nizami Gəncəvini çəkirsən... Srednevekovyedə axı hər şey rəngli olub...

Gündüz:

- Ancaq indi hər şey ağ-qaradır, - deyərək keçib çay tədarükünə başladı:

- Bir çay hazırlayım, içək. Haçan gəlmisən?

Həmid divar boyu yığılmış rəsmləri çıxarıb, tozlarını çırpa-çırpa onlara baxmaqda idi.

- Bir aydan bir az artıqdır gəldiyim.

Gündüz təəccübləndi:

- Bir aydan artıq? Bəs məni niyə indi gəlib görürsən?

- Bağda qalırdıq. Mamagil hər yay ora köçürlər axı. Bir ay orada dincəldim, sonra qayıtdım Urala. Mama çağırdı ki, bəs gəl, sənə toy edirəm, mən də dostum İqbalı götürüb təzədən gəldim.

Gündüz elektrik çaydanını cərəyana qoşub Həmidə yaxınlaşdı:

- Doğrudan, evlənirsən?

Həmid güldü:

- Ay kişi, vsyo, bu axşam məhlədə toy axşamıdır, sabah da toy. Hər şeyi reşat eləmişik.

- Qızı anan tapıb, yəqin. Kimlərdəndir?

- Rəhmətlik kişinin qohumlarındandır.

Gündüz rəsmləri çıxarıb baxmaqda Həmidə kömək edə-edə köks ötürdü:

- Otuz bir yaşın var e. Vaxtında evlənsəydin, uşaqların mənimkilər kimi yeddi - səkkiz yaşında olardı.

Həmid ona tərəf çevrildi:

- Sən, guya, evlənmisən, əlin bala batıb? Haçan görüşürük, ailəndən şikayətlənirsən.

Çaydan qaynayırdı. Gündüz çevrilib jurnal masasına yaxınlaşdı. İri fincana quru çay töküb çay dəmlədi... Stəkanlara çay süzdü. Bir siqaret yandırıb divana əyləşdi, Həmidi çağırdı:

- Gəl, çay vuraq.

Həmid də gəlib əyləşdi:

- Sən vsyo taki başqa rənglərdən də istifadə elə. Adam rəsm əsərinə baxanda sevinməlidir. Səninkilərə baxanda isə nəsə bir dilxorçuluq gəlir adama.

Gündüz çayı soyumağa qoymadan iri qurtumlarla içə-içə söylədi:

- Həmid, mən ailəmdən bilirsən, niyə şikayətlənirəm? Ülkər də, uşaqlar da ancaq yaxşı günün ailəsidirlər. Mənim pulum var, onların ehtiyaclarını ödəyirəm, onda yaxşıyam. Pal-paltar aldın, yaxşısan. Ət aldın, meyvə, şirniyyat aldın, yaxşısan. Məktəbdən pul yığırlar, verdin, yaxşısan. Ancaq başqa vaxtlar... Kirayə evdə qalırıq deyə pisəm, yayda onları heç yerə apara bilmirəm, pisəm, kimlərdənsə əskik geyinirlər, kimlərdənsə az yeyirlər, yenə pisəm. Mən ailəmə inanmıram. Adamı beş qəpiyə satarlar.

Həmid çayın soyuduğunu görüb içməyə başladı:

- Bəs neynəsinlər?! Onlar da yaxşı dolanmaq istəyir də. Axı insan dünyaya bir dəfə gəlir.

Kağızını açıb karamelə xeyli göz gəzdirdi, sonra onu kağızına büküb yerinə qoydu, çayı elə-belə içdi:

- Gündüz, sənə neçə dəfə demişəm, gəl yanıma, Rossiyaya?! Qipermarketdə otdellərin birini verim, işlət. İqballa da razılaşdırmışam.

- Mən axı rəssamam. Mən impressionizmin müasir dövrdə yeganə ardıcıl davamçısıyam. Monenin, Renuarın, Sezannın, Robenin yolunu davam etdirirəm, başa düşürsən? Mən ətraf dünyanı, həyatı tam hərəkəti və dəyişkənliyi ilə verərkən, özümün dərhal yaranan ani təsəvvürlərimi də əks etdirməyi bacarıram. Mən dahi Nizaminin ölməz Xəmsəsinin indiyənədək açılmayan dərinliklərini, sirlərini kətan üzərinə köçürürəm. İnan, bu şedevrlərin misilsiz qiyməti var.

Həmid divandakı yerini rahatladı:

- Kimə lazımdır axı bu şedevrlər? Acından günorta durursan e.

Gündüz bir siqaretin oduna digərini yandırdı:

- Mən adamlarla görüşürəm. Sponsorlar axtarıram. Biz Avropaya çıxacaq, dünyanı fəth edəcəyik. Biz öz dahi Nizamimizi bir daha kainata tanıtdıracağıq.

Həmidin mobil telefonu zəng çaldı. Zəngin qəbulu düyməsini basmamışdan öncə Gündüzü tam məyus etdi:

- Sən üç il, beş il qabaq da belə meçtat eləyə-eləyə yaşayırdın. Meçtat eləmək sənin tragediyandır.

Sonra zəngə cavab verdi:

- Hə, İqbal, eşidirəm... Sənə haqqında danışmışdım e, sinif yodaşım, rəssam, onun yanındayam... Heç, elə-belə söhbətləşirik... Mama narahatdır? Gəlirəm də, deynən, indi gəlir... Yaxşı, oldu.

Həmid ayağa durdu, portmanatını açıb ordan beş dənə yüzlük dollar çıxarıb jurnal masasının üstünə qoydu:

- Get, uşaqlara yaxşı əyin-baş al, bazarlıq elə.

Gündüz pulları götürüb onun cibinə basdı:

- Heç sənin ovaxtkı borcunu qaytarmamışam. Vallah imkan düşən kimi qaytaracam...

Həmid nə qədər elədisə, pulu ona verə bilmədi:

- Nə borc qaytarmaq, biz dostuq. Ehtiyacın var, verirəm. Biznesmen adamam, məndə pul çoxdur.

- Yox, Həmid. Ömürlük üzünə baxmaram. Mənim maddidən çox, mənəvi dəstəyə ehtiyacım var.

... Qapıdan çıxanda Gündüz: - Bir dəqiqə ayaq saxla, - söyləyib geri qayıtdı, axtarıb lap arxa cərgədən bir rəsm əsərini çıxartdı, gətirib Həmidə uzatdı:

- Toyuna yazılmağa pulum yoxdur, qoy bu, sənə hədiyyəm olsun.

Həmid tozlu rəsm əsərini barmaqlarının ucu ilə götürüb tamaşa etdi. Təbiət mənzərəsi idi. Şər qarışmışdı. Meşəli dağ, səma, dağ şəlaləsi - hamısı tünd rənglərin içində, sanki, boğulurdu. Sal daşın üstündə rəngi öləziyən bir şam yandırmışdılar...

Həmid: - Hədiyyən üçün çox sağ ol, sabah səni gözləyəcəm, - deyib Gündüzdən ayrıldı, taksi axtarmağa başladı... Düşündü ki, illər ötüb keçir, ancaq bu Gündüz dəyişmir ki, dəyişmir. Bir yolu tutub dalınca getməkdədir, kənardan görünür ki, bu yol mənzil başına aparmayacaq. Onun gözləri isə, sanki, yumuludur. Getməyindədir. Get, görək haracan gedəcəksən...

... Az keçmiş taksi ilə evə gəlirdi. Gündüzün bağışladığı rəsm əsərini arxa oturacağa qoymuşdu, özü isə irəlidə, ağsaqqal sürücünün yanında əyləşmişdi.

Pəncərədən sürətlə bir-birini əvəz edən mənzərələrə göz qoymaqda idi:

- Bakı yaman dəyişib e...

Sürücü, sanki, onun səsindən diksindi:

- Burada yox idin ki?

- Yox, Rossiyada yaşayıram, Uralda.

Sürücü qarşıdakı yük maşınını sağdan keçərək dedi:

- Hə, bizimkilər Urusetdə çoxdur. Mənim bacınəvələrim də ordadır. Kiyevdə.

Həmid gülümsədi:

- Kiyev Ukraynadır, Rossiya deyil.

Sürücü ona tərəf qanrıldı:

- Qərdeş, bura deyil, demək, Urusetdir də. Biz oraların hamısına Uruset deməyə alışmışıq.

Gündüzün emalatxanası, onun arıq, uzun, almacıqları çıxmış sifəti, altı qapqara qaralmış solğun gözləri, danışıq tərzi və çəkdiyi rəsmlər gözünün qabağından getmirdi.

- Dayday, dünyagörmüş adamsan, səncə, həyatı necə varsa, elə görmək lazımdır, yoxsa necə təsəvvür edirsənsə, elə?

Sürücü düşünmədən cavab verdi:

- Qərdeş, bu həyat ki var, çox zatıqırıq bir şeydir. Ancaq onu necə varsa, elə də görmək məsləhətdir. Özlüyündə onu ha bəzəyib-düzəsən də, o, düzələn köpəkoğlu deyil...

... Mikrorayonda, «Azuqə» marketinin yanında Həmid taksidən düşüb binalarına tərəf addımladı. Gündüzün hədiyyəsini isə unudub taksidə qoydu...

## 2-ci HİSSƏ

Avqustun bir neçə gün öncəki cəhənnəm istisindən əsər-əlamət belə qalmamışdı. Günəş buludların arxasında gizlənmişdi. Sərin külək əsirdi...

Dörd həyətin tən ortasında yerləşən xeyir-şər tikilisindən səs-küy, gülüş sədaları gəlirdi. Abbasovlar ailəsi toya hazırlaşırdı. Ailənin xanımı Mələk o qədər xoşbəxt idi ki. Həm də qayğılı idi. Axı zarafat deyildi, bu, övladlarının ilk xeyir işi idi. Onu elə keçirmək lazım idi ki, hamı razı qalsın...

Həyat yoldaşı Sübhanı çox erkən itirdikdən sonra yalnız qayğı, əzab-əziyyət görmüşdü Mələk. Saçlarının birini ağ, birini qara hörüb bir cüt balasını - Həmidlə Gülgəzi böyüdüb boya-başa çatdırmışdı. Neft və qazçıxarma idarəsində, əslində, kişilər çalışan ağır operator işində çalışmış, balalarını sıxıntı çəkməyə qoymamışdı... Uşaqlar da analarının bu fədakarlığını layiqincə qiymətləndirmişdilər. Onlar tərbiyəli böyümüş, həm də dərs əlaçısı olmuşdular...

Məktəbi qurtardıqdan sonra Həmid Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin tələbəsi olmaq arzusu ilə test imtahanı verdi, ancaq az bal topladığından arzusunu reallaşdıra bilmədi. Bu uğursuzluğu ailənin hər üç üzvü ağır yaşadı. Sonra Həmid hərbi xidmətə çağırıldı, Murovda - ön cəbhədə vətənin keşiyində dayandı.

Hərbi xidmətdən sonra növbəti dəfə ali məktəbə qəbul olunmaq üçün özünü sınadı. Yenə də alınmadı...

Onunla hərbi xidmət çəkmiş İqbalın atası Məiş kişi Uralda - Yekaterinburqda işləyirdi. İqballa əsgərlikdə möhkəm dost olmuşdular. Eşidəndə ki, İqbal Yekaterinburqa getməyə hazırlaşır, dərhal qərar qəbul etdi ki, ona qoşulub getsin. İqballa danışdıqdan sonra böyük çətinliklə anasına və bacısına Bakıda heç bir perspektivi olmadığını başa salıb getməyə icazə aldı. Həmid ilk imtahan ilindəcə Ural Politexnik İnstitutuna daxil oldu, oranı müvəffəqiyyətlə oxudu. İqbalsa ali məktəbə daxil ola bilmədiyindən atasının yanında - bazarda al-ver etməyə başladı, bir müddət araları soyuq oldu.

Mələk qürbətdəki oğlunun xiffət çəkməməsi, yetimçilik hiss etməməsi üçün aybaay dolanışıqlarından kəsib ona pul yolladı...

Həmid institutu qurtaran kimi kooperasiya hərəkatına qoşulmağa qərar verdi. «Tək əldən səs çıxmaz» məsəlini əsas götürərək İqbala şərikli iş qurmaq təklifi verdi. Yekaterinburqda başqa yaxını olmadığından, başqa seçimi də yox idi.

Ali məktəbə girə bilmədiyi üçün atasına, guya, müəllimlərin başqa millətdən olduğu səbəbindən ona qarşı ayrı-seçkilik etməsini söyləyən İqbal fakt qarşısında qalmışdı, çünki atası: «Bəs niyə Həmid qəbul olundu?» - deyərək onu yamanlamışdı. Bu səbəbdən o, düz 4 il Həmidi öz yaxınına buraxmamışdı. Ancaq şərikli iş təklifinə dərhal müsbət cavab verdi. Həmidin ağlına və qabiliyyətinə arxayın idi.

Tezliklə onlar «Azəri» kiçik müəssisəsini yaratdılar. Yollara asfalt örtüyü çəkməklə məşğul olan bu müəssisə qısa zamanda şəriklərə yaxşı qazanc gətirməyə başladı.

Məşhur iş adamlarının həyatını oxumağa həmişə meyilli olan Həmid onların ən müsbət keyfiyyətlərini, nədən və necə başlamalarını beyninə yazırdı. Hələ məktəbdə oxuyanda Rusiyada böyük pullar qazanan azərbaycanlı iş adamı Yelmar Məmmədov haqqında yazıları izləmişdi, onun: «Pul adamın yanınca gedir, sadəcə, onu görüb, götürmək lazımdır», - cümlələrini əzbərləmişdi. Binalara dam örtüyü vurmaqla milyonlar qazanan Yelmar Məmmədovun: «Rusiya əyalətlərində yerli kişilər daha çox yüngül işlərə, habelə əyləncəyə meyil etdiklərindən, gənclər isə mərkəzə qaçdıqlarından, burada ağır zəhmət tələb edən sahələr, demək olar ki, inkişaf etmir», - söyləməsi Həmidə biznes qurmaqda bir bələdçi oldu. Məşhur həmyerlisinin «dam örtüyü» sahəsini Həmid Uralda daha çox ehtiyac duyulan «yolların asfaltlanması» ilə əvəzlədi... Tezliklə şəriklər o qədər sifariş aldılar ki, regionun daha iki iri şəhərində - Ufada və Çelyabinskdə filiallar yaratmağa məcbur oldular.

Həmidin ilk qazancından olan pullar Mələyə gəlib çatanda, o, hönkür-hönkür ağladı. Doğrudan da, qatlaşdığı əzab-əziyyət, maddi sıxıntı qadını lap üzmüşdü... Xüsusilə də qızı Gülgəzi ehtiyac ucundan toysuz-filansız, cehizsiz köçürmək Mələyə ağır təsir etmişdi...

1999-cu ildən - Həmidin əli gətirəndən Abbasovlar ailəsi çox şeyə nail oldu. Həmid Yekaterinburqun mərkəzində - Malışev küçəsində ikiotaqlı mənzil aldı. Bir qədər sonra Verxnyaya Pişmadan 10 sot sahəsi olan həyət evi də aldı.

Bakıda - 6-cı mikrorayonda üçotaqlı əla təmirli bir mənzil alıb anasını Günəşlidəki şəraitsiz mənzildən ora köçürdü.

Novxanı bağ massivində, dənizin 100 metrliyində əla bir həyət evi də aldı. 6-cı mikrorayondakı mənzillərini hər cür mebellə doldurdu, ən əntiq əşyalarla, bahalı çilçıraqla, qab-qacaqla, zinət şeyləri ilə anasını sevindirməyə çalışdı. Elə o vaxtdan da hər dəfə Bakıya gələndə anası Həmidi dilə tuturdu ki, bəs evlən, vaxtdır...

Hər dəfə Həmid gələnə kimi o, fotolar kolleksiyası toplayır, bir-bir fotolardakı tanış qızları ona tərifləyir, bəyəndirməyə çalışırdı. Ya da fürsət düşən kimi onu hansısa qohumlarıgilə aparıb qohumun qızlarına baxmağın lazımlığını him-cimlə qandırırdı. Xeyir iş olanda isə Mələk lap dəridən-qabıqdan çıxırdı ki, məclisdəki qonum-qonşudan, qohum-əqrəbadan, tanış-bilişdən bir qız bəyəndirsin ona.

İnsafən, həyətdə, qohumlar arasında kimin yetkinlik yaşına çatmış qızı var idisə, can-dildən çalışırdı ki, Həmidi ələ keçirsin. Zarafat deyil, artıq Həmid bütün məhəllənin barmaqla göstəriləsi imkanlı şəxsi idi... Di gəl ki, Həmid daş atıb başını altına tutmuşdu, heç kəsi bəyənmirdi... Yaş otuz biri haqlasa da, o, evlənməyə tələsmirdi... Ancaq...

Bu yay düz biraylıq gəlmişdi Bakıya. Dəniz mövsümünü qaçırmaq istəmirdi. İyulun 12-dən avqustun 11-dək bağda dincəldilər. Mələk bişirib-düşürdü, vətən yeməklərinə tamarzı qalan oğluna yemək sarıdan korluq vermədi. Həmid isə çimdi, qaraldı - bir sözlə, yaxşı dincəldi. Elə həmin bağ günlərinin birində gözlənilmədən Ucar rayonundan qonaqları gəldi. Mələk qarabağlı, rəhmətlik Süb-

han isə əslən ucarlı idi. Orada indinin özündə Sübhanın bir xeyli qohum-əqrəbası yaşayırdı. Gələnlər Sübhanın bibisi qızı Zərrinlə qızı Səbinə idi. Soraqlaşıb birtəhər bağ evini tapmışdılar, gətirdikləri kənd azuqələri ilə dolu səbətləri darvazanın ağzına qoyub nəfəslərini dərirdilər. Bir tərəfdən də, gün yazıqları təntitmişdi...

Rayondakı bütün qohum-əqrəba Mələyin oğlunu evləndirmək planından xəbərdar idi. Zərrin də fürsət düşmüşkən qızı Səbinəni Həmidə göstərmək qərarına gəlmişdi. Düzdür, əri Kamrana və oğulları Cavidlə Camala bu barədə heç nə deməmişdi. Ərinin xasiyyəti ağır idi. O, Zərrini düzgün başa düşməzdi. Oğulları isə çox dəliqanlı idilər. Bacılarının kiminçünsə təklif olunması onları əsdiribcoşdurardı...

Zərrin eləcə Mələyi yoluxmaq istədiyini ərinə söylədi, o da uzun çək-çevirdən sonra axır ki, arvadının getməyinə razılıq verdi. Ona oğullarından birini qoşmaq istədi. Ancaq Zərrin Mələyin - tək yaşayan qadının kişi xeylağının gəlişindən narahatçılıq duyacağını bəhanə etdi...

Həmid çimməkdən qayıdırdı. Darvazalarının qarşısında iri səbətli bir qadını və qızı görcək əvvəl onların səhv gəldiklərini zənn etdi. Yaxınlaşıb kimi axtardıqlarını soruşdu. Zərrin «Boyuva qurban olum, ay Sübhanımın tək yadigarı» deyib onun üstünə atıldı. Sonra kim olduğunu yerli-yataqlı Həmidə danışdı. Həyətə keçəndə Həmid səbətləri götürməkdə qonaqlara kömək etdi. Anasını harayladı. Səbinə qara, uzun paltar geyinmişdi. Özü də qarabuğdayı idi. Kəndçisayağı geyimində nə isə bir adamıçəkən cəhət var idi ki, bu cəhətin nə olduğunu Həmid heç

anlaya bilmirdi... Nəyə görəsə Səbinə olduqca suyuşirin göründü ona. Və hər dəfə də o, gözünü Səbinəyə dikəndə yazıq qız qıpqırmızı qızarırdı... Axşama yaxın Həmid anasının qulağına pıçıldadı:

- Bu qızı almaq olar.

Vəssalam. 3 gündən sonra o, Rusiyaya qayıtdı. Bir həftə bundan əvvəl anası telefonla ona xəbər çatdırdı ki, bəs qızın «hə»sini almışam, tez özünü çatdır, nişan qoyaq... Həmid anasının bu cür ildırım sürəti ilə hərəkət edəcəyini yuxusuna belə gətirməzdi. Cəld İqbalı da götürüb uçub gəldi. Dərhal qıza nişan apardılar. Sabah «Mona Liza»da toyları olacaqdı. Bu gün isə həyətdəki xeyir-şər evində toya hazırlıq görülürdü.

Qız-gəlinlər xüsusi şirniyyat hazırlayırdılar. Mələk şirniyyat ustası kimi də tanınırdı. Odur ki, o, məclisin şirniyyatını heç kimə etibar etmədi. Əhd eləmişdi, oğlunun toyunda hər toya gələnə bir şəkərbura, bir badambura, bir paxlava - üç cür biş-düş edəcək... Qadınlar deyirdilər ki, ay Mələk, axı toyda, özü də «Mona Liza»dakı toyda hər cür soyuq və isti yemək olur, adamlar bəsdir deyincəyə qədər yeyirlər, kimdir axı şirniyyata maraq göstərən? Ancaq Mələk öz dediyindən dönmürdü. Toya 350 nəfər dəvət edilmişdi. İndi gör Mələk nə boyda şirniyyat hazırlamalıydı... Bacısı, bacısının gəlini, habelə 6 qonşu qadın və 4 qız Mələyə kömək edirdilər...

Un ələyən, xəmir yoğuran kim, yağ əridən, qoz-fındıq təmizləyən kim...

Həmid gəlib yenə qadınlara baş çəkdi. Vurhavur işləyən anasına baxıb başını buladı:

- Ay ma, özünə iş tapdın da.

Bayaqdan bəri bir neçə dəfə bu sözləri demişdi, hər dəfə də anası ərinmədən onun cavabını vermişdi:

- Ay bala, sənə dedim əhd eləmişəm. Əhdimi pozmayacam ki...

Hava sərin olsa da, içəri yaman isti idi. Həmid çıxmaq istəyəndə gözü əyilib yerə tökülmüş unu süpürməkdə olan qıza sataşdı. Qız dizdən bir qarış yuxarı paltar geyinmişdi. Əyili vəziyyətdə onun ayaqları o qədər yaraşıqlı görünürdü ki... Həmid heç cür gözünü qızdan çəkə bilmirdi...

- Əminə, qızım, gəl buranı da süpür.

Qadınlardan kimsə qızı səslədi, o dikəldi, qadına tərəf boylandı, «Gəlirəm» dedi. Və maraqla gözünü ona zilləyən Həmidə baxıb gülümsədi. Sən demə, Əminənin təkcə ayaqları yox, bənizi də gözəl idi. Qıvrılmış saçları isə sinəsinə tökülərək ona ikiqat yaraşıq verirdi... Həmid də ona gülümsədi. Sonra həyətə çıxdı.

Öz-özünə «Lənət sənə, kor şeytan» dedi. Səmaya baxdı, buludları seyr etdi, ətraf binalara baxdı... Yox, sirli bir qüvvə onu içəri çəkirdi. İşə bir bax, 31 yaşın olsun, hələ heç bir qız səni bu qədər cəlb eləməsin... İçəri qayıtdı. Əminə yeri süpürməkdə idi. Həmid yenə gözlərini onun ayaqlarına dikdi, baxışları ilə qızın paltarlarını bir az da yuxarı dartdı. Xəyalən onu qucaqladı, ehtiraslı öpüşlərə qərq etdi...

Əminə duydu ki, kimsə gözünü ona zilləyib. Çevrildi, Həmidi gördü. Dikəldi, saçlarını gözünün üstündən çəkib yenə ona gülümsədi... Həmid içəridəkilərin şübhələnə biləcəklərini ağlına gətirib özünü yığışdırdı.

Yenə toyxanadan çıxdı. Ancaq tezcə də ora qayıdıb anasını səslədi:

- Mama, bir dəqiqə səni olar?

Mələk ona yaxınlaşdı:

- Nədir, canım-gözüm?

- İşlər gedir?

- Gedir.

Ağlına gələn boş-boş sözləri söylədi anasına:

- Mama, gəlini gətirib qoymuşuq xalagilə. Bu, düzgün deyil axı. Gəlini, gərək, öz evindən gətirəsən.

Mələk gülümsədi:

- Bunu kim sənə dedi? Hamı belə eləyir, ay bala. Toy günü gedib Ucardan gəlinmi gətirmək olar? Ucar, az qala, dünyanın o biri başındadır...

Həmid çiyinlərini çəkdi. Anası onu arxayın edib qadınlara yaxınlaşmaq istəyəndə Həmid bir də onu səslədi, Əminəni göstərib pıçıltı ilə soruşdu:

- Ay ma, o qız qohumlardandır?

Anası narazılıqla oğluna baxıb başını buladı:

- Yox, qonşudur.

Həmid yenə həyətə çıxdı. Yox, heç cür qərar tuta bilmirdi. Siqaret yandırdı. Yuxarı - evə qalxdı. İqbal kresloda oturub peyk kanalında savaş filminə baxırdı. İki dəstə bir-birlərini qırırdılar.

- Nə kinosudur?

Həmid soruşdu. Ancaq İqbal ona məhəl qoymur, dəmir qutudan soyuq «Miller» pivəsini içə-içə maraqla filmə baxırdı, emosiyalarını da saxlaya bilmirdi:

- Ala, vur. Bax, elə. Gözünə dönüm. Onu da vur. Təpiklə. Ala, görürsən, yumruq kar eləmir, təpiklə vur da...

Həmid onu silkələdi:

- Ey, qospadin İqbal Mamedov, tarmazni (Cənab İqbal Məmmədov, ara ver)!

İqbal ona tərəf baxdı:

- Gəldin?

Dərhal da onu sual atəşinə tutdu:

- Mona Lizanın administratoruna zəng elədin? Deyirlər, osetrin tapmaqda porblemləri var. Ofisdən necə, xəbər tuta bildin? Vera Pavlovna demişdi, Həmid mənimlə əlaqə saxlasın. O rəssamın yanında nə işin var idi? Portretini zakaz eləyirdin?

Ekranda cərəyan edən hadisələr yenidən İqbalı özünə tərəf çəkdi. İndi maşınlar bir-birini təqib edirdilər. Əyləclərin tükürpədici səsi, güllə səsləri, qışqırtılar...

Birdən Həmid ekranın qarşısını kəsib İqbala sual verdi:

- İnsan ilk baxışda vurula bilər?

Əminə onun gözlərinin qarşısından getmirdi. Əyilmişdi, şumal, düppədüz ayaqları parıldayırdı. Sonra dikəldi, saçlarını üzündən yığışdırıb gülümsədi...

İqbal cavab vermək əvəzinə durub onu kənara itələdi, filmə baxmağını davam etdirdi. Həmid rusca:

- Mne bı tvoi problemı (Mən nə hayda, sən nə hayda), - deyib yenidən həyətə düşdü. Bir qədər var-gəl elədi. Yox, Əminə onu çəkirdi. Heç bir qüvvə tutub saxlayammazdı Həmidi...

Yenə də toyxanaya girdi. Elə bil, onun gəlişini gözləyirdi Əminə. Qovrulmuş fındığın qabığını təmizləyirdi, iri gözlərini maraq dolu baxışlarla Həmidə zilləmişdi... Durdu, Həmidin yanından keçib həyətə çıxdı. Həmid heç nəyin fərqinə varmadan onun ardınca yollandı. Qapının ağzında duran Əminə Həmidi görcək gülümsədi:

- Yaman istiləndim, içəri, elə bil, təndirdir, - dedi.

Həmid onun bir addımlığında durmuşdu, bədəni uçunurdu. Nəsə bir söz demək istəyirdi, ancaq alınmırdı. Dili söz tutmurdu. Əminə işvəli baxışları ilə xeyli Həmidi süzdü:

- Gedim, işimiz çoxdur, sonra şirniyyatı çatdırammarıq, bəyimiz bizdən inciyər, - deyib getdi.

Həmid bir daha anasını səslədi. Anası yaxınlaşan kimi pıçıltı ilə soruşdu:

- Ay ma, kimdir axı o qız?

Anası başını buladı:

- Həmid, ayıbdır, sabah toyundur. Sənə yaraşmaz xalxın qız-gəlininə baxmaq. Heç subay vaxtı belə eləməzdin...

Həmid onun sözünü kəsdi:

- Xoşum gəlir ondan. Məndə heç vaxt belə şey olmayıb. Özüm də heç bilmirəm...

Azacıq susduqdan sonra bayaqkı sualını təkrarladı:

- Kimdir, o?

Mələk həvəssiz cavab verdi:

- İki blok o yanda qalır. Suqranın kiçik qızıdır, uşaqdır, on yeddi yaşı var. Özü də...

Həmid səbirsizliklə soruşdu:

- Nə özü də?

Mələk içini çəkdi:

- Anasını, bacısını yaxşı söyləmirlər. Deyirlər ki, ikisi də gəzəyəndir. Ağlını başına yığ, ay bala, başımıza iş açma.

## 3-cü HİSSƏ

«Yox, bu detal Deqada olub. Ya da Qrabarda. Bəlkə də, Trubetskoyda. Ancaq yüz faiz kimdəsə olub... Kompozisiyanın açıqlığı, işıq, sıravi əşyaların təsviri və hərəkətin illüziyası... Ah, əlbəttə ki, Renuar. Oqyust Renuar. Əfsanəvi fransız impressionisti. Üzlərində iç dünyalarının əksi verilmiş insan portretləri qalereyası... «Mülen de la Qaletdə rəqslər» əsəri... Hamı sevinc içində, üzlərində təbəssüm rəqs edir... Ancaq hamının içindəki kədər gözündə əks olunub. Hətta süfrə arxasında spirtli içki içən gənclər də, hətta imkanlı madmuazellər də kədər içindədirlər... Deməк, bunu işləməyə dəyməz...»

Fırçanı əsəbi halda yerə atdı. Molbertdəki üstünə qələmlə eskiz çəkdiyi kətanı da otağın o biri küncünə tolazladı.

Bayaq Həmid gəlib gedəndən sonra beyninə belə bir rəsm çəkmək ideyası girmişdi: Toy evində hamı, eləcə də bəylə gəlin rəqs edir, gülür, şənlənirlər... Ancaq hamının gözünün dərinliyində kədər var...

Gündüzün aləmində insanlar dərdi içində çəkənlərə və dərdi dilinə gətirənlərə bölünürdü. Birincilər dərdin yükünü ürəklərində saxlamaqla özlərini məhv edirdilər. İkincilər isə dərdlərini başqaları ilə bölüşür, onları azacıq qayğılandırmaqla öz dərd yüklərini xeyli azaldırdılar...

Bəs toyda, axı nəyə görə hamının gözündə kədər olmalıydı? Çünki bəzən ağrıları kəsiləndə və ağrısızlıq şəraitində belə, insan yeni ağrıların qorxusu ilə yaşayır...

Bunları düşünüb yeni yaranacaq əsərinin eskizini də çəkmişdi. Ancaq nə isə beynini məşğul edir, onu işdən soyudurdu... Oqyust Renuar. Deməк, təqribən 130-140 il öncə o kişi məhz belə bir səhnəni kətanın yaddaşına köçürübmüş... Heyif. Əla bir tablo alınacaqdı. Doğrudan da, demə, dünyada yeni heç bir şey etmək mümkün deyilmiş. Yeni yaranan hər şey unudulmuş köhnənin zəif təkrarı imiş...

Hə, zəng eləməli idi. Mobil telefonunun kontur yaddaşına baxdı. Hərçənd, dəqiq bilirdi ki, yalnız çağırışlıq konturu qalıb. Emalatxanadan çıxıb iki tin aralıdakı qadın bərbərxanasına girdi. İki qadın usta öz müştərilərinə xidmət edirdilər. Onlardan nisbətən yaşlısı, saçını sapsarı boyamışı Gündüzü görcək gülümsədi:

- Böyük rəssam bizi yenə telefona görə narahat edir?

Gündüz üzrxahlıqla dedi:

- Liza xanım, çox vacib zəngdir. Siz Allah, üzrlü sayın.

Liza xanım müştərisinə açıqlama verdi:

- Bu, Gündüz müəllimdir, tanınmış rəssamdır. Ancaq nədənsə nə kepka qoyur, nə də saqqal saxlayır.

Sonra da əli ilə Gündüzə «içəri keçmək» işarəsi verəverə uğunub getdi.

Gündüz içəri otağa keçib hər gün 3-4 dəfə yığdığı rəqəmləri sürətlə yığdı.

- Rəyasət müəllimi olar?

Xətdə xeyli gözlədi. Nəhayət, referent qızın səsi gəldi:

- Rəyasət müəllim iclasdadır. Deyim, kim idi sizi soruşan?

Gündüz içini çəkdi:

- Deyin, Gündüz idi, rəssam. Sizə ətraflı danışmışam axı. Rəyasət müəllim mənim böyük dünya mütəfəkkiri

Nizami Gəncəvinin Xəmsəsinə həsr edilmiş tablolarımın dünya auksionlarına çıxarılmasına sponsorluq etməyi boynuna götürüb. Bilirsiniz, o, pulu versəydi, mən həm işləməyə material alardım, həm də auksionla bağlı müəyyən işlər görərdim...

- Mən deyərəm ona.

- Xanım qız, bilirsiniz, bu, tək mənim üçün lazım deyil, bu, bizim Azərbaycanımız üçün lazımdır. Biz bütün dünyaya sübut etməliyik ki, necə zəngin mədəniyyətə malik bir xalqıq. Nizami Gəncəvini...

- Oldu, mən Rəyasət müəllimə deyərəm, - söyləyərək referent qız onun sözlərini yarımçıq kəsib dəstəyi asdı.

... Gündüz: - Çox sağ olun, - söyləyib çıxmaq istəyəndə Liza xanım onu səslədi:

- Gündüz müəllim, bir şey alındı?

Cavabı gözləmədən də əlavə etdi:

- Sabah çoxlu toy var, üç gəlin bəzəməliyəm. Günorta qapını bağlayacam ki, başqa müştərilər gəlib narahat etməsinlər. Yəni zəng etmək istəsən, alınmayacaq.

Gündüz: - Eyib etməz, bir şey fikirləşərəm, - söylədi, cəld də: - Sabah, deyəsən, toylar günüdür, elə mən də toydayam, Mona Lizada. Dostum Həmid evlənir, - deyə əlavə etdi, sonra da emalatxanasına qayıtdı. Çay tədarükü görüb divana əyləşdi, siqaret yandırdı.

«Maraqlıdır, görəsən, Rəyasət müəllim pulu nə vaxt verəcək? Nə az-nə çox, düz beş minə boyun olmuşdu. Bu qədər pula xeyli keyfiyyətli yağlı və sulu boya, emal, quaş, pastel alardı, bir az da kətan. Bir beş yüz bunlara gedər... Sonra İngiltərədə tanışlar var, orada əla hərraclar

keçirilir, qeydiyyata, yer kirayəsinə və əsərlərin transportirovkasına bir üç min dollar gedəcək. Min beş yüz də yola, orada hotelə, yeməyə gedər...»

İnanırdı ki, böyük Nizami müdrikliyini tam əks etdirib tamaşaçı qavrayışına səbəb olsa, əsl uğur qazanar. Dünya bu əsərlərdən danışar. Hələ külli miqdarda pul da qazana bilər...

Ancaq düşünürdü ki, ən vacibi heç də bu deyil, vacibi dünyaya Azərbaycan mədəniyyətini daha dərindən tanıtmaqdır. Doğrudan da, min illər öncə ulu Nizaminin ortaya qoyduğu didaktikaya indi çox böyük ehtiyacın olduğunu duyurdu. Onun fikrincə, dünya məhvərindən çıxmasın deyə, xeyir şərin qarşısında tam diz çökməsin deyə dünyanın müdrikləşməsinə böyük ehtiyac var idi.

Özünə bir stəkan da çay süzdü, bir dənə də siqaret alışdırdı. Yüz manat düzəldə bilsəydi, Aydanla Rizvanı rayona - Cəlilabada göndərərdi. Özü köklü bakılı idi, yoldaşı Ülkərsə cəlilabadlı. Heç olmasa, bu yayın istisində uşaqlar gedib rayonda bir az dincələrdilər. Bir azdan məktəb başlayacaq...

Siqaretdən dərin qullab vurdu. Elə Ülkəri də yollayardı. İşindən icazə alardı. Baş həkimi insan adamdır. Gündüz yoldaşı üçün icazə istəsə, o, rədd cavabı verməz...

Üçaylıq ev kirayəsi də üst-üstə yığılmışdı. Düz 360 manat. Təqribən 500 dollar. Son vaxtlar heç əlinə pul gəlmirdi. Yenə yaxşı ki, Ülkər az da olsa, məvacib gətirirdi evə. O pul qəpiyinədək yeyib içməklərinə, nəqliyyata, Gündüzün siqaretinə xərclənirdi... Ev kirayəsini isə heç cür verə bilmirdilər...

Borcu da çox idi. Həmidə, əmisi oğluna, rəssam dostlarına... Min manata yaxın borc yığılmışdı... Yox, Rəyasət müəllim pulu versəydi, mütləq borclarından bir az qaytarardı... Eybi yox, o biri xərclər öz yerində, ancaq Londona özü uçmazdı, xahiş edərdi, ordakı tanışlar hər şeyi yerbəyer edərdilər. Yolpuluna, hotelə, yeməyə nə qədər pul hesablamışdı bayaq? Hə, min beş yüz dollar. Onu saxlayardı. Ev kirayəsini, borcları verməyə, bir də uşaqları Cəlilabada yola salmağa bəs edərdi bu pul...

Durub emalatxananın o biri başına tulladığı yarımçıq rəsmi götürdü, eskizə baxa-baxa yenidən divanda əyləşdi.

Telefonuna zəng gəldi:

- Bəli, Gündüz eşidir... Bəli, bəli, rəssamam. Yağlı boya ilə də, akvarellə də, pastel, quaş, emalla da, tempera ilə də çəkirəm. İstənilən janrda. Freska və asekkonu da, qrattajı da, enkaustikanı da bacarıram... Sifariş verirsiniz? Əla, mən hazır. Nə işdir?... Görüşəndə deyəcəksiz? Düzdür, əlimdə yarımçıq iş var, ancaq sizin işi qabağa salaram... Hə, əlbəttə... Sabah? Mən hazır. Neçədə desəniz... Oldu, gələrəm.

Üzünə sevinc işartısı qondu.

«Nə yaxşı, deyəsən, bəxtim açılır, yağlı sifariş tutsam, problemlərimi həll edərəm. Rahatlanaram. Deyərəm, bir az da avans verər. Həmidin toyuna yazılaram».

Gərnəşib divana yayıldı. Üzündəki təbəssüm hələ qalırdı. Telefonuna yenə zəng gəldi. Həmid idi.

- Həmid, elə bu dəqiqə sənin toyun barədə düşünürdüm, zəng elədin. Deməli, qayınanan səni çox istəyəcək. Yoxsa yox, deyəsən, yeməyin üstünə çıxanda qayınana

kürəkəni çox istəyir. Nə isə. Eşidirəm... Yox, evdə deyiləm, hələ emalatxanadayam... Nə? İlk baxışda vurulmaq? Niyə olmur ki?! Olur. Bunu niyə soruşursan?... Necə yəni, elə-belə?! Sən elə-belə heç nə soruşmazsan. Sən canın, nə olub?... Fırlatma da, düzünü de... Yaxşı, demirsən, demə. Sabah saat altıda Mona Lizadayam. Orada görüşərik... Gecən xeyrə...

Durdu. Qəddini düzəltdi. Düşündü, yaxşıdır ki, indi postmodernizm və avanqardizm bütün cərəyanları üstələyib. Ən çox da sürrealizm. Yaxşıdır ki, impressionizm indi yalnız art-arxivdədir. Rəqabət yoxdursa, demək, uğur yaxındadır.

Emalatxananın qapısını qıfıllayıb asta-asta irəliləməyə başladı...

Bacısı Zibagilə dəyəsiydi... Marketdən 30 qəpik verib 3 dənə «şüşə konfet» aldı, dəmiryol vağzalına tərəf buruldu.

O vaxt Günəşlidə yaşadıqları illəri Həmid öz gəlişi ilə necə də Gündüzün yadına salmışdı... Eyni doqquzmərtəbədə yaşayırdılar. 3-cü blokda bunlar, 4-cü blokda Həmidgil. Eyvan qonşusu idilər, hər iki ailə birinci mərtəbədə qalırdı...

Rəhmətlik valideynləri gəlib yadına düşdü. Onları elə erkən, elə dalbadal itirdi ki. Elə bil, şərtləşmişdilər. Öncə atası xəstələnib dünyasını dəyişdi, ardınca da anası.. Atası öləndə əsgərlikdə idi, teleqram aldı, gəldi. Dəfndə iştirak etdi, atasını yaş torpağa tapşırdı. Ancaq heç cür onun öldüyünə inanmadı. Geriyə - hərbi xidmətə qayıtdıqdan sonra da atasız qalması fikrini yaxına buraxmırdı...

Gündüzgil üç uşaq idilər. Böyükləri Gündüz idi, sonra ondan bir yaş balaca bacısı Ziba və üç yaş balaca qardaşı

Taleh gəlirdi. Anası, elə bil, Tanrıdan möhlət almışdı, ilyarımın içində qızı köçürdü, Gündüzü evləndirdi, sonbeşiyi nişanladı. Sonra da ərinin dalınca getdi...

Elə bir qohum-əqrəbaları yox idi. Bir əmisigil var idi, beş-altı uzaq qohumlarla da gediş-gəliş saxlamışdılar. Əmisi yaxşı adam idi, Talehin toyunu elədi, ondan sonra da bir əli elə bunların üstündə oldu.

Nə qədər ki, Gündüz ata evində idi, ciddi problem yaşamırdı. Elə ki, iki ailənin bir evdə yaşaması fəsadlar törətməyə başladı və o, böyük olduğu üçün gedib kirayədə qalası oldu, bax, bundan sonra tədricən problemlər də yarandı. Ata evi ikiotaqlı idi, onu satıb iki dənə birotaqlı mənzil almaq istədilər, di gəl ki, ikiotaqlı mənzillərlə birotaqlılar arasında çox cüzi qiymət fərqi olduğundan, bu mümkün olmadı...

... Qapını döydü. Ziba: - Qurbanın olaram, gəl, - deyib onu içəri buraxdı. Üç balaca uşaq qabağına qaçdı. Hərəsinə bir konfet uzadıb üzlərindən öpdü.

Bacısının dərhal gətirdiyi çaydan qurtumlayıb: - Təzə ev hansı tərəfdədir ki? - soruşdu.

Ziba sevinc içində: - Yeni Yasamalda, novostroykadır, üçotaqlı, - söylədi.

Gündüz bacısını təbrik elədi:

- Sağlığınıza qismət! Gün o gün olsun, içində şadlıqlar eləyəsiz. İnşallah, nə vaxt köçürsüz?

Ziba başını buladı:

- Təmiri qurtaran kimi. Ata-anamızın goru haqqı, təmir ev almaqdan çətindir. İrşad qırx min qoyub, hələ də nə əvvəlidir, nə axırı.

Sonra qardaşına bir çay da süzüb onu rahat oturmağa qoymayan uşaqlara acıqlandı, Ülkəri, Aydanla Rizvanı soruşdu. Sonra da həyat yoldaşı İrşad barədə danışmağa başladı:

- Ay qardaş, İrşad, elə bil, od-alovdur. Aeroportda alver elədi, gördü yox, qazancının çoxusu boşuna gedir. İndi adamlar tapıb, sentyabrdan Kitaya gedəcək, ordan ayaqqabı vuracaq... Şükür Allaha, ev aldıq. Qoy təmiri qurtarsın, sağ-salamat köçək, özünə bir cip də alacaq. O gün deyir, ay Ziba, beşindən əskiyiksə, onundan da artığıq, səni, uşaqları Qazellərdə ora-bura aparanda utanıram...

Gündüzçün bacısıgilin bu birotaqlı mənzilləri çox doğma idi. Çünki burada anasının izləri var idi. İndi Günəşlidəki evi Taleh təmir elətdirmiş, köhnə əşyaları büsbütün dəyişmişdi. Gündüz o mənzildə ata və anasından bircə iz belə tapa bilmirdi. Ancaq bacısıgilin bu mənzili o vaxtdan necə var idisə, eləcə də qalmışdı... Bax, bu divan... Anası həmişə qızıgilə gələndə bu divanda əyləşərdi... Bax, bu köhnə televizoru açdırardı ki, baxsın, görsün xəbərlərdə nə deyirlər...

Divana, televizora baxdıqca gözləri doldu...

Deməк, bacısıgil təzə evə köçəcək, bu mənzilə gələn yolları da qırılacaq...

# 4-cü HİSSƏ

Axşam saat 11-ə işləmişdi. Mələk o qədər işləmişdi, yorulub əldən düşmüşdü. Odur ki, erkən də olsa, yatağa girmişdi. Qohum, qonşulardan da evdə heç kim yox idi. İqbal çıxmışdı şəhəri gəzməyə. Həmid tək idi.

Dünəndən bəri artıq neçənci dəfə bəylik paltarını geyinib iri güzgünün qabağında durdu. Üstündən nazik horizontal xətlər gedən qara kostyumu əyninə qutu kimi oturmuşdu. «Pierre Cardin» firmasının malı idi. Qiyməti də 380 manata. Onu alarkən İqballa azı yarım saat höcətləşmişdilər. Həmid daha bahalı olan tünd-göy rəngli kostyumu almaq istəyirdi. İqbal isə həmin kostyumun etiketlərində nəsə şübhəli şey tapıb onun alınmasının əleyhinə gedirdi. Torqovıdan kostyum seçmək prosesi iki saata yaxın vaxtlarını aldı, nəhayət, İqbal təklif edən kostyumu alası oldular... Tufli və köynək almaq bir elə çox vaxt aparmadı. Hər ikisi pəncəsi iri tufli, habelə «şpaqat» yaxalıqlı köynəyin azarkeşi idi. Qalstuka çatanda isə o qədər mübahisələri oldu ki...

Torqovıdan münasib qalstuk seçə bilməyib şəhər boyu butiklərə baş çəkməyə başladılar. Lap yorulub əldən düşmüşdülər. Ancaq vahid fikrə gələ bilmirdilər. Həmid bəyənən qalstuku İqbal bəyənmirdi. İqbal bəyənənə isə Həmid «əmma» qoyurdu. Hərdən mübahisələri elə şiddətlənirdi ki, ətrafdakı adamlar maraqla onlara baxırdılar.

Nəhayət, axşamın düşdüyünü görən dostlar aralarında kompromis tapa bildilər. Keçmiş Zevin küçəsindəki qalstukla bol mağazada bəylik kostyumuna uyğun qalstuk seçilməsi işini mağazanın satıcısı olan qızın öhdəsinə buraxdılar. Qız kostyuma, tufliyə və köynəyə xeyli baxıb qalstuk seçməyə girişdi. Az keçmiş, üstündən nazik qırmızı və nisbətən iri sarı xətlər gedən qara qalstuku seçib təntənə ilə dostlara təqdim etdi…

… Həmid maraqla güzgüdəki bəy Həmidə baxdı. Onun üçün ömrünün ən maraqlı dönəmi gəlib yetişmişdi. O evlənirdi, oğul-uşaq sahibi olmağa hazırlaşırdı…

Köynəyin üst düyməsini açdı, qalstuku bir qədər boşaltdı. Özünə baxdı. Sonra, əksinə, köynəyin üst düyməsini bağladı, qalstuku sıxdı… Qalstukun sancağını bir az yuxarı sürüşdürdü, sonra yenə də əvvəlki yerinə qaytardı. Saçlarına əlləri ilə daraq çəkdi. Gülümsədi. Paltarı ona yamanca yaraşırdı. Yataq otağından qonaq otağına keçdi, televizoru açdı. İstədi, divanda otursun, ancaq kostyumunun əziləcəyindən qorxub oturmadı, ayaq üstündə dayanıb pultla kanalları çevirməyə başladı. «OPT» kanalında «O sçastlivçik» intellektual oyunu gedirdi. Oyuna baxa-baxa öz-özünə dedi:

- Evə bir dənə də televizor almaq lazımdır. Mamayla gəlin başlarını türk kanallarıyla qatarlar, bütün günü konsertə, kinoya baxarlar. Mən də hərdən gələndə rus kanallarına baxaram…

«O sçastlivçik» oyununda iştirak edən kişiyə verilən sualın cavabını Həmid bilirdi. Kişi fikirləşirdi, Həmid isə dalbadal «Afrodita» deyirdi. Elə bil, kişi onu eşidəcəkdi.

Nəhayət, Həmid televizora baxmaqdan bezib eyvana çıxdı, siqaret yandırdı. Qeyri-ixtiyari gözü sağ tərəfə dikildi. Bilirdi ki, iki blok sağda, 4-cü mərtəbədə Əminəgil yaşayırlar...

Bayaqdan o, gah bəylik paltarı ilə, gah televizorla başını qatmışdısa da, əslində, Əminə onun ağlından çıxmırdı ki, çıxmırdı. Ömründə saysız-hesabsız qızla, qadınla yaxınlıq etmişdi. Ancaq hələ heç kimə bu cür valeh olmamışdı. Əminəyə olan bu istəyinin səbəbi Həmidə qızı görcək dərhal bəlli olmuşdu. O, toyxanaya girəndə dizdən bir qarış yuxarı paltar geyinən Əminənin əyili vəziyyətdə ayaqlarının gözəlliyindən valeh olmuşdu. Belə hisslər qadın gözəlliyini qiymətləndirə bilən bütün kişilərdən əskik olmur. Odur ki, bu hisslərin ötəriliyinə Həmid özü də inanmışdı... Ancaq Əminənin sifətini görəndə o, yerindəcə quruyub qalmışdı.

Çox-çox illər bundan əvvəl Həmidgil sinif yoldaşları Qoşqargilə yığışardılar: Həmid, Gündüz, Tural və Qoşqar. Günortalar evdə heç kəs olmadığından, onlar videomaqnitofonda pornoqrafiyaya baxardılar. Xüsusən, baxdıqları ilk film Həmidin yaddaşından heç cür silinmirdi. Amerika məktəblərindən birinin cavan kişi müəllimi yeniyetmə qız şagirdləri ilə qəsdən intriqalar yaradır, sonra da qiymət yazmaq üçün onların ən gözəlləri ilə intim əlaqələrə girir. Bu film Həmidgili elə ovsunlamışdı ki, ona təkrar-təkrar baxır, baxanda nəfəs belə dərmədikləri hiss edilirdi. Dərsdə, evdə, harada olmalarından asılı olmayaraq uşaqlar kinodakı səhnələri gözlərinin önünə gətirir, növbəti dəfə filmə baxanadək rahatlıq tapa bilmirdilər...

Filmdə yeniyetmə qızlardan biri arıq, ucaboylu, cins şortlu, qıvrım qara, uzun saçlı Süzanna idi. Həmin Süzanna Həmidin ilk məhəbbəti olmuşdu. Süzanna soyunanda neçə dəfə Həmid Qoşqardan xahiş etmişdi ki, «pauza» düyməsini basıb epizodu saxlasın... Süzanna Həmidin bütün həyatını dəyişmişdi. O, bu əlçatmaz sevgisinə görə, sözün həqiqi mənasında, rahatlıq tapa bilmirdi...

Zaman keçdikdən sonra Həmidin bu kino qəhrəmanına olan marağı nisbətən azalsa da, onun Süzannaya oxşayan qız axtarışı daimi oldu. O, harada olurdusa da, gözləri dörd halda Süzannaya oxşayan qız axtarırdı. Özü də bilirdi ki, bu, anormallıqdır. Ancaq hisslərini idarə edə bilmirdi. Bəlkə də, elə ona görə evlənmirdi ki, idealını tapa bilmirdi. İndi axır ki, görmüşdü belə bir qızı... Əminə büsbütün həmin kino qəhrəmanının eyni idi...

Həmid qaranlıqda hey sağ tərəfə boylandı, ancaq təbii ki, Əminəni görə bilmədi. Evə keçdi, əynini dəyişmək üçün yataq otağına adladı. Dəhlizdən keçəndə ayaq saxladı. Telefonun yanında anasının kitabçası var idi. Burada telefon nömrələri yazılmışdı. Kitabçanı vərəqləməyə başladı. Anasının sözləri qulağında idi: «İki blok o yanda qalır, Suqranın kiçik qızıdır, uşaqdır, on yeddi yaşı var ... Anasını, bacısını yaxşı söyləmirlər. Deyirlər ki, ikisi də gəzəyəndir...»

Anası telefon nömrələrini əlifba sırası ilə ardıcıl yazmadığından Həmid bütün səhifələri vərəqləməli idi. Vərəqlədikcə Əminə onun gözləri önündə dayanır, oradan getmək bilmirdi.

Həmid xəyalən əyilib yeri süpürən və lap yuxarı dartılmış paltardan bütün gözəlliyi ilə baldırları görünən Əmi-

nəni soyundurmağa başladı... Əgər anası və bacısı gəzəyən idisə, çox şübhəsiz, Əminənin özü də, yəqin, gəzirdi. Və Həmid bu qonşu qızı ilə hamıdan gizli gözəl intim həyat yaşaya bilərdi. Nə var ki, balaca bir hədiyyə ilə Əminənin başını tovlayacağına əmin idi.

Ehtiras əməlli-başlı Həmidi boğurdu. Nəhayət, gözünə «Suqra» sözü sataşdı. Ürəyi döyünə-döyünə nömrəni yığdı, o biri tərəfdən «alo» səsi gəldi. Bu, Əminənin səsi deyildi. Həmid dəstəyi yerinə qoyub yataq otağına keçdi. Əynini dəyişdi. Yenə gedib siqaret yandırdı, yenə gözünü Əminəgilin eyvanına dikdi... Yox, ürəyi partlayırdı. Elə bu an Əminəni qucaqlayıb öpüşlərə qərq etmək, onun bədən əzalarından həzz almaq ehtirası bütün fikirlərinə hakim kəsilmişdi.

Yenə də dəhlizə qayıdıb telefonun dəstəyini götürdü, yaddaşına həkk olunmuş nömrəni yığdı. Bu dəfə dəstəyi bayaqkı yaşlı qadın götürmədi, səs Əminənin səsinə oxşayırdı. Həmid səsi titrəyə-titrəyə: - Əminə, sənsən?, - soruşdu.

- Yox, Əminə deyil, Nərminədir. Kimdir ki, soruşan?

Həmid xeyli düşünüb dedi:

- Tanışıdır.

- Hansı tanışı? Əminənin heç bir tanışı yoxdur.

Əminənin bacısı dəstəyi asdı. Həmid kor-peşman televizorun qarşısına keçdi. «O sçastlivçik» oyunu qurtarmışdı. «OPT» teleserial verirdi. İki maşın bir-birini təqib edirdi. Ustalıq göstərib döngələrdən maşını iki təkər üstündə keçirən sürücülər arabir də bir-birinə güllə atırdılar...

Bir də onu gördü ki, yenə də telefonun qarşısındadır. Nömrələri yığır...

- Alo, Nərminə, çox xahiş edirəm, Əminəni çağır. Vacib sözüm var ona...

- Mənəm, Əminədir. Kimdir ki?

Həmid sevindi:

- Əminə, sənsən? Qonşudur, Həmid.

- Həmid? A-a-a... Eşidirəm sizi.

Əminəyə dərhal şirin sözlər söyləməkdən özünü saxlaya bilmədi:

- Əminə, canım, mənə qulaq as. Səni bayaq gördüm, vuruldum sənə. Ölürəm səninçün. Sən mənim canım, gözüm, mənim...

Əminə onun sözlərini yarımçıq kəsdi:

- Həmid, siz gördüyünüz bütün qızlara dərhal bu cür eşq elan eləyirsiz?

- Əminəm, inan mənə, hələ heç kimi sevməmişəm. Sən mənim ilk məhəbbətimsən. Yalvarıram sənə, düş aşağı, bir az söhbətləşək.

- Nə danışırsız? Gecə vaxtı mən necə aşağı düşə bilərəm? Evdəkilər nə deyər? Bir də ki, axı nəyə görə mən sizin sözünüzlə aşağı düşməliyəm?

Həmid duruxub qaldı. O, Əminədən tamam başqa münasibət gözləyirdi. İçini parçalayan ehtirasa görə qıza açıqca yalvarmağa başladı:

- Əminə! Həyatımsan mənim. Məni nakam qoyma. Sevgilim Əminə. Beşcə dəqiqəyə düş. Sənə qiymətli bir hədiyyəm də var. Sən canın, düş.

- Ayıbdır sizə, Həmid. Sabah toyunuzdur. Bu gün başqa qıza eşq elan eləyirsiz. Sizdən heç gözləməzdim.

Əminə dəstəyi asdı. Həmid başını əlləri arasına alıb dodağını gəmirdi.

Telefon cihazının qəribə rəngi var idi. Ya bənövşəyi, ya narıncı... Gah adama belə görünürdü, gah da elə... Yəqin, bacısı Gülgəz seçmişdi bu rəng cihazı. Əcəb zövqü var qızın. Bu, nə rəngdir axı, seçirsən! Qoy toy olsun, mütləq bu telefonu dəyişdirəcək. Yaxşı, sanballı, məsafədən idarə olunan bir telefon cihazı alar...

Yox, heç cür özünə gələ bilmirdi. Qız tovlamaq, asanca intim əlaqəyə girmək indiyə kimi onunçün dünyada ən problemsiz bir iş idi. Kimi gözü tutmuşdusa, bu vaxta qədər ya dili ilə, ya da bahalı hədiyyələrlə onunla yaxın olmuşdu...

Xüsusilə, Həmidin bir sevgi macərası Uralda dillər əzbəri idi. Azərbaycanlılara çeçen müharibəsindən sonra o qədər də xoş münasibət bəsləməyən, onları 2-ci, 3-cü növ adam sayan bəzi sıravi rus xanımlarında da bizimkilərə qarşı bir ikrah, bəyənməzlik müşahidə edilirdi. Belə bir vaxtda Həmid vilayətin inzibati idarəsinin ən yüksəkvəzifəli şəxslərindən birinin qızı olan İrinaya maraq göstərməyə başlamışdı.

Buranın qızları erkən yaşlarında kampaniyalara meyil edir, oğlanlarla oturub-dururdularsa da, İrina tamam başqa cür qız idi. Üstəlik, xüsusi mühafizəçiləri, sürücüsü olduğundan, hansısa kampaniyalara qoşula biləcəyi qeyri-mümkün idi. Tibb Universitetində oxuyurdu, marşrutu konkret idi: məktəb, ev. Heç rəfiqəsi də yox idi. Saysız-hesabsız pərəstişkarları onunla tanış olmaq üçün dəridən-qabıqdan çıxır, ancaq heç nəyə nail olmurdular. İrina lap müsəlmansayağı özünə söz vermişdi: həyatında ilk kişi məhz həyat yoldaşı olacaq. Həmidin İrina ilə ma-

raqlanması tanış-bilişi heyrətləndirdi. İqbal onu bu fikrindən daşındırmağa çalışdı, vəzifəli şəxsin qızına «girişməyin» acı nəticələrindən söz açdı. Ancaq Həmid dedi: «Öldü var, döndü yoxdur». Belə olanda İqbal məsələyə tamam başqa səpkidən yanaşdı: «Ay bədbəxt müsəlman, o qız heç səni zibilə də tay eləməz». Onlar mübahisə etdilər, nəticədə min dollardan mərc gəldilər...

... İndi Həmid siqaret tüstülədə-tüstülədə bütün bunları xatırlayırdı. O, qadınlarla münasibətdə həmişə özünə arxayın olmuşdu. O vaxt yüz faiz inanırdı ki, İrinanı ələ alacaq. Təqribən 20 gün qızı güddü, ancaq ona yaxınlaşmaq üçün fürsət əldə edə bilmədi... Elə bu vaxt «On i ona» jurnalında gözü İrinanın şəklinə sataşdı. Burada «Rəsmilər qeyri-rəsmi qiyafədə» rubrikasında İrinanın atası ilə müsahibə getmişdi. Jurnalistlər fürsətdən istifadə edib İrinayla anasını da danışdırmışdılar. Qız kişilərə mənfi münasibət bəslədiyini, onların hamısını «uxajor» hesab etdiyini bildirmişdi. Müasir kişilərdə romantik duyğuların yoxluğundan şikayətlənir, onların qəlibə, çərçivəyə salındığını iddia edirdi. Həmid müsahibədən onu da öyrəndi ki, aprelin 12-də qızın ad günüdür...

İrinanın gün qrafikini artıq Həmid bilirdi. Saat neçədə hara gedəcək, haradan gələcək, harada dayanacaq...

Aprelin 12-də onun dərsdən çıxdığı vaxt üçün «romantik» bir sürpriz hazırladı. Xoreoqrafiya məktəbinin on oğlan şagirdi qızın keçəcəyi yerə düzüldülər. İzdihama düşməmək üçün dərsdən həmişə 5-10 dəqiqə tez çıxan İrina qapıda görünən kimi səhnə geyimində olan oğlanlar rəqs edə-edə çiyinlərindən asılan səbətdən ovuc-ovuc qı-

zılgül ləçəkləri çıxarıb qızın başına səpdilər... Qız mühafizəçilərinə əl-qol atmağa imkan verməyib bu səhnəni axıra qədər seyr etdi... Rəngbərəng ləçəklər havada elə uçuşur, professional rəqqasların hərəkətləri ilə elə ahəng yaradırdı ki, İrina ağzıaçıq halda bunlara tamaşa etməyə məcbur olmuşdu... Sonda müəllif - Həmid göründü. Nəhəngdən-nəhəng bir gül səbətini əl arabasında gətirən qulluqçuların müşayiəti ilə qızı ad günü münasibəti ilə təbrik edib ona öz vizit kartını ötürdü...

Və beləcə də tanış olub görüşməyə başladılar...

... Həmid eyvana çıxdı, yenə Əminəgilin eyvanı səmtə boylandı. Əlbəttə, ona yer eləyirdi. İrinanı ələ alan o, bu «pozğun» ailədən olan uşağı ələ ala bilmirdi...

Qulağına taqqıltı səsi gəldi. Qapı döyülürdü. Gedib açdı. İqbal idi. Həmid İqbalın gəlişinə sevindi:

- Gəl çıx da, harda qalmısan?!

İqbal soyuducuya cumaraq oradan bir banka pivə götürüb başına çəkdi, sərinləhəndən sonra dedi:

- Bəh-bəh-bəh. Bakı nə Bakı, elə bil, Parisdəsən. Bir qızlar var, gəl görəsən. O vaxtlar Parapet dedikləri yer var ev, indi Fantanka deyirlər, orada kukla kimi, göbəyiaçıq, gödəkyubkalı qızlar adama gəl-gəl deyir.

İqbal «gödək yubka» deyən kimi Həmid yenə də Əminəni düşündü. Ürəyi az qaldı, qopub yerindən çıxsın.

İqbal gedib televizorun qabağında əyləşdi. Kanalları ora-bura çevirdi. Həmid içini didib-dağıdan fikirləri dostuna danışmağı özünə borc bildi...

İqbal diqqətlə onu dinlədi, gedib bir dənə də pivə gətirdi, yarısını içdikdən sonra dedi:

- Bura bax, bəlkə, o qız heç «quş» deyil?

- Hamı deyir ki, anası, bacısı gəzəyəndir.

- Hamı anasına, bacısına şam tutub? Yoxam da bu müsəlmanların ona-buna söz qoşmaları ilə. Yetənə bir süpürgə bağlayırlar. Ay qardaş, faktdır da, sən ona hədiyyə də təklif etmisən. Gəzən olsa, elə səninlə gəzərdi də. Maşallah, gözəllik səndə, pul səndə. Novıy azerbaydjanetssən. Gəzsin də sənnən. Səndən artığını tapacaq? Tak şto, qızla işin olmasın...

Gecə saat 2-də İqbal yatağına girdi. Ona da məsləhət gördü ki, yatsın...

- Bəysən, səhər toyundur. Yıxıl yat.

Ancaq Həmid nə illah elədisə, yata bilmədi. Elə bil, yatağına qor dolmuşdu. Hey sağa-sola fırlandı, durub soyuducudan mineral su götürüb içdi, sonra eyvana çıxıb Əminəgilin eyvanı səmtə boylandı...

Evlərin hamısı zülmətə qərq olmuşdu. Yəqin, evdə hamı şirin yuxuda idi. O cümlədən Əminə də. Həmid onu yataqda təsəvvür etdi...

... Saat 4 idi...

... Televizoru açdı. HTB kriminal xəbərlər verirdi. PTP isə film göstərirdi. 4 məhbus həbsxanadan qaçmağa cəhd edirdi...

Məhbuslardakı həyat eşqi onu təsirləndirdi. Onlar necə də əzmlə, səbirlə, ən əsası da, inamla lağım atırdılar. Sən demə, qaranlıqdan işığa atılmaq - insan həyatının yaranışdan bəri ən ali məqsədi imiş...

... Saat 6-da o, yenidən yatağa uzandı və yuxuladı. Olduqca qarmaqarışıq yuxu gördü: Rəhmətlik atası onu

çağırır, o isə getmir, bacısı Gülgəzin əlindən tutub dayanır. Elə bu vaxt anası gəlir. Əlində də rəngbərəng top. Topu ona verir. O, topu götürüb bacısı ilə oynamağa girişir... Uzaqdan ağ gəlinlik paltarında Səbinə görünür... Atası bu dəfə Səbinəni çağırır...

Birdən topları partlayır...

## 5-ci HİSSƏ

Gündüz İstiqlaliyyət küçəsi ilə üzüyuxarı - Filarmoniyaya tərəf gedirdi. Dünənki zəng onu çox həvəsləndirmiş, həyat eşqini artırmışdı. Zəng edən şəxs - Azər müəllim - irihəcmli sifariş verəcəyini bəyan etmiş, onu öz ofisinə dəvət eləmişdi...

Gündüz metrodan çıxıb irəliləməkdə idi. İri susəpən maşınla yolun kənarındakı ağacları sulayırdılar. İsti havada ağacların sevinci onlardan çıxan buxarla ətrafa yayılırdı.

Düşündü ki, gözəl bir əsər yarada bilər, budaqdan sallanan tək yarpaq, yaxud gövdəsində yarası olan qocaman ağac... Görəsən, niyə indiyə kimi bu mövzuya müraciət etməyib?

Filosoflar bəzən yarpaqla insanı bir-birinə bənzədirlər. Biri pöhrə, o biri körpə kimi dünyaya gəlir. Biri yamyaşıl yarpaq, digəri isə yeniyetmə, gənc kimi inkişafda olur. Biri xəzəl, digəri isə qoca kimi ömürlərinin son günlərini yaşayırlar. Biri ağacdan düşməklə, digəri isə ölməklə işıqlı dünyanı tərk edirlər...

Ancaq filosoflar yarpaqları xoşbəxt sayırlar, bildirirlər ki, növbəti baharda onlar təzədən dünyaya göz açırlar. İnsansa bir daha dünayaya qayıtmır. Əslində isə, bu, kökündən səhvdir. Necə ki, ölən insan yenidən dünyaya gəlmir, eləcə də ölən yarpaq yenidən dirilmir. Ağacdan yeni, baş-

qa yarpaqlar çıxır, eləcə də dünyaya yeni, başqa insanlar gəlir. Hər bir ağac, sanki, Yer kürəsi, hər bir yarpaq, sanki, bir insandır.

... Hə, bu da deyilən ünvan. Qədimliyindən qapqara qaralmış binanın birinci mərtəbəsində - liftin qarşısında dayandı. Ancaq haçandan-haçana liftin işləmədiyinə əmin olduqdan sonra hündür, daş pillələrlə 3-cü mərtəbəyə qalxdı. İri, qəhvəyi rəngli qapının zəngini basdı. İçəridən «Kim lazımdır?» sualı gəlcək «Azər müəllim» cavabını verdi.

- Azər müəllimin xəbəri var ki, gəlmisiz?

- Bəli. Özü saat on birə mənə görüş təyin edib. Mən rəssamam, adım Gündüzdür.

Qapı açıldı. Nərmə-nazik, suyuşirin bir qız ona yer göstərdi:

- Siz gözləyin, Azər müəllimin yanında yoldaşlar var.

Gündüz kresloda əyləşib jurnal stolunun üstündən bir jurnal götürdü, vərəqləməyə başladı. Model qızların fotoları, avtomobillər, yaxtalar...

Bir az keçmiş həmin o suyuşirin qıza tərəf boylandı, onun qarşısındakı telefonu görcək cəld yerindən sıçradı:

- Xanım qız, olar mən zəng vurum?

Kompüterdə, çox yəqin ki, nəsə bir oyun oynayan qız:
- Buyurun, buyurun, - söylədi.

Gündüz əzbər bildiyi nömrəni yığdı:

- Rəyasət müəllimi olar?... Hələ gəlməyib?... Nə vaxt gələr?... Hm. Heç, deyin ki, Gündüz idi, rəssam.

Qayıdıb yenidən kresloda əyləşdi. Ətrafa nəzər yetirməyə başladı. Tavan çox hündürdə idi, otağın hündürlüyü azı 4 metr olardı... Ortadan xırda çilçıraq asılmışdı.

Düşündü ki, belə hündür otağa bu ölçüdə çilçıraq asmaq naşılıq, yaxud zövqsüzlükdür.

Nəhayət, qapı açıldı, içəridən qəşəng bir xanım çıxdı. Gündüz otağa keçmək istəyəndə referent qız ona imkan vermədi:

- Dayanın, Azər müəllimə məlumat verim, sonra keçərsiz.

Referent içəri keçib dərhal da çıxdı, Gündüzə: - Keçin, - dedi.

İri kabinet idi. Lap başda Azər müəllim deyilən şəxs əyləşmişdi. Olduqca gənc idi, Gündüz ona maksimum 22-23 yaş verdi.

Azər müəllim Gündüzü görcək ayağa qalxdı, əl uzatdı, sonra kresloda yer göstərib özü də onunla üzbəüz əyləşdi:

- Gündüz müəllim, buna deyərlər, igidin adını eşit, üzünü görmə. Haqqınızda çox şey eşitmişəm. Sizi çox tərifləyirlər. Bizim şirkət Estetik mərkəz adlanır. Sizinlə işbirliyi qurmaq istəyirik. Ancaq lazımdır ki, öncə özünüz barədə danışasız.

Gündüz gülümsədi:

- Özüm haqda nə danışım, Azər müəllim? Min doqquz yüz yetmiş səkkiz təvəllüdlüyəm, Əzimzadəni bitirmişəm, on iki yaşımdan üzü bəri - düz on doqquz ildir ki, çəkirəm. İstəyirəm, öz dəst-xətimlə tanınım. Planlarım çoxdur. Xüsusən də dahi şairimiz Nizaminin Xəmsəsindəki hikmətləri, aforizmləri tablolara köçürməyə böyük önəm verirəm. Bu, tək mənim yox, bütün Azərbaycan rəngkarlığının şah əsəri, zirvəsi olacaq, təsəvvür edirsiniz?...

Azər müəllim özünə mineral su süzüb qurtumladı:

- Mən biləni, Rəssamlar İttifaqı ilə əməkdaşlıq etmirsiz, iş yeriniz də yoxdur. Özünüz də maddi sıxıntı çəkirsiz.

Gündüz ah çəkdi:

- Elədir.

Azər müəllim qarşısındakı noutbukda nəyəsə baxa-baxa danışmaqda idi:

- Biz əməkdaşlıq etsək, yaxşı qazanc əldə edəcəksiz. Bizə sizin kimi rəssam çox lazımdır.

Gündüz dünəndən bəri cavab ala bilmədiyi sualına cavab almaq ümidi ilə soruşdu:

- Axı mən nə etməliyəm?

- Necə nə etməlisiz? Şəkil çəkməlisiz.

- Bilirəm e, şəkil çəkməliyəm. Nə şəkli?

Azər dəstəyi qaldırdı:

- Neynirsiz?... Hə, mən rəssamla gəlirəm, beş dəqiqə şəraitlə onu tanış edim, sonra yenə işinizi davam etdirərsiz.

Kabinetdən çıxıb dar dəhliz boyu addımladılar. Azər danışmaqda idi:

- Estetik mərkəz həm müxtəlif müsabiqələr, yarışmalar keçirir, həm alqı-satqıya qoşulur, həm istehsalla məşğul olur. Çox genişprofilli bir müəssisədir...

Bir zala girdilər. Siqaret tüstüsü qatı dumana bənzəyirdi... Ortada podium var idi. Tünd-qırmızı pərdə çəkili idi, arxasından qızların gülüş səsləri gəlirdi. Hündür bir oğlan Gündüzgilin qarşısına çıxdı:

- Azər müəllim, biz fotosessiyanı axşam tamamlayacağıq. Bəlkə, rəssam yoldaş elə axşam gəlsin, özü də hazırlıqlı? Yəni, kətanla, fırça-boyayla.

Azər müəllim Gündüzə baxdı:

- Yaxşı təklifdir. Bəlkə, elə axşam gələsiz?

Gündüz üzrxahlıqla gülümsədi:

- Bu gün uşaqlıq dostum Həmidin toyudur. Otuz bir yaşında axır ki, onu evləndirməyə razı sala bilmişik. Saat altıda Mona Lizada olmalıyam. Heç cür toydan qala bilmərəm.

Azər müəllim yenə üzünü hündür oğlana tutdu:

- Eybi yox. Çox vaxtınızı almarıq. Biz əyləşək, siz də qızları göstərin.

Hələ də nə iş görəcəyini, söhbətin nədən getdiyini anlamayan Gündüz Azərin əyləşdiyini görcək əyləşdi. Hündür oğlan pərdənin arxasına keçdi. Sonra pərdə açıldı.

Gündüz gördüyü mənzərədən lap şoka düşdü. Qarşısında üç çılpaq qız bütün bədən əzalarını nümayiş etdirərək dayanmışdılar.

Gündüz dili topuq vura-vura soruşdu:

- Demək, mən naturadan portret çəkməliyəm?

Azər müəllim başını tərpətdi:

- Sizin əl qabiliyyətinizə söz ola bilməz. Ancaq gic-gic şeylər çəkir, istedadı boş yerə xərcləyirsiz. Onunçün də pulunuz yoxdur, kasıbsız. Bizimlə işləsəz, böyük pullar qazanarsız.

Əlini ortada dayanan qırmızı dikdabanlı hündür qıza uzatdı:

- O, Azadır, gözəllik müsabiqəsinin qalibidir. Ölçüləri idealdır, doxsan-altmış-doxsana yaxındır. Sanki, bir mələkdir, hə? Naturşitsaların hamısı modellər, gənc müğənnilər, aktrisalar olacaq. Şəkillərini çəkirsən, pulunu alırsan. Foto belədir ki, çak, aparatın düyməsini basdın, ha-

zırdır. Ancaq rəsm başqa şeydir. Kliyentlər belədə daha çox seçim edirlər.

Gündüz çalışırdı ki, qızlara tərəf baxmasın, ancaq şeytan onu yoldan çıxarırdı.

- Azər müəllim, sirr deyilsə, naturadan portretlər sizin nəyinizə lazımdır?

- Sirdir.

- Yaxşı, bəs hər əsərə görə mənə nə qədər pul verəcəksiz?

- İki yüz manat.

Gündüz yol boyu hazırladığı nitqini açıqlamağın son məqamı olduğunu duyub sürətlə danışmağa başladı:

- Azər müəllim, mən impressionistəm. Hazırda dünya rəssamlığında bu klassik janrda hər kəs çəkmir. Bu janrın özəllikləri ondadır ki, reallıq təsəvvürə yenilir. Sıravi əşyaların təsviri ilə hərəkətin illüziyası bir vəhdətdə...

Azər müəllim onun sözünü kəsdi:

- Gündüz müəllim, iki yüz manat azdırsa, hər rəsmə üç yüz manat verərəm.

Gündüz danışmaq şansının hələ tam itmədiyini görüb sevincək davam etdi:

- Təəssüratların detallardan üstünlüyü realist həyatın idilliyalara, utopiyalara uduzması deməkdir. Bax, impressionizmin sonda postimpressionizmə və kubizmə keçidi də özündə...

Azər müəllim yenə onun sözünü kəsdi, hündür oğlanın və çılpaq qızların narazı baxışları altında səsini qaldırdı:

- Gündüz müəllim, qızları çəkirsiz, ya yox?

Gündüz yorğun qızları, eləcə də sifətində qəzəb sezilən hündür oğlanı süzüb dedi:

- Azər müəllim, vallah, siz burdan nə qazanacaqsız, bilmirəm, ancaq mən deyən layihəyə əl qoysaz, milyonlar qazanarsız. Biz dünya hərraclarına çıxarıq, Azərbaycanımızı tanıdarıq.

Azər müəllim əsəbi halda yerindən durub qızlara çəmkirdi:

- Qızlar, gedin!

Qızlar pərdə arxasında yox olan kimi pıqqıldayıb gülüşdülər.

Səsləri kəsiləndə Azər müəllim üzünü Gündüzə tutdu:

- Rəssam, sənin nə qədər pulun var?

«Siz»dən «sən»ə keçmişdi. Gündüz yerindən durub yenə üzrxahlıqla gülümsədi:

- Pulum nə gəzir?!

- Ancaq mənim milyonlarım var. Obyektlərim, villalarım, avtomobillərim... Hər şeyim var. İndi sən, cibində siçanlar oynayan biri mənə necə pul qazanmağın yolunu öyrədirsən? Hə, yoxsa yox?!

Gündüz başını aşağı saldı:

- Mən rəssamam. Mən mənəvi zənginliyə xidmət edirəm. Mən...

Azər müəllim lap əsəbiləşmişdi:

- A kişi, hə, yoxsa yox?

Gündüz: - Yox, - deyə mızıldandı və ordan çıxdı. Ağır addımlarla çıxışa tərəf getdi, sanki, boğulurmuş kimi köynəyinin üst düyməsini açdı.

Havaya çıxanda xeyli yüngülləşdi. Deməк, hər şey ona görə yaxşılığa doğru dəyişir ki, sonradan yenidən pisləşsin.

Mobil telefonunun saatına baxdı, 13:48 idi. Düşündü ki, Həmidin toyuna 4 saat 12 dəqiqə qalıb. Siqaret yandırıb tüstünü ciyərlərinə çəkdi. Görəsən, siqareti tərgidə bilər? Həm səhhətinə görə vacib idi, həm də büdcəyə görə. Ayda təxminən 30 manata yaxın pul gedirdi siqaretə... Az pul deyil ki, 30 manat. Üstünü də düzəldib, məsəlçün, axşam Həmidin toyuna yazıla bilərdi...

Ancaq ay yeyib-içəcək ha. Çoxdandır toyda olmur. Görəsən, Həmid uşaqlardan kimləri çağırmışdı? Qoşqar xaricdədir, o, yüz faiz olmayacaq. Turalı mütləq çağırar. Yəqin, o biri sinif yoldaşlarını, məhlə uşaqlarını da çağırar. Kaş o qonşuları var idi e, qatar bələdçisi. Adı nə idi o kişinin? Ha fikirləşdisə, xatırlaya bilmədi. Hə, nə isə. Kaş onu da çağıraydı. O vaxt o kişi Gündüzə divar rəsmi çəkdirmişdi, pulunu verməmişdi... Fürsətdir də, kişiyə deyərdi ki, ağsaqqal, portmanatımı unudub işdə qoymuşam, indi toya pul yazıla bilmirəm. Pulumu ver, dostumun toyuna yazılım...

Nə yaxşı oldu, Həmid evlənir. 31 yaşında axır ki, ağlı başına gəldi. Ondan olsaydı, çətin evlənərdi. Yazıq Mələk xala nə illah eləyirdisə, onu evləndirə bilmirdi, bu dəfə necə olub ki, razı sala bilib? Mələk xalanı düşündü, dərhal da anası yadına düşdü. Qoy Həmidin toyu olsun, bir dəfə uşaqları da yığıb onlara gedər. Rəhmətlik anasının ətrini alar Mələk xaladan. Anası ilə Mələk xala o vaxt Günəşlidə bütün günü eyvandan eyvana söhbətləşərdilər. Dünyanın gərdişindən, uşaqların tərbiyəsindən, gələcək xəyallardan...

Toya çatan kimi dərhal Mələk xalanı tapıb onu təbrik edəcək. Gör neçə ildir, görmür arvadı. Yəqin, qocalıb indi...

Saat 14:25 idi. Nə evə, nə emalatxanaya getməyə həvəsi var idi. İstəyirdi ki, saat 6 tez gəlsin. Güləranı necə, görən, Həmid toyuna çağıracaqdı? Kövrəldi, ürəyi titrədi...

- Bağışlayın, Ali İdaretmə Akademiyasına necə getmək olar?

Kostyumlu, qalstuklu bir kişi idi bunu soruşan. Gündüz iki binanın arasını göstərdi:

- Burdan düz gedin, üstünə çıxacaqsız.

Sonra düşündü ki, görən bu kişiyə isti deyil? Bəzən insanlar kənardan görüntü üçün daxili rahatlıqdan imtina edirlər. Hansı vacibdir, sənin necə olmağın, yoxsa sənin necə görünməyin? Təbii, birinci vacibdir. Ancaq sürətli inkişaf sayəsində insan cəmiyyəti şüurda məhz ikincinin bərqərar olmasını labüd edir.

Əlbəttə ki, kişinin alt köynəyi... Bayaqdan yayın istisində qalın parçadan qara kostyum geyən, qara qalstuk vuran ağ köynəkli və qara tuflili kişinin rəng harmoniyasının məhz hansısa çalara görəsə pozulduğunu hiss etmişdi. Ancaq ani diqqət yetirdiyindən bu çaların hansı olduğunu ayırd edə bilməmişdi. İndi xatırladı. Kişinin köynəyinin orta düyməsi açılmışdı və oradan yaşıl rəngə çalan alt köynəyinin kiçik bir hissəsi görünürdü...

Görəsən, hardan Rəyasət müəllimə zəng edə bilər? Məsələ, deyəsən, çox uzanır. Eybi yox, toyu yola versinlər, sabah yenə gedər Nazirlər Kabinetinə, Rüfət Əhmədlinin yanına. Deyər ki, Rəyasət müəllimlə görüşə bilmir. Qoy Rüfət müəllim bir də danışsın Rəyasət müəllimlə...

Bir dənə də siqaret yandırdı. Hər halda, bəlkə, siqareti tərgitsin? Otuz manat e. Xeyli puldur.

Nəyə görəsə bir az əvvəl görüşdüyü Azər müəllimi yamsıladı:

- Mənim milyonlarım var, obyektlərim, villalarım, avtomobillərim. Hər şeyim var. İndi sən - cibində siçanlar oynayan biri mənə necə pul qazanmağın yolunu öyrədirsən?

Sonra da o ki var onun qarasınca deyindi:

- Alçaqlar. Sənəti çeviriblər əxlaqsızlığa...

Saat hələ 15:10 idi...

# 6-cı HİSSƏ

Səhər Həmid anasının səsinə oyandı:

- Günorta oldu, ay evimin dirəyi, ay gözümün nuru.

İqbal da yan otaqdan qışqırırdı:

- Belə bəy olar?! Gecə yatmağı yox, gündüz durmağı.

Həmid gərnəşdi:

- Ay mama, niyə qaldırdın məni? Mnoqoseriynıy yuxu görürdüm...

Cəld yerindən durdu, yuyunub mətbəxə keçdi. Yaxşı yatmadığı üçün başı ağrıyırdı. Bir stəkan tünd şirinçay düzəldib içə-içə soruşdu:

- Yemək hazır deyil?

Anası ilə bacısı Gülgəz şirniyyatları qablaşdırırdılar. Qonaq otağına gəldi. İqbal telefonun qabağında oturub ora-bura zəng edirdi:

- ... Stolları düzürsünüz? Bir problem yoxdur ki?

- ... Ağalar, bax, saat dörddə gəlirsən həyətə, gəlin maşını ilə... Nə?... Yox, özünüz bəzəyin. Əlavə problem yaratmayın bizə...

- ... ZAQS-dandır?... Saat altıda Mona Liza da olmalısız, unutmamısız?

- ... Musiqiçilərlə bağlı bir problem yoxdur ki? Əla. Gəlirsiz, gəlingətirdiyə gedirik. Sonra da pulunuzu alıb gedirsiz. Yox, toyu estradniklər aparacaq. Ədalət Şükürov, Qala qrupu, bir də Xəyyam Nissanov... Yox, yox, lazım

deyil. Elə bunlar bəsdir. Yekaterinburqda bir dəfə bomba çıxışları olub... Çox bəyənmişik...

Üzünü Həmidə tərəf çevirib soruşdu:

- Həmid, Ədalətgil Planetdə çıxış edəndə Xəyyam bir super mahnı oxumuşdu e, hansı idi?

Həmid xeyli düşündü.

- ...

İqbal başını yellədi:

- Nə isə.

Sonra yenə telefonu qulağına tutdu:

- Bratka, bizim toyda Rossiyadan, Dağıstandan çoxlu qonaqlar olacaq. Onlar narodnikləri neynirlər?!... A kişi, yox e, danışılıb. Adik, Xəyyam, Qala qrupu. Bomba olacaq!

Həmid İqbala acıqlandı:

- Sən niyə o dumbulçalana atçyot verirsən?

Sonra yenidən mətbəxə keçdi.

Soyuducunu açıb oradakı ərzaqlara xeyli baxdı. Heç nə götürməyib bağladı. Anasıgilə yaxınlaşıb şirniyyatları gözucu süzdü, bir badambura götürüb yeməyə başladı. Düşündü ki, görəsən, məhz bu badamburaya Əminənin əli toxunubmu?

Xalası gəldi. Anasına onlarda gecələyən gəlin barədə danışmağa başladı:

- Bir utancaqdır, gəl görəsən. Deyirəm, ay qızım, belə yaramaz. Sən ərə gedirsən, bu gün-sabah ev-ailə qayğıları ilə yüklənəssən. Uşaq böyüdəssən. Elə bil, heç dilin yoxdur. Bu qədər saatda bircə dənə söz soruşub: Mələk bibigilin evi yaxındadır?

Mələk razılıqla dedi:

- Hər şey anadan asılıdır. Zərrin elə qadın deyil ki, onun böyütdüyü qız da tərbiyəli olmasın.

- Ay Mələk, qardaşlarının da qızın bu cür tərbiyəsində rolu olub. Yaman dəlisov uşaqlardır Cavidlə Camal. Eşitdiyimə görə, qıza küçədə başını qaldırıb gəzməyi də qadağan ediblərmiş...

Həmid yaxınlaşıb salamlaşdı, bir dənə də badambura götürdü. Xalası onun alnından öpdü:

- Xala qurban, bir sutka gəlini saxlamışam. Bu dəfə Rusiyetdən gələndə xalana qəşəng bir padarka gətirərsən.

Həmid gülümsədi:

- Nə istəsən, qurbandır sənə.

İqbal harasa getdi, yenə gəldi. 5-6 nəfər başqa qohumlar da gəlmişdi. Hamısı deyib-gülürdü. Birdən hansısa hiss Həmidi eyvana çıxartdı.

Əminə düz onların blokunun qarşısında dayanmışdı, yanındakı da, çox güman, bacısı Nərminə idi. Onlar birinci mərtəbənin eyvanındakı bir qızla söhbət edirdilər. Əminə yenə də gödək yubka və dar kofta geyinmişdi. Qonşu qıza deyirdi:

- Yox, nə danışırsan? Dünəndən mamayla qırğındayıq. O deyir ki, kişiynən özüm gedəcəm toya. Biz də deyirik ki, yox, ikimiz gedəcəyik. Axırda papa bizə tərəf çıxdı...

Nərminə söhbətə qarışdı:

- İndi də gedirik parexmaxerskiyə. Gərək, toyda hamıdan bomba görsənək.

Həmid yuxarıdan aşağı Əminəyə baxırdı. Bu an Əminə ilə söhbətləşmək, onun, heç olmasa, əlinə toxunmaq üçün o, hər şeydən keçərdi...

...Qonşu qız Əminəyə deyirdi:

- Koftanı təzə götürmüsən? Nə qəşəngsən, ay canıyanmış...

Həmid evə keçdi, hövlnak ayaqqabılarını geyinib aşağı düşməyə başladı.

İqbalın: - Hara? - sualını cavabsız qoydu.

Guya, Əminəni eyvandan görməmişdi, bir təsadüf idi qarşılaşmaları...

Blokdan çıxdı, qızlar dayanıb söhbət etməkdə idilər. Bir kişi onu qucaqlayıb ucadan dedi:

- Təbrik edirəm, ay Həmid, oğullu-uşaqlı olasan...

Qızların hər üçü onlar səmtə baxdılar. Həmid kişiyə: - Çox sağ ol, - deyib qızlara tərəf boylandı, onlarla salamlaşdı. Əminə cəld başını aşağı dikdi. Nərminə isə gülümsəyərək onunla danışdı:

- Həmid, sizi təbrik edirik. Toyunuzda da necə lazımdır, iştirak edəcəyik...

Vəssalam. Getmək lazım idi. Ancaq... Hansısa hiss Həmidi Əminəyə tərəf çəkirdi. O, qızlara yaxınlaşdı, səsi titrəyə-titrəyə dedi:

- Qızlar, bir-iki şeydə sizinlə məsləhətləşmək istəyirəm.

Əminə başını qaldırmadı.

Nərminə: - Buyurun, - dedi.

Həmid başı ilə Əminəyə işarə elədi:

- Bacınız yaman utancaqdır. Gözü yerdədir. Elə bil, arxeoloqdur, faydalı qazıntı tapacaq.

Hamısı bir-birinə qoşulub gülüşdülər... Əminənin pıçıltısı eşidildi:

- Bacı, gedək. Sonra gecikəcəyik.

Həmid pərt olmasını gizlətmək üçün qolundakı saata baxdı:

- Vay-vay-vay. Doğrudan da, toya lap az qalıb ki. Hələ mənim gedəsi yerlərim var.

Sonra həyətdəki xırda marketin qabağında dayanan taksini göstərib dedi:

- Yolunuz uzaqdırsa, taksiylə aparım sizi. Cipim Uralda qalıb, daha neyniyək!

Yenə Əminə dilləndi:

- Yox, çox sağ olun.

Həmid: - Özünüz bilin, - deyib taksiyə tərəf gedəndə Nərminə astaca Əminəyə dedi:

- Başdan-ayağa risovkadır e.

Əminə də gülümsədi.

Həmidin taksiyə minməkdən savayı əlacı qalmadı. Sürücüyə: - Bulvara sür, - dedi, heç bilmədi də ki, niyə məhz belə dedi.

Əminə onun beynindən çıxmırdı ki, çıxmırdı...

***

Saat 4-ə qalmış İqbalın müşayiəti ilə Həmid dəlləyə gedib qayıtdıqdan sonra bəylik paltarını geyinməyə başladı. Mələkgil nə illah eləsələr də, Həmidə sağdış bəyəndirə bilmədilər. O yalnız İqballa oturacağını israr etdi. İqbal: - Mən toy yiyəsiyəm, toyu yola verməliyəm - desə də, xeyri olmadı, sağdış İqbal oldu.

Tezliklə musiqçilər gəldi. Həyətə düzülmüş maşınlar siqnal çaldı. Hamı yaxınlaşıb Həmidi təbrik edir, Mələyə gözaydınlığı verirdi...

Ancaq Həmid özündə deyildi... Anasının Əminə barəsindəki ağır sözləri düşürdü yadına, düşünürdü ki, anası səhv edir, Əminə o qızlardan olsaydı, bu gecəni mütləq bir yerdə keçirərdilər...

Əlinə yekə bir gül dəstəsi verib onu pilləkənlə aşağı düşürdürdülər. İqbal qoluna girmişdi. Həmid key kimi idi...

Musiqi çalınırdı. Həyətə düşdülər. Həyət adamla dolu idi. Maşınlar sıralanmışdı... Onu ağ «BMW X6» krossoverinə əyləşdirdilər. Şüşədən ətrafdakı gülümsəyən adamlara baxdı. Hamı bəxtiyar görünürdü, təkcə onun özündən savayı.

Maşın yavaş-yavaş tərpəndi. Birdən Həmid adamların arasında Əminəni gördü. Əminə qapqara, uzun məxmər parçadan libas geyinmişdi. Sinəsiaçıq libas ona o qədər yaraşırdı ki...

Maşın yavaş-yavaş gedir, siqnal verirdi. Həmid arxaya qanrıldı. Arxa pəncərədən Əminəyə baxdı. Elə bil, ürəyi Əminənin yanında qırılıb qalmışdı...

Onu bəy olmağa aparırdılar. Üzünü bircə dəfə gördüyü Səbinənin yanına...

31 yaşına kimi oturub gözləmişdi, heç kəsi bəyənməmişdi... Heç kəsi sevməmişdi... Və həmişə də düşünmüşdü ki, bəyənmədiyi, sevmədiyiylə ailə həyatı qura bilməz...

Özünü tanıyandan bəri Rusiyada yaşamışdı, oranın adət-ənənələrini, mentalitetini görüb götürmüşdü. Heç vaxt oranın gəncləri bir-birinə bələd olmadan, aralarında sevgi-filan yaşamadan ailə qurmazdılar, valideyn təhrikinə baxmazdılar. Odey, Gündüz 8-ci sinifdən Gülarə ilə sevişirdi. Dəlicəsinə istəyirdilər bir-birlərini. Valideynləri-

nin təhrikiylə Ülkəri aldı. İndi bədbəxtdir. Haçan baxırsan, ailəsindən şikayətlənir.

Yəqin, onu da belə bir tale gözləyir. Rayondan gələn, həyatında heç nə görməyən, primitiv zövqlü Səbinə axı ona necə arvadlıq edəcəkdi?

Həmid, sanki, keyləşmişdi, beynində bir zoqqultu hiss edirdi...

Səbinə, bəlkə, heç çəngəl-bıçağı da düz-əməlli tuta bilmir... Onunla bir məclisə, restorana çıxmaqmı olar? Yüz faiz, o, heç rusca da danışammır. Sabah, bəlkə, Rusiyaya aparası oldu onu. Ailəvi məclislərdə camaatla əl işarəsiylə danışacaq?

Əminə qapqara, məxmər platyada necə də gözəl idi. Hündür, cazibədar...

Nazlı, işvəli...

... Maşın yavaş-yavaş gedirdi.. Hər şey yavaş-yavaş arxada qalırdı. Subayçılıq, eyş-işrətli günlər, sevgi axtarışı və əlbəttə ki, Əminə! Hər şey və hər kəs arxada qalırdı. «X6» onu Səbinəyə - emosiyasız, hissiyyatsız, ehtirassız, key kimi görünən o kəndçi qızına doğru aparırdı...

... Qəfildən Həmid əlini sürücünün çiyninə qoydu:

- Saxla maşını.

Onun bu sözünü eşitcək sürücü əyləci sıxıb maşını saxladı. İqbal soruşdu:

- Nəsə yaddan çıxıb?

Həmid başını aşağı dikib sakit səslə dedi:

- Mən almıram o qızı...

İqbal qabağa əyilib heyrətlə yanında oturmuş Həmidin düz gözlərinin içinə baxdı:

- Nə dedin?!

Həmid sakitcə dediyi sözləri təkrarladı:

- O qızı almıram...

Arxadan gələn maşın karvanı dayanmışdı, bütün maşınlar siqnal verirdi...

İqbal çaşıb qalmışdı:

- Sən heç bilirsən, nə danışırsan?!

Həmid ah çəkib: - Bilirəm, - dedi.

- Sən heç bilirsən, nə həngamə qopacaq?!

Həmid çiyinlərini çəkdi:

- Neyniyim, başqa yolum yoxdur.

Maşının tərpənmədiyini görən beş-altı nəfər arxa maşınlardan düşüb onların yanlarına gəldi:

- Nə olub, maşın xarabdır?

İqbal onları dala qaytardı:

- Yox, başqa söhbətdir, gedin.

Sonra üzünü Həmidə tutdu:

- Həmid, gəl bizi pas eləmə. Ayıbdır. Qoy işimizi görək.

Həmid siqaret yandırdı:

- Yox, İqbal. Bu, mənim qəti qərarımdır. Mən o qızı almıram.

İqbal yaxasından tutub onu yüngülcə silkələdi:

- Sənin otuz bir yaşın var. Axı camaata necə demək olar ki, toy olmayacaq? Axı belə vacib bir məsələdə sənin kimi bezpridellik etmək olmaz... Camaata necə deyək ki, bəy fikrini dəyişib?

Həmid üzünü yana çevirdi:`

- Necə deyirsiz, deyin!

Siqnal səsləri ara vermirdi. İndi də başqaları gəlib dayanmanın səbəbini soruşurdu. İqbal pərt vəziyyətdə idi.

- Mən kiməm ki?! Gedirəm Mələk xalaya deməyə. O bilər, neyniyər.

Düşüb Mələk oturan maşına tərəf getdi. Bayaqdan nigarançılıqdan içini yeyən Mələk İqbalın ona sarı gəldiyini görüb maşından düşdü, İqbalı yolda haqladı:

- Nə olub, bala?

Artıq adamlar maşınlardan tökülüşürdülər. Hamı başa düşmüşdü ki, nə isə bir xoşagəlməz söhbət var...

İqbal heç kim eşitməsin deyə Mələyin qulağına pıçıldadı:

- Gicbəsər maşını saxlayıb. Deyir, mən qızı almıram.

Elə bil, Mələyin başına bir vedrə qaynar su tökdülər. Gözləri qaraldı. Haçandan-haçana çətinliklə soruşdu:

- Bəlkə, lağlağı eləyir?

- Yox, lağlağı-zad eləmir. Fikri ciddidir.

Mələk yanlarındakı maşınlardan birinə dirsəkləndi... Sonra ağır-ağır bəy maşınına tərəf gəldi.

Sürücü Mələyi görüb maşından düşdü, onları ikilikdə qoydu. Mələk qəhərli səslə dedi:

- Ay bala, bu, nə işdir, mənim başıma açırsan?

Həmid çiyinlərini çəkdi.

- Qurban olum, bizi el içində biabır eləmə. Qoy gedək, işimizi görək.

Həmid üzündə key ifadə başını yırğaladı:

- Yox, mama, mən o qızı almıram.

Mələk gözünün yaşını silə-silə davam etdi:

- Ay bala. Sən rusların içində böyümüsən. Rus kimi hərəkət edirsən. Xalxın gül kimi qızını gətirdib oturtmusan burda. Aləmə car çəkib toy eləyirsən. İndi birdən-birə fikrini dəyişirsən? Axı adama deməzlər ki, ay belə filan, toy eləmək bəyəm oyun oynamaqdır?

Həmid siqaret çəkir, susurdu.

- ... Bizi el içində rüsvay eləmə. Gəl bu daşı ətəyindən tök. Qoy sürücünü çağırım, sürsün maşını. Gedək, toyumuzu eləyək. Sən mənim ağıllı balamsan.

Həmid siqaretin kötüyünü pəncərədən tullayaraq dedi:

- Yox, mama. Məni fikrimdən daşındıra bilməzsiz.

Mələk ovcunun içi ilə sinəsini ovuşdurmağa başladı. Ürəyi elə bərk sancırdı ki...

- Ay bala, xalxın qızının adı ləkələnir. Heç kim deməyəcək ki, bəy nadürüstlük edib. Hamı deyəcək ki, yəqin, gəlin ləkəli olub.

Həmid çiyinlərini çəkdi:

- Xalxın deməyindən mənə nə?! Mən öz həyatımı özüm istəyən kimi qururam.

Mələk hıçqırırdı:

- Heç olmasa, mənə - anana yazığın gəlsin. Səni ona görə böyütmüşəm ki, bu gün üzümə ağ olasan, məni el içində xar eləyəsən?

- Xar niyə olursan e, ay arvad. Bəyəm dünya dağılıb? Qızdır da. Mən almıram, başqası alacaq...

Mələk son cəhdə əl atdı:

- Yaxşı, heç olmasa, atanın ruhuna hörmət et.

Həmid üzünü çevirdi:

- Ay arvad, yox ki, yox!

Mələk yenə nələrsə dedi, ancaq Həmidi fikrindən daşındıra bilmədi.

Sonra maşından düşdü. İqbal ona tərəf gəlib: - Nə oldu? - soruşdu. Mələk başını aşağı dikib evlərinə tərəf qayıtmağa başladı.

Hamı bir-birinə qarışmışdı. Nə baş verdiyini anlamırdılar...

Gülgəz getdi Həmidlə söhbət eləməyə. O da kor-peşman geri qayıtdı. Camaata nəsə demək lazım idi. Hamı gözləyirdi.

Nəhayət, İqbal qışqıra-qışqıra: - Qayıdın, gedin evinizə, toy olmayacaq, - dedi.

... Hərəsi evə bir cür qayıtdı. Blokun ağzı isə bir anda nə baş verdiyini anlamayan qohum-əqrəba, qonum-qonşu ilə doldu.

***

...Evdəki ölü sükutu Gülgəzin 3 yaşlı oğlu Turalın arabir çıxan səsləri pozurdu. O, qazan qapağını maşın sükanı kimi fırladaraq, guya, maşın sürürdü.

Mələk uzanmışdı. Gülgəz onun başını, ayaqlarını, əllərini ovuşdurur, sakitcə ağlayırdı.

İqballa Gülgəzin həyat yoldaşı Məhəmməd üzbəüz oturub siqaret çəkir və susurdular. Həmid divanda oturmuşdu, ayaqlarını da stulun başına qoyub televizora baxırdı. Televizorda yüngül atletika yarışı göstərilirdi. Ancaq durub ona səs verməyə ərinirdi.

Qadınlar qaçırdılar. Sədləri aşa-aşa finişə doğru irəliləyirdilər. Bir qaradərili qadın xeyli irəlidə idi... Quş kimi uçurdu o...

Həmid içindəki narahatçılığı heç cür qova bilmirdi. Başa düşürdü ki, onun bu hərəkətindən sonra çox xoşagəlməz hadisələr baş verə bilər... Ancaq bununla belə, özünü ağır bir yükün altından çıxmış hesab eləyirdi...Və onu da düşünürdü, görəsən, Əminə bildimi ki, bütün bu həngamə ona görə qopdu?

Telefon zənglərdən dağılmaq həddinə gəldiyindən İqbal bayaqdan onu şəbəkədən ayırmışdı. İndi durub yenidən şəbəkəyə qoşdu, nömrələri yığdı.

- Alo, administratordur?.. Hə, toy evindəndir... Zal dolub? Qulaq as, toy ləğv olunur... Necə yəni, niyə ləğv olunur. Olunur da... Yox, e, yüz faiz. Səbəb?... Səninçün nə fərqi var e... Camaata nə deyəsən? Eləcə de ki, ləğv olunur... Nə pul?.. Bilirəm də, batıb. Əlbəttə, sizlik deyil. Siz öz işlərinizi görmüsüz (ah çəkdi). On səkkiz min uçdu, getdi... Qulaq as, muzıkantları yola verə bilərsiz? Əşi gəliblər, çıxıb getsinlər də... Hmm. Zanit eləmişiksə, deməli, pullarını verməliyik?.. Heç olmasa, bir az güzəşt eləsinlər. Kefimizdən eləmirik ki?! Başımıza iş gəlib... Özləri ilə danışmaq lazımdır? Yaxşı-yaxşı, özüm gəlib hər şeyi yerbəyer eləyərəm...

İqbal dayanıb qəzəblə Həmidə baxdı. Həmid gözünü televizora dikmişdi, elə bil, heç nə olmamışdı. İqbal Məhəmmədə: - Dur gedək Mona Lizaya, - dedi.

Onlar çıxıb getdilər. Bayaqdan İqbalın baxışlarından heç də xoşhal olmayan Həmid rahat nəfəs aldı. Sonra durub yataq otağına keçdi. Gülgəz ağlayıb kirimişdi, ana-bala sakitcə nəyisə gözləyirdilər.

- Bəsdirin, yasxana qurduz! Nə olub, dünya dağılıb?! Ürəyə zor yoxdur! İstəmədiyim qızı gətirib mənə nəyə görə arvad eləmək istəyirsiz?

Gülgəz dilləndi:

- Onu özün seçmişdin. Yalan danışma!

- Seçmişdim, bir səhv idi də. İndi səhvimi düzəldirəm.

Anasının başını sığallamağa cəhd göstərdi. Anası qəzəblə başını yana çəkdi.

- Ay mama, sənin bir oğlun var. Axı özün də istəyirsən ki, o xoşbəxt olsun. Bu insident üç-dörd günə unudulub gedəcək. Ailə isə ömürlükdür.

Telefon dalbadal zəng çalırdı.

Gülgəz yenə ağlamağa başladı:

- Camaata nə deyək indi? Bibigilə nə deyək? Yazıq Səbişin nə günahı varıydı, qızı bədbəxt etdin! Atamızın ruhuna sataşdın.

Həmid səsinin tonunu qaldırdı:

- Ay qız, niyə boş-boş danışırsan? Hamısı boş söhbətlərdir. Yenə deyirəm, üç-dörd günə unudulub gedəcək.

Mələk üzünü yana çevirmişdi ki, Həmidi görməsin.

Tural «maşın sürə-sürə» onların yanına gəldi.

- Dayı, masına minirsən? - dedi.

Həmid onun başını sığalladı, üzündən öpdü.

Gülgəz hıçqıra-hıçqıra qardaşına sual verdi:

- Qızı istəmirdin, bəs niyə toya razılıq verirdin? Axı birdən-birə nə oldu sənə?

Bayaqdan susan Mələk axır ki, dilləndi:

- Təzə eşqə düşdü, ay bacısı. Küçədə qalan Suqranın qızına gözü düşdü.

Gülgəz hər ikisinə baxa-baxa: - Ola bilməz, - dedi.

Həmid hələ də nə üçün bu qərara gəldiyini heç kəsə deməmişdi. Odur ki, anasının duyuq düşməsi heç də onu açmadı. O, Əminə məsələsinin belə qabardılmasını, özü də məhz bu günlərdə qabardılmasını istəmirdi...

Yenə Mələk dilləndi:

- Mənim ürəyimə dammışdı. Ürəyimə daman başıma gələr. Bu, toyxanada ağzı sulana-sulana o ifritəyə baxanda ürəyim sancdı, gördüm, bu həna o hənadan deyil...

Mələk hönkürdü:

- Heç vaxt qoymaram, halal süd əmmiş Səbinənin yerinə fahişənin birisini bu evə gətirəsən...

Həmid qışqırdı:

- Mama, səndən tələb edirəm, ağzına gələni danışmayasan. Əminənin fahişəliyini harda görmüsən? O, axı uşaqdır. Adam uşaq haqqında elə deməz.

Mələk də səsini qaldırdı:

- Əminə fahişə deyil, anası-bacısı ki, fahişədir!

- Gözünlə görmüsən?

- Gərək, görəm?! Bütün həyət onlardan danışır. O maşından düşüb bu maşına minirlər...

- Bəyəm maşına minmək pozğunluqdur?

Telefon ara vermədən zəng çalırdı. Mələk ürəyini ovuşdura-ovuşdura üzünü Gülgəzə çevirdi:

- Bir gün görmədim bu dünyada. Gözümün yağını da sizə yedirtdim. Dedim, böyüyərsiz, bütün əziyyətlərimin əvəzini verərsiz. Bu da axırı...

Telefonun zənginin səsi artıq əsəblərə təsir edirdi. Mələk Gülgəzə dedi:

- Dur götür o zibili.

Gülgəz gedib telefonu götürdü...

- ... Hə, Gülgəzdir... Nə olub? Mən... Heç... Anam? Hə, evdədir. Çağırıram.

Gülgəz ağlaya-ağlaya: - Zərrin bibidir, səni istəyir, - dedi.

Mələk yenə ümid dolu baxışlarla oğluna baxdı:

- Həmid, hələ də gec deyil, bala. Bizi yazıq eləmə. Toy olmadı, cəhənnəmə. Pul batdı, yenə cəhənnəmə. Gəl gedək, qızı gətirək, özümüzü aləmə güldürməyək. Bibin telefondadır...

Həmid bir qədər cavabı yubatdı. Bu müddətdə Mələk də, Gülgəz də Həmidin düz yola qayıdacağına, daşı ətəyindən tökəcəyinə ümid etdilər...

Nəhayət, Həmid dilləndi:
- Yox, mama. Mən o qızı almayacam.

***

Elə bil, saatın əqrəblərindən daş asılmışdı. Vaxt keçmirdi ki, keçmirdi... Artıq qohum-əqrəba, tanış-biliş evə gəlib-getməyə başlamışdı. Həmid qonaq otağının qapısını bağlayıb televizora baxırdı. İndi də kişilər hündürlüyə tullanırdılar.

O, baxa-baxa evdəki ən sevimli əşyasını - «Makarov» tapançasını əlində oynadırdı. Tapançanı ekrana tuşladı, guya, atleti vuracaq. Ağzı ilə: - Duf, - elədi. Sonra barmaqları ilə tapançanı sığalladı.

O biri otaqdakı anasının indiki vəziyyəti barədə düşünməyə başladı. Anası pis vəziyyətdə idi, susurdu. Bacısı isə gəlib-gedənlərə utana-utana, yerə girə-girə Həmidin işləklərindən danışırdı.

Yenə tapançanı ekrandakı başqa bir atletə tuşladı, onu da «vurdu». Sonra divanı qaldırıb tapançanı altında gizlətdi. Siqaret yandırdı...

Qəfil qapılarının zərblə çırpıldığını eşitdi. Kimlərsə qəzəblə: - Hanı o?! - qışqırırdı. Birdən ara qapısı laybalay qopub yerə düşdü. Ard-arda iki oğlan içəri atıldılar.

Biri: - Oğraş, bu, nə hoqqadır, çıxardırsan?! - deyə onun yaxasından yapışdı.

- Küçük, qudurmusan?! - bunu da o biri dedi.

Həmid dərhal başa düşdü ki, gələnlər Səbinənin qardaşlarıdır. Məhz bu cür gəlişlərini gözləmədiyindən, onları sakitləşdirməyə çalışdı:

- Uşaqlar, hay-küy salmayın. Gəlin sivil adamlar kimi danışaq.

Camal: - Ə, nə sivil?! - deyib onu sillə ilə vurdu.

Həmid Camalı sinəsindən itələdi:

- Bura bax, sən dünənki patsansan, get böyüyün gəlsin. Mən onunla danışacam.

Bu dəfə Cavid irəli yeriyib Həmidə bir yumruq atdı:

- Oğraş, səni bacımızın namusu üstündə tikə-tikə eləyərik.

Gülgəz, səs-küyə otağa keçən Mələk, daha 2-3 qohum araya girmişdilər, ancaq onları sakitləşdirə bilmirdilər. Həmid də qəzəblənib qardaşlarla əlbəyaxa olmuşdu. Qabqacaqlar qırılırdı. İri çilçıraq çilik-çilik olmuşdu... Həmidin qardaşlara güc gəldiyi açıq-aşkar hiss edilirdi...

Qəfil Cavid cibindən bıçaq çıxarıb Həmidin qarnına soxdu. Həmid də, içəridəkilər də bunu gözləmirdilər.

Həmid qarnını tutub aşağı əyildi. Cavid isə əlində qanlı bıçaq key-key ona baxmağa başladı...

Həmid: - Suka, vurdun məni? - deyib yerə yıxıldı.

Gülgəzlə Mələyin vahiməli çığırtıları bütün binada əks-səda verdi.

## 7-ci HİSSƏ

Gündüz bir daha şairin məşhur bəndini pıçıltıyla təkrarladı:

*- Doğru yazmağa var madam ki, imkan,*
*Neçin gəlməlidir ortaya yalan!*
*Sözün qiymətini saldı yalanlar,*
*Doğrunu danışan hörmətli olar.*

Yalan - indi cəmiyyəti məhvərindən çıxarmaq istəyən bir qüvvədir. Təqribən min il öncə böyük Nizaminin söylədiyi kəlamlar hazırkı cild-cild kitabların, qəzet və jurnalların timsalında necə də doğru görünür... Bu, şairin ortaya qoyduğu ən aktual mövzudur. Onun təsviri sənət formasını yaratmaq isə ən çətin həll ediləcək bir işdir... Əlində piyalə olan qız, şaha təzim edən vəzir, lələklə nəsə yazan mirzə, rəiyyəti şallaqla vuran əyan... Yox, personajlar tam deyil... Nəsə alınmır...

Yalan nədən yaranır? Təbii ki, qorxudan. Qorxu bizim qərar qəbul etməyimizin əsas ləngidicisidir. O, qəbul etdiyimiz qərarı tükürpədici səslə dayandıran əyləcdir.

- Bunu da içək yenə də bəyin sağlığına.

Gündüz uzanan qədəhi öz qədəhi ilə toqquşdurub arağı bircə qurtuma içdi, xiyar şorabasından bir parça götürüb ağzına qoydu...

Yanındakılar soyuq qəlyanaltıyla artıq 2 şüşə araq boşaltmışdılar, o da məcbur olurdu ki, onlarla bahəm vur-

sun. Hərçənd, özünə söz vermişdi ki, daha içməyəcək. Böyrəkləri son vaxtlar heç sözünə baxmırdı…

Bir saat iyirmi dəqiqə idi ki, oturmuşdular. Girişdə bir-iki sinif yoldaşı ilə görüşmüşdü, köhnə məhlədən heç kəs yox idi. Yanında oturanları isə heç tanımırdı… Bəylə gəlin də gəlib çıxmırdılar ki, çıxmırdılar. Yəqin, tıxaclar imkan vermirdi…

Deməк, axır ki, Həmid evlənir… Məktəbdə oxuyanda hərəsi bir qızı sevirdi. Yalnız Həmid heç kəsi bəyənmirdi. Düşük gədə. Videoda pornoya baxanda bir qızı bəyənmişdi, deyirdi, mən o görkəmdə qız axtarıram… Görəsən, nə əcəb, anası tapan qızı almağa razılaşdı? Yoxsa bu qızla idealı arasında bir zahiri oxşarlıq tapdı?

İri stəkanı mineral suyla doldurub içdi, sonra qızardılmış toyuğun qol hissəsini götürüb dişinə çəkdi…

Sevgi əksər halda bizi uçuruma aparan bir gözübağlılıq və məsuliyyətsizlikdir, sən demə. Ancaq səni sevənləri qorumalısan, buna gücün çatmasa da, ən azından, onları qorumağı müqəddəs Tanrıdan diləməlisən…

Yenə fikirləri üzərində işlədiyi əsərə gedib çıxdı… Bəlkə, bir uşaq obrazı da gətirsin ora? O uşaq piyaləli qızla, şallaqla döyülən rəiyyətlə bir cərgədə yalan adlı bəladan əziyyət çəksin, yaltaq vəzirlə hər şeyi saxta yazan mirzə isə yalanı yaradıb yaşadanlar, bərqərar edənlər olsunlar…

Gündüz düşündü ki, böyük mütəfəkkir təkcə bədii əsər yaratmaq xətrinə yazmayıb, oxucuda adicə maraq oyatmaq istəməyib, onun əsas məqsədi insanlara müsbət keyfiyyətlər aşılamaq, bəşəriyyəti kamilliyə, xoşbəxtliyə aparan yolları göstərmək olub. Və məhz buna görə də söylə-

yib ki, doğru yazmağa imkan varsa, niyə ortaya yalan gəlməlidir?

Ən pisi isə odur ki, güclülərin yalanı zəiflərin həqiqətinə çevrilir. Yalana insanları inandırmaq üçün ona azacıq həqiqət qata-qata sonda elə bir vəziyyət yaradırlar ki, həqiqətə insanları inandırmaq üçün ona yalan qatmağa məcbur olurlar...

... - Toy ləğv olunur, ay camaat.

Yox, yox, qulağına səs-zad gəlmirdi, zalı səs-küy bürümüşdü. Qonaqlar durub çıxışa doğru getməkdə idilər... Necə yəni, toy ləğv olunur?!

Gündüz nə illah eləsə də, əlavə məlumat ala bilmədi. O da adamlara qoşulub şadlıq sarayını tərk elədi. Görəsən, birdən-birə nə oldu? Heç kəs doğru-dürüst bir şey söyləyə bilmirdi. İraq olsun, hansı bədbəxtçilik baş verdi ki, toy ləğv olundu? Rəhmətə gedən olanda da toyu saxlamırlar, keçirirlər. Bu qədər xərc tök, sonra da...

Telefonunu çıxarıb Həmidin nömrəsinə çağırış atmaq istədi, nömrə bağlı idi... Yenə nə qədər cəhd eləsə də, bir dürüst şey öyrənə bilmədi. Həmidgilin ev nömrəsini yığdı, nömrə məşğul idi... Təzə ünvanlarını da bilmirdi ki, evlərinə getsin.

Emalatxanaya qayıtmaq istəyi tamam ölmüşdü. Evə getməyə qərar verdi...

... Təzə Pir məscidinin yanından sağa buruldu, dar, dolanbac yollarla irəlilədi, bu da kirayədə yaşadığı mənzil... Rəngi tökülmüş taxta qapını döydü, qızı Aydanın «Kimdir?» - sualına: «Kim olacaq, mənəm», - cavabını verib içəri keçdi. Əlini Aydanın başına çəkdi, oğlu Rizvan da

onun yanına gəldi, onu da yüngülcə qucaqladı. Aydanın səkkiz, Rizvanın altı yaşı var idi.

Qız 3-cü sinfə keçmişdi, oğlan bu il 1-ciyə gedəcəkdi...

Ortadan pərdə ilə ikiyə bölünmüş bir otaq idi. Pərdənin o üzü yataq yerləri idi. Yerə döşənmiş bir döşəkdə Gündüzlə Rizvan, o birində isə Ülkərlə Aydan baş-ayaq yatırdılar. Pərdənin bu üzü isə həm dəhliz, həm mətbəx, həm də qonaq otağı idi. Giriş qapısının solunda, balaca bir yerdə ayaqqabılar düzülmüşdü, üstündən taxta rəflərə pal-paltar yığılmışdı. Sağda əl-üz yuyanın altında qab-qacaq, stəkan-nəlbəki və qazanlar qoyulmuşdu. Sonra qaz plitəsi quraşdırılmışdı. Ortada stol, stul var idi. Divarın qarşısında isə bir köhnə bufet və kiçikekranlı, ağ-qara göstərən televizor...

Əlini yaxalayıb stolun arxasında əyləşdi. Ülkər təəccüblə soruşdu:

- Nə tez gəldin? Dostunun toyudur. Oturardın axıradək. Bir az eynin açılardı.

Gündüz siqaret yandırdı:

- Toy olmadı.

Ülkər ikiqat təəccübləndi:

- Necə yəni, toy olmadı?!

Gündüz havaya üfürdüyü tüstünü gözü ilə müşayiət edə-edə cavab verdi:

- Xolodnılardan yedik, bir az vurduq. Sonra da dedilər ki, toy olmayacaq. Biz də dağılışdıq.

- Axı nə səbəbə?

- Öyrənə bilmədim.

Otağı bölən pərdənin rəngi solsa da, tərtəmiz idi. Ülkər tez-tez pərdəni, döşəkağıları, əyin-başlarını yuyurdu,

otağı həmişə səliqə-sahmanda saxlayırdı. Divarın kağızlarını da tez-tez silərdi. Ancaq kağızlar həm köhnəlikdən, həm də Gündüzün siqaretlərinin tüstüsündən saralmışdı... Üstündəki xırda naxışlar seçilməz olmuşdu...

- Ev yiyəsi gəlib yenə haray-həşir qopartdı, dedi, ayın axırına kimi pulu ödəməsəz, əşyalarınızı bayıra atacam.

Gündüz Ülkərin dediklərini eşidib əlini stola çırpdı:

- Mən köpəkoğlu neynəyim?! Hardan çıxarım pulu?! Axı dedim, Rəyasət müəllim pulu verən kimi hər şeyi həll edəcəm. Niyə qoymursuz, rahat yaşayım?!

Ülkər ah çəkdi:

- Mən sənə nə deyirəm ki?! Deyirəm, ev yiyəsi gəlib pulunu istəyib.

- Qələt eləyir ev yiyəsi! Eşitdin?!

- Eləyir, eləsin də. Ancaq sən evdə olmursan, o, gəlib bizi narahat edir. Uşaqlar da qorxurlar. Deyirlər, burdan çıxsaq, küçədə yaşayacağıq?

- Yaxşı, bəsdir. Bir də gələndə qapını açma. Deynən, get, evin kişisiylə danış!

Siqaretin kötüyünü külqabıya basıb birini də yandırdı. Aydan «Özün rənglə» kitabındakı heyvan şəkillərini rəngləyir, Rizvansa ona tamaşa edirdi. Ülkər əli qoynunda ayaq üstündə durmuşdu, gözləri yol çəkirdi.

- Bir stəkan zəhər ver də. Qapıdan girənin qabağına çay qoyarlar.

- Dedin, yeyib-içmişəm. Mən nə bilim, çay istəyirsən?!

Ülkər qaz plitəsinin üzərində olan çaydanın altını yandırdı.

*Kim tikan əkərsə, tikan dərəcək,*
*Kim nicat verərsə, nicat görəcək.*

Çəkəcəyi rəsm əsərinin bu hissəsi lap çətin idi. Tikan əkib tikan dərmək, nicat verib nicat görmək... Və bunu doğru və yalanın mübarizəsini özündə əks etdirən personajların üzərinə əlavə etmək lazım idi. Yox, mütləq əlavə bir personaja da ehtiyac var. Ağsaqqal, nurani bir qoca da olmalıdır əsərdə... O, əlişallaqlı əyanın tikan əkdiyini, əliləlkli mirzənin tikan dərəcəyini isbatlamalıdır. Ancaq necə?

Böyük şairin stolun üstündəki «Aforizmlər» kitabını vərəqləyə-vərəqləyə Ülkərin gətirdiyi çaydan qurtumladı. Düşündü ki, insanların hər birində min illər öncəki dədə-babalarımızdan, nənələrimizdən üzü bəri soyumuzu təşkil edən hər bir kəsdən nəsə var. İnsanların hər biri min illərdir ki, formalaşıb. Elə kitablar da min illərdir ki, formalaşırlar. Min illərdir ki, insanlar kitaba, kitablar da insanlara doğru yol tutub getməkdədirlər.

Qəfildən üzünü Ülkərə tərəf çevirdi:

- Sabah sizi Cəlilabada yola salacam.

Uşaqlar: - Urra! - deyib qışqırışdılar, Ülkər üzündə çaşqınlıq ifadəsi döyüküb qaldı. Handan-hana:

- Bu, nə qəfil qərardır belə, - söylədi.

Dərhal da soruşdu:

- Bəs işim?

Gündüz etinasızlıqla dedi:

- Baş həkimə deyərəm, icazə verər.

Ülkər gəlib onun qarşısında əyləşdi:

- Pul qazanmısan, hə? Bir az ayın-oyun, pay-pürüş alaq. Yaxşı deyil, qocalar uşaq kimi olurlar, diqqəti sevirlər. Üstəlik, o qədər qohum-əqrəba var. Hamı pay umur.

Gündüz növbəti siqaretini alışdırdı:

- Yox, heç nə qazanmamışam. Heç yolpulu da verə bilməyəcəm. Qardaşına de, sizi avtovağzalda qarşılayıb evə aparsın, yolpulunu da qoy özü versin. De ki, gecikirdik, evdən başıalovlu çıxdıq, pulqabını unutdum...

Ülkər yerindən durdu, başını yellədi:

- Yox, Gündüz. Mən getməyəcəm. Artıq utanıb yerə girirəm. Axı nə qədər olar?

- Nə nə qədər olar?

- Bax, bu dolanışıq, bu ehtiyac, bu sıxıntı.

Gündüz yerindən dik atıldı:

- Xoşuna gəlmir?! Gəlmir, çıx get! Get xoşuna gələnin yanına!

Sonra səsini lap qaldırdı:

- Məni bəyənmirsən, hə?! Səni ac-susuz saxlayıram, kirədə qalırsan, əyin-başın yoxdur, hə?!

Uşaqlar qorxa-qorxa Gündüzə baxırdılar.

Ülkər onu sakitləşdirməyə çalışdı:

- Yaxşı, coşma. Söz demək olmur sənə.

Gündüz ayaqqabılarını geyinə-geyinə səsini qaldırmaqda idi:

- Bütün həyatımı məhv etmisən. Sənə insanlıq, istedad, ziyalılıq lazım deyil, sənə ancaq pul lazımdır. Ancaq pul!

Qapını çırpıb həyətə, oradan da küçəyə çıxdı. Şər qarışmışdı, bürkü idi. Dükanın qarşısında üç-dörd nəfər əyləşmişdi. Onlarla salamlaşıb dükana girdi. Dükançı onu görcək əlini əlinə sürtdü:

- Hə, rəssam qərdeş, deyəsən, borcları qaytarassan bu gün. Sağ əlim qaşınır.

Gündüz soyuducu vitrindəki sərin pivələri görüb udqundu, dodaqlarını yaladı:

- Uzağı bir həftəyə bütün borcumu ödəyəcəm. Bilirsən də, əlimdə çox super işlər var, sponsor da ayrılıb, yəqin, eşitmisən, Rəyasət müəllim...

Dükançı onun sözünü kəsdi:

- Qədeş, o Rəyasətdir, Prizidiumdur, nədir, onun söhbətini bir aydır ki, eləyirsən. Ancaq ortada bir şey yoxdur.

Gündüz gözünü pivədən çəkə bilmirdi:

- Allah haqqı, ödəyəcəm borclarımı. Xaricdə sərgim olacaq, mənə mister Ələkbərli deyib, böyür-başıma keçəcəklər, banklarda hesablarım açılacaq. Sənin dükanını da qardaşın qəşəng təmir elətdirər. İstəsən, bir az da böyüdərik. O biri tərəfində də pal-paltar...

Dükançı yenə onun sözünü kəsdi:

- Qədeş, nağdını qoyub nisyənin dalınca qaçan deyiləm mən. O dediklərini özünə saxla, ancaq mənə əlli yeddi manat borcun yığılıb. Mən də firmalara verirəm də. Nə qədər onları fırlatmalıyam sənə görə?

Gündüz əlini hülqumuna çəkdi:

- Mən ölüm, ödəyəcəm. İki dənə də bu pivədən ver, altmış manatıvı gətirib ödəyəcəm.

Dükançı, ilk öncə, razılaşmaq istəmirdi, ancaq Gündüzün xahiş-minnətinin qarşısında duruş gətirə bilmədi:

- Gələ, bu, sənin iki pivən. Altmış manatı beş günə çatdır. Kişiliyi, cayilliyi tapdalama, eyibdir səninçün.

Gündüz and-aman edib dükandan çıxdı, pivənin birinin qapağını pəncərənin dəmir pəncərəaltında açdı və başına çəkdi. Buz kimi pivə yanan ciyərinə bir sərinlik gətirdi.

Düşündü ki, yalnız həyatın mənasız bir şey olduğunu başa düşdükdən, tarixdə qalmaq, mənəvi kamilləşmək, əxlaqlı olmaq, zirvəyə yüksəlmək nağıllarının bir tiryəkə bənzədiyini anladıqdan, vuruşlarının və çabalarının mənasızlığını dərk etdikdən, əlin-qolun yanına sallandıqdan sonra yaşamaq asanlaşır...

Onunçünsə hələ həyat çox mürəkkəbdir. Deməli, hələ inam var. Qarşıdakı məqsədə mütləq çatacağına özünü bir daha əmin etdi. Baxmayaraq ki, maneələr çoxdur, baxmayaraq ki, yolların əksəriyyəti dalana dirənir, müvəffəqiyyət qazanacağına bütün varlığı ilə inam hiss elədi.

İkinci pivə şüşəsini də açıb başına çəkdi. Beynindən keçirtdi ki, insanlar iki qismə bölünür: Bir yarısı sualdan yapışıb, bir qismi cavabdan. Sualdan yapışanlar idealistlər, cavabdan yapışanlar isə materialistlərdir. Sual axtaranlar mənəviyyatdan, cavab axtaranlar isə maddiyyatdan əl çəkə bilmirlər. Birincilər başqaları üçün yaxşı olmağa çalışdıqları halda, ikincilər yalnız özləri üçün çalışırlar. Və bu gün cəmiyyət elə bir həddə çatıb ki, birincilər ikincilər üçün səfehlərin səfehləridirlər...

Bunları düşünəndən sonra isə ruhdan düşdüyünü hiss etdi. Səkinin üstündə əyləşib siqaret yandırdı.

## 8-ci HİSSƏ

Əvvəl işıq var idi, sonra zülmət gəldi. Əvvəl zülmət var idi, sonra işıq gəldi... Biri var zülmətin içində işıq axtarasan, biri də var, işığın içində zülmət... Birincidə sən nikbin, sabahkı günə inanan bir insan ampluasında görünürsən. İkincidə isə sən mənən, ruhən ölmüş birisən...

***

Həmid gözlərini açdı. Ağappaq palatada heç kim gözə dəymirdi. Qarnına bıçaq girəndən gözünü açdığı indiki ana qədər nə qədər vaxt keçdiyini bilmirdi. Bütün bu vaxt kəsiyində özünü «o dünyada» hesab etmişdi... Odur ki, birdən-birə sağ qaldığını görmək onun özü üçün də gözlənilməz idi...

İçini güclü bir sevinc hissi çulğadı. Deməli, o ölməyib, sağdır.

Ətrafa baxdı. Pəncərədən içəri günəş şüaları düşürdü. Külək qarağac yarpaqlarını yelləDirdi. Palatanın divarları, tavanı, habelə onun yorğan-döşəyi gözqamaşdırıcı dərəcədə ağappaq idi...

Dolabının üstündə qalaqlanmış dava-dərmana baxdı. Sonra yüngülcə üstündəki nazik yorğanı qaldırıb tənziflə sarınmış yara yerinə boylandı. Boynunu, əllərini, ayaqlarını tərpətdi, bütün əzalarının yerli-yerində olması qənaətinə gəlib dərindən nəfəs aldı...

Qəribədir, insan öldüyünü zənn edir, ancaq birdən ölmədiyi ona bəlli olur... Elə bil, dünyaya ikinci dəfə gəlirsən... Özünü lap körpəcə uşaq kimi zənn edirsən...

Siqaret çəkmək istədi. Nə isə bir yanğı var idi sinəsində. Deməli, həyata yenidən qayıdır... Və həyatda atacağı ilk addım da o «südəmər küçük»ləri cəzalandırmaq olmalıdır...

Səbinənin qardaşlarını nə cür cəzalandıracağını xeyli götür-qoy etdi...

Ancaq fikirlərini axıra çatdıra bilmədi, Əminə gəldi, durdu gözünün qabağında... Eynən toyxanadakı əyilib yeri süpürdüyü vəziyyətdə...

- Oyanmısız?

Ağ xalatlı cavan bir qız (çox güman ki, şəfqət bacısı idi) bu sözləri söyləyib əlini onun alnına qoydu, sonra palatadan çıxdı.

Bəs niyə «oyanmısız?». Bəyəm o yatmışdı ki? Axı o ölüb-dirilmişdi. Gərək, ağ xalatlı xanım ona: «Oyanmısız?» - deməyəydi. Bəs nə deyəydi? «Dirilmisiz?»

Bu barədə düşünə-düşünə gözlərini qapıya dikmişdi. Qapı açıldı. Həmin ağ xalatlı qızın müşayiəti ilə anası, bacısı, bir də İqbal içəri keçdilər... Görüş prosesi çox təsirli oldu, hətta ağ xalatlı qızın gözləri də yaşardı...

Əsası o idi ki, Həmid əzizlərinin ona münasibətində yenə əvvəlki kimi bir doğmalıq hiss edirdi. Anası Mələk bütün baş verənlərə indi tamam başqa səmtdən yanaşır, elə hey bircə balasına qıyan Camalla Cavidə qarğışlar yağdırırdı. Gülgəz də qardaşının atdığı düşünülməmiş addımdan çox onun nəticələrindən danışırdı. İqbal isə qardaşlar barədə Həmidin: «Öz düşmənlərimdən özüm qisas alacam», -

deməsinin əvəzi olaraq ona öyüd-nəsihət verir, polisin istintaq apardığını, qardaşları damladığını bildirirdi...

Həmid çox sevinirdi ki, doğmaları bu dəhşətli hadisədən sonra onunla həmrəydirlər. Hətta anası arada bir dəfə «Ay bala, Allah da səni sınağa çəkir, bəlkə, hər halda barışasız, alasan o qızı, düşmənçilik eləməyəsiz» söyləyəndə Gülgəz Həmidə macal vermədən cavabı özü vermişdi:

- Allah vurmuşdu onları. Gəlib adam balası kimi məsələni ayırd etmək əvəzinə, qudurmuşluqdan bıçağa əl atırlar... Onlar kimdirlər ki, təzədən onlarla barışaq?!

Hər şey Həmidin istəyinə uyğun idi, hadisələr onun arzuladığı məcrada inkişaf edirdi... Növbəti addımı atmaq lazım idi.

***

Ancaq həmin növbəti addımı atmağı Həmid 4 gün sonraya saxladı. Bu müddətdə istintaq aparan polis kapitanına hər şeyi olduğu kimi danışıb qardaşların uzunmüddətli cəza alacaqlarına tam əminlik qazandı.

Dostları, yaxın qohumları vaxtaşırı gəlib onu yoluxdular. Hamı nədənsə öyüd-nəsihət ruhunda köklənmişdi. Təkcə Gündüz onun atdığı addımı düzgün saydı, elə beləcə də dedi:

- Hətta səhvlər, səfehliklər belə gözlənilmədən nədəsə insana uğur gətirir...

O qədər də ağır olmayan yarası sağalmağa meyilli olduğu üçün Həmid 4 gün sonra xəstəxanadan evə buraxıldı...

Nəhayət, ehtiraslar sakitləşəndən, gərginlik səngiyəndən sonra anasına Əminəni almaq istədiyini bildirdi. O,

anasını dilə tutub onu bu izdivaca razılaşdıracağına əmin idi. Əvvəlcə isə bacısı Gülgəzi yola gətirmişdi, ondakı düşmənçilik hissləri Həmidin lap karına gəlmişdi.

- Bacı, indi hər şeyi pul həll etmir? Gör iş nə yerə çatıb ki, o bezprizorniklər mənim kimi əli pulnan oynayan adamı vururlar. Axı onlar heç mənim əlimə su tökməyə də yaramırlar... Öz kəndçi, ucuz ağılları, panyatkaları ilə gəlib bizə qohum olacaydılar? Yaxşı oldu, dostu düşməndən seçə bildik... Özün bilirsən, məni evləndirmək qəliz məsələdir... Əgər mən razılıq verirəmsə, bu, sizə bir sürprizdir. Mən Əminəni almaq istəyirəm, vəssalam.

Gülgəz əvvəl qardaşına etiraz etmişdi:

- Həmid, axı onların ailəsi pis ailədir. Axı o qız...

Həmid dərhal bacısının sözünü kəsmişdi:

- Bacı, bu temada bizim aramızda söhbət olub. Mən Əminəni alıram, onun anasını, bacısını almıram ki? Gəlib bu evin gəlini olduqdan sonra ayağını kəsərəm, öz evlərinə gedib-gəlsə. Əsası odur ki, mən o bezprizornıy ailəni yandıracam, onlara acıq verəcəm. Qoy partlasınlar. Qoy toyumun səsindən yanıb-tökülsünlər... Mənə Əminəni almasaz, çıxıb gedəcəm Rossiyaya, bir də heç vaxt gəlməyəcəm.

Həmid bu müddətdə İqbalı da yola gətirmişdi. Dostunu bıçaqlayan qardaşların əlindən zəncir çeynəyən İqbal Həmidin lap Məşədi İbad kimi «O olmasın, bu olsun» söyləyərək Əminəni almaq istədiyini elan etməsini öncə tərəddüdlə qarşıladı. Əslən Cənub bölgəsindən olan İqbal həyatın yazılmamış qanunları ilə yaşamağa daha çox meyilli idi. O, bir şeyi bilirdi: Namus kişi üçün ən vacib şərtdir. Ancaq Həmidin gətirdiyi arqumentlər daha inandırıcı görünürdü: Faktiki

olaraq qızın özünün pozğunluğunu sübut edən heç bir tutalğa yox idi. İqbalın Əminəyə olan müsbət münasibətini formalaşdıran ən əsas şey isə qızın Həmidlə görüşə çıxmaması, onun hədiyyə-filana aldanmaması idi... Fakt hər şeydən üstündür. Bu əhvalatda isə faktlar Əminənin xeyrinə idi...

Nəhayət, gözlənilən gün gəlib çıxdı. Sentyabrın 5-də Həmid İqballa Gülgəzin müşayiəti ilə öz planlarını anasına açıqladı. Təbii ki, Mələk oğlunun belə bir addım atacağını gözləyirdi. O da bunun əksi olaraq Həmidi atasının ruhuna, adətənənəyə hörmət etməyə, düşmənçiliyə yol verməməyə çağırmağı, Zərringillə barışıb Səbinəni toysuz-filansız da olsa, bu evə gəlin gətirməyi planlaşdırırdı. İndi oğlu ağzını açan kimi Mələk öz planlarını açıqladı, Əminənin ayağının bu qapının kandarına toxunacağına yol verməyəcəyini bildirdi.

Oğlunun: - Heç nə məni fikrimdən daşındıra bilməz. Ya Əminə, ya da heç kim. Sabah şələ-küləmi yığıb qayıdıram Yekaterinburqa, - deməsindən sonra isə hönkürtü ilə ağladı, çətinliklə dedi:

- Mən səni ona görə böyütməmişəm ki, gedib pozğunu alıb bizim sümüyümüzü it sümüyünə calayasan. Özümü öldürəcəm, belə şərəfsizliyə dözmərəm...

Tezliklə Gülgəz, sonra da İqbal söhbətə qoşuldular, özlərini təhqir olunmuş saydıqlarını, yalnız Həmidi dərhal evləndirməklə düşməndən qisas alacaqlarını bildirdilər. Əminənin günahsız, zavallı qızcığaz olduğunu dönədönə vurğuladılar....

Mələk onlara cavab vermədən durub öz otağına keçdi, qapını bağladı. Bir müddətdən sonra Gülgəz gedib yenə də anasının qılığına girdi. Şam yeməyində İqbal qədim El-

ladadan tutmuş müasir sivil Avropa ölkələrinədək hər birində normal kişi-qadın münasibətlərindən, klassik sevgi dastanlarından dəm vurdu, dostunun alicənablığını önə gətirdi: əgər onlar demiş, Əminənin ailəsi pozğundursa, tezliklə o qız da pozulacaq. Bəs elə isə, nəyə görə Həmidin onu xilas etmək cəhdi yüksək qiymətləndirilməsin?

Axşam Həmid nümayişkaranə surətdə çamadanını yığışdırmağa başladı. Gülgəz də ağlamsınıb: - Sənə duru yeməklər, meyvə şirəsi, qulluq lazımdır. Yarıcan halda hara gedirsən? - söylədi.

İqbal zəng edib Yekaterinburqa 2 təyyarə bileti sifariş verəndən sonra Mələk çıxılmaz vəziyyətdə olduğunu tamamilə dərk etdi. İçindən qopan ağrı və qəhərin təsirindən: - Yaxşı, al o Suqranın küçüyünü. Ancaq, heç olmasa, ayıbınıza kor olub toy eləməyin, - dedi.

Gülgəzlə İqbal sevinclərindən Mələyi qucaqlayıb öpdülər. Həmid isə razılıqla gülümsədi...

***

Elə ertəsi gün, sentyabrın 6-da Gülgəz və xalası Əminəgilə elçi getdilər. Özlərindən qat-qat aşağıda olduqlarını zənn etdiyi bu adamların dərhal razılıq verəcəklərini güman edən Gülgəz yanıldı. Suqra: - Mən kiməm ki? Əsas atasının fikridir, - deyib öz çiynini məsuliyyətdən kənarlaşdırdı. Barat isə: - Əminə hələ uşaqdır, Nərminəni verməyincə onun toyundan söhbət belə gedə bilməz, - dedi.

Hirsindən partlamaq həddinə çatan Gülgəz evə «əliboş» qayıtdı. Mələk isə ürəyinin lap dərinliyində bu izdivacın baş tutmamasına sevindi.

Həmid də, İqbal da bu xəbəri gözləmirdilər. Odur ki, hər ikisi bərk həyəcan keçirdilər, əsəbiləşdilər...

Gülgəz tarıma çəkilmiş əsəbləri sakitləşdirə bildi, hamının yadına el adət-ənənəsini saldı:

- Elçiyə dərhal heç bir qız evi hə demir.

Onlar növbəti gün telefonla qızın anasına bir də gələcəklərini bəyan etməyi qərara aldılar. Ancaq Gülgəzin telefon zənginə Suqra yenə də ümidverici cavab vermədi:

- Həmid kimi oğlana qız vermək hər bir ana üçün şərəfdir. Ancaq Əminə hələ uşaqdır, ev qızıdır. Getdiyi-gəldiyi ancaq məktəblə ev olub. Heç biş-düşü də düz-əmməli bacarmır. Həyat təcrübəsi yoxdur. Onun ərə getmək yaşı deyil axı. Bir də ki... Həmidin toy həngaməsi bizi yaman qorxudub... Nə gizlədim, Əminənin məndən heç bir sirri yoxdur. Həmidin ona vurulmasını, özü də lap dəhşət vurulmasını biz bilirik. Ancaq kişi də, mən də qorxuruq. Toy günü toydan imtina edən Həmidə axı necə bel bağlamaq olar? Odur ki, bizdən inciməyin...

Bu söhbət Həmidi lap əsəbiləşdirdi. O, hirsindən dodaqlarını gəmirə-gəmirə bir xeyli müddət nə edəcəyini götür-qoy etdi. Hər halda qətiləşdirdiyi o oldu ki, tezliklə Yekaterinburqa qayıtmayacaq, buralıq işləri çoxdur. Ayağını yerdən qaldırmaq üçünsə avtomobil ona çox vacibdir. Uralda 200-lük «Land Cruser» almışdı təzəlikcə. İndi ucuzvarı bir avtomobil almaq istəyirdi. Ancaq taksi ilə bir neçə avtosalonu gəzdikdən sonra ucuz avtomobillərin heç birini özünə sığışdırmadı. Nəhayət, «BMW X5» almaq qərarına gəldi. Salonda danışdı, gördü, 3 illik kredit ona sərf eləyər. Məhəmmədin adına kredit sənədləşdirib avtomobili aldı.

İqbalın hay-küyünə baxmayaraq bir neçə gün sakitcə oturub gözlədi.

- İş yanır, burda boş-boş avaralanırıq. Niyə qayıtmırıq ki? - suallarını «sabah», «bir gün də döz» sayaq cavablarla neytrallaşdırdı.

Nəhayət, sentyabrın 15-də «X5»-ə əyləşərək saat 2-yə işləyəndə Əminə oxuyan məktəbin qarşısına gəldi, dayanıb onu gözləməyə başladı.

Ehtiyat üçün qapıçıdan $11^b$ sinfinin içəridə olub-olmaması ilə maraqlandı... Əminəgil dərsdə idilər. Həmid tez-tez qol saatına baxa-baxa, ürəyi döyünə-döyünə qızın yolunu gözləməyə başladı.

Birdən zəng səsi eşidildi, gur səs lap diksindirdi onu. Nədənsə yadına yenə Yekaterinburqda İrinanı ələ almaq üçün qurduğu şou düşdü: gül səpə-səpə rəqs edən oğlanlar, bu mənzərəni İrinanın ağzıaçıq süzməsi kino lenti kimi gözləri önündən gəlib keçdi...

Həmid köks ötürdü, pıçıltıyla türk serialından eşitdiyi:
- Burası Bakı, burda farklı kurallarla yaşıyor insanlar, - sözlərini təkrarladı.

Əminəgilin ailəsinin onlara qarşı saymazlıq nümayiş etdirməsi Həmidə çox pis təsir etmişdi. Xüsusilə də qonşuların «pas vəziyyətinə düşən uğursuz bəy»ə güləcəkləri mənzərəsi Həmidi odlandırırdı. O, bunu gözləmirdi. Əvvəl, sadəcə, gəzmək, aşnalıq təklifi Əminə tərəfindən rədd edilmişdisə, indi ailə qurmaq təklifi Əminənin valideynləri tərəfindən rədd edilmişdi...

Uduzmağı sevməyən Həmid nəyin bahasına olursa-olsun, bu ailəyə öz yerini göstərməyi qərarlaşdırmışdı...

... Nəhayət, Əminə üç qızın əhatəsində qapıda göründü... Qısa məktəbli paltarı onu o qədər gözəl göstərirdi ki... Həmid istəklisini görcək, sanki, bütün hirsinin-hikəsinin yox olduğunu hiss etdi...

Qızlar deyirdilər, gülürdülər. Birdən Əminə «X5»-ə söykənib siqaret çəkə-çəkə ona baxan Həmidi gördü, ayaq saxladı. Gülüşü dodağında donub qaldı. Qızlar ondan nə baş verdiyini soruşdular, Əminənin cavabını gözləmədən hər üçü məsələni başa düşdülər. Təbii ki, Əminə imkanlı bir oğlanın ona elçi düşdüyünü rəfiqələrinə danışmışdı... Qızlar maraqla Həmidə baxdılar.

Onlardan biri: - Nə bomba oğlandır, - dedi. Digəri: - Ay qız, bəxtin açılıb, - söylədi. Başqa birisi: - İks beşinə bax, yağ içindədir, - deyə əlavə etdi.

Əminə astaca: - Qızlar, gözləyin, - söyləyib Həmidə yaxınlaşdı. Gülümsəyib titrək səslə: - Salam, - dedi. Həmid dilinin topuq vurduğunu hiss etdi, bu kiçik qızcığazın qarşısında bu qədər aciz olduğunu duyub ah çəkdi.

Əminə yapışıqlı səslə: - Həmişə ayaq üstə, - söylədi. Azacıq susub əlavə etdi:

- Sizin bıçaqlandığınızı eşidib çox üzüldüm. Bilirəm, günahkar mənəm. Gərək, belə olmayaydı...

Həmid başı ilə avtomobilə işarə elədi: - Otur, səni aparım.

Əminə: - Yox, nə danışırsız. Qızlar məni gözləyir, - söylədikdən sonra dərhal da əlavə etdi:

- İks beşiniz superdir. Təzə götürdüz? Mübarəkdir!

Həmid nisbətən qətiyyətlə açıq qoyduğu arxa qapını göstərdi:

- Camaat baxır, məni pas eləmə. Otur!

Əminə: - Yox, siz gedin, - deyib arxaya çevrildi, qızlara tərəf getmək istədi. Birdən içinə dolmuş qəzəb hissinin bolluğunu nümayiş etdirə-etdirə Həmid arxadan onun biləyindən yapışdı, darta-darta avtomobilə tərəf çəkdi:

- Bəsdir, məni aləmdə biabır etdin, başını kəsərəm sənin!

Əminə: - Buraxın, incidir, - deyib qışqırdı, ancaq Həmid onu quş kimi qucağına alıb avtomobilin arxa oturacağına atdı. Dərhal da mühərriki işə salıb təkərlərin tükürpədici səsinin müşayiəti ilə oradan uzaqlaşdı.

Qızlar döyükə-döyükə onların ardınca baxdılar. Biri çantasından mobil telefon çıxarıb cəld nömrə yığmağa başladı:

- Qızlar, Suqra xalaya deyək ki, Rusiyadan gələn oğlan Əminəni qaçırtdı...

***

...Arxa oturacaqda oturmuş Əminə dalbadal Həmiddən soruşurdu:

- Hara aparırsız məni?

- ...

- Axı hara gedirik?

- ...

- Evimiz axı bu səmtdə deyil...

- ...

- Saxlayın, düşüm...

- ...

- Ay Allah, bəxtdən konturum da yoxdur ki, evə zəng eləyim.

Həmid isə mobil telefonunu da söndürüb, heç nə olma-

yıbmış kimi avtomobili rahatca sürürdü. Yalnız Binəqədi yoluna çatanda Əminə hara getdiklərini başa düşdü:

- Məni bağınıza aparırsız?...

- ...

- Xahiş edirəm, düşürdün məni... Bilirəm, məni Novxanıya aparırsız. Bu yolu tanıyıram. Xalamgilin bağına da bu yolnan gedirik...

- ...

- ... Mən hamısını bilirəm. Novxanıda villanız var. Səbinəni də ilk dəfə ora gələndə görmüşdünüz...

- ...

- Saxlayın, düşüm... Axı niyə məni bağınıza aparırsız? Mən qorxuram, saxlayın...

Neftli-mazutlu gölməçələrin yanından keçdikcə içəri kəsif qoxu dolurdu. Həmid dil boğaza qoymayan Əminəni güzgüdən seyr etməkdəydi. Daha heç bir şübhə ola bilməzdi. Bu balaca, gözəl, ürkək qız indi onunku idi...

- Nə olar, saxlayın, düşüm... İndi hamı bir-birinə dəyib. Qızlar, yəqin, anamgilə sizin bu hərəkətinizi deyiblər...

- ...

- Aləm qarışacaq. Saxlayın, düşüm...

Təpəni keçdilər. Dəniz bütün gözəlliyi ilə onların qarşısında durdu. Bir qədər getmiş sıralanan bağ evlərini artıq bir-bir arxada qoyurdular...

Bu da albalı rəngli darvazası olan bağ evi... Həmid «X5»-i saxlayıb arxaya qanrıldı. Sakitcə oturub gözünü döyən Əminəyə göz yetirdi. Qaşlarını düyünlətdi, sifətinə qəzəbli ifadə verdi. Yəni məbada birdən düşüb qaçarsan... Sonra düşüb darvazanı açdı, maşını həyətə sürdü. Arxa qapını açıb Əminəni düşürtdü.

Dörd tərəf qızılgül kolları ilə bəzənmişdi. Güllərin ətri lap bihuş eləyirdi adamı. İkimərtəbəli tikili o qədər yaraşıqlı idi ki... Qırmızı kirəmitli dam bu ağappaq binaya xüsusi gözəllik verirdi... Binanın düz qabağında süni şəlalə düzəldilmişdi. Həmid yaxınlaşıb düyməciyi basdı, su şırıltı ilə axmağa başladı. Hovuzun içində isə rəngbərəng balıqlar elədən-eləyə, belədən-beləyə üzürdülər...

Əminə bu mənzərəni ağzıaçıq seyr etdi... Qaçıb gülləri qoxuladı, sonra əlini hovuza salıb balıqları tutmağa cəhd etdi. İçini çəkib başının üstündə dayanmış Həmidə dedi:

- Nə qəşəng villadır. Ömrümdə heç belə villa görməmişəm... Əla zövqünüz var imiş sizin...

Həmid gülümsədi. Sonra qayıdıb darvazanı bağladı. Əminə hələ də balıqlarla əylənirdi. Gəlib arxadan yüngülcə qucaqladı onu. Əminə dartındı.

- O yuxarını görürsən?

Həmid binanın yuxarısını göstərdi:

- Ordakı mansardadan heç bilirsən, necə gözəl bir panoram açılır? Gəl gedək, baxaq.

Əminənin əlindən yapışdı. Onlar içəri keçdilər, dolanbac pillələrlə yuxarı qalxdılar. Həmid pəncərəni açdı. Yüngülcə külək əsir, dəniz qoxusunu içəri doldururdu...

Əminə başını çıxarıb boylandı. Ucsuz-bucaqsız dəniz, qövsvarı sahil... Bağ evlərinin damları, yaşıllıqlar... Hər şeydə bir təkrarsızlıq var idi... Ciyərdolusu nəfəs aldı:

- Azərbaycanın ən gözəl yeridir ki, bura...

Həmid qürurla başını tərpətdi:

- Bəs nə bilmisən...

Əminə gözləri irilənmiş halda, maraqla Həmidi süzdü:

- Lap seriallardakı rançolara oxşayır... Layihəsini özünüz vermisiz?

Qəfil Həmid Əminəni qucağına alıb qatlama çarpayının üstünə atdı. Onu acgözlüklə öpməyə başladı. Əminə dartındı, ancaq Həmidin gücünün qarşısında aciz idi...

Həmid onu öpə-öpə: - Əminəm, canım, gözüm, həyatım, - deyirdi. Əminə başını sağa-sola çevirir, üz-gözünü turşudur, ancaq heç cür Həmiddən qurtula bilmirdi...

...Həmid çarpayıdan durdu, Əminə də dik atıldı, paltarını çəkib düzəltdi, saçına əl gəzdirdi:

- Niyə belə etdiz? Acizliyimdən istifadə edib məni öpdüz. Dodağım şişəcək... Evdə nə cavab verəcəm?

Sonra ağlamsındı:

- Nə olar, gedək də... İndi evdə nigaran olublar...

Həmid iki barmağı ilə Əminənin çənəsindən tutdu:

- Dünyada ən çox kimi istəyirsən?

Əminə burnunu çəkə-çəkə: - Anamı, - dedi.

- Allaha inanırsan?

Əminə Həmidin sözünü dərhal cavablandırdı:

- Əlbəttə. Qurban olum Allaha.

- Allaha and iç ki, düzgün danışacaqsan.

- Allah haqqı, düzgün danışacam.

Həmid bir qədər susub əlini Əminənin çənəsindən çəkdi, siqaret yandırdı. Dərindən bir neçə qullab vurdu:

- Ömründə oğlanın olub?

- Başa düşmədim.

- Yəni gəzdiyin, görüşdüyün oğlan olub?

Əminə qətiyyətlə: - Yox, - dedi...

- ...Mənim nə yaşım var ki, gəzdiyim də olsun... İlk dəfə siz bayaq öpdüz məni...

Həmid yenə də onun çənəsini iki barmağı ilə dartdı:
- İnanım sənə?
Əminə başını yana çəkib: - Özünüz bilərsiz, - dedi.
Həmid təkrarən onu götürüb çarpayıya tulladı:
- Əminə... Mənim hər şeyim var... Varım-dövlətim, pulum... İstəyirəm, mənim həyat yoldaşım, uşaqlarımın anası olasan...
O, bu bir neçə gündə Əminəyə qovuşmaq üçün o qədər iztirab çəkmiş, o qədər alışıb yanmışdı ki... Bu günlərin toplanmış bütün ehtiraslarından bircə anda qurtulmaq istəyirdi...
Əminə daha dartınmır, ona istədiyi hərəkəti asanca eləməyə imkan verirdi...
Küləyin xəfif səsinə, dənizin şırıltısına Həmidin titrək pıçıltıları qarışır, hamısı birləşərək bir ahəng təşkil edirdi. Əminə xoşbəxtcəsinə gözlərini yummuşdu. Tez-tez təkrarlayırdı:
- Həmidim... Heç vaxt ağlıma gəlməzdi... İnanmazdım ki, mən sizin qadınınız olacam...

***

Günəşin şüaları üçbucaqlı pəncərənin yarıaçıq jalüzlərinin arasından içəri keçib, sanki, hər bir əşyanı, tavanı, döşəməni xətləmişdi...
Həmid kanaldəyişənlə televizorun kanallarını ora-bura çevirir, tez-tez də masanın üstündəki «Heyneken» pivəsini qurtumlayırdı. Pivə şüşəsi də xətt-xətt idi.
Vanna otağında su şırıldayırdı...
Başını vanna otağına tərəf çevirdi:
- Ema, qurtarmadın?

Əminənin səsi gəldi:

- Yox.

- Tez qurtar da.

- İndicə sabunlandım. Nədi, darıxırsan mənim üçün?

- Əlbəttə. Tez çıx da. Yoxsa gəlib yanına girəcəm.

- Bir o qalıb elə.

- İnanmırsan, gələrəm?

Həmid ayağa durub qışqıra-qışqıra vanna otağına girdi, çimən Əminəyə sarıldı…

- Canım-gözüm… On dörd dəqiqədir ki, səndən ayrıyam… Az qalırdı öləm bu on dörd dəqiqədə…

Haçandan-haçana Əminə ondan qurtulub iri can dəsmalına bürünərək vanna otağından çıxdı. Gəlib yellənən kresloda oturdu, kreslo arxaya gedəndə cəld də sıçrayıb durdu:

- Elə bildim, yıxıldım…

Həmid qəh-qəhə çəkdi… Onu kresloya oturtdu, başının üstündə durub yelləməyə başladı. Əminə televizora baxıb içini çəkdi:

- Ay da… Nə bomba göstərir televizorunuz… Bunda seriallara baxmaq ləzzət eləyər… Nə yekə ekranı var…

Sonra divar boyu düzülmüş kamodlara, iri güzgülərə, əntiq qablara, çilçırağa ağzıaçıq baxmağa başladı:

- Nə gözəl şeylərdir…

Həmid onun dik burnunun üstündən öpdü:

- Bunlar hamısı daha sənindir…

Əminənin gözünə Həmidin qolundakı yoğun qızıl bilərzik sataşdı:

- Nə bomba qolbağınız var… Turetski qızıldır?

Həmid gülümsədi:

- Yox, rossiyski.

- Yarım kilo olar, hə?

Həmid bir də onun dik burnunun üstündən öpdü:

- Üç yüz qramdır.

Sonra Həmid telefonunu açıb hansısa restorana zəng etdi, yemək sifariş verdi. Dərhal telefona zəng gəldi, götürmədi.

Əminə: - Bizimkilərdir zəng edən, onçun götürmürsən? - sualını verdi. Həmid gülümsəyərək: - Yox, - söyləyəndən sonra Əminə durub bir-bir iri boşqablara, güldanlara baxmağa başladı...

Həmid onun çılpaq ayaqlarını, yarımçılpaq sinəsini, su damcılayan saçlarını acgözlüklə süzdü... Sonra yenə qızı öpüşlərə qərq elədi...

Bir azdan Əminənin təklifi ilə evi gəzməyə başladılar. Həmid əlinə bir çubuq alıb əsl gidlər kimi bir-bir gözlərinə dəyən hər bir əşya barədə məlumatlar verirdi...

Qəfil Əminə ayaq saxlayıb Həmidə sarı çevrildi, onun gözlərinin içinə baxıb soruşdu:

- Həmidim, elə bil, altıaylıqsan. Niyə axı tələsdin, qaçırtdın məni... Elə istəyirdim, toyumuz olsun. Sən İks altıda bəy kostyumunda gəlin gətirməyə gedəndə, nə gizlədim, ürəyimdən keçirdi ki, məni də belə bir yaraşıqlı, imkanlı adam gəlin aparsın... Axı niyə toyumuz olmadı?

Həmid onun yanaqlarına yüngülcə sığal çəkdi:

- Anangil qoydular ki... Onlar axı səni mənə vermək istəmirdilər...

Telefonuna dalbadal zənglər gəlirdi. O, nömrəyə baxıb götürmürdü. Nəhayət, növbəti zəngə cavab verdi:

- Yox, qaqaş, mavi darvaza deyil, bir az qabağa sür, bardovıy darvazadır.

Az keçmiş darvaza döyüldü.

- Yemək gətirdilər, - deyib Həmid aşağı düşdü, gedib darvazanı açdı. İki ofisiant ağ rəngli «KİA» avtomobilindən içəri yemək daşıdılar...

Bir azdan qonaq otağında zəngin bir süfrə açılmışdı... Əminə süfrəyə düzülmüş təamları görüb əlini əlinə vurdu:

- Uy da! Nə bomba yeməklər var...

Hələ ofisiantlar süfrəni düzərkən o, əlini uzadıb xoşuna gələn təamlardan götürüb ağzına dürtürdü. Həmid onun bu şıltaqlığından ləzzət alırdı...

Əminəni bir kitab kimi oxumağa cəhd edirdi... Deməli, Əminə rola girmir, necə varsa, elə də görünür. Yəqin ki, başqaları acından ölsəydilər də, süfrəyə beləcə əl uzatmaz, acgöz adlanacaqlarından çəkinərdilər... Ya da elə ev əşyalarına bu cür baxmaz, hisslərini cilovlayardılar... O isə iç dünyasını gizlətmir, hisslərini pərdələmir...

Nəhayət, ofisiantlar öz işlərini görüb çıxıb getdilər. Həmid telefonunu yenidən söndürüb şampanı partlatdı.

Əminə şampan şüşəsinə göz yetirdi:

- Nə şampandır bu?

- Faber.

- Biz həmişə İyirmi birinci əsr içirik.

- Bu, ən zorundandır, - söyləyərək Həmid qədəhləri doldurub, uzun-uzadı sağlıq söylədi. Əminə onun qulağını yüngülcə çəkdi:

- Həmidim. Müəllimən olsaydım, sənə iki yazardım. Belə uzun, başdan-ayağa səhvlə dolu tost söyləmək olar?

Həmid gülümsədi:

- Səhvlərə görə üzr istəyirəm. On iki ildir ki, Rossiyadayam. Belə də olmalıdır. Nə isə. Səni və özümü bu xoşbəxt on beş sentyabr günü münasibəti ilə təbrik edirəm. Bu gün biz xoşbəxt bir ailənin təməlini qoyuruq... Allah bizi başacan xoşbəxt eləsin...

Qədəhləri başlarına çəkdilər. Həmid sevimli tapançasını çıxartdı. Eyvana çıxıb göyə üç atəş açdı...

Əminə maraqla tapançanı süzdü:

- Doğruçudur?

Həmid gülməkdən qəşş elədi:

- Əlbəttə ki, doğruçudur.

Yedilər, içdilər. Musiqi mərkəzində lirik melodiyalar bir-birini əvəz edirdi. Onlar rəqs edirdilər. Əminə növbəti qədəhi içəndən sonra dövrə vura-vura: - O qədər xoşbəxtəm, o qədər xoşbəxtəm ki... - söylədi.

Həmid onu qucağına götürdü, var gücü ilə qışqırdı:

- Qoy bütün dünya eşitsin. Biz xoşbəxtik. Dəniz, külək, torpaq, ağaclar... Qoy hamısı bizim xoşbəxtliyimizin şahidi olsun...

Hava qaralırdı... Axşamın ala-toranında bağ massivində ara-sıra işıqlar sayrışırdı... Dəniz qaranlığa qərq olmaqda idi. Xəfif yel əsirdi, dənizin qoxusunu içəri doldururdu. Arabir bu qoxuya qızılgüllərin ətri də qarışırdı.

Uzun müddət yanaşı durub dəniz mənzərəsini seyr etdilər. Əminə kövrək səslə soruşdu:

- Həmidim, heç sevgi şeiri bilirsən?

Həmid dərindən düşünürmüş kimi gözlərini qıyıb əlini gicgahına dayadı və bir az keçmiş söylədi:

*- Eşqdir mehrabı uca göylərin,*
*Eşqsiz, ey dünya, nədir dəyərin?*

Əminə baxışlarını dənizdən ayırıb Həmidin üzünü özünə tərəf çevirdi:

- Yox, bu sayılmır, bunu məktəbdə əzbərləmisən. Müasir şeir de.

Həmidin çiyinlərini çəkdiyini görcək əlavə etdi:

- İndi mən söyləyim, sən qulaq as.

Sonra həzin intonasiya ilə əzbərlədiyi bir şeiri söyləməyə başladı:

*- Səsinə, gözünə, ətrinə*
*Həsrət qoyub məni getdin.*
*Bu gedişinlə dilimin*
*sevgi nəğməsi bitdi...*
*Dostuma da telefonda*
*söylədin ki,*
*çox xoşbəxtsən,*
*razısan hər şeydən...*
*Qısqanc birisindən*
*yaxa qurtarmısan,*
*guya, düşmüşdün heydən...*
*...Səsinə, gözünə, ətrinə,*
*Həsrət qoyub məni getdin.*
*Bu gedişinlə sandın ki,*
*sonumu gətirdin.*
*Sandın, sənsiz*
*yaşaya bilməyəcəm.*
*Həsrət yükünü*
*daşıya bilməyəcəm.*

*Amma ayrılığın*
*bağrımı dəlmədi,*
*sonum gəlmədi.*
*Sənin acığına*
*hər gün deyib-gülürəm,*
*Hicranı lap vüsal bilirəm...*
*Adımla bağlı hələ*
*nəğmələr yazılacaq,*
*Üzümə qapılar,*
*ürəklər açılacaq.*
*Qarşıda hər şey olacaq,*
*Qastrollar, konsertlər,*
*şan-şöhrət...*
*Xoşbəxt ailə*
*gözəl balalar,*
*var-dövlət...*

*...Səsinə, gözünə, ətrinə*
*Həsrət qoyub məni getdin.*
*İlğım kimi*
*ömrümün*
*dönəmlərində itdin.*
*...Əslində isə*
*İkimiz də yalançıyıq.*
*Nə sən*
*dözə bilirsən ayrılığa.*
*Nə də mən*
*hər gün*
*deyib-gülürəm...*

*Mənimçün çox*
*ağırdır, bilirsən.*
*Səninçün çox ağırdır, bilirəm.*

Şeiri tamamlayıb heyranlıqla ona baxan Həmiddən soruşdu:

- Hə, necədir, bəyəndin?

Həmid: - Superdir, - söylədi. Ardınca da: - Bu qədəri necə əzbərləmisən? - söylədi. Cəld də əlavə etdi:

- Kim yazıb bunu belə?

Əminə məmnunluqla: - Gənc şair var, Qafur, o yazıb. İndi qızlar hamısı onun şeirlərini oxuyurlar, - dedi.

Hava lap qaralmışdı.

Həmid telefonunu açıb nömrə yığdı:

- Alo, kimdir?... Nərminə? Mənəm, Həmiddir... Aləm niyə qarışır ki? Ata-anana de ki, narahat olmasınlar, Əminə mənimlədir, daha doğrusu, Əminə daha mənimdir.

Sonra o, evə zəng eləyib anasını da məlumatlandırmaq istədi. Ancaq anası artıq məsələdən hali idi. Qızın valideynləri gəlib haray-həşir qoparmağa macal tapmışdılar...

...Əminənin başını yüngülcə qucaqlayıb dedi:

- Əslində, mən böyük bir fədakarlıq etdim. Hamı sənin anan, bacın haqqında pis şeylər söyləyir. Ancaq mən bütün bunlara məhəl qoymadan səni özümə qadın edirəm. Mən sənə inanıram...

## 9-cu HİSSƏ

İnsanın yeganə yaşamaq məqsədi yalnız budur: doğulubsa, demək, yaşamalıdır. Vəssalam. Fərq, sadəcə, ondadır ki, «doğulubsa, yaşamalıdır» məqsədini bəziləri improvizə eləyib «yaxşı yaşamalıdır» həddinə çatdırırlar.

Gündüz pilləkənləri ağır-ağır qalxaraq Rüfət Əhmədlinin kabinetinə doğru gedirdi.

Biz bu dünyaya gəlmişik, biz bu dünyadan getməliyik. Haradan gəlmişik, doğru-dürüst bilən yoxdur. Haraya gedəcəyik, onu da doğru-dürüst bilən yoxdur.

Budur, dəhlizin sonunda Rüfət Əhmədlinin kabinetidir...

Və ən pisi odur ki, insan bəzən axtardığını tapmadan da itirə bilir...

- Hə, necədir işlər?

Rüfət Əhmədli onu gülərüzlə qarşıladı.

- Pis, - deyə Gündüz üz-gözünü turşutmuş halda ona cavab verdi.

- Niyə ki? Yaradıcılıqda durğunluq yaşanır? Yoxsa şəxsi həyatında nəsə problemin var?

Gündüz ona təklif olunan yerdə əyləşib içini çəkdi:

- Bir neçə gündür ki, ruhdan düşmüşəm. Əlim işə yatmır. Şəxsi problemlərimi bir qırağa qoyuram. Ancaq Xəmsəni işləmək üçün, onu dünya arenasına çıxarmaq üçün axı pul lazımdır.

- Mən bu işə sponsor cəlb etmişəm, Rəyasət müəllimlə danışmışam. Görüşmədin ki, onunla?

- Xeyr. Hər dəfə zəng edirəm, deyirlər, iclasdadır. Bu iclaslar qurtarmayacaq?

Rüfət Əhmədli mobil telefonu ilə nömrə yığıb danışmağa başladı:

- Rəyasət müəllim, salam. Nə var-nə yox?.. Hə, təki yaxşı olasız... Mən də yaxşıyam, sağ olun... Hara gedək?... Quba tərəfdə nə işimiz var?.. Yeyib-içməyə? Yox, baş qarışıqdır, kollegiya iclasına hazırlaşırıq... Getmiş kimi varam, çox sağ olun. Rəyasət müəllim, sizdən bir rəssama sponsorluq etmək barədə xahiş etmişdim. O, Nizami Gəncəvinin Xəmsəsinə illüstrasiyalar çəkir, beynəlxalq arenaya çıxarmağı planlaşdırır... Hə, hə. Bəs nə oldu?.. Necə yəni müraciət etməyib?! Deyir, hər dəfə zəng edirəm, deyirlər, iclasdadır... Demək, ayın iyirmi dördündə gəlsin? Saat neçədə?..

Nəfəs dərmədən onların söhbətini dinləyən Gündüzün gözlərinə işıq gəldi.

Telefon danışığı davam edirdi.

-... Demək, saat on birdə. Onda siz köməkçilərinizə tapşırın, onu içəri buraxsınlar. ... Adı? Gündüz Ələkbərli. Çox sağ olun, Rəyasət müəllim. Öncədən sizə təşəkkürlər!

Telefonu bağlayıb masanın üstünə atdı, kresloya yayıldı:

- Hə, böyük rəssam. İyirmi dördü, saat on birdə get Rəyasət müəllimin yanına, pulunu götür.

Gündüz razılıq etdi:

- Çox sağ olun, Rüfət müəllim. Sizdən yerdən göyə qədər razıyam.

Rüfət müəllim qarşısındakı kağızları ələk-vələk eləyə-eləyə nəyisə axtarmağa başladı:

- Bilirsən, hökumət hər bir rəssama fərdi pul ayıra bilməz. Bu, büdcədə nəzərdə tutulmayıb. Düzdür, istisnalar olur. Onda da birliyin üzvləri, fəxri ad alanlar üçün. Ən əsası da, dövlət sifarişini yerinə yetirənlərə maliyyə ayrılır. Ancaq sən hər kəsdən özünü təcrid etmisən. Birliyə üzv olmursan, sifarişlər düzüb-qoşuruq, imtina eləyirsən. Heç kəsə qaynayıb-qarışmırsan... Belə də olmaz axı. Neçə dəfə demişəm, gəl, Rəssamlıq Akademiyasında sənə dərs saatı təşkil edək, razılaşmamısan...

Gündüz başını aşağı dikdi:

- Rüfət müəllim, bilirsiz, necədir? Mən başqaları kimi işləsəm, onda yaradıcılıq düşəcək ofsayda. Mən o biri rəssamlar kimi deyiləm, gedim kiminsə divarına ceyran şəkli çəkim, ya da Torqovıda durub onun-bunun portretini yaradım. O gün zəng ediblər ki, gəl, sifarişimiz var. Getmişəm, görmüşəm, naturşitsa qızları yığıblar ki, bunların şəklini çək. Mənim sənətim fərqlidir, başa düşürsüz? O işləri hamı edər, mən işləyən işləri isə heç kəs bacarmaz. Bilirsiz, biz nədənsə böyük sənətlə xalturanı fərqləndirmək istəmirik.

Rüfət müəllim kağızları qurdalamaqda idi:

- Gündüz, bax, mən məmuram, hökumət nümayəndəsiyəm. Ancaq səni qəbul edirəm, sənə vaxt ayırıram, problemlərinə kömək etməyə çalışıram. Əslində, biz fərdlərlə yox, kollektivlə işləyirik. Və mən səninçün bütün bunları etməyə borclu deyiləm. Bəs niyə edirəm? Çünki hökumətin nümayəndəsi kimi hər şeydən öncə, ölkəmi, xalqımı düşünürəm. Sənin Nizami Gəncəvinin yaradıcılığı ilə bağ-

lı layihən çox orijinal və maraqlıdır. Və mənə elə gəlir ki, biz, doğrudan da, böyük Nizamini dünyada yetərincə təbliğ etməmişik. Bir başqa xalqlar isə, lap elə üzdəniraq qonşularımızı götürək, öz ortabab mədəniyyət xadimlərini yaxşıca reklam edirlər, onlara layiq olduqlarından da artıq qiymət verilməsinə nail olurlar.

Gündüz sevincək Rüfət müəllimin sözlərinə dəstək verdi:

- Əlbəttə, elədir. Nizaminin sənət dünyasının hüdudları o qədər sonsuzdur ki, hətta yüz, min illər bundan sonra elmi axtarışlar tələb edəcək. Nizami tək Azərbaycana yox, bütün dünyaya məxsus bir mütəfəkkirdir. Onun bəşəriyyətə bəxş etdiyi sənət inciləri əsl xəzinədir. Orada kainatın sirləri, möcüzələri, hərəkət və cazibə qanunları, səma cisimlərinin səbəb və mahiyyəti, insan mənəviyyatının dərinlikləri, xeyirlə şər, ağla qara arasında əbədiyaşar mübarizə var...

Rüfət müəllim heyranlıqla soruşdu:

- Necə əzbərləmisən bu sözləri?

Gündüz gülümsədi:

- Vallah, xüsusi olaraq əzbərləməmişəm. Sadəcə, içimdən gəlir. Bir görün, onun nə gözəl aforizmləri var:

*- Halal zəhmət itməyib,*
*Əlləşmək deyil eyib.*
*Tanrı səndən hərəkət,*
*Məndən bərəkət deyib.*

*Fələk açsa, başına*
*Nə pəstaha, yaxşıdır,*
*Nadan dostdan ağıllı*
*Düşmən daha yaxşıdır.*

*Dövranından çıxma*
*Heç yüksəklərə.*
*Ayağını uzat*
*Yorğana görə.*

*Yüz nöqsanın varkən,*
*Dinmə, sus barı.*
*Özgədə axtarma*
*O nöqsanları.*

*Biri inci gəzib*
*Suda boğulur,*
*Biri sirkə gəzib*
*Bala rast olur...*

*Dil yarası heç vaxt*
*Ürəkdən getməz,*
*Ona min məlhəm də*
*Heç təsir etməz.*

Rüfət müəllim müdaxilə etdi:

- O necə oldu, ayağını uzat yorğanına görə... Nəyi necə et?

Gündüz cəld cavab verdi:

- Dövranından çıxma heç yüksəklərə, ayağını uzat yorğana görə...

- Əla deyib e.

- Əlbəttə...

Gündüz qəfildən ayağa durdu:

- Mən gedim.

Rüfət müəllim ona əli ilə əyləşmək işarəsi verdi:

- Hara gedirsən? Böyük Nizaminin kəlamları mənə lap ləzzət edir. Bir-ikisini də söylə. Gedib neynəyəcəksən ki?

Rüfət müəllimin bu sözləri Gündüzün içinə yağ kimi yayıldı və o, aforizmləri söyləməyə davam etdi:

*- Hələ bir oduna*
*Qızınmamışam,*
*Tüstüdən gözlərim*
*Kor oldu tamam.*

*Bir şeyə olanda*
*İki müştəri,*
*Əlbəttə, o şeyin*
*Artar dəyəri.*

*Yaxşılıq eyləsə,*
*Özgəyə hər kəs.*
*Çıxar qabağına*
*Hədərə getməz.*

*Dünyanın işini*
*Yaxşı düşün sən,*
*Nə əksən, onu da,*
*Bil, biçəcəksən.*

Rüfət müəllim yenidən müdaxilə etdi:

- Bunları biz atalar sözü kimi işlədirik. Sən demə, hamısı Nizamiyə məxsus imiş...

- Davam edim?

- Əlbəttə, et.

*- Qəm yemə, gül, sevin,*
*Sağsan nə qədər.*
*Başından bir tükü*
*Salmasın yellər.*

*Ağıllı adamın söylədikləri*
*Yer altına düşər, itməz dəyəri.*

*Olma yarasa tək gecəyə aşıq,*
*Tülək tərlan kimi işıq sev, işıq.*

*Zorla hiylə kəsb etmə, yazıq,*
*Yeyə bilməz heç kim qismətdən artıq.*

*Dünya beş günlükdür,*
*Zənn etmə çoxdur.*
*Ondan bərk yapışma,*
*Mənası yoxdur.*

*Anadan ayrılsa, bir quzu əgər,*
*Onun arxasınca canavar düşər.*
*Gördün ki, əlindən gəlməyir bir iş,*
*İlanı yad əllə tutmağa giriş.*

Rüfət müəllim Gündüzü dayandırdı:

- Dayan, dayan. Bax, bu axırıncısı lap dəhşət idi e. Bayaqkılar çox sadə görünürdü. Bəlkə də, hamısını əzbər bildiyimizdən onlar adama adi görsənir. Burada isə qurdalasan, dərin hikmət var.

Gündüz sözünə davam etdi:

- Hə, elədir. Məsələn, bunları, sanki, hamımız əzbər bilirik:

*- Eşitməmisənmi bu məşhur sözü,*
*Hər kim quyu qazsa, düşəcək özü.*

Yaxud:

*Əzəldən dünyanın bir qaydası var,*
*Bal tutan barmağı arılar sancar.*

Yaxud:

*Dərdlərdən, qəmlərdən azad bir ürək,*
*Özgənin dərdini hardan biləcək?!*

Və yaxud da:

*Çox gözəl olsa da, eybi gizlətmək,*
*Dost dostun eybini örtməsin, gərək.*

Bunlar isə nisbətən naməlumdur:

*Ac üçün kəpək də yağlı çörəkdir,*
*Tox üçün yağ-çörək, sanki, kəpəkdir.*
*İştah qızışanda baş alıb gedər,*
*Çovdar çörəyini mum tək üyüdər...*

Rüfət müəllimə zəng gəldi və o, tələsik yerindən durub başı ilə yuxarı mərtəbəni işarə edib: - Çağırırlar, - söylədi, sonra da əlavə etdi:

- Sən gözlə, gəlirəm.

Rüfət müəllim çıxandan sonra Gündüz bir xeyli müddət kabineti gözdən keçirdi. Mebeller çox bahalı idi. Kitab şkafını arxası zərli çoxcildli hansısa kitab bəzəyirdi, nə illah elədisə də, kitabın adını oxuya bilmədi. Divarda iri bir rəsm əsərinin reproduksiyası var idi. Əsərin müəllifi kim idisə, məşhur rəssam deyildi. Əks təqdirdə Gündüz onu tanıyardı.

Əsərdə çoxlu səhv tutdu. Məsələn, ağacın kölgəsi günəşin düşmə trayektoriyasına zidd idi, ağacın yarpaqları da yaxşı işlənməmişdi, süni təsir bağışlayırdı... Çayın rəngi isə... Harda görünüb çay zümrüdü rəngdə olsun? Bu, dənizin rəngidir axı...

Gözü Rüfət müəllimin şəhər telefonuna sataşdı. Dəstəyi qaldırdı. Kodla öncə Həmidin nömrəsini yığdı. Xəstəxanadan çıxandan sonra cəmi bircə dəfə, təsadüfən görmüşdü Həmidi. İstiqlaliyyətlə gedirdi, yanında dayanan və siqnal verən qəttəzə qara cipi görcək inanmamışdı ki, bu cipi sürən məhz ona siqnal verir. Sonradan Həmid şüşəni endirib onu səsləmiş, evəcən aparmışdı...

Həmidin telefonu söndürülmüşdü...

Gündüzün içində sonsuz sevinc var idi. Hiss edirdi ki, qanad açıb uçmaq istəyir. Deməк, ayın 24-də Rəyasət müəllim onun pulunu verəcək. Həmin gün ömrünün ən xoşbəxt günü olacaq...

Kodla başqa bir mobil telefon nömrəsi yığdı.

- Alo, Gülarə... Necəsən? Sabah gələcəm. Yəqin ki, günortadan sonra... Oldu, hələlik...

Dəstəyi yerinə qoydu. Rüfət müəllim harada qaldı axı? Durub bir qədər kabinetdə var-gəl elədi. Düşündü ki, çox insan adamdır Rüfət müəllim. Adama təmənnasız kömək edir. Bütün vəzifəlilər belə olsaydı, nə var idi ki?!

Yaxınlaşıb kitab rəfindəki qızılı cildli kitabların adına baxdı. Rus dilində idi çoxcildlik. Adı da «Şedevrı mirovoqo iskusstva» («Dünya incəsənəti inciləri»).

Yox, Rüfət müəllim, deyəsən, çox yubandı. Otaqdan çıxdı. Referent qıza dedi ki, bəs Rüfət müəllimə deyin ki, Gündüz gedəsi oldu...

Küçədə maşınlar sürətlə o üz-bu üzə şütüyürdülər. Öncə düşündü ki, bəlkə, hər şey ona görə yaxşılığa doğru dəyişir ki, sonradan yenidən pisləşsin? Ardınca da düşündü ki, hətta ağrıları kəsəndə və ağrısızlıq şəraitində belə insan bəzən yeni ağrıların qorxusu ilə yaşayır.

Qardaşıgilə getməli idi. Qardaşı soyuqlamışdı. Səhər siqaret almamışdı. Yolpuluna da iki-üç gün idi ki, qənaət edirdi. Meyvə-tərəvəz köşkünün qarşısında durub cibindəki pula uyğun nə ala biləcəyini xeyli götür-qoy elədi.

- Almanı manat yarımdan verərsiz?

- Nə qədər alassan?

- Bircə kilo. Xəstə yanına gedirəm.

- A kişi, intiligent adama oxşayırsan, al bu portağaldan, banandan, şəftəlidən, gavalıdan, armuddan. Xəstəyə nə lazımdır? Vitamin. İstəyirsən, bir ananas çəkim sənə. Qardaş canı, təzə maldır.

- Yox, mənə bircə kilo alma lazımdır. Manat yarıma gücüm çatır.

Satıcı ona bir kilo alma çəkib sellofana tökərək verdi, pulu aldıqdan sonra ardınca başını yelləyə-yelləyə dedi:

- Mən bütün intiligentləri bu gündə gördüm...

# 10-cu HİSSƏ

Yuxudan durandan əlləşirdilər, ancaq samovarı qaynada bilmirdilər...

Həmid növbəti dəfə qəzet parçasını bükmələyərək yandırıb samovarın içinə dürtdü, ancaq bu dəfə də çır-çırpı alışmadı...

- Yəqin, taxtalar yaşdır, - deyib köks ötürdü.

- Sənin əlindən heç bir iş gəlmir. Naməlum adaya düşsək, ikimiz də məhv olarıq.

Əminə bunu deyib Həmidə dil çıxartdı. Həmid ona barmağını silkələdi:

- Ey, bura bax. Dünən səninçün pis süfrə təşkil etdim?

Əminə gülməkdən qəşş etdi:

- Süfrəni sən təşkil etmədin e, ofisiantlar təşkil etdi. Sən adicə samovarı qaynada bilmirsən...

Həmid ona tərəf addım atdı:

- Tutub boğaram ha, səni...

Əminə yenə ona dil çıxartdı:

- Tuta bilsən.

Həmid gələndə o qaçdı. Başladılar həyət boyu dövrə vurmağa. Həmid onu divarın küncünə tərəf sıxışdırdı, təntənəli şəkildə elan etdi:

- Aha, keçdin əlimə! İndi bu div səni dişinə çəkər, sən də bilərsən...

Əminə küncdə büzüşdü, Həmid əlini ona uzadanda qəfil sıçrayışla küncdən çıxdı. Həmid geri qanrılıb təngnəfəs halda qaçıb aralanan Əminəni süzdü.

- Ola bilməz. Sən axı necə çıxdın burdan?

Əminə ürəkdən güldü:

- Div heç vaxt quşu ovlaya bilməz…

Sonra yenə də Əminə qaçdı, Həmid onu qovdu. Nəhayət, Əminə dayandı, Həmid onu qamarladı:

- Quşu belə ovlayarlar, bax.

Əminə dik onun gözlərinin içinə baxıb dedi:

- Məni sən tutmadın, özüm dayandım. Darıxdım birdən-birə sənin üçün. Sənə ehtiyacım var. Sən bilməzsən, quşun divə necə ehtiyacı olur…

Həmid ovcu ilə Əminənin üzünə sığal çəkdi… Sonra onu qucaqlayıb, öpməyə başladı…

- Səni sevirəm, Əminəm… Sən mənim bircə dənəmsən…

Çox-çox sonralar, ömrünün ən ağır günlərində Həmid ötüb-keçən bütün həyatını kino lenti kimi gözlərinin önündə canlandıranda məhz bu iki günü: sentyabrın 15-ni və 16-nı - bağ evində keçirdikləri bu təkrarsız günləri ömrünün ən xoşbəxt günləri hesab edəcəkdi… Dünyanın ən əyləncəli məşğuliyyətləri: «Disneyland»-in nağıl şəhərciyi, Las-Veqasda ruletka oynamaq, dünyanın ən gözəl guşələrinə - Kanar və Baham adalarına səyahət, dünyanın ən seçmə qızları ilə yaxınlıq… Heç nə, heç nə bu iki günə tay ola bilməzmiş, sən demə…

Mansarddan Xəzəri seyr etdilər. Əminə Həmidin telefonu ilə düz bir saat anasıyla, bacısıyla, rəfiqəsi Lalə ilə

danışdı. Çay qaynada bilmədikləri üçün Həmid dünənki restorandan çay dəsgahı sifariş verdi...

Yalnız günorta bayaqdan neçə dəfə zəng edən İqbal onları evə gəlməyə məcbur edə bildi:

- Həmid, qızın ata-anası gəlib oturublar burda, hay-küy qaldırıblar. Deyirlər ki, polisə şikayət edəcəyik. Deyirəm, biz qızı almışıq, inanmırlar...

***

... Həmid «X5»-dən düşüb arxa qapını açaraq Əminəni düşürdəndə Əminə yenə zarafatından qalmadı:

- Həmidçik, düzdür, cipi əla sürürsən, ancaq samovar yandıra bilmədiyini hamıya danışacam.

Az qala bütün həyət onların tamaşasına durmuşdu. Əminə pıçıldadı:

- Vaxsey, bütün həyət bizə baxır...

Həmidin qoluna girib şəstlə bloka tərəf addımladı, pıçıltılarını davam etdirdi:

- Padruqalarım indi xainliyimi çəkirlər. Pis gözə tikanlar. Yanın, tökülün...

Qapının ağzında dayanıb onların yolunu gözləyən Suqra ilə Barat qızlarının üstünə atıldılar. Ata-ananın qızları ilə görüş səhnəsi olduqca təsirli alındı.

Həmid isə qapını açan İqballa öpüşüb-görüşdü.

İqbal onun çiyinlərinə vurdu:

- Ay bəy, gəl çıx da.

Hamısı içəri keçdilər.

Əminə valideynləri ilə pıçhapıçla nəsə danışırdı. Həmid qonaq otağına keçdi. Bacısı oğlu Tural yenə də içəridə qa-

zan qapağını fırlada-fırlada «maşın» sürürdü. O: - Dayım gəldi, - deyib özünü Həmidin üstünə atdı. Gülgəz də gəlib qardaşı ilə görüşdü.

Həmid onun qanıqara olduğunu dərhal sezdi:

- Burnunu niyə sallamısan? Neçə il idi ki, şum qaldırmışdız, Həmid evlənmir. Evləndim də. Özgə nə istəyirsiz?

Gülgəz narazılıqla başını yellədi. Həmid anasını soruşub onun otağına adladı. Mələk eynəyini taxıb paltara yamaq vururdu. Həmidin içəri girməsinə heç bir reaksiya vermədi. Həmid gəlib anasının alnından öpdü:

- Siz bir işə baxın. Milyoner Həmidin maması paltara yamaq vurur. Ay ma, belə kasıbıq?

Mələk, nəhayət, qəhərli səslə dedi:

- Düzgün iş görmədin, ay bala. O günahsız qızı bədbəxt etdin. Bir parça uşaqları türməyə saldırdın. Zərrinin ahı tutacaq bizi.

Həmid yenə də sivil dünyadan, insanların sevib-sevilmə hüquqlarından, daxili azadlıqdan uzun-uzadı moizələr oxudu. Nəhayət, İqbal çəkib onu qonaq otağına apardı. Suqra ilə Barat iri masanın arxasında əyləşmişdilər, Mələyin gəlişini gözləyirdilər. Həmidlə İqbal da gəlib əyləşdilər. Gülgəz anasının otağına girib-çıxdı:

- Arvad ağrıyır, gələ bilmir, - deyib Həmidin yanında əyləşdi.

Barat kişi səsini arıtlayıb danışmağa başladı:

- Həmid bala, madam ki, sən bizim uşağı seçmisən, Allah bu seçimi mübarək etsin. Ancaq mən də, Suqra da səndən tələb edirik ki, dərhal toy edəsən.

Suqra söhbətə qarışdı:

- İkisindən əskiyiksə, beşindən də artığıq. Nəyə görə bizim uşağı urvatsız eləyirsiz? Mən anayam. İstəyirəm ki, uşağımın toyunda qol götürüm oynayım.

Həmid xeyli düşünüb dedi:

- Siz özünüz vəziyyəti bilirsiz. Biz düşmənliyik, toy edə bilmərik.

Ancaq Əminənin valideynlərinin sifətlərinin ifadəsini görüb əl yeri qoydu:

- Yenə də fikirləşmək olar. Mənim də ağsaqqalım var. O bilər.

Hamının ona zillənən baxışlarını görən Gülgəz yenə də Mələyin otağına keçdi, başını bulaya-bulaya geri qayıtdı:

- Yox, anam deyir ki, toy barədə söhbət belə ola bilməz.

Suqra ilə Barat öz fikirlərindən dönməyəcəklərini bildirdilər. İqbal da söhbətə qarışdı. Böyük mübahisədən sonra, nəhayət, Suqra onlarla razılaşdı:

- Yaxşı, day nə deyək. Təki uşaq xoşbəxt olsun. Ancaq el adəti var, qıza şey-şüy alınmalıdır, brilyant alınmalıdır.

Gülgəz narazılıqla dedi:

- Ay xala, qız bu evin gəlinidirsə, deməli, ona əyin-baş da, qızıl-brilyant da alınacaq.

Suqra başını buladı:

- Yox, yox. Örtülü bazar, dostluğu pozar. Bəlkə, siz ona kör-köhnə geyindirəssiz? Mən razı olmaram.

Sonra üzünü yan otağa tərəf tutdu:

- Əminə, qızım.

Əminə başıaşağı otağa keçdi.

- Gəl, sən də əyləş. Nə lazımdırsa, siyahı tuturuq.

Suqra Gülgəzdən qələm və vərəq alıb yazmağa başladı:

- Brilyant komplekt. O təzə çıxanlar var e, adı nədi?

Əminə astaca dedi:

- Ana, heç bunun yeridir?

Suqra qızının üstünə çəmkirdi:

- Ay qız, sənə nə deyirlər, ona bax. Nədir o komplektin adı?

Əminə mızıldandı:

- Ağ qarniturdu da, yəni, ağ qızıldan.

Suqra əlavə etdi:

- Kolyesiynən, sepiynən bir yerdə qarnitur yazıram, ağ qızıldan. Sonra, indisinə geyinməyə nə əyin-baş istəyirsə, özü deyər. Ancaq qabaqdan qış gəlir. Mütləq bir norka şuba alınmalıdır...

Siyahı tutmaq məsələsi yarım saat vaxt apardı. Təzə qudalar getmək istəyəndə dəhlizdə Barat kişi gün ərzində dediyi sözləri bir daha təkrar etdi:

- Sabah gedib mütləq kəbin kəsdirirsiz. Həm ZAQS-da, həm də mollada.

İqbal isə onlara axşam bağa getməyi təklif etdi:

- Sizin kimi, elə mənim də əhdim olub. İndi dostumun toyunu da olmasa, heç olmasa, kampaniyasını keçirib dəmləmincəyə qədər vurmasam, olmaz. Axşam saat yeddidə Nərminəni də götürün, gedək bağa, elə özümüz, bu hadisəni xudmani qeyd edək...

***

Bəzən boz-bulanıq, ehtiyac içində keçən ömürdə gələcək barədə yalnız şirin-şirin nağıllar uydurmaq olur qismətin. Ümidini yalnız ağ atlı bir oğlana, xilaskarına bağlayır, həs-

rətlə onun yolunu gözləyirsən. Onu da bilirsən ki, sənin kimi ağ atlı oğlanın yolunu gözləyən qızlar yüzlərlə, minlərlədir... Deməli, ağ atlı oğlanın məhz səni seçəcəyi adicə xülyadan başqa bir şey deyil. Ancaq qəfildən Allah sənə elə yazı yazır ki, bütün xəyalların gerçəkləşir. Şahlıq quşunun məhz sənin başına qonduğuna heç özün də inanmırsan...

Əminə Həmidin əlini tutmuşdu. Yenə də bütün bunların bir yuxu olduğunu sanırdı. Onları başda oturtmuşdular.

Masanın sol tərəfi Həmidgilin adamlarının idi: Əvvəl İqbal əyləşmişdi, yanında Məhəmməd, sonra Turalı əyləşdirmişdilər, nəhayət, Gülgəz əyləşmişdi. Sağ tərəf isə Əminəgilinkilərin idi. Barat əyləşmişdi, Suqra əyləşmişdi, bir də Nərminə.

İqbal bir stol sifariş vermişdi ki, gəl görəsən. Özü də məhz «Mona Liza»dan gətirilmişdi yeməklər. Toyda Ədaləti, Xəyyamı və «Qala» qrupunu dinləmək mümkün olmadığından, İqbal, heç olmasa, hayıfını indi çıxmaq istəmişdi. Prodüserindən öyrənmişdi ki, Ədalət Mahaçqaladadır, toy şənliyində. «Qala» qrupunun Sumqayıtda toyu var idi. Yalnız Xəyyam Bakıdaydı. Restoranların birində şou-proqramda çıxış etməli olsa da, İqbalın dəvətini qəbul edib gəlmişdi. Yekaterinburqda uğurla keçən konsert proqramının müəyyən epizodlarını üçlükdə xeyli xatırlamışdılar. O konsertdə azərbaycanlılarla yanaşı, dağıstanlılar, türklər, yəhudilər də zalı doldurmuşdular. Hamı oynayır, müğənniləri doyunca alqışlayırdı...

Sonra Xəyyam elə həmin konsertdə oxuduğu və Həmidlə İqbalın çox bəyəndiyi «Elə belə gəl» mahnısını ifa etməyə başladı...

*Yağış, günəş heç fərqi yox,*
*Güllər açır, sən gələsən,*
*qəlbimin sirrini biləsən,*
*Yenə göz yoldadır,*
*Ordadır, burdadır...*

Sağlıqlar bir-birini əvəz edirdi. İqbal ucadan, özü də qısa sağlıq deyirdi. Məhəmməd bircə cümləylə: «Xoşbəxt olsunlar», - təkrarlayırdı. Elə ki, növbə Barat kişiyə çatırdı, içki içənlərin lap gözünün kökü saralırdı. Barat kişi söylədiyi sağlığı Suqra ilə tanış olmasından başlayaraq siyasi vəziyyətdə bitirirdi...

Əminə Həmidin əlini sıxdı. Həmid ona tərəf çevrilib gülümsəyəndə qulağına pıçıldadı:

- Həmidim, o qədər xoşbəxtəm ki.

Xəyyam indi də «İstanbul» mahnısını ifa edirdi:

*Şəhər meqapolis, ağaclar,*
*Niyə ayrıldıq biz, suallar.*
*Sən məndən uzaqda... Yağışlar*
*Sənə dönə bilmədim, bağışla.*

*Bu şəhərdə sevgimizi tapdıq, itirdik.*
*İstanbul gözləyir bizi,*
*Tənha yollarında.*
*İstanbul səsləyir bizi...*

Əminə Həmidin qulağına pıçıldadı:

- Bu mahnı hitdi e, qızlarımızın hamısının telefonunda var.

Cəld də əlavə etdi:

- Həmidim, ömrümdə heç vaxt təyyarəyə minməmişəm. Məni İstanbula apararsan?

Həmid gülümsədi:

- Apararam. Səni bütün dünyanı gəzdirəcəm. Londonda Hayd-parkı, Misirdə piramidaları, Romanı - veçnıy qorodu, suyun içindəki Venesiyanı, açıq havada muzeylər məskəni Madridi, canım sənə desin, Parisdə Eyfel qülləsini, Mülen Roju, Nitsanı - İzumrudnıy bereqi, Rio-de-Janeyro karnavalını, Mayamini, Hollivudu... Bütün dünyanın gözəlliklərini sənin ayaqlarının altına gətirəcəm.

Əminə bəxtəvərcəsinə Həmidə sığındı.

Yenə Barat kişi tost deyirdi:

- Kürəkənim Rossiyadadır. Təbii ki, orada cavanlıq edir. Özü də geninə-boluna. Ancaq biz ona adi qız yox, bir gül parçası veririk.

Sonra fasilə verib səsini qaldırdı:

- Əminəm!

Əminə dik atıldı:

- Hə, ata.

Barat kişi sual dolu baxışlarla qızına baxdı:

- Nədir, ay qız. Səni kim çağırdı?

Sonra da sözünə davam etdi:

- Mən əminəm! Bundan sonra o, kənara baxmayacaq, öz ailəsinə sədaqətli olacaq.

Yalnız indi söhbətin məğzini anlayıb hamı uğunub getdi. Həmid hələ də ayaq üstündə olan Əminəni dartıb oturtdu:

- Ema, səni çağırmadı e, kişi. Əminə demədi, əminəm, dedi. Yəni, ya uveren.

Yenə hamı gülüşdü. Öz aləmində olan Barat kişi tostunu yekunlaşdırdı:

- Əzizlərim, Həmid və Əminə... Sizinləyəm.

Həmid də Əminə də ona baxdılar, eyni vaxtda dilləndilər:

- Eşidirəm.

- Hə, ata.

Barat kişi sərxoş ədayla dedi:

- Bir ayağa durun.

Ayağa durdular.

- Qoşa qarıyın, oğullu-uşaqlı olun!

Xəyyam «İstidir» oxumağa başladı. Öncə İqbal, ardınca da Həmid durub oynadılar.

*Yay, səmada ulduzlar yanır bu gecə*
*Səs getdikcə yüksəklənir bu yerdə*
*Rəqs meydançasında, hərarət yerində*
*Sataşdı gözləri gözlərimə...*

Barat kişi də cavanlara qoşuldu. Eynən onlar kimi hərəkət etməklə oturanları lap güldürdü.

Suqra yerindən qışqırdı:

- Ay kişi, düşüklərin qırılsın. Bu, sənin havan deyil axı...

... Darvaza zərblə döyüldü. Axı kim ola bilərdi? Onu açmağa Gülgəz getdi. Elə bu vaxt həyətdən qışqırtı səsləri gəldi:

- Qızımı bədbəxt edib, indi toy eləyirsiz?!

Dərhal da Zərrin özünü içəri atdı:

- Hanı o Mələk? Hanı o itin qızı? Balalarımı bədbəxt edən alçaqlar!!!

Onun bura gəlib çıxması hamını o qədər təəccübləndirmişdi ki.

Zərrin onları söyüb qarğamaqda idi:

- Sizi zəlil qalın, pul qudurtmuş oğraşlar!!!

Bayaqdan donub qalmış Həmid Zərrinin şöyüşlərinin lap kəskinləşdiyini görəndə, nəhayət, yerindən sıçradı:

- Ay bibi, axı belə olmaz. Sən...

Zərrinin ağzı hirsindən köpüklənirdi:

- Oğraş, qızımı bədbəxt etdin. Bu fahişəyə, küçədə qalana görəmi qızımı bədbəxt etdin?

Barat kişi söhbətə qoşuldu:

- Ay arvad, ağzının danışığını bil.

Suqra isə yerindən dik atıldı:

- Fahişə sənin nəslindir, ay küçədə qalan, ay qaloşlu kəndçi.

Elə bu vaxt Zərrin qıy çəkərək özünü Əminənin üstünə atdı, qızın saçından yapışıb onu yerə yıxdı:

- Qoymaram! Qızımın yerini tutmağı sən küçədə qalana qoymaram!

Suqra da Zərrinin üstünə atıldı. Həmid çətinliklə Əminəni Zərrinin əlindən qopara bildi...

Barat kişi qışqırırdı:

- Polis çağırın! İctimai asayişi pozan bu qadın dərhal həbs olunsun! O, ekstremistdir!

Stol-stullar aşır, qab-qacaq qırılıb yerə tökülürdü.

Balaca Turalın çığırtısı ərşə qalxmışdı...

Haçandan-haçana Həmidlə İqbal Zərrini itələyə-itələyə çölə çıxartdılar. O, darvazanı təpiklə, yumruqla döyüb yenidən içəri qayıtmaq istəyirdi və qışqırırdı:

- Ay camaat, bu biqeyrət, bu oğraş halal südəmmiş qızımı qoyub, gəlib bu fahişəni aldı! Allah bu zülmü götürməz! Görüm, sizin eviniz dağılsın!...

Hamı dilxor olmuşdu. Görəsən, Zərrin arvad haradan bilmişdi bura - bağa yığışdıqlarını?

Həmid sualı bacısına ünvanladı. Gülgəz çiyinlərini çəkdi.

- Axı bunu heç kəs bilmirdi, - deyə Həmid təəccüblə ətrafdakılara baxdı.

- Günorta siz gələndə bütün həyət gördü də. Yığışıb bura gəlməyimizi də gördülər. Kimsə çatdırıb, yəqin. Bu da durub gəlib. Gəlib ki, dava-qırğın etsin.

İqbalın söylədikləri Həmidin ağlına batmadı. Axı Zərrin nə bilib ki, bunlar məhz bağa gəliblər?

Az keçmiş İqbal «kəşfiyyata» gedib qayıdandan və Zərrinin yaxınlıqda olmadığını bildirəndən sonra yenidən şadlandılar, dilxorçuluqları getdi.

Xəyyam oxuyurdu:

*- Tı daleko, v serdse mayom,*
*Park apustel, xolodno v nyom.*
*Tı daleko, şastye proşlo,*
*yevo uje ne vernyoş.*

Badələr badələrə dəyir, hamı şənlənirdi...

***

Gecənin bir aləmində yataqda Həmid boynunu uzadıb Əminənin də oyaq olduğunu gördü:

- Ema, niyə yatmırsan?

Əminə ona sığındı:

- Nə bilim, yuxum qaçıb.

Həmid başını qaldırıb onun dik burnundan öpdü:

- O arvad bərk incitdi səni?

Əminə gülümsədi:

- Sənin yolunda mən hər şeyə hazıram.

Həmid bir daha onun burnundan öpdü:

- Mənim fədakar sevgilim.

... Xəfif külək əsir, pəncərənin pərdəsini yelləyirdi. Pəncərədən zülmət bir gecə görünürdü.

Həmidlə Əminənin pıçıltılarından başqa heç bir səs-səda yox idi.

- Qorxmursan?

- Sənin yanında nədən qorxmalıyam ki...

- Ema, mən səni dünyanın ən xoşbəxti edəcəm. Bütün arzularına qovuşacaqsan. Ən böyük arzun nədir?

Əminə xeyli susdu.

- Deyim?

- De.

- Yerinə yetirəssən?

- Arxayın ol.

- Lap çətin də olsa?

- Əlbəttə.

Əminə yenə xeyli susub dilləndi:

- Həmidim, insan üçün dünyada anadan, atadan şirin nə var. Mən səni, bir də onları dünyalar qədər istəyirəm. Onlar məni belə gözəl, göyçək dünyaya gətiriblər. On yeddi il bəsləyib indi də sənə peşkəş ediblər... Onlar mənim üçün hər şey ediblər. Həmişə arzu etmişəm ki, mən də onların borcundan çıxım... Bilirsən, Həmidim, atam vaxtilə zavodda mühəndis işləyib. Dünya qarışanda zavod da bağlanıb. Ailəni dolandırmaq üçün yazıq kişi evimizi zaloq qoyub pul götürüb ki, alver eləsin... Bilirsən, kişi zəmanə adamı deyil. Ona görə də pulları

batırıb... İndi faizlər də üst-üstə çıxıb, vurub kəllə-çarxa. Yazıqlar bütün günü bunun fikrini çəkirlər...

Əminə ağlamsındı.

Həmid soruşdu:

- Nə qədər borcu var atanın?

- Otuz min.

- Dollarla, manatla?

- Manatla.

- Deməli, otuz yeddi min dollar?

- Nə bilim, mən dollarla bilmirəm.

- Belə çox?

- Hə, çoxdur. Ancaq nə etmək olar?

- Axı bir belə pulu o, niyə götürüb, nəyə sərf edib? Dörd baş ailə üçün adam bu qədər borca girər?

- Nə bilim.

Əminə üzünü çevirib hıçqırmağa başladı.

Həmid nəyisə xeyli götür-qoy edib, nəhayət, dilləndi:

- Yaxşı, sabah verərəm o pulu, apararsan.

Əminə ağlamaqda idi:

- Bilirəm, elə ilk gündən səni öz ailə problemlərimizlə yüklədim. Bu, yaxşı olmadı. Ancaq valideynlərimin durumları çox acınacaqlıdır. İnan ki, bir də belə şey təkrarlanmayacaq.

Həmid onun başını qucaqladı:

- Sabah pulu verərsən, işlərini yoluna qoyarlar...

# 11-ci HİSSƏ

- Mən heç vaxt səhərlər sənin eşqinlə yuxudan oyanmıram.

- Deməк, məni sevmirsən?

- Gecələr sənin eşqindən yata bilirəm ki, səhərlər də oyanım?!

Gündüz məşhur bir italyan mahnısının sözlərini təkrarlaya-təkrarlaya Gülarənin mənzilinin qapısını döyürdü. Öncə qapının qıfılı, sonra zənciri açıldı. Gülarə gülümsər sifətlə onu evə buraxdı:

- Keç. Nə yaxşı gəldin?!

İçəri keçib soruşdu:

- Evdə kim var?

Ayaqqabılarını çıxardı.

Gülarənin: - Heç kim, - cavabına yeni bir sual ünvanladı:

- Totuş hanı?

- Məktəbdən gəlib çörək yedi, dedi, gedirəm dostlarımla kompüter zalına.

Otağa keçdilər.

- Novostroykaların bax, bu genişliyi mənə ləzzət edir də, - söyləyərək Gündüz oradan da eyvana adladı: - Elə bil, bütün şəhər ayağının altındadır.

Gülarə mətbəxə keçdi, çay süfrəsi tədarükünə başladı. Az keçmiş Gündüz də onun yanına gəldi.

Gülarə piroq kəsirdi. Gündüz ləzzətlə qoxunu içinə çəkib:
- Bəh, bəh. Sənin şirniyyatlarına söz ola bilməz də, - söylədi.

Gülarə soyuducudan limon çıxarıb nəlbəkidə doğradı:

- Həmid neyniyir?

- Dünən zəng vurmuşdum. Aldı da o qızı.

Gülarə bıçaq əlində donub qaldı:

- Necə yəni aldı?! Bəs bibisiqızı? Vallah, bu günə kimi mən elə bilirdim ki, ağlı başına gələcək, yazıq qızı bədbəxt etməyəcək. Düşünürdüm ki, səhvini başa düşəcək...

- Həyatdır da, - deyə Gündüz köks ötürdü.

- Çayı burda içək, yoxsa otağa daşıyım?

- Elə bura yaxşıdır.

Mətbəx masasının ətrafında əyləşdilər. Gündüz çayına limon atdı. İri piroq dilimini götürüb «bəh, bəh» eləyə-eləyə yeməyə başladı. Gülarə fincanı əlində tutmuşdu. Ancaq çayı içmirdi, gözləri yol çəkirdi.

- Bütün kişilər, sanki, eynisiz. Qadın sizə tələbatınızı ödəməyə, sizin çəkdiyiniz haşiyənin daxilində hərəkət etməyə lazımdır. Ancaq rəhmətlik Asəf elə deyildi...

Gülarənin səsində qəhər duyuldu...

- O, çox gözəl ər, ata idi. Tofiq indi doqquz yaşın içindədir. Asəf altı ildir ki, yoxdur. Ancaq uşaq altı ildir, atasının yolunu gözləyir. Ona heç cür deyə bilmirəm ki, atanı bir daha görməyəcəksən...

Gülarənin gözündən yaş diyirləndi. Gündüz piroq qabını kənara itələdi:

- Ayda-ildə bir dəfə görüşürük. Onda da ...

Gülarə gözünü sildi:

- Neynəyim, özümdən asılı deyil. Sən Allah, bağışla!

Tez də əlavə etdi:

- Qoy sənə çay süzüm.

Durub Gündüzə çay süzdü. Onun dilxor olduğunu görüb söhbətin səmtini dəyişdi:

- Layihəndən nə xəbər? Pul ayırdılar?

Gündüz 3 gün sonrakı görüşü təsəvvürünə gətirdi. Rəyasət müəllim seyfə yaxınlaşıb oradan beş min dollar çıxarıb ona verir və deyir: «Vətən üçün, xalq üçün yaratmağında ol, böyük sənətkar». Hətta pulun xışıltısını da eşitdi, qoxusunu da duydu. Məmnunluqla dedi:

- Ayın iyirmi dördü pulu götürəcəm. Cəmi on beş tablo çəkməyi planlaşdırmışam. Xəmsənin hər poemasına üç tablo... Artıq ikisi hazırdır.

Çox səliqə-sahmanlı, işıqlı mətbəx idi. Qab-qacaq bərq vururdu. Mebel isə həddən artıq zövqlə yığılmışdı. İri, ikikameralı soyuducu, qabyuyan və paltaryuyan maşınlar, ət və şirəçəkənlər... Gülarə əynində bənövşəyi rəngli xalatda bütün bu gözəllikləri tamamlayırdı.

Gündüzün gözünün qabağına öz mətbəxləri, Ülkər gəldi. Şəraitsizlikləri onu lap sıxdı. Düşündü ki, lap məşhurlaşanda, çoxlu pulu olanda bu cür yeni tikililərin birindən ev alar. Lap elə bu binadan. Gülarəyə də qonşu olar.

Dərhal da dilləndi:

- Sizin bu binada ev satıb-eləyən yoxdur?

- Bilmirəm. Niyə soruşursan ki?

- Almaq istəyirəm. Kvadratı neçəyədir?

- Biz alanda cəmi beş yüz manat idi. İndi xeyli baha olar. İstəsən, maraqlanaram. Ofislərindən soruşaram.

- Hə, soruş. Sərf edən qiymətə olsa, alacam.

Gülarə köks ötürdü:

- Ancaq heç istəmərəm, qonşu olaq.

Gündüzün: - Niyə? - sualına cavab vermədi.

Qonaq otağına gəldilər. Gülarə televizoru yandırdı. Gündüz kresloya əyləşib kanaldəyişəni əlinə götürdü. Televizor böyükekranlı «Sony» idi. İri, rəngli təsvir nümayiş olunan filmi xeyli canlı edirdi. Elə bu an Gündüz düşündü ki, rəng - ideyanın daşıyıcısıdır. Və bəlkə də, onun mənzili və ofisi yarımqaranlıq, küçələri bozumtul olmasaydı, televizoru ağqara göstərməsəydi, Ülkər, Aydan və Rizvanın çöhrələri qüssədən tutqun olmasaydı, rəsmləri də işıqlı olardı? Bax, elə bu mənzildə - bu rənglərin əhatəsində, eyvandan görünən gözəl mənzərəyə, bu genişekranlı televizordakı rəng qammasına baxa-baxa, üzündə nur olan Gülarə ilə yanağı qırmızı Totuşun yanında o - impressionist rəssam Gündüz Ələkbərli heç qəm-kədər natürmortu çəkərdimi?

Düşündü ki, qəm-qüssə və kədər elə ki, daimiləşirlər, dönüb dərdə çevrilirlər.

Gülarə eyvandan Tofiqi səsləyirdi:

- Totuş. Gündüz dayı gəlib. Evə çıxmırsan?

Gözü kamodun üstündəki alboma sataşdı. Bu, Gülarənin məktəb illərinin yadigarı olan albomu idi. Onu Gündüz 14 il öncə - son zənglərində sonuncu dəfə görmüşdü. Gülarənin həyat yoldaşı rəhmətə gedəndən sonra bura gəlişlərinin heç birində albom üzdə olmamışdı. Görəsən, Gülarə onun gəldiyini bildiyi üçünmü albomu kamodun üstünə qoymuşdu, yoxsa bu, sırf təsadüf idi?

Tünd-göy rəngdə olan, üstünə qızılı kalkadan 1985-1995 rəqəmləri və «Unudulmaz məktəb illəri» sözləri kə-

silərək yapışdırılan albomu əlinə götürdü. O vaxt bu rəqəmləri və sözləri Gülarənin xahişi ilə albomun üstünə o yapışdırmışdı... Kövrəldi, burnunun ucu göynədi o günlər üçün...

Gülarə: - Hə, alboma baxırsan? - söyləyib onun yanından keçdi, mətbəxə girdi.

Albomdakı ilk şəkil. Saçı kəsik, ağbəniz qızcığaz. Altında gözəl xətlə yazılıb: «27 Avqust, 1985-ci il. 1-ci sinif üçün çəkdirdiyim şəkil».

Bu da ilk kollektiv şəkilləri. Asəf əlaçıdır deyə tən ortada, Qəməndər müəllimin yanında dayanıb. Ətrafda dayanan oğlanlar - Faiq, Eldar, Rasim və qızlar Sevda, Mədinə, Aida... Hamısı əlaçılardır. Gülarə də oradadır, onların arasında. Gündüz, Həmid, Tural və Qoşqar - 1-ci sinifdən ta ki 10-cuya qədər dostluq edən bu ayrılmaz dördlük isə arxa sırada dayanıblar...

Nəhayət, əlləri əsə-əsə albomun 29-cu səhifəsini açdı. Ürəyinin döyüntüsü qulaqlarında bir uğultu qoparmaqda idi... Bu şəkli 1993-cü il mart ayının 21-də çəkdirmişdilər. Onda 8-ci sinifdə oxuyurdular. Novruz bayramını Mədinəgildə keçirirdilər. Gündüz bir ilə yaxın idi ki, Gülarəni odlu bir sevgi ilə sevirdi. Bütün dərs boyu ona baxır, yolunda dayanır, hara gedirdisə, gözü onu axtarırdı. Hər dərs Gülarənin şəklini çəkir, sonradan üzərinə «Mənim ilk sevgim» yazdığı qovluğa yığırdı. Bu qovluğu həyətlərindəki qarajlarında gizləyirdi ki, ata-anası görməsin... Gülarə Gündüzün ona biganə olmadığını təqribən bir aydan sonra hiss etdi. Və tezliklə o da Gündüzə baxmağa başladı... Həmin gün, Mədinəgilin eyvanında fürsət

tapıb axır ki, Gündüz Gülarəyə: «Səni sevirəm, bütün varlığım qədər, həyatım qədər», - söylədi. Bu etirafı nə vaxtdandır ki, gözləyən Gülarə qıpqırmızı qızardı... Eyvandan cəld otağa, uşaqların yanına qaçdı... Bu şəkil həmin günün yadigarı idi...

- Mən də o günləri tez-tez xatırlayıram.

Gülarənin səsindən Gündüz diksindi. Gəlib sakitcə başının üstündə dayanmışdı. Onun albom vərəqləməsinə tamaşa edirdi...

- Olar, siqaret çəkim? Bayaqdan çəkməmişəm, ciyərim yanır.

- Olar.

Gündüz siqaret yandırıb albomu vərəqlədi. Sonrakı kollektiv şəkillərin hamısında yanaşı idilər. Bu şəkli Nəbatat bağında çəkdiriblər. 9-cuda oxuyurdular. Oradan qayıdanda kollektivdən ayrılmışdılar. İkilikdə gələ-gələ doyunca söhbət etmişdilər... Bunu isə Qubada çəkdiriblər. 11-cidə oxuyurdular. «Son zəng» ərəfəsi idi. Nə gözəl bir gün idi, İlahi... Həmidlə Qoşqar əllərində şampan şüşəsi tutublar. Gündüzün əlində kabab şişi var. Gülarənin isə əlində çöl çiçəklərindən ibarət böyük bir dəstə. Çiçəkləri onun üçün Gündüz yığıb. Kadrda Asəf də var. Dilxor halda arxası onlara tərəf oturub. Asəf o vaxtlar Gülarəni bütün varlığı ilə sevirdi. Ancaq sevgisi cavabsız idi. Gündüzə könül verən Gülarə Asəfin iztirab çəkməsini ürəkağrısı ilə müşayiət etməkdə idi...

Bir dəfə Asəflə Gündüzün aralarında dava da olmuşdu. Asəf Gündüzə yeniyetmə inadı ilə bunları söyləmişdi:

- Mən səndən yaxşı oxuyuram, səndən qəşəngəm, güclüyəm. Ailəmiz sizinkindən varlıdır. Gülarədən əl çək. O

qız sənə layiq deyil. Əl çəkməsən, özündən küs. Səni...

Gündüz çox arıq idi. Ancaq çəldlikdə ona çatan olmazdı. Bir göz qırpımında Asəfə yumruq atmışdı, sözünü ağzında qoymuşdu. Sonra tutaşmışdılar. Asəf buna güc gəlmiş, yerə çırpmışdı. Şalvarının dizi cırılmışdı...

- O günümüz yadındadır?

Gülarə soruşdu.

- Əlbəttə, yadımdadır. Heç onu unutmaq olarmı?!

Gündüz cavab verdi.

Qubada çəkdirdikləri şəkillərin hamısı maraqlı alınmışdı. Burada at belindədirlər, burada çayı keçirlər, burada voleybol oynayırlar... İri gövdəsi olan nəhəng bir ağacın bir tərəfindən Gülarə başını çıxarıb, bir tərəfindən Gündüz... Bir an öncə onlar əl-ələ verib tala boyu gəzmişdilər, növbəti dəfə bir-birlərinə sədaqət andı içmişdilər. Gündüz onun əlini ovcunda saxlayaraq gözlərinin içinə baxmış: - Məni səndən ayırsa, ancaq ölüm ayıracaq, gülüm, - söyləmişdi...

- Axı niyə, niyə məni almadın, hə?

Gülarə bunu soruşdu və Gündüzün gözləmədiyi halda hıçqırdı. Bu evə gəlib gedəndən bəri ilk dəfə idi ki, Gülarə ona bu sualı verirdi.

Gündüz əli əsdiyindən siqaretinin külünü külqabıya sala bilmədi...

- Mənə çox zülm verdin. Asəfgil gəlib məni aparanda gəlinlik paltarında pəncərədən düşüb ayaqyalın qaçdım... Sənsə...

Hönkürdü.

Gündüz ona nəsə demək istədi, ancaq bilmədi, nə desin. Məktəbi bitirdikdən sonra ali məktəbə sənəd verdilər, Gü-

larə BDU-ya daxil oldu, Asəf İqtisad Universitetinə, Gündüz isə Əzimzadə adına Rəssamlıq Məktəbinə. Dostları Həmid, Tural və Qoşqar kəsildilər.

Gülarə ilə görüşürdü, əlaqələrini kəsmirdi. Vaxt tapıb BDU-ya gəlirdi. Gülarəni götürürdü, evə ötürürdü. Hərdən gəzməyə də çıxırdılar...

Bir gün evlərində atası ilə anasının onu nişanlamağa hazırlaşdıqlarını eşitdi. Sən demə, atası Cəlilabadda yaşayan dostu ilə öz aralarında uşaqlarını bir-birinə deyikli ediblərmiş. Nə illah elədi, valideynlərini bu yoldan çəkindirə bilmədi. Tezliklə onu Ülkərlə nişanladılar. Gülarənin göz yaşları içində rəssamlıq məktəbinə gələrək ona: - Axı niyə, niyə məni almadın, hə? - söyləməsi səhnəsi gözünün qabağına gəldi. İşə bir bax. 13 ildən sonra Gülarə yenidən bu sualı ona ünvanladı. Desin ki, valideynlərim məni məcbur etdilər? O vaxt özü də inanırdı ki, valideynləri onu məcbur ediblər. Ancaq indi bu səbəb ona çox cılız göründü. Çünki bircə ölümə çarə yoxdur. O, müqavimət göstərməli, mübarizə aparmalı idi...

- Salam, Gündüz dayı.

Tofiq gəlmişdi. Nə yaxşı oldu ki, uşaq gəldi. Gərginliyi azaltdı.

Qucaqlayıb Tofiqin üzündən öpdü:

- Mənim Totuş balam, necəsən?

- Yaxşıyam, Gündüz dayı. Albomumu gətirim, göstərim təzə çəkdiyim rəsmləri?

- Göstər.

Hər dəfə gələndə Tofiqə rəsm çəkməyi öyrədirdi. Deyirdi, qoy Tofiq böyüyəndə rəssam olsun.

Onun çəkdiyi rəsmlərə baxmağa başladı:

- Toplu oğlanı yaxşı çəkmisən. Ancaq topun dairəvi deyil, sanki, kvadratdır. Mən axı öyrətmişdim sənə, dairə almaq üçün qövsvarı xətlərdən necə istifadə edirlər... Ağacı yaxşı çəkmisən. Quşu da... Paho. Belə maşın olar? Bunun qabağı ilə arxası heç seçilmir ki. Səndən necə rəssam olacaq? Heç tapşırıqlarıma əməl eləmirsən.

Gözləmədiyi halda Gülarə söhbətə müdaxilə etdi:

- O, rəssam olmayacaq, atası kimi iş adamı olacaq. Böyük biznes quracaq.

Sanki, Gündüzün içində nə isə sındı. Bir anda havası çatışmadı, elə bildi, boğulacaq. Sakitcə durub eyvana çıxdı. Gülarə də onun ardınca eyvana gəldi.

- Xətrinə dəydim, bağışla, - söylədi.

6 il öncə Asəf avtomobil qəzasında həlak olanda sinif yoldaşlarının əksəriyyəti yığışıb gəlmişdilər. Gündüz xəbəri eşitcək dərhal Turalla Qoşqarı arayıb tapmışdı, Həmid Rusiyada olduğundan, üçlükdə gəlmişdilər, dərddən bükülüb qalmış Gülarəyə başsağlığı vermişdilər...

Asəfin qırxı günü Gülarə onlara: - Hərdən gəlin, məni tək qoymayın, - söyləmişdi. Bir müddət Gündüz ya Turalla, ya da Qoşqarla gəlib-getmişdi. Sonradan isə tək gəlməyə başladı. Gəlirdi, uşaqla oynayırdı, çay içirdi, söhbətləşirdilər... Heç vaxt keçmişi yada salmamışdılar, heç vaxt sevgi xatirələrindən söz açmamışdılar... Bu gün hər şey fərqli oldu. Albom, şəkillər, o sual və sonda da Gülarənin bu sözləri...

Eyvandan dənizə gözəl bir mənzərə açılırdı. Bakı buxtası, gəmilər, insanlar... Düşündü ki, rəng, doğrudan da,

ideyanın daşıyıcısıdır. Körpə uşaqlar xeyirlə şəri, yaxşıyla pisi rənglərlə seçirlər. Onların aləmində şər qüvvələr qara, tünd, xeyir qüvvələr açıq, al-əlvan rəngdə qavranılır. Vay o hala ki, sənin rəng palitranda rəng məhdudiyyəti olsun. Onda nə demək istədiyini ifadə etmək çox zor gələcək sənə.

Evdən çıxanda Gülarəyə dedi:

- Əlbəttə, Asəf varlı olub, imkanlı olub. Özü dünyadan köçsə belə, obyektlərinin gəlirləri ilə ailəsi firavan dolanır. Belə gözəl mənzilin, gül kimi şəraitin, avtomobilin...

Gülarə onun dayanmasını istədi:

- Sən Allah, bəsdir, Gündüz. Mən sənin xətrinə dəymək istəmədim.

Ancaq Gündüz danışmaqda idi:

- Mən isə dünyada yaşaya-yaşaya ailəmi kirayə evdə, ehtiyac içində saxlayıram. Mənə gəlsəydin, xoşbəxt olmayacaqdın...

Və son sözü də bu oldu:

- Ona görə də təəssüflənməyə dəyməz...

... Küçə boyu şütüyən avtomobillər də rəngbərəng idi, adamların əyin-başı da. O qədər əsas və qarışıq rənglər var idi ki, onların bir-birinə toxunmasından lap adamın gözü qamaşırdı...

Gündüz bu rəngləri seyr edə-edə düşündü ki, ayın 24-ü saat 11-ə düz 67 saat 50 dəqiqə qalır...

## 12-ci HİSSƏ

Gecədən bir yağış başlamışdı ki... Damcılar pəncərə şüşəsinə çırpılır, navalçalardan axan su şırıltı qoparırdı. Həmid yatağından durmağa ərinir, gözlərini yağış mənzərəsini əks etdirən pəncərə şüşəsinə dikərək siqaret tüstülədirdi.

Əminə otağa keçdi:

- Ay tənbəl, heç saatdan xəbərin var? On birə işləyib e...

Həmid əsnədi:

- Soyuqdur, axot da yoxdur durmağa.

Əminə gəlib onun yanında əyləşdi, yanağından öpdü:

- Bu gün sentyabrın iyirmi biridir. Heç məni təbrik etmirsən.

Həmid siqareti sinəsinə qoyduğu külqabıya basıb söndürdü:

- Səni niyə təbrik etməliyəm? Dünən dedin ki, sabah anamın ad günüdür. Deməli, ananı təbrik etməliyəm də.

Əminə dodağını büzdü:

- Anam öz yerində, bu gün bizim ailə qurmağımızın beş günü tamam olur. Deməli, sən belə vəfalı imişsən... İlk yubileyimiz heç yadına da düşmürmüş...

Həmid külqabını götürüb yerə qoydu, sonra Əminəni dartıb yanına yıxdı, öpməyə başladı:

- Bağışla, Ema. Necə də yadımdan çıxıb, bu...

Az sonra dedi:

- Bura bax, mən səni on beşi qaçırmışam, demək, beş günümüz dünən idi.

Əminə sivişib onun əlindən çıxdı:

- Xeyr. Biz kampaniyanı on altısı elədik, deməli, ayın on altısından sayılır.

Səhər naharında Əminə bir daha yubiley söhbətini ortaya atdı:

- Həmidim, indi sən məni təbrik etmək fikirində deyilsən? Nə olar, mənə Nokiya al da.

Həmid çörək diliminin üstünə yağ çəkib pendiri xırda-xırda qırıb düzdükdən sonra Əminənin sualına cavab vermədən mövzunu dəyişdi:

- İqbalsız adam darıxır, hə? Dedik, bir az da bizimlə qal, qulaq asmadı, aradan çıxdı. Dünən görmədin, telefonda nə dedi? Dedi, heyif deyil Yekaterinburq? Ye, iç, kef çək.

Çörəyi dişinə çəkdi:

- Get mamanı da çağır.

Əminə çay süzə-süzə: - Bilirsən ki, anan bizimlə çörək yemir, - dedi.

- Yemir, məcbur etmək lazımdır. Deyək, bizdən inciyib, yaşlı adamdır da, onun öz panyatkası var. Ancaq bu, o demək deyil ki, biz axıracan küsülü olmalıyıq.

Əminə: - Çayını şirin eləyim? - soruşdu.

Həmid başını tərpətdi. Sonra durub anasının otağına keçdi.

Mələk köhnə alboma baxır, dodaqaltı nəsə zümzümə edərək ağlayırdı... Həmid gəlib onun başını qucaqladı:

- Ay ma, nə olub sənə?

Mələk hıçqıra-hıçqıra: - Heç, köhnə günlər yadıma düşüb, - dedi.

Həmid albomun açıq vərəqinə baxdı. Anasının yaxası krujevalı sarı paltarda fotosu idi, yanında başıkepkalı atası durmuşdu. Fotonun altında «1977-ci il. 14 Sentyabr. Mineralnıye Vodı» yazılmışdı.

Həmin vaxtdan nə az-nə çox, düz 32 il keçmişdi… Anası bu foto haqda onlara - Gülgəzlə ona çox danışmışdı: 3 gün öncə Mələklə Sübhanın toyu olmuşdu. O vaxt Mələyin atası Həmkarlar İttifaqında işləyirdi. Təzə evlənənlərə putyovka düzəltmişdi. Toydan dərhal sonra onlar Şimali Qafqaza toy səyahətinə çıxmışdılar… Bu şəkli də Minvodda çəkdirmişdilər. Sevgi dolu, qayğısız-filansız, bəxtəvər günlərin bolluğuna düşmüşdülər… İkisi də gülümsəyirdi…

Bayaqdan Həmid zümzümə edə-edə ağlayan anasının məhz nəyi zümzümə etdiyini kəsdirə bilmədiyi üçün özünü qınadı. Axı bu fotoşəklə baxa-baxa anası başqa nəyi zümzümə edə bilərdi ki…

*Saçın ucun hörməzlər,*
*Neynim aman, aman*
*Sarı gəlin, ay yar,*
*Sarı gəlin...*
*Bu sevda nə sevdadır,*
*Səni mənə verməzlər,*
*Neynim aman, aman*
*Sarı gəlin, ay yar,*
*Sarı gəlin...*

Sanki, 32 illik vaxt kəsiyi yoxa çıxmışdı. Sübhan sarı rəngli, klyoş platya geyinmiş Mələyə «Sarı gəlin» mahnısını oxuyurdu... Yüz, min illər bundan qabaq da sevənlər olmuşdu. Yüz, min illər bundan sonra da sevənlər olacaqdı... Ancaq nə bundan əvvəl, nə də bundan sonra hansısa sevən cütlər öz əlamətlərinə görə xalq mahnısına bu qədər uyğun gəlməyəcəkdilər...

Axı necə ola bilərdi ki, hər şey mahnı ilə bu qədər üst-üstə düşsün? Mələk sarı paltar geyinir, özü də sarışındır. Saçını da hörür. Sübhan onu istəyir, ancaq qızı ona vermirlər...

Sübhanla Mələk həmişə deyərdilər ki, keçmişdə mahnı qoşan dədə-babalarımız biliblər ki, haçansa dünyaya biz gələcəyik, ona görə də bizi mahnı qəhrəmanı ediblər...

*Bu sevda nə sevdadır,*
*Səni mənə verməzlər...*

Mələyin atası bəy nəslindən idi. Qarabağ bəylərbəyi olmuşdu babaları. Sovet hakimiyyəti onların nəsillərinə amansız divan tutmuşdu, var-dövlətləri, mülkləri əllərindən alınmış, başıpapaqlılar həbsə atılmış, sürgünə göndərilmişdi... Ancaq bütün məhrumiyyətlərə baxmayaraq bu nəsil öz qürurunu, ən əsası da, kübarlığını qoruyub-saxlaya bilmişdi.

Uzun illərdən bəri nəslin bir yazılmamış qanunu da var idi: Yadlara qız verməmək və yadlardan qız almamaq...

70-ci illərin sonunda kifayət qədər yüksək vəzifə tutan İbrahim kişi də sevimli, gözəl-göyçək Mələk qızını əslən Aran rayonundan olan Sübhan adlı oğlana vermək istəmirdi. Həm nəslin qanununa görə, həm də Sübhanın nəcabətli nəslin övladı olmadığına görə...

Ancaq gənclərin sevgiləri qarşısında çəkdiyi səddi tezliklə İbrahim kişi öz əlləriylə uçurmalı oldu. «Dünya beşgünlükdür, iki gəncin sevgi qatili olmaqla dünyadan köç etmək nəyə gərəkdir?» düşünərək onlara xeyir-dua verdi...

Sübhanla Mələk ailə qurdular, dünyaya iki övlad gətirdilər... Xoşbəxt, əfsus ki, qısaömürlü bir ailə həyatı yaşadılar...

İndi Mələk, elə bil, bütün dünyanın yükünü çiyinlərinə yığıb ağlayırdı...

Onun başını qucaqlayan Həmid də, qapının ağzında dayanmış Əminə də onu ovundurmaqda aciz idilər...

***

Günorta İqbal yenidən zəng etdi:

- Ay bəy, medovıy mesyatsı qurtarmaq fikrində deyilsən?

Həmid xeyli gülüb dedi:

- Beş-on günə gələcəm, arxayın ol.

- Ural xalqı sənə salam göndərir. Xüsusilə də... Yanında adam yoxdur?

- Yox.

- Xüsusilə də İrina. Evləndiyini dedim, dilxor oldu. Düzünü söyləsəm, lap ağladı. Nə isə əşşi. Oralarda havalar necədir?

- Yağış yağır.

- Burda yaman soyuqdur. Elə bil, dekabrdır. Mələk xala, Əminə necədirlər? Bura bax, mənim bir planım var.

- Nə plandır?

- Gəl, səninlə bacanaq olaq.

- Nə?

- Hə, Nərminədən yaman xoşum gəlib. Onu da mənə alın. Olaq bacanaq.

- Ooo... Bunu qeyd etmək lazımdır ki!

Həmid üzünü yana tutub Əminəni səslədi:

- Əminə! İqbaldır. Bilirsən, nə deyir? Deyir ki, Nərminəyə vurulmuşam. Mənimlə bacanaq olmaq istəyir.

Əminə gəlib uşaq kimi əl çaldı:

- Urra! Bomba olar ey...

Sonra otaqdan çıxdı, Həmid İqballa söhbətini davam etdirdi:

- İşlər necə gedir?

- Pis.

- Niyə?!

- Naloqnan yollaşa bilmirik.

- Haqq-hesablarını çatdırmayıblar ki?

- Alınmır ee...

- Niyə alınmır? Get gir Markovun yanına. De ki...

- Yox, Həmid. Özün gəlsən məsləhətdir, reketlər də haqqı qaldırıblar.

- Onlar niyə qudurdular?

- Romangil nalyot eləyəndən sonra Avşalumov haqqı qaldırıb. Deyir ki, bratvanın dolyası artıb. Vəziyyət çox pisdir. Tez gəlsən, yaxşıdır.

Sağollaşdılar. Həmid uzun müddət telefondan aralanmayıb fikirləşdi...

Əminə gəlib onu qucaqladı:

- Nə olub?

Həmid içini çəkdi:

- Heç.

Ancaq Əminənin təkidindən sonra hər şeyi açıb söylədi. Bir siqaret çəkimi müddəti qədər uzanan fasilədən sonra əlavə etdi:

- Gərək, təcili Yekaterinburqa uçam.

Əminə daha bərk sığındı ona:

- Bəs mən? Məni qoyub gedəcəksən?

Həmid yenə də içini çəkdi:

- Bəs nə edim? Başqa əlac var?

- Məni də apar da. Ömrümdə heç Rusiyada olmamışam.

- Yox, səni ora aparammaram. Orada yaşamaq qorxuludur... Elə bilirsən, ruslar bizim başımızı sığallayırlar?

Onun üzündən öpdü:

- Gedərəm, beş-on günə işlərimi sahmanlayıb yenə də qayıdıb gələrəm.

Əminə dodaqlarını büzdü:

- Yox, mən səndən ayrı beş-on gün o yana, heç beş-on saniyə də qala bilmərəm...

Sonra onu öpüşlərə qərq etdi...

- Heç mən də səndən ayrı qala bilmərəm, - deyib Həmid onu qucağına aldı ki, yataq otağına aparsın...

Əminə dartındı:

- Anan görər, ayıbdır.

***

Yağış hələ də çisələyirdi. «X 5» Qoşa qala meydanında xeyli irəli-arxaya gedib, nəhayət, dar bir yerdə dayandı. Həmidlə Əminə qara çətirin altına girib Fəvvarələr meydanina - «Nərgiz» ticarət mərkəzinə yollandılar.

Adamlar sağa-sola qaçır, yağışdan qurtulmağa can atırdılar.

Yalnız gənc oğlanla qız heç nə olmayıbmış kimi, skamyada oturub sakitcə bir-birlərinə baxır, bir-birlərinin üzü boyunca diyirlənən yağış damcılarını barmaqları ilə silirdilər.

- Leyli-Məcnuna bax, - Əminə sevənləri göstərib Həmidi dümsüklədi.

Həmid dedi:

- Bəlkə, onların yağışdan xəbəri yoxdur?

Sonra da səsini qaldırdı:

- Ey, tovarişi. Yağış yağır e, suyun içindəsiz!

Əminə onu dartdı:

- Sus. Ayıbdır, eşidərlər...

Yağışa baxmayaraq ticarət mərkəzi yenə də adamla dolu idi.

- Bu gün vıxadnoy-zad deyil ki?

Həmidin bu sualına Əminə başını yelləməklə cavab verdi.

- Bəs onda bu adamlar niyə işləmir? Hamısı burdadır.

Əminə güldü:

- İş var ki, yazıqlar da işləsinlər?

Bir qoca kişi girişdə əlində xırda-xuruş tutub satırdı.

- Kişi, nə var, nə yox?

Həmid həmin kişidən kef-əhvalını soruşdu.

- Sağ ol, ay bala, salamatçılıqdı.

- Uşaqlar nə təhərdir?

- Yaxşı olasan, yaxşıdırlar. Canına dua eləyirlər.

- Oğlun işləmir ki?

- İşləyir.

- Elə həmin yerindədir?

- Hə...
- Salam-dua çatdır.
- Çatdıraram, ay bala.
- Yaxşı, hələlik.
- Hələlik. Ancaq... Səni tanımadım axı...
- Kişi, qocalıqdandı. Yaddaşını krutit eləsən, yadına düşərəm.

Bir qədər gedəndən sonra Əminə: - Kimdir ki, o? - soruşdu.

Həmid and-aman elədi ki, kişini tanımır, eləcə məzələnirmiş. Əminə onun bu əməlindən uğunub getdi...

Qayınanaya hədiyyə seçmək mərasimi xeyli çəkdi. Nəhayət, butiklərin birindən əntiqə bir qadın paltosu seçdilər.

Əminə «kaşemir» paltonun ora-burasına göz gəzdirə-gəzdirə dedi:

- İşləri axsadığına görə kürəkən qayınanasına şuba, yaxud dublyonka ala bilməsə də, palto alır. Onsuz da hədiyyənin böyüyü-kiçiyi olmur...

Həmid paltonun etiketinə baxdı:

- Doğrudan, bu, italiyanski kaşemirdi?

Satıcı qız da, müdir də əlbəəl: - Əlbəttə, - cavabını verdilər.

Müdir dərhal da əlavə etdi:

- Turetski kaşemirimiz də var, ucuz veririk. İki yüz iyirmiyə. Ancaq bu, xalis italiyanskidi. Ona görə belə bahalıdır da. Mübarəkdir. Heç nəyə şəkk-şübhəniz olmasın.

Butikdən çıxdılar. Mobil telefonlar satılan şöbənin qarşısında Əminə Həmidin qolundan tutub saxladı:

- Almırsan mənə telefon?

Həmid dartıb qolunu çıxartdı:

- Sənə bir dəfə demişəm ki, telefon olmaz.

Əminə burnunu salladı.

Ticarət mərkəzindən çıxdılar.

Həmid bomboz rəngdə olan səmaya baxıb deyindi:

- Yaman uzun yağışdır. Heç kəsmək bilmir.

Çətirlərini açdılar. Maşına doğru irəlilədilər. Həmid yağışın, eləcə də bu yağışa, habelə iş gününə məhəl qoymadan ticarət mərkəzində bol olan adamların qarasınca deyindi. Gözətçiyə bir manat verib maşınlarına əyləşdilər.

Həmid portmanatını açıb pullarını saymağa başladı. Onun yanında yerini rahatlayan Əminə də portmanata boylandı:

- Bəs mən?

Həmid sual dolu baxışlarla ona baxdı. Yəni ki, necə yəni, «bəs mən»?

- Deməli, məni heç nəylə təbrik etməyəssən?

Həmid çiyinlərini çəkdi:

- Yapışmısan telefondan. Bir şey bəyənərdin, sənə də alardım da...

Əminə onun yanağını sığalladı:

- Həmidim, iki dənə yüzlük ver, yubileyimi təbrik et.

Həmid narazılıqla: - Pulu neynirsən? - sualını verdi.

Əminə başını onun dizinin üstə qoyub dedi:

- Elə xoşum gəlir ki, yüzlükdən. Ümumiyyətlə, puldan xoşum gəlir. Neynəyim, mən də beləyəm...

Həmid: - Bu, çox pis xüsusiyyətdir, - dedi. Ancaq Əminənin küsdüyünü görüb onun könlünü aldı, iki dənə yüzlük çıxarıb verdi...

***

... Əminəgilə çox adam yığışmışdı. Suqranın ad gününü təbrik etməyə qohum-qonşular toplaşmışdılar. Barat kişi kürəkənini hamıya fəxrlə təqdim etdi. Onu yuxarı başa keçirdilər.

Ancaq Həmid narahat idi. Süfrəyə heç əlini də uzatmaq istəmirdi. Anasının qanqaraçılığı, İqbalın zəngi, Əminənin pul hərisliyi... Hər şey onun qanını qaraltmışdı... Yarım saat oturmuşdular ki, o, Əminəyə getmək lazım olduğunu bildirdi. Əminə nə illah elədisə də, Həmidi fikrindən daşındıra bilmədi...

... Axşam saat 10-a qalmışdı.

Həmid qapılarını döydü. Ancaq açan olmadı. O, narahat-narahat Əminənin üzünə baxdı:

- Görəsən, nə olub...

Əminə ona təsəlli verdi:

- Yəqin, arvad yatıb.

Həmid: - O, bu vaxt yatmaz, - dedi, açar salıb qapını açdı, dərhal evə göz gəzdirdi. Mələk evdə yox idi. Masanın üstünə köhnə əlifba ilə yazılmış əl boyda kağız qoyulmuşdu:

«Gülgəzgilə zəng elədim, Məhəmməd gəlib məni apardı. Mən bu evdə yaşaya bilmirəm. Hər gecə Sübhan yuxuma girir. Zərringilin başına açdığımız oyuna görə məni qınayır. Fikirləşmişəm ki, ancaq Gülgəzgildə rahatlıq taparam...

Mənim dalımca gəlmək lazım deyil, fikrim qətidir. Ən müqəddəs saydığın nədirsə, səni ona and verirəm: Dalımca gəlmə».

Həmid dalbadal bir neçə dəfə anası yazanları oxudu. Sonra başını əlləri arasına aldı... Gözləri dolmuşdu. Və nədənsə də yaş gilələnmiş gözlərinin qarşısında anası 32 il bundan əvvəlki qiyafədə gəlib durdu. Sapsarı paltarda. Atası isə onun üçün oxuyurdu:

*Bu sevda nə sevdadır,*
*Səni mənə verməzlər...*

# 13-cü HİSSƏ

İnsan daim özü ilə əlləşməkdədir: Mütləq bunu elə! Burda xeyrin var! Onu, gərək, eləməzdin! Gör necə səhvə yol verdin! Və peşmançılıq çəkməyə, üzr istəməyə hazır olan insan daim nəsə bir günah törətməyə borclu olur...

Gündüz emalatxanasının yaxınlığında olan İnternet klubunun qapısından içəri boylandı, kompüterlərin arxasındakılara nəzər yetirdi, axtardığı yeniyetməni onların arasında görmədi...

Bir siqaret yandırıb var-gəl elədi, düşündü ki, oğlan, yəqin, indilərdə gələr...

Qarşı tərəfdə hasara alınmış böyük ərazidə köhnə bir binanı sökürdülər. Toz-torpaq aləmə yayılmışdı... Vaxtı ilə bu binanı qurucular necə əziyyət bahasına tikmişdilərsə, indi də dağıdıcılar həmin əziyyət bahasına dağıdırdılar. Bunlar da öz işlərini can-başla yerinə yetirirlər, onlar da vaxtı ilə yerinə yetirmişdilər... Hansıların işi daha önəmlidir, bax, bunu söyləmək olmur. Onlar həmin vaxt boş yerdə bina inşa etmiş, neçə-neçə ailəyə rahatlıq və firavanlıqda yaşamaq xoşbəxtliyi qazandırmışdılar. Bunlar isə böyüyən və gözəlləşən yeni şəhərin fonunda qara ləkə kimi görünən, qəza vəziyyətində olan bu «göz dağı»nı yox edirlər ki, yerini abadlaşdırsınlar, ya da müasir bir bina inşa etsinlər...

Doğrudan da, hansıların işi daha önəmlidir, onların, yoxsa bunların?

Toz əsl duman yaratmışdı və Gündüzə elə gəldi ki, heç bir rəssam tozu çəkməyib. Duman çəkən olub, ancaq tozu heç kəs çəkməyib.

Çox maraqlı olardı tozu çəkmək. Toz bir vaxtlarkı əzəmətli binadan qalan son izlərdir. Öncə bina, sonra toz... Sonra da heç nə... Bir qədər sonra bu toz ya yerə yatacaq, ya da küləklə sovrulacaq...

Bəlkə, gözdən qaçırıb? Yeniyetmə gəlib içəri keçib? Yenidən içəri boylandı. Onu görə bilmədi...

Tozlar da, demə, müxtəlif olurmuş. Biri var əzəmətli, nəhəng binanın tozu, biri də var kiçik bir komanın... Və çox maraqlı olar, tozu elə çəkəsən ki, onun rəsmini görən duysun ki, bu, nəyin tozudur...

Təsadüfən deyil axı, bir şəxs, yaxud bir şey görünməz olanda, deyirlər, heç izi-tozu da qalmadı. Canlının izi, cansızın tozu qalır özündən sonra... Ancaq ani olaraq. Az keçmiş, necə ki, toz yoxa çıxır, eləcə də izi ya başqa izlər örtür, ya da yağış yuyub aparır...

- Salam, Gündüz dayı.

Bu da həmin yeniyetmə. Gündüz sevindi:

- Hə, gəldin? Bu gün nəsə gecikmisən.

Yeniyetmə gülümsədi:

- Anam pul vermirdi, zorla onu razı saldım. Keçək içəri?

Gündüz səbirsizliklə: - Əlbəttə, keçək, - söylədi.

Kompüter zalına keçdilər. Nəzarətçi oğlan onlara boş kompüter göstərdi. Yeniyetmə kompüterin qarşısındakı stulu çəkib Gündüzə: - Siz əyləşin, mən başqa stul taparam, - söylədi, dərhal da əlində bir stul gəldi, kompüteri açdı, İnternetə daxil oldu. Soruşdu:

- Həmin sayta girim?

Gündüz: - Hə, - deyib gözlərini monitora zillədi.

Az keçmiş oğlan: - Hazırdır, - söylədi.

Gündüz Sotheby's və Christe's müzayidə evlərində keçirilmiş incəsənət hərracları barədə materialı yeniyetmənin ingilis dilindən tərcüməsində dinlədikcə diqqətlə şəkillərə baxırdı.

- ... Pikassonun Çubuqlu oğlan rəsmi yüz beş milyona təklif edilib, ancaq satılmayıb. Kubizmin banisinin bu əsərini beş il öncə yüz dörd milyona alan şəxs qazanc əldə edə bilməyib...

Gündüz içini çəkdi:

- Yüz dörd milyona? Yəni bir belə pul ola bilər?

Yeniyetmə dodaqaltı oxuya-oxuya yeni səhifələri açmaqda idi:

- Bu, heç... Bu da maraqsızdır... Oo. Tapdım. Görün nə maraqlı şey yazılıb?! Pikassonun Büst və yaşıl yarpaqlar fonunda çılpaq əsəri də təqribən bu qiymətə qoyulub və satılmayıb. Yağlı boya ilə...

Gündüz yeniyetmənin sözünü kəsdi:

- Hansı əsəri?

- Büst və yaşıl yarpaqlar fonunda çılpaq əsəri...

- Hə, hə, davam et.

- Yağlı boya ilə min doqquz yüz otuz ikinci ildə çəkilmiş bu əsəri amerikalı milyoner Sindi Broudi Pikassonun dilerindən min doqquz yüz əlli birinci ildə alıb. Bütün bu illərdə Broudilər əsəri xüsusi mühafizə altında evlərində saxlayıblar... Ekspertlər hesab edir ki, gələnilki hərracda bu əsər ən azı yüz altı milyon dollara satılacaq. Bu da dünya rekordu olacaq...

- Neçəyə, neçəyə?

- Yüz altı milyona!

- Nə danışırsan?!

... Gündüz gözləri bərəlmiş halda başını yırğaladı:

- Deməк, yüz altı milyona alacaqlar?

Sonra da içini çəkdi:

- Pikasso kubist olub. Bizim impressionizm sonradan postimpressionizmə, lap sonra da kubizmə keçib.

Yeniyetmə baxışlarını ona zillədi:

- Gündüz dayı, siz də rəssamsız? Həmişə belə saytlara girirsiz.

Gündüz: - Hə, rəssamam, - söylədi, dərhal da əlavə etdi:

- İmpressionist rəssamam.

Oğlan maraqla ona baxdı:

- Nə çəkirsiz?

- İnsan və onun daxili aləmini. Tezliklə mənim əsərlərim də hərraclara çıxarılacaq. Londonda. Bilirsən, hərrac üçün nə çəkirəm?

- Nə?

- Nizami Gəncəvinin Xəmsəsini. Oxumusan Xəmsəni?

- Hə, məktəbdə keçirik də. Gündüz dayı, bəs sizin əsər neçə milyona satılacaq?

- Milyon deyəndə ki... Yəqin... Məncə...

Nəhayət, Gündüz: - Pis olmayacaq, - söyləyib oğlanın başına sığal çəkdi:

- Əziyyətinə görə çox sağ ol. Mən getdim. Sən də oyununu oyna.

Oradan çıxıb yavaş-yavaş emalatxanaya tərəf getməyə başladı. Bu gün sentyabrın 23-ü idi. Deməli, Rəyasət müəllimlə görüşə cəmi bir gün qalmışdı. Cəmi bir gün...

Dərindən nəfəs aldı, sonra siqaret yandırdı. Sabah ömrünün ən xoşbəxt günü olacaq. Həm arzusunu reallaşdırıb əsərləri çəkəcək, həm borclarını verəcək... Həm evə, uşaqlara ayın-oyun alacaq... Kompüter zalındakı o oğlana da yaxşı bir hədiyyə alar... Yazıq uşaq, hər dəfə bununçün saytlara girir, informasiya tapır, tərcümə edir, hamısını da anasından aldığı pula... Elə yaxşı uşaqdır ki...

Hə, deməк, sabah ayın 24-dür.

Birdən yeyib-içmək, şənlənmək keçdi ürəyindən. Axırıncı dəfə Həmidin toyunda az-çox yeyib-içmişdi. Hərçənd, toy baş tutmadı, ancaq o, necə lazımdır vurdu...

... Bir azdan məhəllələrindəki dükanın qarşısında dayanmışdı. Xeyli tərəddüd edib, nəhayət, içəri keçdi. Dükançı onu görcək adəti üzrə əlini əlinə sürtdü:

- Deyəsən, rəssam qərdeş borcları gətirdi.

Gündüz düz onun qarşısında dayandı:

- Sabah pulumu alıram, de görüm, dükanı saat neçədə bağlayırsan?

- Necə bəyəm?

- Yəni neçədə bağlayırsansa, o vaxta qədər gətirib pulunu çatdıracam.

- Qədeş, məzələnirsən mənnən?

- Allah eləməsin, nə məzələnmək?! Sabah saat on birdə Rəyasət müəllim dəvət edib ki, gəl pulunu apar. Ordan birbaşa bura gələcəm, sənin əlli yeddi manatını qaytaracam.

- Bəs o gün altmış deyirdin? Nə isə. Əlli yeddinin üstünə iki pivənin pulunu gələndə, eləyir əlli doqquz. Bax, yekə cayilsən, bu dəfə də məni fırlatsan, onda... Nə isə.

Dükançı içəri girən qadına bir çörək, on dənə də yumurta verdi. İki oğlana sərin «Cola» verdi. Başqa bir qadına bir kilo şəkər tozu verdi... Sonra piştaxtanın qarşısında sakitcə durub mallara tamaşa edən Gündüzə tərəf baxdı:

- Nəsə sözün var?

Gündüz baxışlarını ondan yayındıraraq söylədi:

- Sabah pulunu onsuz da çatdıracam. Bir az ayın-oyun götürüm də.

Dükançı səsini qaldırdı:

- Bu olmadı ki! Adə, əlli doqquz manatı verməmiş, abır var e səndə, təzədən nisyə mal istəyirsən.

Gündüz lap sıxıldı, çətinliklə dedi:

- Vallah, sabah hamısını ödəyəcəm...

Dükançını çətinliklə razı saldı. Özünə araq aldı, uşaqlara da «Cola». Hisdə qurudulmuş kolbasa, iki kilo qoyun əti, iki zavod çörəyi, hərəsindən bir kilo da pomidor-xiyar aldı.

Dükandan çıxanda şort geyinmiş qoca kişi ilə bir qadını üzüyuxarı çıxan gördü. İngiliscə danışırdılar, əcnəbi idilər. Qədim tikililərə baxa-baxa irəliləyirdilər.

Gündüz bir xeyli müddət onları baxışları ilə müşayiət etdi. Ömrünün ən xoşbəxt günlərindən biri məhz əcnəbilərlə bağlı idi. Onda 2005-ci il idi, avqustun 1-i. Axşam düşsə də, hava çox bürkülü idi. Sumqayıtlı rəssam dostu Osmanın təhriki ilə bir həftə idi ki, Gündüz də Torqovıya gəlir, passajda şəkillərini satmaq üçün düzürdü. Bu müddətdə bir çox adam gəlib rəssamlara portret sifariş vermişdi, yanındakı rəssamların təbiət mənzərələrini, at, gəmi rəsmlərini almışdılar.

Təkcə Gündüz müştəri tuta bilməmişdi. Öz-özünə qət eləmişdi ki, yaxın 2-3 gündə də heç nə sata bilməsə, bir də bura gəlməyəcək.

Satışa üç əsər çıxarmışdı. Gözündən bir damcı yaş asılmış qız. Göz yaşının içində isə qasırğalı dəniz əks olunmuşdu. Güldanda bəslənən tikan və yerə atılmış qızılgül... Tikan təzə idi, yamyaşıl, qızılgülsə susuzluqdan solmaq həddinə çatmışdı. Bir də boz torpağın üzərində sıralanan xırda ləpirlər və onları tapdalayıb üstündən keçən iri izlər...

Passaja baş çəkənlər bu əsərlərə baxır, öz aralarında nəsə pıçıldaşır, çıxıb gedirdilər...

Həmin gün eynən bu cür şortda bir yaşlı kişi və qadın yaxınlaşdılar. Dayanıb xeyli şəkillərə baxdılar. Kişinin çənəsindən nazik, çallaşmış saqqal sallanırdı. Gündüz ilk öncə özlüyündə onun saqqalına lağ elədi. Düşündü ki, belə saqqal olar, lap keçi saqqalına bənzəyir...

Əcnəbilər gah sağa əyilir, gah sola əyilir, öz aralarında danışırdılar. Gündüz «yes, yes», «veri quud» sözlərinin təkrarından anladı ki, bu insanlar şəkillərə lap valeh olublar. Nəhayət, əcnəbi kişi hər üç əsəri yanına çəkib Gündüzə nələrsə dedi. Gündüz ingiliscə bilmədiyi üçün əntiq satan cavan oğlanı köməyə çağırdı.

Oğlan əcnəbinin sözlərini Gündüzə çatdırdı:

- Deyir ki, Avropada yüzlərlə sərgilər gəzmişik, auksionlarda olmuşuq, ancaq belə mənalı əsərlər görməmişik. Deyir ki, düzdür, bir az rəng qıtlığı hiss olunur, bununla belə, əsərlər superdir. Hər üçünü almaq istəyirlər. Deyir ki, nə verək?

Gündüz əsərlərinin alınmasından çox əcnəbilərin onun yaradıcılığı haqqında dediklərindən ləzzət duydu, o qədər duyğulandı ki, lap gözləri yaşardı. İşə bax, Avropanın göbəyindən gələn yüksəkzövqlü bu insanlar onun yaradıcılığını necə də bəyənirlər, «beləsindən heç görməmişik», - deyirlər.

Gündüzün cavab verməkdə çətinlik çəkdiyini görən əcnəbi kişi tərcüməçi vasitəsilə bunları çatdırdı:

- Üstümüzdə cəmi min iki yüz dollar var. Hamısını veririk. Çox xahiş edirik, hər üç əsəri satsın. Bunlar əsl şedevrlərdir.

Gündüz min iki yüz rəqəmini eşitcək sevincdən qol götürüb oynamaq istədi, qara portmanatdan çıxan on iki dənə yüzlüyü əlləri əsə-əsə götürdü. Tərcümə eləyən oğlan vasitəsilə əcnəbilərə eşitdirdi ki, birdən onlara yolda pul lazım olar, yüzlüyün birini götürsünlər. Ancaq əcnəbi kişi hoteldə pullarının olduğunu söyləyib şəkilləri qoltuğuna vurdu. Maraqlıdır ki, həmin an Gündüz üçün dünyada bu əcnəbidən gözəl bir insan təsəvvürə belə gəlməzdi. Onun saqqalını bayaq lağa qoyduğu üçün özünü xeyli danladı da... Həmin gün Gündüz köynəyinin döş cibinə - düz ürəyinin başına min yüz dollar (yüz dolları tərcümə edən oğlana vermişdi) qoydu. O, bu hadisəni öz yaradıcılığının zirvəsi, maddi təminatına gedən yolun başlanğıcı hesab etdi. Demək, bundan sonra yaradıcılığı ona böyük paralar gətirməyə qadir imiş...

Həmin pula özünə xeyli material aldı. Bacısının yoldaşı alverə başlamaq istəyirdi, əlində mayası yox idi. 300 dollar ona verdi. Qardaşının yoldaşı kor bağırsağından əməliyyat olunmalıydı, pulları yox idi. 300 dollar da on-

lara verdi. Aydanla Rizvana əyin-baş aldı... İstəyirdi ki, Ülkərə də bir plaş alsın. Kollektiv arasına çıxırdı, plaşı bərbad gündə idi. Ancaq pulu çatmadı...

... Bir azdan Ülkər əti asmışdı, otağı xoş ətir bürümüşdü. Kolbasanı, xiyar-pomidoru çörəyi yarıb içinə doldurmuşdu, uşaqlar marçıltı ilə yeyir, üstündən də «Cola» içirdilər.

Gündüz araqdan yüz qram vurub yeməyin bişməsini gözləyirdi.

- İstiotunu bol elə!
- Oldu.
- İstəyirsən, içinə pomidor da qat.
- Yox, onda ət dadını dəyişir.
- Kartofunu çox eləməmisən?
- Yox, normaldır.
- Dibi yanar e birdən.
- Arxayın ol...

Sabah ayın 24-ü idi. Bütün həyatını dəyişəcək bir günə saatlar qalmışdı...

Düşündü ki, Rəyasət müəllimdən pulu alsın, üstündən yüz dollar da götürüb bacısına verər, ev şirinliyi üçün.

## 14-cü HİSSƏ

İki gün idi ki, Mələk çıxıb getmişdi. Elə bil, divarlar Həmidin üstünə gəlirdi. Anasının yoxluğuna heç cür alışa bilmirdi o...

Düzdür, ömrünün çoxunu anasız keçirmişdi. Bu müddətdə neçə-neçə insan onun qulluğunda durmuş, qayğısını çəkmişdi... Ancaq ananın yerini heç biri verə bilməmişdi. Və əsgərlikdə də, tələbəlikdə də, sonrakı həyatında da o, gec-tez evə dönəcəyinin, anasının: «Orda oturma, burda otur», «Bunu yemə, onu ye», - deyərək onu uşaq kimi əzizləcəyinin həsrətini çəkmişdi...

İndi o, Vətəndə idi, ancaq anası yox idi... Ümumiyyətlə, otağında eynək taxıb paltar yamayan, televizorda türk seriallarına baxan, bütün günü mətbəxdə qurdalanan, telefonla qohum-əqrəbası ilə saatlarla danışmaqdan yorulmayan Mələksiz bu evi təsəvvür etmək çətin idi...

Və heç insafdan deyildi ki, anası öz doğma ocağını tərk edərək, gedib kürəkənin qoltuğuna sığınsın...

... Həmid çarpayıda uzanıb bütün bunları düşünür, sinəsinə qoyduğu külqabıya siqaretinin külünü çırpırdı...

- Tənbəl, hamı durdu, sən qaldın!

Əminə növbəti dəfə hay-küy sala-sala otağa gəlib Həmidi yataqdan qaldırmağa cəhd etdi.

Lap gödək yubka və dar mayka geyinmişdi, saçlarını yuyub burmuşdu... Və o qədər gözəl görünürdü ki... Ya-

raşıqlı sifəti, uzun ayaqları, mütənasib bədəni - hamısı bir-birini tamamlayırdı...

Əslində, Mələyin çıxıb getməsi Əminənin xeyrinə olmuşdu. Uzun xalat geyinən, səsini belə qaldırmayan gəlin indi beləcə açıq-saçıq geyinir, danışıb-gülürdü. Həmidlə onun münasibətləri daha da çılğınlaşmışdı. Mələk evdə olanda yalnız gecələr sevişən ər-arvad ehtiyatla hərəkət edir, səs-küy salacaqlarından çəkinirdilər... Ancaq indi harda gəldi bir-birinə sarmaşır, az qala, bütün günü əylənirdilər...

Bütün bunları düşünən Həmid ani olaraq Əminədən incidi. Dili ilə deməsə də, bütün günü deyib-gülməyi, şənliyi ilə Əminə özü də istəmədən Mələyin getməsinə sevindiyini bildirirdi...

... Həmidin qaşqabağını yox etmək üçün Əminə onu qıdıqlamağa başladı. Sonra nəfəsini verməklə onun boynunu hərarətləndirdi... Əminənin çiyələk qoxusu verən saçları, dar maykadan qabaran bədən əzaları Həmidi lap bihuş etməyə başladı...

Əminə hoppanıb onun qucağına çıxanda isə Həmid özünü saxlaya bilmədi:

- Canım-gözüm, bir dənəm...

Həmid onu ehtirasla öpür, ona şirin-şirin sözlər söyləyirdi...

- Sən mənim canımsan... Səndən ayrı yaşaya bilmirəm... Mənim bir dənəmsən... Nə yaxşı, səni tapdım...

***

Hərdən küçələr də, ağaclar da, binalar da adamı yorur. Və bu zəhlətökən yorğunluqdan baş götürüb qaçmağa bir yer axtarırsan...

Həmidin «X5»-i dəniz kənarı ilə şütüyürdü. O, Novxanıdakı bağ evinə gedirdi...Yekaterinburqdakı vəziyyət heç də ürəkaçan deyildi. İqbal israrla onu çağırır, böyük itkiyə getdiklərini bildirirdi. Anasının evdən getməsi isə onu ikiqat üzürdü...

Yol boyu düşünmüşdü ki, yalnız burda - bağ evində tənhalığa qapılmaq, düşünmək və düşündükcə də gələcək həyatı, atılacaq addımları müəyyənləşdirmək olar...

Maşının maqnitolasında Arzu Rzayevin mahnıları səslənirdi...

*Şkolnıy bal opustel,*
*razlitelis,*
*i razyexalis vse kto kuda...*
*No astanetsya v pamyati veçno,*
*Şkolnıy bal vıpusknoy navseqda.*

Bu mahnıları o, ilk dəfə 3 il əvvəl Yekaterinburqda eşitmişdi. Savelyevsk küçəsindəki supermarketin audio-video kasetlər köşkünün yanından keçəndə rusca aksentlə oxuyan müğənninin mahnısı diqqətini çəkmişdi. Dərhal ayaq saxlamışdı. Hansısa qüvvə ona demişdi ki, bu oxuyan kimdirsə, azərbaycanlıdır. Növbəti mahnıda isə o, buna yüz faiz əmin olmuşdur:

*Djan Baku, dom radnoy,*
*Mı jivyom adnoy semyoy...*

O vaxtdan Arzu Rzayevin diski onun ən sevimli diskinə çevrilmişdi... Zarafat deyil, ruslar sənin millətinin nümayəndəsinin mahnılarını dinləyirlər, diskotekalarda isə Arzunun «medlyak»larının sədaları altında Uralın oğlanları və qızları rəqs edirlər...

Maşın irəliləyirdi. Günəş buludların arasında batmışdı. Həmidin «X5»-indən təqribən 20-25 metr qabaqda boz rəngli «Mercedes» gedirdi...

Arzu isə oxumağında idi:

*Pa zovu let,*
*Speşu k tebe.*
*Tolko znayu,*
*Çto tebya ne vernut...*

Həmid siqaret yandırdı, sürəti artırdı ki, «Mercedes»-i keçsin. Qabağınca maşın getməsini xoşlamırdı... Nəyə görəsə «Mercedes» də sürətini artırdı. Və Həmidə elə gəldi ki, sürücünün yanında oturan şəxs aşağı əyildi...

Görəsən, nəyə görə nömrəsi 105 olan bu boz rəngli «Mercedes» «X5»-in ona çatmasına imkan vermirdi?

Həmid nə illah elədisə də, qarşıdakı maşına çata bilmədi. «X5»-in aşacağından ehtiyatlanıb sürətini azaltdı. Adi qaydada gedən «Mercedes»-in onu görcək sürətini bu qədər artırması hansı səbəbdən ola bilərdi?

Bu barədə çox düşündü, nəhayət, bunu «Mercedes»-i sürənin «tiripaşlığı» ilə izah edib maşınını bağlarının albalı rəngli darvazası önündə əylədi. Onu həyətə salmadı. Tezcə restorana zəng edərək yemək sifariş verib bağa daxil oldu. Hava sərin idi. İndi də Həmidi fikir götürdü ki, əvvəllər sentyabrda dənizdə çimərdilər. İndi isə ayın 23-dür, ancaq əsl payız havasıdır... Hansı səbəbdən bu, belədir?

Yırğalanan kresloda əyləşdi. Son günlərin gərginliyi bədənini gizildədirdi... Yalnız burada, gözdən uzaq bir yerdə təklikdə çılpaq bir həqiqət gəlib gözlərinin önündə durdu. Başa düşdü ki, Əminəyə olan sevgisi ona yalnız izti-

rab, əzab-əziyyət gətirib: Günahsız bir qızın adı bədnam olub, iki cavan oğlan həbsxanaya düşüb, atasının qohumlarına sataşmaqla onun ruhu təhqir edilib, özü bıçaqlanıb, anası çıxıb evdən gedib...

«Mona Liza»dakı toya çəkilən xərcdən üzübəri Əminənin atasına verilən 37 min dollar da daxil olmaqla nə qədər ziyana düşüb... Bu yandan da qızdan ayrı dura bilmir. Onu qoyub Urala qayıda bilmir...

Oradakı işlər isə bərk axsayır.

Fikirlər Həmidi lap yormuşdu. Nəsə bir şey düşünüb tapmaq, bir qərara gəlmək lazım idi...

... Ofisiantın açdığı masada hər cür təam düzülmüşdü. Ancaq aclığına baxmayaraq Həmidin iştahası qaçmışdı. O, qırmızı «Bordo» çaxırını iri bakala süzüb birnəfəsə içdi, çaxır ona ləzzət etdi. Bir də içdi...

Beyni dərhal dumanlandı... Yenə də Əminə gəlib gözünün önündə durdu. Əminə üçün darıxdı. Onun səhərki görkəmi, dar maykası, qısa yubkası, nəm saçlarının ətri, Həmidin boynunu qıdıqlayan nəfəsi... Hər şey, hər şey Həmidin ehtiraslarını oyatdı, Əminədən ötrü burnunun ucu göynədi...

Dərhal evə zəng etməyə başladı, nömrə məşğul idi. Sonra durub bir bakal da çaxır içdi. Mobil telefonun düymələrini basmaqla bir də evlərini yığdı. Nömrə yenə məşğul idi...

Görəsən, Əminə kiminlə danışır?

Şübhələr Həmidin içini gəmirməyə başladı... Bəlkə... Yox, bu, ola bilməz...

Özünü sakitləşdirə-sakitləşdirə otaqda var-gəl etməyə başladı. Elə bu vaxt telefonu zəng çaldı.

- Həmidim, gəlmirsən evə?

Özünü məcbur etdi ki, siyasət işlədib dərhal Əminədən kiminlə danışdığını soruşmasın.

- Yox, bağdayam. Dincəlirəm.

- Mən səni yaraşıqsız göstərirəm?! Atmısan məni dörd divar arasına, özün də orda kef edirsən.

- Mən gedəndən nə ilə məşğulsan?

- Nəylə məşğul olacağam ki? Televizorda fərli bir şey yoxdu. Seriallara baxdım, vəssalam. Evləri təmizləməyə də axot olmadı. Bayaqdan elə yapışmışam telefondan.

Həmid dərindən nəfəs saldı. Və dərhal da sual verdi:

- Kiminlə danışırdın ki?

Əminə suala sualla cavab verdi:

- Denən kiminlə danışmırdım ki?! Evimizlə danışdım, Nərminəylə danışdım, padruqam Lalayla danışdım, xalaqızı Tomaynan danışdım... Həmidim, axı niyə mənə mobil telefon almırsan?..

Həmid içini didən bütün şübhələrdən azad oldu. Əminə özü hər şey barədə yerli-yataqlı danışırdısa, deməli, ondan şübhələnməyə dəyməzdi...

Yenə də içini ehtiraslar gəmirməyə başladı. O, Əminədən hansı paltarda olduğunu, necə dayandığını soruşdu, ondan ötrü darıxdığını, sinov getdiyini bildirdi. Son sözü isə bu oldu:

- Bir az havamı dəyişim, gəlirəm. Səni pasteldə xurdxəşil edəcəm...

***

Dünyanın sənin xeyrinə və sənin ziyanına işləyən günləri olduğu kimi Tanrının da səni sevən və səni sevməyən günləri olur...

Yenə Yekaterinburqda baş verənlər, yenə anasının getməsi beynini yüklədi.

Növbəti badəni başına çəkdi.

Neçə gün idi ki, dünya da, Tanrı da onun əleyhinə idi. Gülgəzgilə zəng edib anası ilə danışmaq istədi. Ancaq anası telefona gəlmədi. İqbal isə yenidən zəng edib xəbər verdi ki, vəziyyət lap pisləşib:

- Həmid, dərhal bilet al. Uç bura. Vəziyyət pisdir.

- Necə pisdir?!

- Mən hər şeyi telefonda açıq danışa bilmirəm. Bütün var-yoxumuzu itirmək üzrəyik. Axı sən nə təhər adamsan? Evlənmisən, o arvadın, o da sən. Beş-on günə gəl, işlərini yoluna qoy, sonra qaç arvadının yanına. Səni saxlayan yoxdur.

İqbal telefonda onunla çox sərt danışdı. Həmid ondan bu sərtliyi gözləmirdi. Axı onlar həm dost idilər, həm şərik idilər, həm də İqbal Nərminəni almaq istəyirdi. Həmid hirsindən partlayırdı. Yox, mütləq, lap elə sabahısı günü uçmaq lazım idi Urala...

İqbalın zəngindən sonra dəmliyi getmişdi. Qanı qapqara qaralmışdı... Bağdan çıxdı, maşını işə saldı. Siqareti qurtarmışdı. Odur ki, bağarası yolla gedib Rizvanın dükanından siqaret almaq qərarına gəldi. Maşını bir neçə dəfə qabağa-dala verib istiqamətini dəyişdi və Rizvanın dükanına tərəf səmt götürdü.

Gündüzdən telefonuna çağırış gəldi. Əsəbi idi deyə onun nömrəsini yığmadı. Ancaq növbəti çağırışları görüb zəng etdi. Onun səsindəki kədəri sezən Gündüz nə baş verdiyini soruşdu. Həmid Uralda işlərin qəfildən pisləşdi-

yi səbəbindən sabah ora uçacağını bildirdi. Gündüz «Keçi can hayında, qəssab piy axtarır» məsəlini çəkib dönə-dönə üzr istədi və xahiş etdi ki, bilirəm, öz hayındasan, ancaq rica edirəm, mənə ordan qəşəng fırçalar al gətir…

Bir qədər getmişdi ki, Həmidin gözü darvazalardan birinin qapısında dayanmış boz rəngli «Mercedes»-ə sataşdı. «105». Bəli, bu, bayaq ondan qaçan «Mercedes» idi…

Keçib getdi. Dükanda «Marlboro» siqareti yox idi. Odur ki, «Camel» aldı. Dərhal qutunu açıb siqaretlərdən birini damağına qoydu, yandırdı. Dərin qullab vurdu. Maşının maqnitolasını açdı.

Arzu Rzayev oxuyurdu:

*...Rastalis mı s taboy*
*Rastalis druq-druqa lyubya.*

Şər qarışmışdı. Maşının yarıaçıq pəncərəsindən içəri xəfif axşam yeli dolurdu… Boz «Mercedes» həminki yerində dayanmışdı. Həmid onu ötüb-keçdi… Qəfildən o, əyləci sıxıb maşını saxladı. Axı niyə hər halda bayaq onu görcək «Mercedes» sürətini artırmışdı? Sürücünün yanında əyləşən şəxs də ondan gizlənmişdi…

Həmid maşını dal-dala verərək düz «Mercedes»-in qənşərində saxladı. Xeyli müddət nə edəcəyi barədə düşündü. Sonra maşından düşüb ehtiyatla «Mercedes»-in qarşısında dayandığı darvazanı itələyib açmaq istədi. Darvaza bağlı idi. Hansısa bir qüvvə Həmidi idarə edirdi və o, özündən asılı olmayaraq bu qüvvəyə kortəbii tabe olurdu.

O, hündür olmayan hasarı aşdı… Həyətdə sakitlik idi. Evin işığını yandırmamışdılar. Arxa tərəfə keçdi. Pəncərələrdən birində zəif işıq yanırdı. Bu, ya lampa, ya da

şam işığı idi. Pərdənin arxasında tərpənən insan siluetləri görünürdü. Həmid siqaretinə son qullab vurub kötüyü yerə tulladı:

- Ya dostlarım xamdırlar, işığın yerini bilmirlər ki, yandırsınlar, ya da şam işığında romantik bir sekslə məşğuldurlar.

Sonra evin qapısına tərəf getməyə başladı:

- Sekslə məşğulsuz, halal xoşunuz. Məşğul olun. Bəs bayaq niyə məni qoymurduz sizə çatmağa? Deməli, çox şübhəli dostlarsız.

Həmid öz-özünə danışa-danışa qapını açmağa cəhd göstərdi. Qapı içəridən bağlı idi. O, sağa-sola boylanıb çıxış yolunu tapdı. Eyvana dırmaşıb oradan dəhlizə keçdi. Barmaqlarının ucu ilə dəhliz boyu addımlayıb ikinci mərtəbəyə qalxdı. Zənninə görə, işıq gələn otaq sonuncu olmalı idi. O, həmin otağa doğru gəldi. İçəridən pıçıltılar, ahlar, oflar eşidilirdi...

Həmid qapını yavaşca itələyərək azacıq araladı.

Yataqdakılar öz işlərində idilər. Həmid ürəyi çırpına-çırpına onların intim yaşantılarının sonunu gözləyirdi. Bilmək istəyirdi ki, bayaq ondan qaçan bu Leyli və Məcnun kimlərdir...

Budur, oğlanın üzü görünür. Bığ yeri təzəcə tərləyib. Heç 20 yaşı da yoxdur...

Həmid oğlanın hərəkətinin «papa-mama uşağının tiripaşlığı» olması qənaətinin düzgünlüyünə bir daha inandı... Ancaq onu idarə edən qüvvə onu saxlamaqda idi. O, üzü görünməyən qızın da kimliyini bilmək istəyirdi. Gərək ki, bayaq bu qız əyilərək ondan gizlənmişdi...

... Hərdənbir qız başını qaldırırdı, hərdənbir nəsə pıçıldayırdı... Və Həmid ürəyi çırpına-çırpına bu qızın ona tanış gəldiyini hiss edirdi.

... Oğlan çevrilib arxası üstə uzandı.

Qız: - Tı, velikolepen (Sən əlasan) - dedi.

Oğlan: - Ponravilas (Bəyəndin)? - soruşdu.

Qız: - Ponravilas da sözdür, ləzzətli idi, - dedi. Sonra əlavə etdi: - Ya oçen volnuyus, on toçno nas ne zametil (Çox nigaranam, o, dəqiq bizi görmədi)?

Oğlan dedi:

- Ay qız, net. Yüz faiz arxayın ol, ne zametil.

Yox, Həmid bu səsin yiyəsini tanıyırdı. İndi, sadəcə, qalırdı ki, arxası ona tərəf olan bu qızın sifətini də görsün...

Qız: - Atandan nə qədər pul qopartmısan? - soruşdu.

Oğlan: - Tristo baksov (üç yüz dollar), - dedi.

Qız əda ilə: - Nə az? - soruşdu.

Bu əda Həmidə tanış idi...

... Bir azdan sonra qız yataqdan durdu: - Oy, şamımız yanıb qurtarır, - dedi...

Və Həmid onun sifətini görə bildi. Onun gümanları düz çıxmışdı...

Bu, Nərminə idi...

Demək, belə. Demək, baldızı bu yolun yolçusu imiş... Hələ qayınanasını da deyirlər... Bəlkə, elə Əminə də...

Hirsindən dodaqlarını gəmirməyə başladı. Gör bir kimlərlə qohum olub...

Öncə içəri keçib onların hər ikisini xurd-xəşil edənəcən döymək istədi. Ancaq sonra başqa bir variantı seçdi, geri

qayıdıb maşınına əyləşdi, Bakıya sarı üz tutdu. Onu indi bircə şey maraqlandırırdı - evə tez çatmaq...

«X5»-in spidometrinin göstəricisi yolun kələ-kötürlüyünə baxmayaraq 110-dan aşağı düşmürdü...

Hirs qarışıq qəhər Həmidin boğazına tıxanmışdı. Dodaqlarını gəmirir, növbəti siqareti yandırdıqdan sonra isə dalbadal qullab vurur, siqaret kötüyünü çeynəyirdi. Özündən asılı olmayaraq sükan tutmuş əlləri yumruq kimi düyünlənirdi...

Deməli, camaat danışanlar düz imiş... Sən bir işə bax. Rahat həyatından ol bu murdarlardan ötrü, qohum-əqrəbanı özünə düşmən et, ananı itir, var-dövlətini əlindən çıxart... Axırda da bəlli olsun ki, bu boyda qurbanlar fahişələr üçünmüş...

Döngələrdə az qalırdı, maşın aşsın. Həmidin gözünə heç nə görünmürdü. Bircə, evə tez çataydı...

Binəqədini keçəndə «Passat» maşınındakı yol polisləri ona saxlamaq işarəsi verdilər. Ancaq Həmid sürəti daha da artırdı. «Passat» sirena verə-verə onun dalınca düşdü...

Havanın qaralması Həmidin manevr imkanlarını genişləndirirdi... O, heç nəyə məhəl qoymur, hərəkətin əksi istiqamətində gedir, işıqforlarda dayanmırdı...

6-cı mikrorayona tərəf dönmədi, izi azdırmaq üçün prospektlə irəliləməkdə davam etdi. Xeyli gedib qəfildən maşının işıqlarını keçirtdi, yolun qırağındakı səkidən aşıb dalana girmək istədi... Sən demə, yol yarımçıq qırılırmış...

«X5» qüvvətli zərbə ilə dəmir darvazaya çırpıldı. Həmid çiliklənmiş qabaq şüşəyə baxa-baxa söyüş söyməyə

başladı... Alnından isti maye axırdı. O, barmaqlarını alnına sürtüb gözünün qabağına tutdu. Qanı görüb lap qorxdu... Açılmış hava yastığına da qan çilənmişdi... Dizində və sinəsində güclü ağrılar var idi...

Şikəst olmaq, ona-buna möhtac qalmaq... Ani olaraq beynindən bu fikir keçdi. Ömründə ən çox nifrət etdiyi bir şey idi bu - şikəstlik...

Allaha yalvardı ki, şikəst qalmaqdansa, biryolluq ölsün...

Səs-küyə çıxmış iki nəfər onu maşının içindən çıxarmağa çalışırdı. Həmid huşunu get-gedə itirdiyini hiss edirdi... Bununla belə, ağlı özündə idi... Saçı-saqqalı ağappaq olan kişiyə çətinliklə də olsa, söyləyə bildi:

- Maşını həyətə salın, polisə də xəbər verməyin... Nə hörmət lazımdırsa, eləyəcəm...

***

Ağappaq bir boşluqda idi. Elə-bil, dumana, çənə bürünmüşdü hər yer... Qara-qara xətlər, dairələr peyda olmağa başladı. Sonra bu xətlərdən, dairələrdən əcaib-əcaib həşəratlar yaranmağa başladı. Bu həşəratlar Həmidin bədəninə daraşırdılar, onun gözünü deşir, qanını sorur, ətini parçalayırdılar...

Gözünü açdı... Ürəyi möhkəm-möhkəm döyünür, tər-su onu aparırdı. Key-key saralmış alçaq tavana, nimdaş əşyalı otağa və başının üstündə dayanmış yaşlı kişiyə baxdı. Bir müddət anlaya bilmədi ki, nəyə görə buradadır...

Gözünün qabağına şamla işıqlanan yarıqaranlıq otaq gəldi. Bu otaqdakı çarpayının üstündə lümlüt oğlanla qız ah-ufla sevişirlər:

- Ponravilas?

- Ponravilas da sözdür, ləzzətli idi...

Sonra bir-birlərindən qopub ayrılırlar. Qız şama baxa-baxa: - Ya oçen volnuyus, on toçno nas ne zametil?- soruşur.

Həmid bayaqdan onu tərk edən qəzəbin, intiqam hisslərinin yenidən içinə dolduğunu hiss etdi... Bu dəqiqə, elə bu an evə getmək, bütün bəbdəxtçiliyinin səbəbi olan Əminəni divara dirəmək istəyi onu yerindən qaldırdı.

Kişi: - Ay oğul, durma, - dedisə də, Həmid: - Durmalıyam, - söyləyib ağır-ağır çarpayıdan düşdü.

Kişi: - Şükür, salamatsan, - dedi. Sonra addımlamaqda ona köməklik göstərə-göstərə sözünə davam etdi:

- Dizlərinə, bir də sinənə buz qoyduq, möhkəm əzilib. Üz-gözünün qanını təmizlədik. Ay sağ olmuş, gör necə içkilisən ki, maşını sürətlə varotaya çırpmısan... Varota da pis günə qalıb.

Həyətə çıxdılar. Həmid əzilib pis günə düşmüş «X5»-nə ürəkağrısı ilə baxdı.

Kişi danışmaqda idi:

- Zülmlə həyətə salmışıq. Təkərlər dirənmişdi. Sürüləsi deyil. Radiator deşilib. Motor yerindən çıxıb. Kapot, krılalar ələ gələsi deyil...

Həmid dizindəki ağrılardan üzülə-üzülə maşının içindən mobil telefonunu tapıb götürdü. Telefon qana bulaşmışdı...

Arxa cibindəki pullarını çıxartdı. 2 dənə yüzlük dollar və bir neçə dənə onluq, iyirmilik manatlıqlar var idi.

Kişi pullara baxa-baxa dil-boğaza qoymurdu:

- Varota təzələnəsidi, lap pis günə qoymusan... Deyirlər, balığı atarsan dəryaya, balıq bilməsə də, Xalıq bilər... Adam adama nə gündə gərəkdir. Qoca adamam, radikulitim var. Ancaq səni o vəziyyətdə qoya bilməzdim axı. Belim sına-sına oğlumla köməkləşib, maşını itələyib həyətə salmışam... Müsəlmançılıq yaxşı şeydir... Bilirsənmi, bizim nəsil...

Həmid dəmir darvazaya baxdı. Darvazanın batıq hissəsini, yəqin ki, çəkiclə döyüb yerinə gətirmək olardı...

O, hər iki yüzlüyü kişiyə uzatdı:

- Adın nədir, kişi?

- Əhlimandır.

- Əhliman kişi, al bunları...

Kişi pulları götürüb xeyli süzdü:

- Qadan alım, deməyə də üzüm gəlmir, bu varotanın əmələ gəlməsinə xeyli pul lazımdır. Özüm də imkansız adamam. Bayaq evdə on-on beş manat pul var idi, sənə spirt, yod, bint, pambıq aldırmaq üçün qonşudan borc götürəsi oldum...

- Yaxşı-yaxşı... Mən Rossiyaya gedəsiyəm sabahda-zadda. Nömrələri çıxardıb maşını saxla həyətində. Üç-dörd günə gəlib aparanda yenə sənə pul verəcəm.

***

Saatı taksi sürücüsündən soruşdu. Birə on dəqiqə işləmişdi. Cibindəki telefonu vurhavur zəng edirdi... Ancaq o, zəngə cavab vermədi. Bədənində dəhşətli ağrı var idi. Hiss edirdi ki, iç dünyasının ağrısı əzilmiş yerlərinin ağrısından daha güclüdür...

Yol ona çox uzun görünürdü. Bayaqdan bəri neçə dəfə taksi sürücüsünü tələsdirmişdi...

Bu da mikrorayonları, bu da həyətləri, bu da eyvanları...

Əminə eyvanda idi, çiyninə yun jaket salıb onun yolunu gözləyirdi. Həmidi görcək evə girdi...

Həmid bir mərtəbə qalxmağa imkan tapmamış Əminə özünü ona yetirdi:

- Hardasan bayaqdan, maşının hanı?

Onun üz-gözünü görəndə və axsadığını hiss edəndə hönkürdü:

- Həmidim, nə olub sənə?

Onu qucaqladı:

- Bayaqdan içimi yeyirəm, hiss edirəm ki, sənin başında iş var. Telefonu da götürmürsən... Azı yüz dəfə zəng etmişəm...

Həmid onu kənara itələyib heç nə demədi.

... Evə keçdilər. Əminə onu duz kimi yalayır, hıçqıra-hıçqıra ona yalvarırdı...

Məhz bu anında qayğıya, köməyə ehtiyacı olan Həmid büsbütün ağrılarını unutdu, içində bir rahatlıq hiss etdi... Baş verənləri danışıb Əminəni vurmaq istəyi bir az da təxirə düşdü.

Əminə onun üzünə nəsə dərman sürtdü, əynini dəyişdi, gömgöy olan dizlərini görəndə qışqırıb hönkürdü. Sonra kiməsə zəng elədi. Soyuducudan buz çıxarıb Həmidin dizinə qoydu, yun parça ilə dizlərini sarıdı. Limonlu çay gətirdi, içinə şəkər salıb şirin elədi, içirtdi...

Əminə qorxudan ağappaq ağarmışdı. Əlləri əsirdi... O, ağlamağına ara vermir, tez-tez də Həmidi öpürdü...

Qəfildən Həmid öz yumşalmasından vahimələndi. Əminənin tumarından rahatlanması onu qorxutdu. Yenə gözünün qabağına bağ evində müəyyən pozalara düşən lümlüt Nərminə gəldi...

Həmid sərt hərəkətlə Əminəni özündən kənara itələdi:

- Sənin bacın fahişədir!

Əminənin gözləri dörd oldu. O, titrəyə-titrəyə: - Niyə belə deyirsən? - söylədi.

Həmid ağzı köpüklənə-köpüklənə qışqırdı:

- Adam tapmırdız bədbəxt etməyə?! Çöldə qalanlar! Gedib özünüzə uyğununu tapardız da! Elə bilirsiz, məndən asanca yaxa qurtaracaqsız?! Sizin bütün nəslinizi kəsəcəm!

Əminə divara qısılıb ağlaya-ağlaya ona yalvarmağa başladı:

- Həmid, nə olub sənə? Qurban olum, özünə gəl...

Həmid onun boğazından yapışdı:

- Sən də fahişəsən? Sənin tasın neçədir? Bacın üç yüz dollarlıqdır. Bəs sən?!

Əminə hönkürdü:

- Ayıb olsun, heç gözləməzdim. Gör mənə nələr deyirsən...

Həmid var gücü ilə Əminəyə sillə vurdu.

Qız dizi üstə yerə çökdü, bir müddət quruyub qaldı, sonra hıçqırtı ilə dedi:

- Sənə nifrət edirəm. Onun-bunun sözü ilə bizə olmazın çirkablar yaxırsan... Axı mən sənə demişdim. Məni də, bacımı da istəyən çox olub. Əlləri çatmayıb, indi haqqımızda min bir iftira çıxarırlar.

Həmid onun saçından yapışdı:

- Nə iftira?! Ay küçük, nə iftira?! Öz gözümlə görmüşəm bacının fahişəliyini...

Əminə hönkürə-hönkürə dedi:

- Yalan deyirsən. Bu, heç vaxt ola bilməz. Mən necə özümə arxayınam, eləcə də bacıma arxayınam. Bacımın istədiyi oğlan var, Rüfət. Ondan başqa heç kimin heç barmağı da bacıma toxunmayıb...

- Nə Rüfət?

- Bir ildir ki, bir-birlərini istəyirlər. İyirmi iki yaşı var.

- Maşını var?

- Hə Mersedesdir.

- Nömrəsi neçədir?

- Yüz beş.

Həmid xeyli rahatlandı. Ancaq içi hələ qəzəblə dolu idi:

- Bacın kimisə istəyirsə, ona ərə getsin də. Daha bağa gedib altına niyə yıxılır? Daha ondan pul niyə alır?

Əminə hələ da hıçqırtılardan qurtula bilməmişdi:

- Nə pul, nə danışırsan?! Onlar bağda görüşürlər, ancaq...

- Nə ancaq?! Gözümlə görmüşəm, onlar yatıblar. Bacın da ondan pul istəyib...

Əminə onu kənara itələyib durmağa çalışdı:

- İmkan ver, ayağa qalxım.

Sonra ayağa durdu, ağlaya-ağlaya danışmağına davam etdi:

- Onlar dəhşət istəyirlər bir-birlərini. Oğlanın valideynləri razılıq vermir. Rüfət deyir ki, ölsəm də, səninlə öləcəyəm. Onlar üçün dünyada sevgidən başqa heç nə yoxdur... Mən bacısıyam. Nərminə məndən gizlətmir. Onlar bir-biri ilə... Nə isə. Ərlə arvad kimidirlər. Sevgi onları

məcbur edib... Özün gələcəkdə şahidi olacaqsan, Leyli-Məcnun onların yanında heç nədir...

Həmid siqaret yandırdı:

- Ay qız, axı bacın ondan pul istəyirdi...

- Mən də səndən pul istəyirəm. Deməli, mən fahişəyəm? Axı onlar da bizim kimidirlər. Təkcə rəsmi ZAQS-ları yoxdur...

Əminə azacıq ara verib sözünə davam etdi:

- Sən İqbalın Nərminəni almaq fikrini deyəndə mən bunu istədim, sənə söyləyim. Ancaq pis başa düşəcəyindən qorxdum...

Həmid keçib divanda əyləşdi...

Əminə hönkürürdü, nəsə deyirdi... Qəfildən durdu, yataq otağına keçdi. Sonra gəldi, dolablardan nəsə götürdü...

Bir azdan onun səsi dəhlizdən gəldi:

- Mən gedirəm, əlvida.

Həmid qapını açmaqda olan Əminənin biləyindən yapışdı. Əminənin o biri əlində çamadan var idi.

- Burax, gedirəm. Bundan sonra biz bir yerdə yaşaya bilmərik. Əlvida...

Həmid Əminəni qucaqladı ki, gedə bilməsin. Dərhal içinə ılıq bir hiss doldu. Ehtirasla onu öpməyə başladı. Əminə gözlərini yumdu. Çamadanı əlindən yerə saldı...

- Canım-gözüm... Bir dənəm... Hara gedirsən... Mən sənsiz yaşaya bilmərəm... Sənsiz ölərəm...

***

Səhər saat 6-da Əminə Həmidi bloka qədər yola saldı. Arxasınca su atdı.

- Üç gündən gec gəlmə, Həmidim. Geciksən, gəlib görəcəksən ki, ölmüşəm...

Həmid çevrilib gülümsədi:

- Ural xalqına sözün.

Əminə də gülümsədi:

- Hamısına məndən salam de....

Həmid xeyli onu süzdü. Gözlərinin hər ikisini yumub açdı. Əminə də belə etdi. Sonra Həmid pıçıldadı:

- Sənə inanıram.

## 15-ci HİSSƏ

Divarlar səni qonşulardan, tavan isə Allahdan gizlətmək üçündür. Ancaq bu səma altında, bu açıqlıqda atacağın bütün addımlar, görəcəyin bütün işlər aləmə bəyan olur. Ona görə də bütün alçaq və rəzil işlər qapalı yerlərdə, gizli künc-bucaqlarda həyata keçirilir. Bəlkə, yer üzərindəki şəri yığışdırmaq üçün bütün tikililəri uçurmaq, hamını açıq səma altına toplamaq lazımdır?

Gündüz düşündü ki, «Xəmsə»ni işləyib qurtarandan sonra bu mövzuda bir əsər işləsə, əla olar. Biri var məhəlli problem. Biri var dünyəvi. Bu, lap dünyəvi problemdir...

Və onu da düşündü ki, bir vaxtlar dulusçular gildən, dülgərlər taxtadan, bənnalar daşdan nələrsə düzəldəndə rəssamlar da kətan və boyadan nələrsə düzəltməyə başladılar. Gildən, taxtadan, daşdan düzəldilənlər illərin sınağından çıxmayıb yox oldular. Rəngdən düzələnlər isə qaldı...

İri, qoz ağacından düzəlmiş üstü oymalı qapı açılıb bağlanır, Gündüz içəri keçmək növbəsini gözləyirdi...

«Xəmsə»dən sonra çox şey çəkmək istəyirdi. Dünya səviyyəsinə çıxdıqdan sonra elə böyük mövzularda əsərlər yaradacaqdı ki, onlar sərgilərdən düşməsin, hərraclarda qiymət yığsın...

Bu mövzu çoxdan beynini doldurmuşdu: İoann Yerusəlimli... Müqəddəs cəngavər ordeninin yürüşü... Ali şuranın yığıncağı... Xovan qəbiristanlığı... Ucu şiş qalalar...

Qalxan və qılınclar… Qan gölü və onun suyu ilə bəslənən qara zanbaq…

Bu mövzunu da çəkmək istəyirdi: Siciliya mafiyasının naharı… Zəngin kreslodakı Don Karleoni… Viski dənizi… Siqara dumanı… Qulağı kəsilmiş təlxək və tazı… Pusquda dayanmış polisaylar… Sədaqət və xəyanət epopeyası…

Eləcə də bu mövzunu: Oda atılmış Şiva… Dəhşət içində hayqıran Aqni… Onları qərq edən Qanq çayı… Oddan və sudan çıxan, insan yaradan hüceyrələr… Zühur edən Subraxmanya… Fonda isə müqəddəs Kumara dağı…

Bunu isə çəkməyə dəfələrlə cəhd etmişdi, ancaq tərəddüd, mövzunu tam aça bilməmək qorxusu onu prosesi növbəti dəfələrə təxirə salmağa məcbur etmişdi: Ətraf təpələr… Üstlərində bəyaz qar… Tən ortada insan cəsədlərindən ibarət təpə… Onun da üstündə qar… Xocalı… Erməni qaniçənlərinin bəşəri bir cinayəti…

İri qapı yenidən açıldı. Nəhəng cüssəli kişi təzim edə-edə oradan çıxdı, dərhal da cüssəsini düzəldib qəbul otağından şəstlə çıxdı. Eynəkli birisi qapını döyüb kabinetə keçdi…

Gündüz düşündü ki, nə yaman çox adam var Rəyasət müəllimin qəbulunda. Əgər bunların hamısı sponsorluq üçün onun yanına gəlirsə, onda yazığın pulu tükənəcək ki. Buna heç nə qalmayacaq. Belə də şey olar…

Dünyada hər şey pulla satılıb-alınır. Təkcə arzular pulsuz olduğundan, insan ən ağlasığmaz, utopik şeyləri arzulayır. Sonuncu utopik arzusu Maldiv adalarında villaya və şəxsi yaxtaya sahib olmaq və bu yaxta ilə kruizə çıxıb bolluca rəsm çəkmək idi. Yəqin ki, bunları reallaşdırmaq

gücündə olan başqa birisi isə, hansısa bir planetə sahib olmaq istəyir...

Əslində, insan bədəni - arzu və ümid qəbiristanlığıdır. İnsan həyatı boyu ölmüş arzu və ümidlərini içində dəfn edir. Elə ki, bu qəbiristanlıq doldu, daha arzu və ümidləri dəfn etməyə yer qalmadı, onda dünyadan köçür...

Deməli, içində nə qədər çox arzu və ümid dəfn olunursa, bir o qədər tez dünyadan köçəcəksən...

Bəzək ağacından inadla bar gözləmək - sadə insan həyatının ən mürəkkəb bir faciəsiymiş...

Görəsən, bunu necə kətana köçürmək olar?

Referent xanım, sən demə, bayaqdan onu səsləyirmiş:

- Sizinləyəm axı. İçəridəki yoldaş çıxan kimi siz içəri keçəcəksiz.

Nə yaxşı. Demək, növbəsi çatıb. Bu günü aylarla, illərlə, hətta, bəlkə, lap uşaqlıqdan gözləyirdi. Hələ məktəbdə oxuyarkən, Həmidgillə dostluq edərkən, uşaqlarla, xüsusən Qoşqarla maddi cəhətdən ayaqlaşa bilməyəndə, Güləraya görə Asəf ona kasıbçılıqlarını irad tutanda, valideynlərini başdaşısız, ailəsini mənzilsiz qoyanda, Ülkər ondan qazanmağı tələb edəndə... Və ən əsası beynindəkilərin hamısını kətana köçürmək, dünyada tanınmaq, sərgilərində telekameralara poza vermək ehtirasını boğmağa məcbur olanda məhz belə bir günün eşqi ilə yaşamış, onun gələcəyinə bütün varlığı ilə inanmışdı...

Divardakı iri saata baxdı. İkiyə on dəqiqə işləyirdi. İki saat on dəqiqə idi ki, oturub gözləyirdi. Nə qəribə saatdır? Yalnız indi fikir verdi. Əqrəblər, saniyəölçən geriyə işləyir. Yəni soldan sağa yox, sağdan sola...

Görəsən, əqrəblərin əks istiqamətdə hərəkəti saatın dəqiq işləməsinə mane olmurdu ki? Yüz faiz əmin idi ki, bunu saat mexanizminin təkmilləşdirilməsi, daha dəqiq, işləmə prinsipi kimi tətbiq etməmişdilər. Sadəcə, orijinallıq, daha çox müştəri cəlb etmək baxımından düşünülmüşdü bu...

Qəribədir, əksər hallarda saatlar ya geri qalır, ya irəli qaçırlar. Bu, saat sahibinə problem yaradır. Ancaq bəzən isə zaman geri qalır, ya da irəli qaçır. Bu isə bütün bəşəriyyətin probleminə çevrilir.

Saatı geri qaytarmaq, irəli çəkmək olur, zamanısa olmur...

Yerindən durdu. Oturmaqdan, sanki, bədəni keyimişdi. Hərəkət etmək, keyini açmaq istədi, ancaq utandı.

Əslində, ümidlə xoşbəxt olacağın günü gözləməyin özü də, bir növ, xoşbəxtlikdir...

- Keçin. Ancaq Rəyasət müəllim ikinin yarısı nahara çıxmalıdır. Xahiş edirəm ki, onu yubatmayın.

Gündüz nazlı-qəmzəli referent qıza: - Baş üstə, - söyləyib içəri keçdi.

Ömründə belə dəbdəbəli kabinet görməmişdi. Divar uzunu divarı boyaboy tutan divar şkafı. O biri pəncərəli tərəfdə qat-qat zərli pərdə. Qarşısında tünd-qəhvəyi müşavirə masası... Kabinetin bu başında nəhəng televizor. Yanında ağ mərmərdən hazırlanımş iri bir fil fiquru... Tavanda bərq vuran çilçıraq...

Rəyasət müəllim balacaboy, başı dazlaşmış bir kişi idi.

- Gəlin, əyləşin, - söyləyib ona masasının qarşısındakı künc masasının ətrafında düzülmüş stulları göstərdi.

Gündüz keçib əyləşdi.

- Siz internat məktəbindən gəlmisiz, hə? Təmirə nə qədər pul lazım idi?

- Yox, mən...

- Hə, yadıma düşdü. Jurnalist?

- Yox, Rəyasət müəllim, mən rəssamam. Rüfət müəllim sizinlə danışmışdı.

- O qədər adam gəlib-gedir ki. Hə, Rüfət müəllim keçən həftə zəng etdi, sizi qəbuluma yazdırdı...

Qarşısındakı vərəqə baxdı:

- Gündüz Ələkbərli, eləmi?

Gündüz başını tərpətdi:

- Bəli.

Rəyasət müəllim selektorun düyməsini basdı:

- Mənə çay gətir. Təbii ki, yaşıl.

Referent qız dərhal çox gözəl, şux yerişlərlə Rəyasət müəllimin qarşısına çay qoyub getdi, bir müddət onun vurduğu ətirin qoxusu kabinetdə qaldı.

Rəyasət müəllim çayı qurtumladı, Gündüz udqundu, hiss etdi ki, boğazı quruyub.

- Hə, nə məsələdir sizdə, Ələkbər müəllim?

Gündüz üzrxahlıqla gülümsədi:

- Gündüz müəllim.

- Fərq etməz. Buyurun.

- Mən impressionist rəssamam. Bu gün dünyada bu cərəyanın, bəlkə də, yeganə davamçısıyam.

- Deyirəm, özünüzə iş tapmısız da. A kişi, gedin silah götürün, Qarabağı azad edin e. Rəssam, memar, ay nə bilim, nə... Davam eləyin.

- Hazırda dünya rəngkarlığında daha çox modern cərəyanlara...

- Bir az qısa edin, mən tələsirəm.

Gündüz həyəcanlı idi, bilmirdi ki, hardan başlayıb, harda qurtarsın.

- Mən bizim böyük şairimiz Nizami Gəncəvinin Xəmsəsinin bütün hikmətlərini, aforizmlərini istəyirəm ki...

- Ay kişi, yaxşı, dayan. Nə qədər lazımdır?

- Rüfət müəllimlə danışdıq. Biz o əsərləri xarici sərgilərə...

- Nə qədər lazımdır?

- Beş min dollar.

- Nə, beş min dollar?! Beş mini çölə töküblər ki?

- Bilirsiz, bura həm kətan, rəng və digər material xərcləri, həm London hərracına...

- Üç min. İmkanlar indi aşağıdır.

Gündüz ürəyi döyünə-döyünə dedi:

- Necə məsləhətdir.

İndi də üç olsun... Ani vaxt kəsiyində cəld beynində bölüşdürdüyü beş minin xərclərinin bəzilərini ixtisar etməyə başladı ki, onları üç min civarına salsın...

- Nə vaxta lazımdır?

- Bilirsiz, hərracların payız mövsümü artıq başlayır, gərək, material...

- Ay kişi, vaxtını de.

- Pulu versəniz, elə bu gündən mən işə başlayardım...

Rəyasət müəllim selektorun düyməsini basdı:

- Əlövsət, bir həftədən sonra yanına rəssam gələcək, Ələkbər adında...

- Gündüz Ələkbərli.

- ... Gündüz adında. Ona üç min dollar verərsən.

Rəyasət müəllim azacıq fasilə verib dəstəyə söylədi:

- O biri pulu düzəltdin?... Yox?... Onu təcili düzəlt. Gözləyirlər.

Dəstəyi qulağından aralamadan Gündüzə barmağı ilə getmək işarəsi verdi. Gündüz ayağa qalxdı.

- Üzr istəyirəm, bəs...

Rəyasət müəllim dəstəyi qulağından ayırdı:

- Nə bəs?

- Demədiniz axı, Əlövsət müəllim harada əyləşir.

- Ay kişi, gəlirsən bura, mühafizəyə deyirsən, Əlövsət müəllimin yanına gəlmişəm. Mühafizə də səni çıxarır onun yanına.

- Saat neçədə?

- On birdə.

Gündüz: - Çox sağ olun, sizdən yerdən göyə qədər razıyam, - söyləyib arxa-arxaya qapıya doğru getdi.

- Sağ olun ki, mədəniyyətimizə himayədarlıq edirsiz. Bu yaxşılığınızı heç vaxt unutmaram.

Kabinetdən çıxdı. Ehtiyat üçün referentə yaxınlaşıb soruşdu:

- Xanım qız, Əlövsət müəllim harada əyləşir?

- İkinci mərtəbə, iki yüz dördüncü otaq.

- Çox sağ olun, - söyləyib qəbul otağını, sonra da binanı tərk etdi. Quş kimi yüngül idi. Deməli, iztirablardan qurtulmaq üçün bircə həftə də dözməli idi.

Fəvvarələr meydanı ilə addımlayırdı. Buranı çox sevir. Bakının gözüdür, sanki, bura. Şən, qayğısız insanlar gəzişirdilər, deyib gülürdülər. Mərkəz xoşbəxtləri, ucqar bədbəxtləri toplayır. Nədənsə belə düşündü. Odur, ata-anaları ilə açıq havadakı kafedə oturub yeyib-içən o zən-

gin uşaqlar çox xoşbəxtdirlər... Onun Aydanı ilə Rizvanı isə...

Mütləq, mütləq bir həftədən sonra uşaqları bura gətirəcək. Əvvəl hərəsinə bir dəst qəşəng əyin-baş alar. Sonra da gətirər bu kafeyə. Hamburqer, yaxud çizburqer yeyərlər, borucuqla «Cola» içərlər...

Uşaqların necə sevinəcəklərini təsəvvür etdi, üzünə gülüş qondu.

Düşündü ki, heç vaxt «bundan pisi daha mümkün deyil» dərəcəsində pis olmur. Odur ki, pisi çox da pisləmək lazım deyil.

Ay Allah, böyrəyi nə pis ağrıyırdı...

## 16-cı HİSSƏ

Həmid gözləmə zalına nəzər yetirdikdə İqbalı görmədi və yalnız indi başa düşdü ki, dostu onu qarşılamağa gəlməmişdisə, deməli, aralarındakı ziddiyyət göründüyündən də xeyli dərin imiş...

Həmişə, necə ki, buradan Bakıya uçanda ora üçün darıxırdı, tez çatmaq istəyirdi, eləcə də oradan bura uçanda ürəyi uçunurdu buradan ötrü...

Ancaq indi bu doğma şəhərdə hər şey ona yad görünürdü...

Bufetlərdən birinə yaxınlaşıb bir bulka və bir fincan qəhvə aldı, bulkadan bir az qoparıb ağzına qoydu, qəhvəni qurtumladı...

... Görəsən, Əminə indi neynəyir? Əminə barədə düşünən kimi içinə ılıq hisslər doldu, dərhal Əminəni dəli kimi qucaqlayıb hey öpmək, öpmək istədi... Ancaq bunun mümkünsüzlüyünü başa düşüb məyus oldu...

Divardakı iri saatın əqrəbləri 12.45-i göstərirdi... Deməli, Bakıda 2-yə qalmışdı. Həmid hesablamağa başladı... Bu gün sentyabrın 25-i, saat 12.45. Əminəyə ayın 28-də qayıdacağını bildirmişdi... Deməli, saat hesabı ilə hesablasaq... 17 reysi ilə uçsa...

Beyni fikirlərlə o qədər yüklənmişdi ki, Əminəni bir də neçə saatdan sonra görəcəyini hesablaya bilmədi və bu məşğuliyyətdən əl çəkdi... Bulkadan qoparıb ağzına qoydu, qəhvədən qurtumladı... Ətrafdakı sarışın adamlara

baxdı, hamısı nə qədər yad idilər... Və bu yadların içində İqbalın, digər həmyerlilərinin, iş yoldaşlarının olmasını xatırlayıb azacıq yüngülləşdi...

...Saat 13.07 idi. Vaxtı boş yerə itirdiyini başa düşüb diplomatını götürərək taksi dayanacağına doğru irəlilədi. Evə gedib maşınını götürsün, yoxsa birbaşa iş yerinə getsin? Yox, vaxt itirmək olmazdı.

***

40 dəqiqədən sonra taksi doqquzmərtəbəli yaşayış evlərindən birinin qarşısında dayandı. Həmid sürücünün pulunu verib düşdü, 8-ci bloka daxil oldu. Birinci mərtəbədəki, üzərinə ««Maloe predpriyatiye «Azeri» (««Azəri» kiçik müəssisəsi») yazılmış qapının zəngini basdı. Qapının açılması ilə:

- Urra! Qamid Subxanoviç qeldi! - deyən qızın özünü onun üstünə atması bir oldu.

Həmid onu qucaqlayan Lyudanın yanağından yüngülcə öpüb dərhal İqbalı soruşdu. Lyuda İqbalın burada olmadığını, yarım saata gələcəyini söylədi, ona çay süzüb verdi, gözündə maraq ifadəsi soruşdu:

- Bakıda ne var, ne yok?

Bu ofisdə Həmidin eynini açan şeylərdən biri də katibəsinin azərbaycanca danışması idi. Özü də cəmi iki ayın içində Lyuda dilimizi öyrənmişdi...

Həmid çayı içə-içə: - Böyüyür və inkişaf edir bizim Bakımız, - söylədi. Lyuda ona yaxın oturdu:

- Qamid Subxanoviç, menim atam sovet devrinde komsomolun linyası ila Bakıda tez-tez olub. O qun PTP-dan

Bakı ila baqlı peredaça qedirdi, kişi Bakını qorende poverte, tanımadı. Dedi, şeher nece qozel olub. Kak budta Avropanın sentridir. Menim sizin prezident da çok xoşuma qelir. Qencdir, enerqiçnidir...

Lyuda harasa çıxdı, gələndə dedi ki, İqbal gəlib, yerindədir.

Həmid qapını açıb içəri keçdi. İqbalın üzü tüklü idi. Gözlərinin qızartısından yuxusuz və yorğun olması bilinirdi...

Ayağa durmadan: - Çox şükür! - dedi İqbal. Həmid yaxınlaşaraq onunla qucaqlaşıb öpüşmək istədi. Ancaq İqbalın yerindən durmaq fikri yox idi.

- Nə olub sənə? - Həmid soruşdu.

İqbal : - Mənə yox, nə olubsa, sənə olub, - dedi.

Həmid gərginliyi azaltmaq istədi:

- Yaxşı, yaxşı. Məni qarşılamadın, eybi yox. Günahından keçirəm. Daha üstümə nalyot niyə eləyirsən?

İqbal özünü heç cür ələ ala bilmirdi:

- Evlənmisən, halal xoşun. Kimdir sənin arvadını əlindən alan. İntəhası, işi tullamaq olmaz axı. Kefini çəkdin üç gün, beş gün... Daha bəsdir də. Gəl işlərini qaydaya sal, sonra yenə get arvadının yanına.

Həmid hiss etdi ki, özündən çıxır:

- Ey, bura bax. Ağzını açıb yekə-yekə nə gəldi danışma... Yoxsa...

İqbal ayağa durdu:

- Nə yoxsa? Yoxsa neyniyərsən mənə? Bəlkə, vurarsan məni?

Həmid onunla burun-buruna dayandı:

- Vuraram, lap o yana da keçərəm.

Onların səslərinin tonundan mübahisə etdiklərini başa düşən Lyuda otağa keçdi:

-… Uşaqlar, qurtarın dalaşmaqı. İqor, Qamid Subxanoviç uzun razlukadan sonra yena qelib…

Sonra Həmiddən soruşdu:

- Qamid Subxanoviç, size yena çay verim? Yoxsa kofe?

Həmid əlləri əsə-əsə siqaret yandırdı, başını buladı. Sonra katibəsindən mühasibini soruşdu:

- Zinaida Petrovna hanı?

- Oz otaqında.

- Öz otağında?

Həmid İqbalın otağından çıxıb dəhlizlə sona qədər getdi, qapısına «Buxqalteriya» («Mühasibat») yazılmış otağın qapısını döyüb içəri keçdi.

- Zdrasti, Zinaida Petrovna (Salam, Zinaida Petrovna).

Əndamlı, yaşlı qadın eynəyini gözünə sıxıb xeyli ona baxdı, birdən bədəninə yaraşmayan cəldliklə yerindən sıçrayıb Həmidi qucaqladı:

- Oy, Subxanoviç priyexal (Sübhanoviç gəldi).

Həmid xoş-beşdən sonra ondan iyul və avqust aylarının mühasibat sənədlərini alıb göz yetirdi. Sentyabr ayının bu günə qədərki sənədlərini də vərəqlədi. Qadına sual verdi ki, nəyə görə görülən bütün işlərin həcmi sənədləşdirilib? Axı nəticədə, az qala, gəlirin hamısı vergilərə gedib.

Qadın Vergi Nazirliyinin yoxlamalarından, onlara verilən sanksiyalardan söz açdı. Tapşırıqların müavin Vera Pavlovnadan gəldiyini bildirdi.

Həmid siqaret çəkə-çəkə: - Net, tak nelzya rabotat

(Yox, belə işləmək olmaz), - deyib ayağa durdu, yenə də İqbalın otağına qayıtdı.

- Bu, nə cür işdir, bunlar aparıblar? Niyə o boyda rəqəm salıblar dokumentasiyaya? Bəs sən hara baxırsan? Heç olmasa, gəldiyin gündən bu yana qoymazdın, belə eləsinlər.

İqbal sifətində qəzəbli ifadə söylədi:

- Neyləməliyəm ki? Sən orda kefini çəkirsən, mən də burda...

Həmid onun sözünü kəsdi:

- Bura bax, mumla! Sənə nə sual verirlərsə, ona cavab ver.

- Sən mumlamalısan, mən yox.

Həmid hiss etdi ki, daha səbri qalmayıb. Yumruğunu düyünlü halda saxlayıb dodağını gəmirə-gəmirə dedi:

- Bura bax. Biz neçə ilin dostu olmuşuq. Neçə pud çörək kəsmişik. Məni məcbur etmə ki, səninlə düşmən olum.

İqbalın gözləri dolmuşdu:

- Axı nəyə görə hər şey belə olmalı idi? Naloq bir tərəfdən, reketlər bir tərəfdən... Ayda on min dollar biri, beş min də o biri mənə tas qoyub. Bu yandan da oblispolkom bizə obyom vermir. Göz görə-görə bankrot oluruq. Trudovoy soqlaşeniyaynan işlətdiyimiz tacik fəhlələrə də yüz mindən yuxarı borcumuz yığılıb. Axı mən səndən neçə dəfə xahiş elədim ki, gəl işləri qaydasına qoy, sonra get. Bütün yayı gedib oturmusan Bakıda. Axı bu it uşağı reketlər də, o köpəkoğlu Markov da səninlə iş görür. Bəlkə, sənə pul lazım deyil, ancaq mən pulumu çölə atmamışam. Mən səninlə şərikəm. Boynuma nə iş düşür, eləyirəm. Ancaq sən hər şeyi məhv etdin.

İqbal özünü ağlamaqdan güclə saxlayırdı.

Həmid onun bu halını görüb yumşaldı, ürək-dirək verməyə çalışdı:

- Yaxşı, yaxşı. Mısmırığını sallama. Gəlmişəm, üç günə hər şeyi yoluna qoyub gedəcəm.

İqbal yazı masasının dolabını açıb nəsə həb götürdü, ağzına qoydu. Masanın üstündəki soyumuş yarımçıq çayı qurtumladı:

- Ancaq ümid İrinayadır. Get, onunla görüş. Qoy atasına desin, bizi rahat buraxsınlar.

Həmid öz kabinetinə keçdi. İçərini başdan-ayağa qədər süzüb: - Hə, dostum, gör nə vaxtdır, səni görmürəm, - dedi.

Kreslosuna oturub rahatlandı. Kabinet soyuq idi. Selektorun düyməsini basdı. Lyuda içəri keçdi.

- Lyuda, sizdə, sözün əsl mənasında, qışdır. Kabineti isit və mənə çay gətir.

Lyuda:

- Bu daqiqa, - deyib elektrik qızdırıcısını işə saldı və kabinetdən çıxdı.

Həmid şəhər telefonunu götürüb zəng etdi:

- Devuşka, svijite menya s Baku. Sroçno (Xanım qız, məni Bakı ilə calayın. Özü də təcili).

Sonra dəstəyi qoyub yenə də Əminə barədə düşündü. Elə bil, neçə illər idi ki, Əminəyə həsrət qalmışdı... Ürəyi uçunurdu. Bu dəqiqə bütün nəyi vardısa, hamısını Əminə ilə olmaqdan ötrü qurban verərdi...

Lyuda fincanda çay, dilimlənmiş limon və şokolad gətirib masanın üstünə düzdü:

- Priyatnoqo appetita, (nuş olsun) - deyib kabinetdən çıxmaq istədi.

Həmid onun ardınca: - Deyəsən, nuş olsun sözünü hələ öyrənməmisən? - söyləyəndə Lyuda üzrxahlıqla gülümsəyib dedi:

- Uje oyrendim. Nuş olsun!

Həmid çayın soyumasını gözləmədən isti-isti onu içməyə başladı. Saat 4-ə işləmişdi. Mədəsinin şirə ifraz etməsindən bərk acdığını hiss edirdi...

Telefon zəng çaldı.

Telefonçu qız:

- Vaş nomer ne otveçaet (Sizin nömrə cavab vermir), - dedi.

Həmid hiss etdi ki, yenə də əsəbiləşir.

- Bu, harada ola bilər?

Başına qara-qara fikirlər gəldi. Sonradan təsəlli tapdı ki, yəqin, Əminə darıxdığı üçün anasıgilə çıxıb...

Telefon nömrələri yazılmış kitabçanı açdı. Markovun nömrəsini tapdı.

- Alo, devuşka, mne qospodina Markova (Alo, xanım qız, məni cənab Markovla birləşdirin).

- A kto yevo spraşivaet? (Onu kim soruşur?)

- Eto Qamid Abbasov. Predsedatel Azeri (Bu, Həmid Abbasovdur. Azərinin sədri).

- Minutu padajdite (Bir dəqiqə gözləyin).

Bir azdan dəstəkdən xırıltılı kişi səsi gəldi:

- Nu davay, Azeri, vıkladıvay, çto tam u tebya? (Hə, Azəri, de görüm, nə məsələdir?)

Həmid çoxdan bəri Bakıda olduğu üçün onunla görüşə bilmədiyinə görə üzrxahlıq etdi, yeni tətbiq edilən vergi siyasətindən narazılığını bildirdi, onlara ögey münasibət göstə-

rən aparatı qınadı. Reketlərin əl-qol açdığını qeyd etdi. Markovu xeyli təriflədi. Onu yenə də əvvəlki kimi öz «krışaları» hesab etdiyini söylədi. Ancaq Markov məşhur «Vremena ne te, nravı pomenyalis» (indi başqa zamandır, hər şey dəyişib) məsəlini çəkdi. Bildirdi ki, verginin haqqını mütləq vermək lazımdır. Reketlərin onun səlahiyyətlərinə daxil olmadığını dedi. Yolları asfaltlamaqla məşğul olan təşkilatlar arasında böyük rəqabət yarandığını qeyd etdi. Həmidi başa saldı ki, «Azəri»yə iş verə bilər. Ancaq hər ayrılan bir milyon rubldan 750 mini onlara çatasıdır. Həmid nə qədər əlləşdisə də, bu bölgünün qeyri-real, gülməli bir bölgü olduğunu ona başa sala bilmədi... Belə çıxırdı ki, 1 milyon manatın 500 mininə yer asfaltlamalıdır, yerdə qalan pulun da üstünə 250 min qoyub Markova verməlidirlər? Dəstəyi yerinə qoyub əsəbini dağıtmaq üçün siqaret yandırdı. Başa düşdü ki, burda olsaydı, bazara təzə adamların girməsinə, Markovla aralarında bu uçurumun yaranmasına imkan verməzdi...

Sonra İrinaya zəng edib axşam saat ondan sonra onlara gələcəyini bildirdi...

İrinanın lüks yataq otağını, mavi abajurun içəridə yaratdığı intim dünyanı, onun ağappaq bədənini, adama misilsiz rahatlıq gətirən vanna otağındakı cakuzisini xəyalına gətirdi və dərhal da Əminə gəlib gözünün önündə durdu. Yox... Ürəyi partlayırdı Əminədən ötrü... Xüsusilə də ki, Novxanıdakı bağ evlərində can dəsmalına bükülü halda hamamdan çıxan Əminənin yarıçılpaq bədəni gözünün qabağından getmirdi...

Cəld yerindən durdu. Kitab şkafının aşağı dolablarını açıb oradakı jurnalları, video və audiodiskləri alt-üst edib

üstü yazısız qara bir videokaset tapıb çıxartdı. Otağın qapısını içəridən bağlayıb kaseti videomaqnitofona saldı. Dəbdən düşmüş videomaqnitofonu məhz bu kasetə görə saxlayırdı... 15 yaşı olan bu kaset bir-birinə sarmaşmış şəxsləri keyfiyyətsiz göstərirdi... Stop. Uzunayaqlı, qara qıvrım saçları olan azyaşlı qız soyunmağa başlayır...

Həmid pultun düyməsini basıb porno qəhrəmanını «pauza» vəziyyətində saxladı. Çünki bir qədərdən sonra o gözələ müəllim «təcavüz» edəcəkdi. Həmid qızın həmin vəziyyətini görməyi öz şəninə sığışdırmırdı...

***

İrina onun gəlişinə xüsusi hazırlıq görmüşdü. O, qapıdaca Həmidə sarıldı, onu öpüşlərə qərq etdi.

İçəri keçdilər. Təbii ki, İrina evdə tək idi, bacısını atasıgilə göndərmişdi. Dəhlizdə yenə öpüşmə səhnəsi davam etdi. Həmid bura konkret iş üçün gəlmişdi. Odur ki, İrinadan rədd cavabı almamaq üçün rola girməli idi... Könülsüz də olsa, İrinanı öpür, onun üçün darıxdığını bildirirdi...

Süfrə arxasına keçməmiş Həmid mobil telefonunu çıxarıb kodla Bakını yığdı. Bu dəfə də nömrə cavab vermədi.

Saat 11-ə işləmişdi... Həmid heç cür özünü ələ ala bilmirdi. Axı artıq gecə idi. Deyək ki, Əminə dükana gedib çörək ala bilərdi, anasıgilə çıxa bilərdi, həyətə düşüb qonşularla söhbətləşə bilərdi... Ancaq bu vaxta kimi yox axı... Qısqandığı üçün ona mobil telefon almamışdı. İndi bunun altını çəkirdi. Mobil telefon olsaydı, ev telefonundan fərqli olaraq Əminə onu üstündə gəzdirdiyindən, aralarındakı əlaqə itməzdi...

Yeyirdilər, içirdilər, rəqs edirdilər.

İrina onu soyuqluqda qınayır, fikrinin başqa yerdə, daha dəqiqi, arvadının yanında olduğunu tez-tez üzünə vururdu. Həmid hiss edirdi ki, işinin öhdəsindən gələ bilmir. Bir azdan İrina hamama girib çıxdı, onu da soyundurub hamama saldı.

Həmid, sanki, bir robot idi... Heç özündə-sözündə deyildi.

Nəhayət, bayaqdan Həmidi ən çox qorxudan an gəlib yetişdi. Onlar yatağa girdilər. İrina onu cuşa gətirmək üçün dəridən-qabıqdan çıxdı. Ancaq Həmid heç cür özünü məcbur edib qıza yaxın dura bilmirdi...

İrina hönkürə-hönkürə yataqdan durdu, sərxoş ədayla ona:

- Kazyol, beqi k svayey jene (Qaç öz arvadının yanına), - dedi.

Həmid pərt halda ona baxdı, yataqdan durub şəhər telefonuna yaxınlaşdı. Yenə Bakını sifariş verdi. Telefonçu qız söylədi ki, telefonunuz cavab vermir, görünür, evdə heç kim yoxdur.

Həmid saata baxdı, 2-yə işləmişdi.

Gözünün qabağına Əminəni bir vaxt Nərminəni gördüyü bağ evinin həmin yarıqaranlıq otağında başqasına sarmaşan gətirdi. Oğlan soruşurdu: «Nu kak, ponravilas?» Əminə də cavab verirdi: «Tı velikolepen».

Həmid dəli kimi olmuşdu: «Yox, yox, yox!» - deyib qışqırdı. Sonra divarı yumruqlamağa başladı...

Saatın əqrəblərindən, elə bil, daş asılmışdı...

Onlar elə ağır-ağır irəliləyirdilər ki...

... Zəng edib Bakıya bilet sifariş verdi. İndi onu yalnız bircə şey maraqlandırırdı: Vaxtından tez evə getmək, Əminəni qəfildən yaxalamaq...

Pivə şüşəsini başına çəkdi. «Holsten» onun ən çox bəyəndiyi pivə idi. İşə bax, İrina bunu unutmayıb, onun üçün məhz «Holsten» alıb... Hisdə qurudulmuş xərçəngi də yaddan çıxarmayıb...

Bir anda Həmid hər şeyi unudub üzüqoylu yatağa uzanmış İrinaya minnətdarlıqla baxdı. Yaxınlaşanda onu mürgüləyən gördü. Yun adyalı götürüb qızın çılpaq bədənini örtdü.

Sonra özü də uzandı, tavana baxa-baxa siqaret yandırdı. Düşünməyə başladı... Deməli, Əminə də anası, bacısı kimi pozğun imiş... Deməli, havayı yerə demirlərmiş ki, anasına bax, qızını al...

Axı nəyi yox idi Əminənin? Nəyi çatışmırdı?

Həmid çəkib qurtardığı siqaretin kötüyünü sinəsinin üstündəki külqabya basdı. Yenisini yandırdı. Hiss etdi ki, əlləri əsir...

Yenə də Əminəni bağ evinin yarıqaranlıq otağında Nərminənin oğlanı ilə bir yataqda təsəvvür etdi. Oğlan özündən razı halda gülümsəyirdi: «Nu kak, ponravilos?» Əminə isə gözləri yarıyumulu, dodaqları yarıaçıq halda, sinəsi sürətlə qalxıb enə-enə uzanıqlı qalmışdı...

Həmid Əminənin bu xoşbəxt halını görəndə olduqca sevinərdi... Və indi onun bu halı ilə başqasını sevindirdiyini ağlına gətirdikcə dəli olurdu...

Görəsən, Əminə harada yıxılırdı başqalarının altına? Maşında, saunada, yoxsa...

Dayan, dayan... Birdən Həmid yerindən dik atıldı. Əminəni qaçırdığı gün düşdü yadına. Maşın dolanbac yollarla irəliləyəndə Əminə ona demişdi: «Bu yolu tanıyıram, Novxanı bağlarına gedir»...

Onda o, guya, orada qohumlarının bağlarının olduğunu bildirmişdi. Deməli, aldatmışdı. Elə, yəqin, Nərminəylə oğlanı görüşən həmin bağ evi Əminənin görüşlərinin də şahidi idi...

Yəqin, o bağ evini pozğun bacılarla görüşmək üçün kirayəyə götürmüşdü o oğlan və ya bir qeyrisi...

Həmid dəli kimi otaqda var-gəl edir, özünü toplaya bilmirdi...

Mobil telefonu zəng çaldı. Ani olaraq saata boylandı. Üç tamam idi. Gecənin bu vaxtında, görəsən, kim olardı...

İqbal idi. Onun İrina ilə görüşünün nəticəsindən nigaran qalmışdı...

- Nə oldu?

Həmid içini çəkdi.

- Heç nə. Alınmadı.

- Niyə?

- Əşşi, alınmadı da.

İqbal azacıq susduqdan sonra səsinin tonunu qaldırdı:

- Həmid, sən məni bankrot elədin. Mən yenə gözləyirdim ki, bəlkə, işləri yoluna qoyarsan. Qoymadın, öz işindir. Mən Azəridən əl çəkirəm. Əvəzində hipermarketdən də sən əl çəkirsən...

Həmid acı-acı gülümsədi:

- Nə boş-boş danışırsan? Biz şərikik. Xeyrə də, ziyana da. Azəri bankrot olub, ziyan ikimizə də dəyib. Hipermarket niyə sənin olmalıdır? Başqa şey istəmirsən?

- Başqa şeyi sən istəyirsən. Mənə vurduğun ziyana görə sənin qanını belə içməyə hazıram. Sən kişilik etmədin. İndi özündən küs.

Həmid yataqdan dik atıldı:

- İqbal, Allaha and olsun, səni parçalayaram.

... İqbal kəskin söyüş söydü. Sonra rabitəni kəsdi. Həmid əməlli-başlı əsəbindən titrəyirdi. Nə qədər İqbalı yığdısa, o, telefonu götürmədi. Başını soyuq suyun altına saldı, azacıq toxdadı. İndi onu yalnız bircə şey maraqlandırırdı. Səhər tez açılsın. O, hər iki düşməni ilə sabah haqq-hesab çürütməli idi. İşə bir bax. Bir ay əvvəl onun ən yaxın, ən əziz adamları olan Əminə ilə İqbal indi bir nömrəli düşmənlərinə çevrilmişdilər...

Eyvana çıxdı. Gecə olsa da, küçələr işıqlı idi.

Bu eyvandan İset çayına gözəl mənzərə açılırdı. Həmişə İrinagilə gələndə bu mənzərədən böyük zövq alardı.

Çay boyunca rəngbərəng işıqlar yanıb-sönür, kafelərdən, əyləncə mərkəzlərindən gənclərin gülüş sədaları, habelə şən musiqi səsləri gəlirdi.

Ancaq indi Həmid key kimi idi. Sanki, heç nə görmürdü... Bircə düşmənləri ilə haqq-hesab çəksəydi...

***

Səhər açılan kimi İrinagildən çıxdı. Qızı oyatmağa lüzum bilmədi... Yenə götür-qoy etdi. Gedib öz maşınını götürsün, yoxsa götürməsin? Onsuz da axşam çıxıb gedəsidir, bir götür, bir qaytar yerinə qoy... Taksi tutub müəssisəyə gəldi. Sənədləri qabağına düzüb xeyli gözdən keçirdi.

Bir azdan Lyuda gəldi. Onun belə erkən işə çıxmasından xeyli təəccübləndi... Lyudanın ardınca Zinaida Pet-

rovna da gəldi. Həmid mühasibdən xahiş etdi ki, bütün sənədləri sahmana salsın.

Sonra müəssisənin vəkilinə zəng etdi. Ondan müəssisənin ləğvi prosedurunu soruşdu, hansı sənədlərin lazım olduğunu öyrəndi.

Vaxt keçir, Həmidin həyəcanı da artırdı. O, İqballa olacaq görüşü, onu necə vuracağını detal-detal gözünün qabağına gətirirdi. İqbal necə yıxılacaq, üz-gözünün qanını silə-silə ona necə yalvaracaq...

Arada bir neçə dəfə evə zəng vurdu. Əminə telefona cavab vermirdi ki, vermirdi.

Günorta oldu, ancaq İqbal gəlmədi. Həmid lap narahat olmağa başladı. Axşam saat 20:30 reysi ilə o, Bakıya uçmalı idi. Deməli, axşama kimi mütləq İqballa haqq-hesabı çürütməli idi...

Görəsən, əclaf hardadır?

Həmid güman elədiyi bir neçə yerə baş çəkdi. Yox, İqbal yağlı əppək olub göyə çəkilmişdi. Mobil telefonunu da söndürmüşdü...

Məiş kişiyə zəng vurdu, İqbalın atasına. Soruşdu ki, oğlun hardadır? Kişinin: «Sən düz yolda deyilsən, İqbalı da batırmaq istəyirsən», - deməsindən başa düşdü ki, İqbalın düşmənçiliyi çox dərinə işləməkdədir.

Birdən İqbalın dünənki sözləri düşdü yadına:

- Mən Azəridən əl çəkirəm. Əvəzində hipermarketdən də sən əl çəkirsən.

Həmid istehza ilə gülümsədi. Öz-özünə: - Hə, başa düşdüm. Sən, yəqin, ordasan, - dedi.

Hipermarket şəhərin, gediş-gəlişin ən gur olan yerində - «1905-ci il meydanı»nın həndəvərində ucaldılmışdı.

İçində çörəkdən tutmuş avtomobiləcən - hər şey satılırdı. Təkcə bu yeri almağa, bu nəhəng binanı ucaltmağa Həmidgil pulun pul vaxtı iki milyon yarım qoymuşdular.

Gündəlik dövriyyəsi 50 min dollara yaxın olan hipermarket hər gün onlara 7-8 min dollar xeyir gətirirdi.

Həmid düşündü ki, əcəb iştahası var imiş İqbalın. Yaxşı deyir ki, hipermarketdən əl çək…

Taksi tutub hipermarketə yollandı. Satış salonunda iynə atsaydın, yerə düşməzdi. O, alıcıların bol olmasından bir məmnunluq duyub inzibati sektora adladı, direktorun otağına doğru irəlilədi. Direktor yerli sakin idi. Ali təhsili vardı. Həmid onu bura təyin etməmişdən əvvəl o, İqtisad İnstitutunda dərs deyirdi.

- Nu vot i ya, Pyotr Nikolayeviç (Bu da mən, Pyotr Nikolayeviç)!

Direktor durub onunla səmimi görüşdü. Həm də sifətində təəccüb ifadəsi var idi. Həmid bu ifadəni dərhal sezdi: - Çto sluçilos (Nə olub)? - deyə soruşdu.

- A, İqoryok utrom skazal çto vı bolşe ne priyediti (İqor səhər dedi ki, siz bir daha gəlməyəcəksiz).

Bu sözdən Həmidin dalağı sancdı. Səhər-səhər İqbal bura gəlib bu sözü demişdisə, deməli…

Cəld direktoru sorğu-suala tutdu. O, fikrində yanılmamışdı. İqbal nakişilik etmişdi. Həmiddən xəbərsiz bir neçə saatın içində mağazanı satmışdı…

O vaxt «Azəri» kiçik müəssisəsinin təsisçisi Həmid olduğundan, razılaşmışdılar ki, hipermarket də İqbalın adına olsun. Ancaq onlar şərik idilər, ən əsası da dost idilər. Həmid heç ağlına gətirə bilməzdi ki, haçansa İqbal bu cür nakişilik edəcək…

Həmid direktordan hipermarketi alan şəxsin telefonunu alıb dərhal ona zəng etdi, onunla görüşmək istədiyini bildirdi.

20 dəqiqədən sonra onlar «Rus» kafesində üzbəüz əyləşib kofe süfrəsində söhbətləşirdilər. Bu şəxsin adı Nikita idi, 2 cangüdəni ilə gəlmişdi.

Həmid ona vəziyyəti olduğu kimi başa salmış, əsl həqiqəti bildirmişdi. Qeyd etmişdi ki, hipermarketin əsl sahibi odur. İqbalın, sadəcə, adı gedir.

Nikita dövlət notariusunda təsdiqlənən sənədləri çıxarıb göstərdi. Bildirdi ki, ovcunun içini iyləməyib ki, əsl «xozeyinin» kim olduğunu bilsin. Ümumiyyətlə, Həmidi sadəlövhlükdə qınadı. Sonda da bildirdi ki, İqbala 850 min dollar pul verib. O ki qaldı digər məsələlərə, qoy gedib onları Həmid İqballa həll etsin.

Həmid sənədlərə göz gəzdirdi. Nikita düz deyirdi, hər şey doğru-dürüst idi.

Ah çəkdi:

- A şto mne delat (Bəs mən nə edim)?

Nikita ayağa durdu, sənədləri cibinə qoyub çiyinlərini çəkdi. Sonra: - Ubey etovo qada (O alçağı öldür), - deyib stolun üstünə bir kağız parçası tulladı. Kafenin çıxışına doğru getdi. Cangüdənləri də onun dalınca yollandılar.

Yalnız indi, bax, bu anda Həmid məsələnin nə qədər ciddi olduğunu dərk etdi. O, göz görəsi bütün varidatını itirirdi...

Nikita tullayan kağızdakı xətti dərhal tanıdı. İqbal öz adını və bir telefon nömrəsi yazmışdı... Deməli, nömrəsini dəyişmişdi.

Telefonunun nömrə gizlətmək şifrəsini yığıb dərhal həmin nömrəyə zəng etdi.

İqbalın səsini eşitdi, qəzəbini boğa bilmədi, onu doyunca söydü, sonra isə dedi:

- İqbal, ya gəl görüşək, səkkiz yüz əlli minin yarısını xoşluqla ver mənə, bununla da üzülüşək, ya da yerin dibində də olsan, səni tapacam, ondan sonra petuxluğu qəbul edib arvad paltarı geyəssən.

İqbal saat 7-yə «Yujnıy» («Cənub») hotelinin «B» korpusunun arxasında ona görüş təyin etdi.

Həmid İqballa danışandan sonra nisbətən yüngülləşdi. Arxayın idi ki, pulu ondan ala biləcək...

Səhərdən başı «bu köpəkoğluna qarışdığından, o köpəkqızını unutmuşdu...» Yenə evi yığdı, Əminə dəstəyi götürmədi. Və nədənsə onda 100 faizlik əminlik yarandı ki, Əminə bu gecə kiminləsə harada yatacaqdısa, İqbalı tapdığı kimi onu da tapacaqdı...

Başında küt ağrı var idi. Saat 7-yə hələ bir saat yarım qalmışdı...

Bir qədər küçələrdə veyilləndi. Havada sazaq var idi. Ömründə papaq geyinməyən Həmid ilk dəfə başında papaq olmasını arzuladı. Həm soyuq, həm də ağrı başını keyləşdirmişdi.

- Bu halda razborkaya getmək olmaz.

Bu fikir ağlına batdı. O, küçə boyu düzülmüş köşklərin birindən ağ naxışlı qara rəngdə toxunma papaq alıb başına keçirdi. Güzgüdə özünə baxdı. Elə bil, tamam başqa adam idi...

- Heç o köpəkoğlu da məni tanımayacaq...

Ürəyində İqbala pis-pis söyüşlər etdi, sonra qapısına «Pelmennaya» («Düşbərəxana») sözləri yazılmış yeməkxanaya girdi. Qaymaqla düşbərə və bir şüşə araq sifariş verdi. Doyunca yedi, arağı da yarı etdi...

«Yujnıy» hoteli bura yaxın idi. Odur ki, 7-yə 15 dəqiqə qalmış yeməkxanadan çıxıb taksiyə əyləşdi.

Saat 7-yə 4 dəqiqə qalmış Həmid hotelin «B» korpusunun arxasında idi. O, siqaret çəkə-çəkə gəzişir, İqbalı gözləyirdi...

«Qəribədir, insan pula görə hər cür cildə girir, dostuna düşmən kəsilir... Kimə etibar var bu dünyada?»

İqballa keçən xoş günlərini xatırlamağa başladı... Gör bir necə yaxın olmuşdular... Aralarından heç su da keçmirdi...

Bir qədər aralıda, ağaclıqda iki nəfər qara gödəkcəli şəxs də var idi... Onlar tez-tez saata baxır, kimisə gözləyirdilər... Küçə dirəyindən düşən işıqda onların hər bir hərəkətini sezmək olurdu.

Saat 8-ə 5 dəqiqə işləmişdi. İqbal hələ də yox idi...

Həmid bayaqkı fikirləri bir daha beynindən keçirdi. Gör bir, bu köpəkoğlu beşcə dəqiqəyə müştəri də tapdı, obyekti də satdı, sənədləri də düzəltdi... Demək, xəyanət onun canında çoxdan var imiş. Çoxdan plan cızıbmış ki, hipermarketi satıb pullara sahib olsun. Yox, 10 dəqiqə də keçdi, İqbal gəlmədi. Həmin iki şəxs də narahat idilər. Deyəsən, onların da adamı gəlmirdi. Onlar hərdənbir Həmidə sarı baxırdılar. Həmid nəyə görəsə onlardan şübhələndi, gizlincə onlara göz qoymağa başladı.

Ləhcələrindən şimali qafqazlılara bənzətdi onları. Düşündü ki, Allah bilsin, kimin evini yıxmağa hazırlaşırlar...

İqbalın nömrəsini yığdı. Telefon cavab vermədi. Lap əsəbiləşdi. Yəni doğrudanmı, bu köpəkoğlu gəlməyəcək?

Elə yerdə dayandı ki, həmin iki nəfərin danışıqlarını aydan eşidə bilsin.

- ... Mojet on? (Bəlkə, odur?)

- ... Da net. On şapku ne nosit (Yox, o, papaq geyinmir).

Həmid bu sözləri eşitdi. Həmin adamlar nə qədər pıçıltı ilə danışsalar da, səsləri eşidilirdi...

- A qde je etot sukin sın? Mı je desyat ştuk doljnı zarabatıvat (Bəs bu köpəkoğlu harda qaldı? Biz on min dollar qazanmalıyıq axı).

- Ya na nevo vaapşe razazlilsya. Yesli trebovali izbit do invalidnosti, etovo azika ya navernyaka posle etoy zlosti ubyu (Mən ona lap əsəbiləşdim. Sifariş etmişdilər ki, bu azərbaycanlını şikəst olanacan döyün, ancaq bu əsəbdən sonra, çox yəqin ki, onu öldürəcəm).

Həmidin bədənindən bir gizilti keçdi... Nə qədər ki, muzdlular duyuq düşməmişdilər, sürətlə oradan uzaqlaşdı. Deməli, İqbal şimali qafqazlılara pul verib onu şikəst elətdirmək istəyirmiş...

Əlini başındakı yun papağa çəkdi. Onu xilas etmişdi bu papaq...

İndi tezcə aeroporta çatmaq lazım idi. Yoxsa təyyarəyə gecikərdi...

***

Gecə saat 2-yə işləmişdi. Evlərinin blokuna girdi. Mobil telefonunu çıxartdı, ev nömrəsini yığdı. Sonra: «Lənət şeytana», - deyib əlindəki Rusiyada işlətdiyi telefonunu cibinə qoydu, o biri telefonu çıxartdı. Evin nömrəsini yığdı. Dəstəyi götürən olmadı.

Açarı açar yerinə taxıb burdu. Məhz bu anda indiyə kimi düşünmədiyi bir şey barədə düşündü: Əminəni sadəcə,

boşamaqla kifayətlənə bilərdimi? Yox, heç vaxt bu nakişiliyi qəbul edə bilməzdi. Öldürməliydi onu. Özü də xüsusi qəddarlıqla...

Qapını açıb içəri girdi. Ayaqqabılarını soyunmadan yataq otağına keçdi, qaranlıqda işıq düyməsini tapıb basdı. İşıq yandı. Əminə yox idi.

# 17-ci HİSSƏ

Yalnız ağrı var idi. Dəhşətli, əzablı bir ağrı. Ağrı qurtaran yerdə isə, sanki, ölüm dayanmışdı. Bu an o, ölümün rəngini də görürdü. Al-əlvan rəng çalarlarında idi. Sarı, açıq-yaşıl, narıncı...

Gündüz xəstəxananın tavanına baxdı. Ağappaq tavan ağappaq divarlarla və üstündəki ağappaq yorğanla bir tam təşkil edirdi...

Sonra onu yataqdan götürüb açılı vəziyyətdə olan kresloda oturtdular. Hemodializlə qanını təmizləyirdilər. Tibb bacısı yanında durub sistemdə gedən prosesi izləyirdi...

Əslində, çoxdan xəstəxanada yatmalı idi. Ağrılar onu çox incidirdi. Sonuncu dəfə yenə də bugünkü kimi onu təcili tibbi yardımla evdən gətirəndə həkim müayinədən sonra başını yelləmiş, Ülkərə demişdi:

- Bacı, yoldaşınızda kəskin böyrək çatışmazlığı var. Onun böyrəyinin su, azot və elektrolit mübadiləsi qismən pozulub.

Ülkər hıçqırmışdı:

- Doktor, elə biz ailə qurandan həmişə deyir, böyrəyim ağrıyır. Ancaq indi lap pristup çəkirdi, bağırırdı. Elə çox içən də deyil. Mən özüm də tibb bacısıyam, ancaq heç bundan baş açmıram. Bəs bu xəstəlik nədəndir?

- Bu, bir çox səbəblərdən ola bilər. Mən daha çox kimyəvi məhsulların, zəhərin toksik təsirini hiss edirəm. Yoldaşınız nəçidir?

- Rəssam.

- Mən dedim, bəlkə, kimyaçıdır.

Bu yerdə Gündüz söhbətə qarışmışdı:

- Doktor, mən müxtəlif kimyəvi maddələrdən rəng alıram. İşimdə, hətta xlordan, manqandan da istifadə edirəm.

Həkim yenə başını yelləmiş: - Vəziyyətiniz heç də ürəkaçan deyil, xəstəxanada yatmalısınız, böyrək dəyişikliyi aradan götürülməlidir, ən azı iki həftəyə diurez bərpa olunmalıdır, - söyləmişdi.

Ancaq hemodializlə qanı bir prosedurda təmizlənən kimi Gündüz çıxıb evə gəlmişdi. Ülkərə demişdi ki, xəstəxanada qalmağa bir ətək pul lazımdır, hardandır onun pulu.

Bu dəfə isə daha şiddətli ağrılarla xəstəxanaya gətirilmişdi. Budəfəki diaqnozu daha qorxulu idi: Xroniki böyrək çatışmazlığı.

Ona sistemlər, iynə-dərman, yataq rejimi və az zülallı pəhriz yazmışdılar...

- Sevinmək mənə düşmədi, - ürəyindən bu sözləri keçirdi.

- Bir həftəyə durmalıyam, pulu götürməliyəm, - bunları da ürəyindən keçirdi.

- Pul məni dərhal sağaldacaq, imkanlı adam heç xəstələnməz, - deyə düşündü.

Birdən lap qanı qaraldı:

- Heç bu xəstələnməyin yeri idi?! Belə bir vaxtda da adam xəstələnər?! Evdə qara qəpik yoxdur. Görəsən, nisyə onu müalicə edərlər? Bir həftəyə onsuz da pulu gələcək də, hamısını artıqlaması ilə ödəyər...

Gözlərini yumdu. Çox halsız idi. Neçə günün yuxusuzluğu da öz sözünü deyirdi, gözləri qapanırdı...

... Hiss etdi ki, xeyli mürgüləyib. Palatadan səslər gəlirdi. Həkim idi, Ülkərlə danışırdı:

- Xanım, bilirsiniz ki, uremiya çox təhlükəli xəstəlikdir. Hələ reanimasiyada qalmalıdır. Hər iki böyrəyin funksiyası qismən pozulub. Hemodializlə qanın ekstrakorporal təmizlənməsini həyata keçiririk. Peritoneal dializdən də istifadə olunacaq. Bu, çox bahalı müalicədir. Bir hissəsi dövlətin hesabınadır, ancaq yerdə qalanı... Sizin baş həkim mənə zəng vurdu, dedi ki, çox imkansız ailəsiniz. Mən bizim aptekə tapşırmışam, sistem və dərmanları sizə nisyə verəcəklər. Ancaq bir ay müddətində...

Səslər gah tam eşidilməz olur, gah aydınca eşidilirdi. «Demək, gedib baş həkiminin yanında ağlayıb ki, pulumuz yoxdur. O da zəng edib bura ki, bu dilənçilərə nisyə iynə-dərman verin... Aləmdə biabır eləyir məni, köpəyin qızı... Hamıya car çəkir ki, ərim pul qazana bilmir...»

Gündüzü yenə yuxu apardı. Arada ayılır, həkimin sözlərini eşidir, yenə də yuxulayırdı. Nə qədər istəsə də ki, yuxulamasın, həkim söyləyənləri axıradək eşitsin, alınmırdı.

- Ən pisi xəstəliyin terminal fazaya keçməsidir. Onda mütləq böyrək köçürülməsi lazım gələcək. İmkansız ailəsiz, donor böyrəyi almağa, yəqin ki, gücünüz çatmaz. Bu halda, adətən, xəstəni xilas etmək üçün doğmaların - qardaş və ya bacının böyrəyi transplantasiya olunur. Yoldaşınızın qardaş-bacısı var?..

- Var. İki qardaş, bir bacıdırlar...

Elə hey mürgüləyir, ayılırdı. Tam olaraq ayılanda palatada özünü tək gördü.

Zəif səslə tibb bacısını səslədi... Boğazı qurumuşdu, su içmək istəyirdi...

Yox, mütləq ayağa durmalı idi. Xəstəlik onun harasına yaraşırdı ki...

Böyründəki dolabın üstündən cib telefonunu götürdü. Saata baxdı. 22:35 idi. Gördü, cavabsız zənglər var. Biri Rüfət müəllimdən idi. Biri jurnalist qızdan. Tez-tez ondan məqalələr yazardı bu qız. Adı nə idi onun? Xatırlaya bilmədi. Biri də qardaşı Talehdən...

Öncə Rüfət müəllimin nömrəsini yığdı, bir çağırış səslənən kimi çağırışı dayandırdı ki, birdən Rüfət müəllim qəbul düyməsini basar, onu sonuncu konturlarından məhrum edər.

- Böyük rəssam, salam.

- Salam, Rüfət müəllim.

- Heç zəng edib demədin axı, Rəyasət müəllimlə görüşə bildinmi, pul verdimi?

- Görüşdüm, Rüfət müəllim, çox sağ olun. Dedi, bir həftəyə gəl götür.

- Ona başa saldın layihəni?

- Sözün düzü, elə də vaxtı yox idi danışmağa. Qısa başa saldım.

- Deyibsə, verər. Sözümüzü yerə salmaz. Gündüz, bəlkə, hər halda sən ittifaqa üzv olasan? Hər dəfə bu mövzu gələndə daş atıb başını altına tutursan. İttifaqa üzv ol, müəyyən sifarişləri sənə yönəldək. Bax, Gənclər sarayında tərtibat işləri var. Danışım, versinlər sənə. Yaxşıca qazana bilərsən.

- Rüfət müəllim, mən tərtibatçı rəssam deyiləm axı. Mən impressionistəm. Stend, guşə düzəltmək, reklam lövhəsi hazırlamaq, şüar yazmaq - bunlar mənlik deyil. Bilirsiz, bunları hamı bacarır. Ancaq mən görən işi heç kəs bacarmır. Mənə meydan versəniz, həm öz adımı, həm də Azərbaycanın adını qızıl hərflərlə rəngkarlığın tarixinə yazaram. Mən sənətimdə çox kaprizliyəm. Heç vaxt ona xəyanət etmərəm.

- Səhhətin necədir? Ağrıyıb eləmirsən? Keçən dəfə gözümə çox pis dəyirdin.

Gündüz xəstəxanada olmasını gizlətmək qərarına gəldi:

- Pis deyil, çox sağ olun.

Sağollaşdılar. Ardınca Gündüz jurnalist qızın nömrəsinə çağırış göndərdi. Bir qədər gözlədi. Zəng gəlmədiyini görüb qardaşını yığdı. Qardaşı dərhal zəng etdi:

- Alo, Gündüz.

- Hə, Taleh.

- İndi necəsən? Zibanı da götürüb gəlmişdim, nə illah elədik, dedilər, reanimasiyadasan, içəri buraxmadılar.

- Hə, burda belədir.

- Axı, nə oldu sənə birdən-birə?

- Rəhmətliyin oğlu, nə birdən-birə? Gör nə vaxtdır, mən ölürəm.

- Həkim dedi, uremiyadır. Özünə yaxşı baxsan, dava-dərmanı vaxtında qəbul etsən, keçib gedəcək. İndi xəstə olmayan adam var ki?!

Azacıq susduqdan sonra qardaşı sözünə davam etdi:

- Puldan, paradan bir çətinliyin-zadın yoxdur? Allah kəsib, bizim də beş-üç manatımız olmur ki, dara düşəndə bir-birimizə əl tutaq.

Gündüz ah çəkdi:

- Heç bir problem yoxdur.

- Reanimasiyadan çıx, gəlib yoluxacağıq səni. Bir sözün, tapşırığın.

Gündüz azacıq düşünüb söylədi:

- Taleh, Həmid Rusiyaya gedib üç-dörd günlük. Hesabnan bu gündə-sabahda qayıtmalıdır. Ona mazok vurmaq üçün xüsusi kist tapşırmışdım, gətirsin. Sən canın, bir ona zəng vur, gör gəlibmi, kisti gətiribmi?

Sağollaşdılar.

Yadına Gülarə, onun mənzili düşdü. Tül pərdə, abajurun, aboyların rəngləri, mətbəx səliqəsində içdiyi ətirli çay və yediyi dadlı piroq... Görəsən, indi Gülarə neyləyir?

Palatanın zəif işığında o tərəf-bu tərəfə boylandı. Böyründəki hemodializ aparatının üstündəki sözləri oxumağa çalışdı. İNNO... Ardını oxuya bilmədi. Yarımqaranlıqda sözün axırını heç cür görə bilmirdi.

Yenə susuzluğunu hiss etdi. Tibb bacısını bir-iki ağız səslədi.

Demək, Rəyasət müəllim 3 min dollar verəcək. Hayıf, heç nədən 2 mini necə də itirdi. Ancaq bəy verən atın dişinə baxmazlar. Qoy 3 olsun. 3 min dollar neçə manatdır? Hesablamağa başladı. Azı 2400 manat. Görən, xəstəxananın xərci nə qədər tutacaq?

Bu dəqiqə necə də məmnuniyyətlə siqaret çəkərdi. Ciyəri lap alışırdı siqaretdən ötrü.

Azı 500 manat gedəcək. Ev kirayəsindən də 360 manat borcu var. Həmidə, əmioğluya, rəssam dostlarına düz 950 manat borcu yığılmışdı. 87 manat da dükançıya borclu idi... Bütün bunlar eləyir...

Telefonunun kalkulyatoru ilə bu rəqəmləri topladı.

Bunlar eləyir 1897 manat. 3 manata kompüter zalındakı o uşağa hədiyyə alar. Bir 10 manata da Rizvanla Aydanı «Mcdonalds»-a aparar... Cəmi 490 manatı qalır. Hələ bacısıgilin evgördüsü... Eybi yox, yağlı boya, bir də sulu boya alar. Emal, quaş, pastel almaz. Kətanı da bir qədər az çəkdirər... Görəsən, İngiltərədəki tanışlar bunun əsərlərini pul ödəmədən hərraca sala bilərlər?

Telefonuna zəng gəldi. Jurnalist qız idi:

- Gündüz müəllim, gecəniz xeyir. Zəng vurmusuz, eşitməmişəm.

Sevindi ki, nə yaxşı qız bunun zəng etdiyini ehtimal edir. Xəbəri yoxdur ki, bu zəng etməyib, sadəcə, çağırış atıb.

- Necəsiz, xanım qız?

- Sağ olun, Gündüz müəllim. Mən gün ərzində sizi aradım. Eşitdim, xəstəxanaya düşmüsüz, narahat oldum. İcazənizlə diktofonu qoşum, mətbuatçün balaca bir informasiya hazırlayaq.

- Buyurun, buyurun.

Azacıq fasilədən sonra qızın səsi gəldi:

- Hansı diaqnozla xəstəxanaya yerləşdirilmisiz?

- Uremiya.

- Səhv etmirəmsə, bu, böyrək xəstəliyidir?

- Bəli. Xroniki böyrək çatışmazlığı.

- İndi özünüzü necə hiss edirsiz?

- Pis deyiləm.

- Həmkarlarınızdan, məmurlardan kimsə sizi yoluxubmu?

- Mən reanimasiyadayam, elə bu gün bura götürülmüşəm. Demək olar ki, heç kəsin xəbəri yoxdur.

- Yaradıcılığınızda vəziyyət necədir?
- Pis deyil.
- Xəmsə layihəsini tamamladınız?
- Yarılamışam.
- Siz axı Yeni il ərəfəsində söz vermişdiniz ki, bu layihə ilə aləmə səs salacaqsız. Demişdiz ki, sentyabrda dünyanın sərgi salonlarında nümayiş olunan bu işlər sonra məşhur incəsənət auksionlarına çıxarılacaq. Artıq oktyabr qapının kandarındadır. Sizsə heç layihəni tamamlamamısız.
- Bilirsiz, xanım, müəyyən problemlər var. Onları yoluna qoyum, vədimə əməl edəcəm.
- Gündüz müəllim, rəssam həmkarlarınız deyirlər ki, guya, siz hamıdan fərqlənmək üçün köhnə bazara təzə nırx qoyanlardansız. Buna münasibətiniz.
- Mən onların münasibətinə şərh vermək istəmirəm.
- Mən özüm, jurnalist olsam da, rəngkarlıqdan elə də başım çıxmasa da, sizin başqalarından fərqlənmək stixiyanızı görürəm.
- Nədə görürsüz?
- Adicə, rənglərlə davranışda. Palitranızın kasadlığında, rahat görünən, asan qavranan şeylərdə qeyri-adilik axtarmağınızda...
- Xanım, bilirsiz, rəngkarlığın fotoqrafiyadan fərqi var axı. Fotoqraf kimi rəssam da gördüyü hansısa mənzərəni, insan cizgilərini olduğu kimi çəkib verməməlidir. Belədə daha dəqiq işləyən fotoaparat fırçanı vurub sıradan çıxarar axı. Rəngkarlığın altı funksiyası var: estetik, maarifləndirici, ideoloji, sənədli, sosial-tərbiyəvi və dini-mənəvi. Mən bunların hamısını bir funksiyada bir-

ləşdirirəm. Zahirən görünən obyektin daxili təsvirini verməyə çalışıram.

Birdən Gündüz qəfil söhbətin mövzusunu dəyişdirdi:

- Xanım, sizdən bir xahişim var. Bura mənimçün bir qutu siqaret gətirərsiz?

Hiss olundu ki, qız duruxub qaldı:

- Belə gec saatda...

Gündüz ah çəkdi:

- Yaxşı, lazım deyil. Ciyərim yanır, dözə bilmirəm. Yaxında da bir ins-cins yoxdur ki, köməyimə gəlsin.

Qız yumşaldı:

- Yaxşı, gətirərəm. Hansından çəkirsiz, hansı xəstəxanada, hansı palatadasız, deyin.

Gündüz lazım olanları jurnalist qıza söyləyib rahatlandı. Telefonu dolabın üstünə yenicə qoymuşdu ki, yenidən zəng gəldi.

- Alo.

- Gündüz, indi necəsən?

- Ülkər? Hardan zəng eləyirsən?

- Qonşudayam, Azadəgildə. Onun mobiliynən yığmışam. Narahatam. Həkim qoymadı yanında qalmağa. Dedi, get. Gəlmişəm, ancaq ürəyim yanındadır.

- Yaxşıyam, pis deyiləm. Babatam. Camaatın konturunu qurtarma. Sağ ol.

- Həkim deyib sənə şit kartof püresi, buğda bişmiş kotlet olar, bir də toyuq bulyonu. Meyvə şirəsi də.

- Ay qız, camaatın telefonuynan qısa danış.

- Azadədən iyirmi manat götürdüm, dedim, maaşadək...

- Niyə götürürsən?! Niyə məni aləmdə biabır eləyirsən?! Qaytar pulu, heç nəyin mənə lazım deyil! Sağ ol!

Əlaqəni kəsib telefonu dolabın üstünə tulladı.

Xeyli dodaqaltı mızıldandı. Sonra yenidən tibb bacısını səslədi. Tibb bacısı içəri daxil oldu.

- Bayaqdan çağırıram. Su istəyirəm, mənə su verərsiz?

Tibb bacısı ona yarım stəkan qaynadılmış su gətirdi:

- Çox olmaz. Bunu için, bəsinizdir.

Gündüz suyu xüsusi ləzzətlə içdi, tibb bacısına təşəkkürünü bildirdi.

Görəsən, jurnalist qız gec gələr? Yenə palatadakı əşyalara nəzər yetirdi. Hemodializ aparatının adını bu dəfə oxuya bildi: İNNOVA

Bu gün sentyabrın 25-i, gecə saat 23:45. Deməк, oktyabrın 1-də, saat 11-də pulu götürür. Neçə saatdan sonra?

Telefonunu götürüb kalkulyatorunda hesablamağa başladı. Düz 131 saat 15 dəqiqədən sonra.

Bunu fikirləşən kimi canına bir rahatlıq gəldi. Dəhlizdən səs eşitdi. Deyəsən, jurnalist qız gəlirdi. Düşündü ki, çox yaxşı qızdır. Həmişə bunu gündəmdə saxlayır. Təmənnasız haqqında yazır. Rəyasət müəllimdən pulu alanda ona da mütləq bir hədiyyə alar. Məsələn, ətir...

## 18-ci HİSSƏ

Həmid evi ələk-vələk elədi... İçində azacıq bir ümid var idi. Əminə evdə tək gecələməkdən qorxub, ola bilərdi ki, anasıgilə getmişdi...

Odur ki, Həmid onun əşyalarını, pal-paltarını töküşdürdü... Yox, o, ən qəşəng kostyumunu, tuflisini geyinmiş, əl çantasını, bahalı kosmetikasını götürmüşdü... Deməli, Əminə anasıgildə deyildi...

Başqa heç bir variant Həmidin beyninə girmirdi... O, yüz faiz əmin idi ki, indi onun həyat yoldaşı kiminləsə...

Ürəyi köksündən qopub çıxmaq istəyirdi. Əlləri əsə-əsə siqaret yandırdı... Bütün bu olub-keçənlərə görə özünü söydü... Axı niyə, niyə aldandı, rahat həyatını kəşməkəşlərə dəyişdi... Nəticədə hər şeyini itirdi...

«Ax, Əminə... Maskalanmış, mələk cildinə girmiş iblis!.. Sənin nəyin çatmırdı? Yəni altına yıxıldığın o oğraşın kişiliyi mənimkindən çoxdur? Bəlkə, pulu çoxdur?»

Həmidin gözlərindən yaş axırdı...

Divanın oturacağını qaldırıb altından sellofan torbaya bükülmüş tapançanı çıxartdı. Hökmü qəti idi. Əminəni də, onun oynaşını da cəhənnəmə vasil edəcəkdi...

Tapançanı qoltuq cibinə dürtüb qapını çırparaq evdən çıxdı...

Gedəcəyi marşrutu dəqiqləşdirmişdi: Novxanı bağları. Nərminə ilə oğlanın görüşdüyü həmin bağ evi...

Gecə saat 2-nin yarısı idi. Təkəm-seyrək mənzillərdə işıq yanırdı. Başını qaldırıb Əminəgilin mənzilinə boylandı. İşıqları yanmırdı... Ani olaraq əvvəlcə onların qapılarını döymək qərarına gəldi...

İldırım sürəti ilə yuxarı qalxıb, boz rəngli dəmir qapını döyməyə başladı. Əvvəl əllə, sonra açarla, daha sonra təpiklə... Qapı açılmırdı. Düşündü ki, yəqin, onu görüb qorxularından qapını açmırlar. Ev yiyələrinin ünvanına biədəb söyüşlər söyüb gəldiyi sürətlə də geri qayıtdı.

Küçəyə çıxdı. Əzilmiş «X5»-ini xatırlayıb yenə də Əminəni, onun bütün nəslini söyüş yiyəsi etdi...

Beş dəqiqə keçməmiş bir «VAZ 011» maşını onun qarşısında dayandı. Həmid qabaq qapını açıb əyləşdi. Sürücü yaşlı adam idi, onu diqqətlə nəzərdən keçirib dedi:

- Ay oğul, əvvəl de, hara gedirik, qiymətdə razılaşaq, sonra əyləş də.

- Səninçün nə fərqi var ki, hara gedirəm? Hara desəm, sürəcəksən də. Puluma minnət. Sür Novxanıya.

Kişi Həmidin danışıq tərzini bəyənmədi, onun bərk həyəcanlı olması da kişinin xoşuna gəlmədi. Xeyli düşündü, tərəddüd etdi:

- Yox, ay oğul, Novxanıya sürə bilmirəm. Ancaq şəhərin içində hara desən, apararam.

Həmid əsəbi halda səsini qaldırdı:

- Kişi, tutalım, dedim, apar Əhmədliyə. Ora aparарsan, Novxanıya yox? Novxanı Əhmədlidən yaxındır ki.

Kişi duruxub qalmışdı.

Nəhayət, dilləndi:

- Orda qalassan, yoxsa qayıdassan?

- Hələ getməyin söhbətini edirik. Lap tutalım, qayıdacam. Tələsirəm, sür. Pul problemi yoxdur.

- Nə qədər gözlədəcəksən məni?

Həmid lap hövsələdən çıxdı:

- A kişi, dedim, sür, tələsirəm. Beş-on dəqiqəlik işim var orda.

Kişi cəld ona qiymət oxudu:

- Otuz manat.

- Sür!

Kişi maşını işə salıb yerindən tərpətdi və danışmağa başladı:

- Ay oğul, gecənin bir aləmidir. Mən də bu qoca yaşımda risk edib səni ora aparıram. Nə bilim ki, kliyentim kimdir, nə yuvanın quşudur? Çöllü-biyabanda birdən maşını saxlayıb bıçağı dirəyərsən böyrümə ki, düş... Hər şey ola bilər... Ona görə də mənim səni sorğu-suala tutmağıma...

Həmid əsəbi halda onun sözünü kəsdi:

- A kişi, sənin bu köhnə nolonbirin mənim nəyimə lazımdır? Özümün qəttəzə iks beşim var.

Kişi maşınını tərifləməyə başladı?

- Sən ilinə niyə baxırsan? Mən onu bilirsən, necə saxlamışam? Yağ içində böyrək kimi...

Kişi başladı maşınının tarixçəsini danışmağa. Qardaşı ilə Tolyattiyə getməklərini, orada VAZ-a girib maşın seçməklərini...

Kişi elə hey danışırdı:

- Qonşum var, Abbas. O da mənim kimi bir parça çörək üçün əsir-yesirdir. Martın on doqquzu günü gecə vaxtı yazığa Patamdarın kruqunda əl eləyiblər ki, bizi Lökbatana apar. Üç nəfər olublar. Yazıq əvvəl hürküb, aparmaq istə-

məyib, sonra onlar deyəndə ki, nə istəsən, verəcəyik, pul da ki, şirin şeydir, kişi razılaşıb... Zapravkaya çatmamış maşını saxladıb mantirovkaynan təpəsinə nətər qoyublarsa, yazıq hələ də havalı kimi gəzir... Maşını isə dörd gündən sonra əzilmiş halda Nəvai postunun yaxınlığından tapıblar...

Novxanı bağlarının arası ilə irəliləyirdilər. Həmid sürücüyə haradan gedəcəklərini göstərirdi...

- Burdan dön. Bax, belə. İndi düz sür... Bura olmalı idi axı... Yaxşı, dala ver. Düz dönməmişik. O biri döngədən dön...

Stop! Bu da həmin bağ evi...

O, cəld maşından düşüb hasarı aşdı. Evin ətrafına fırlandı. Gözləyirdi ki, arxa pəncərədə şam işığında tərpənən siluetlər görəcək. Ancaq işıq yox idi.

Eyvana keçib yerində boş oturan pəncərə şüşəsini çıxartdı. Oradan əlini uzadıb qapının cəftəsini açdı, içəri girdi.

«Yəqin, kef çəkib indi də yıxılıb yatırlar». Həmid onları çarpayıda təsəvvür etdi və onu da təsəvvür etdi ki, Əminə ilə oynaşı yuxudan ayılandan sonra necə titrəşəcəklər...

Hətta xəyalən onların gicgahına sıxdı güllələri, beyinlərinin pırtlayıb çıxmasından həzz də aldı...

Bu da həmin otaq. Çiyni ilə qapını itələyib içəri keçdi. İns-cins yox idi. Ümumiyyətlə, evin səliqə-sahmanından, soyuqluğundan hiss edilirdi ki, burada heç kəs olmayıb... Bütün evi gəzdi. Yox, heç kim yox idi...

Əminəni burada görəcəyinə o qədər əmin idi ki, birdənbirə hər şeyin bu cür dəyişməsinə özünü hazırlıqsız hesab etdi...

Qaranlıq, soyuq və bomboş evin dəhlizində bir siqaret yandırdı, onu çəkə-çəkə düşünməyə başladı. «Yaxşı, bəs indi hara getsin, harda axtarsın Əminəni? Hansı saunaya, gecə klubuna, restorana üz tutsun?»

Birdən beyninə yenidən Əminəgilin evinə qayıtmaq fikri gəldi. Gedib qapılarını qırmalı, evə soxulmalı idi. Yəqin ki, hamıdan yaxşı onun yerini fahişə bacısı bilərdi...

«Məndən gizlənmək olar? Köpəkuşağı, gizlənin görüm, necə gizlənirsiz. Bütün Azərbaycan biləcək fahişəliyinizi...»

Geri qayıdıb maşına əyləşdi, sürücünün sorğu-sualına məhəl qoymayıb: «Tez elə, bayaqkı yerə qaytar məni», - dedi...

... Gecə saat 3-ə 5 dəqiqə qalmış Həmid Əminəgilin qapılarını qırmaq həddinə çatmışdı. O, üç-dörd addım geri çəkilir, sonra atlanıb çiyni ilə qapıya zərbə vurur, qapını təpikləyir, beşmərtəbəli söyüşlər söyürdü...

Nəhayət, üzbəüz qapı açıldı, ortayaşlı, üzütüklü bir kişi alt paltarında olduğu üçün yarımaçılı qapıdan başını çıxarıb soruşdu:

- Ay yoldaş, ay vətəndaş, gecə saat üçdə niyə qoymursan yataq? Niyə qırırsan xalxın qapısını? Görürsən, evdə yoxdular da.

Həmid əsəbi halda kişiyə baxdı:

- Necə evdə yoxdular? Gecənin bu vaxtı bəs hansı cəhənnəmdədirlər?

Yarımaçıq qapının arxasından qadın səsi gəldi:

- Rəşid, nə olub?

- Baratgilin qapısını qırır. Deyirəm, evdə yoxdular, inanmır.

Həmid səsinin tonunu aşağı salıb dedi:

- Ay bacı, mən bunların kürəkəniyəm. Hardadı bunlar?

Qadın başını çıxaran kimi: - A, Həmiddir də bu, Mələk bacının oğlu, - dedi.

Cəld də sözünə əlavə etdi:

- Həmid, bunlar Periküşkülə getdilər, Suqra bacının bacısı qızının nişanına. Yol uzaqdır deyə gecəni orda qalasıdırlar. Suqra bacının...

Həmid ona sözünü davam etdirməyə imkan vermədi:

- Əminəni də apardılar?

İçində bir ümid cücərtiləri peyda oldu. Yəqin ki, Əminə də xalasıqızının nişanına getmişdi...

Ancaq qadın bu ümidləri yox etdi:

- Yox, onu deyə bilməyəcəm. Burdan Suqra bacı, Barat qardaş və Nərminə üçlükdə çıxdılar...

Hə, onlar elə gediblər, bu da belə gedib. Düşünüb ki, ərim Rusiyadadır, qoy kefimi çəkim. Daha deməyib ki, ərin sənə o kefi elə çəkdirəcək ki...

Yaxşı ki, qonşular birevli kimi idilər, ünvanı bilirdilər. Hesabnan Suqranın bacısıgilin evini tapmaq çətin deyildi: Bazarla üzbəüz ilk beşmərtəbə...

Bu dəfə taksi tapmaq xeyli çox vaxt apardı. Çətinliklə əlinə keçən «Tofaş» taksisinin cavan sürücüsü ondan gedib-gəlmək üçün 80 manat pul istədi. Həmid dərhal razılıq verdi və sürücüdən xahiş etdi ki, maşını bacardığı qədər bərk sürsün... Sürücü isə gileyləndi ki, yollar pis gündədir.

Əlli beş dəqiqədən sonra Həmid axtardığı ünvana gəlmişdi. Saat 4:20 idi. O, qapını döyməyə başladı. Əvvəl asta-asta, sonra bir az bərkdən...

Bir qədər keçmiş qapını təpikləməyə başladı...

Gözlükdə işıq peyda oldu. İçəridən boğuq kişi səsi gəldi:

- Kimdir orda?

- Həmiddir, aç!

- Həmid kimdir?

- Suqranın kürəkəni.

- Suqranın kürəkəni?

Qapı cəftəsinin çaqqıltısı eşidildi, qapı açıldı. Arıq-sısqa bir kişi onu içəri dəvət elədi.

- Adını unutmuşam, adın, gərək ki...

- Həmiddir.

- Hə, Həmid xatırladım. Suqra bacı dedi, Rusiyətdəsən. Deyəsən, qəfil gəlmisən...

- Hə, elədir.

Bir azdan burda nə həngamə qoparacağını xəyalına gətirib, canfəşanlıqla onun qabağına çəkələk qoyan bu sısqa kişiyə yazığı gəldi.

- Birbaşa bura gəldin, yoxsa siftə evə getmişdin?

- Evə getmişdim.

Kişi onu mətbəxə dəvət etdi:

- İki göz otaqdır. On beşə yaxın qonağımız var. Keçək, mətbəxdə əyləşək.

Mətbəxə girən kimi soruşdu:

- Çay-çörək yeyəssən?

Həmid dəhlizdən və mətbəxdən hiss etdi ki, ev yiyələri çox kasıb yaşayırlar...

- Yox, heç nə lazım deyil.

- Onda qoy qarını çağırım, sənə yer düzəltsin... Yaxşı oldu, gəldin. Sabah nişandır...

- Yox, gedirəm. Aşağıda maşın gözləyir. Suqranı qaldır, ona sözüm var.

Kişi: - Hə, bu dəqiqə, - deyib getdi, tezcə də gəldi:

- Qarımı qaldırdım, dedim, Həmid gəlib, Suqranı oyat. İndi gələr.

Sonra kişi qaz plitəsini yandırıb çaydanı onun üstünə qoydu:

- Sən öz canın, bir stəkan çay iç.

Həmid siqaret çıxarıb yandırdı, başı ilə «yox» işarəsi verdi. Kişi diqqətlə onu süzdü:

- Ya yorğunsan, ya naxoşsan. O saat hiss olunur.

Otaqdan pıçıltı səsləri gəlirdi. Həmid içini çəkdi. Düşündü ki, yəqin, indi Suqra çıxılmaz vəziyyətdədir. Bilmir, nə etsin...

Pıçıltılar davam edirdi. Suqra gəlib çıxmırdı. Həmid kişiyə acıqlı-acıqlı baxdı:

- Çox gözləyəcəm?

Kişi: - Bu saat, - deyib yenə yan otağa keçdi, qayıdıb: - Bu dəqiqə gəlir, - söylədi. Onun ardınca mətbəxə balacaboy bir qadın girdi.

- Boyuva qurban, ay kürəkən, - deyib özünü Həmidin üstünə atdı. Həmid bir qədər sərt hərəkətlə arvadı kənara itələyib: - Hanı Suqra? - soruşdu.

Həmidin bu hərəkətini gözləməyən qadın sual dolu baxışlarla ərinə baxdı, əri gərginliyi aradan götürməkçün gülümsədi:

- Kürəkənin qanı qaradır. Ya yorğundur, ya naxoş.

Həmid düşündü ki, məmnuniyyətlə bunların hamısını gəbərdər, heç «uf» da deməz. Pozgun köpəkuşağı. Hardan rastına çıxdılar?

Axı niyə bu işi etdi Əminə? Niyə? Nəyi əskik idi? Necə də xoşbəxt idilər. Necə anlar yaşamışdılar. Necə gözəl, ehtiraslı idi... Heç doymadı ondan, heç doymadı...

Düşündü ki, Əminəni tapanda gülləni onun alnına vuracaq. Beynini parça-parça edəcək. Ona xəyanət barədə düşünən o beyin divara çilənəcək...

Sonra düşündü ki, yox, Əminənin ürəyindən vurmaq lazımdır. Xəyanət öncə ürəkdə yaranıb, sonra beyinə ötürülür. Əminənin beynini məhz ürəyi idarə edir...

Mətbəxin qapısında Suqra göründü:

- Vay-vay-vay. Allah məni öldürsün. Bilsəydik ki, bir gün tez gələcəksən, heç gəlməzdik...

O, yaxınlaşıb Həmidi öpmək istədi:

- Nə var, nə yox, necə gedib, gəldin?

Ancaq Həmid Suqraya qarşı da kobudluq etdi, onu kənara itələdi.

- Hanı Əminə?

Suqra təəccüblə kürəkəninə baxdı:

- Necə yəni, hanı Əminə? Odey, yatır orda.

Həmid sualın cavabında Suqranın yüz cür qeyri-adi, gözlənilməz variant söyləyə biləcəyini ağlına gətirmişdi... Ancaq bu cavabı, bu ən adi cavabı o gözləmirdi...

- Çağır bura onu! - deyə Suqranın üstünə çəmkirdi. Əminənin haradasa ona xəyanət etdiyinə elə əmin idi ki, qadının dediyi sözlərə inanmağı gəlmirdi.

Suqra bacısına və bacısı ərinə üzrxahlıqla baxdı:

- Yazıq uşaq, gəlib bizi evdə görməyib, narahat olub. Özü də ki, bu boyda yoldan gələsən...

... Bir an keçmiş Əminə gözünü ovxalaya-ovxalaya Həmidin qarşısında dayanmışdı... Qız onu gördüyünə o qə-

dər sevinmişdi ki, mətbəxdəkilərdən arlanmasaydı, Həmidin boynuna sarılacaqdı...

- Sən axı hələ sabah gəlməliydin... Nə əcəb tez gəldin?

Həmid Əminənin sualına sualla cavab verdi:

- Bəs dünən harda olmusan?

Əminə dik onun gözlərinə baxa-baxa:

- Evdə, - dedi.

- Necə evdə, mən bütün günü, bütün gecəni sənə zəng etmişəm...

Həmid bu sualın cavabını çox gözləyəsi olmadı:

- Yəqin, telefon zibil xarab olub... Görürsən, sənə deyirəm, mənə təzə Nokia al, almırsan. Özümünkünü də işlətməyə qoymursan...

Evdəkilərin təkidinə baxmayaraq Həmid Əminəni də götürüb evə yollandı...

Onlar taksinin arxa oturacağında əyləşmişdilər. Həmid əllərini başının arxasında çarpazlamışdı.

Əminə ona qısılmışdı, sifətində elə bir xoşbəxt ifadə var idi ki...

Həmid içini gəmirən şübhələr barədə heç nə deyə bilmirdi.

Şübhələr hələ də tam bitməmişdi. Bəs dünən? Dünən Əminə harada olub? Bütün günü zənglərə cavab verməyib. Nə olsun ki, deyir, telefon işləmir. Bəlkə, bəhanə eləyir?

... Mənzillərinə girən kimi ev telefonuna yaxınlaşdı, mobili ilə ev nömrəsini yığdı. Mobil telefon çağırırdı, ancaq ev telefonundan çağırtı eşidilmirdi. Dəstəyi qaldırdı. Telefon, doğrudan da, işləmirdi, xışıldayırdı.

Yalnız indi, içini gəmirən şübhələrdən tam azad olduqdan sonra dərindən nəfəs aldı. Bir qıraqda dayanıb döyükə-döyükə ona baxan Əminəni qucaqladı, öpüşlərə qərq etdi.

Bir gör, nahaq yerdən bu mələk kimi qızcığazdan şübhələndi, ona qaralar yaxdı...

Nə yaxşı ki, biznesi dağılsa da, heç olmasa, ailəsi dağılmayacaqdı. Nə yaxşı Həmid qatil olub ömrünü həbsxanada çürütməyəcəkdi...

# 19-cu HİSSƏ

Sən heç bilirsən, nə üçün qara gününə pul yığa bilmirsən? Çünki ağ günün yoxdur axı!

Beynində dolaşan bu fikirdən Gündüzün dodağı qaçdı. Doğrudan da, gözəl deyimdir.

Rəyasət müəllimin idarəsinə getməyə hələ saat yarım vaxtı qalmışdı. Və qərara gəlmişdi ki, bu müddətdə sərgi salonunda düzənlənən müasir rus rəssamlarının sərgisinə tamaşa etsin.

Giriş pulsuz idi. Qapının ağzında əyləşən yaşlı qadınla görüşdü:

- Asya xala, nə var, nə yox?

- Gündüz?! Boy, xala qurban, nə yaman xarab olmusan. Bir azar-bezarın yoxdur ki?

- Yox, ay xala, hər şey qaydasındadır, - söyləyib zala daxil oldu.

İçəridə adam az idi. Rəsm əsərləri çox olduğundan, onları divara iki cərgə vurmuşdular. Gündüz sol divardan başlamaq qərarına gəldi. Natürmort... Peyzaj... Abstraksiya... Portret...

Bəs niyə belə qarışıq düzüblər əsərləri? Bir əsərin qarşısında xeyli dayandı. Olduqca iri olan bu əsərdə feodal dövrlər Rus dövləti öz kilsələri ilə göz oxşayırdı.

Gündüzün diqqətlə əsərə baxdığını görən sarışın, saqqallı bir kişi ona yaxınlaşdı:

- Nu çto, nravitsa (Nədir, xoşunuza gəlir)?

Gündüz başını tərpətdi. Kişi üzündə məmnunluq ifadəsi söylədi:

- Eto moya rabota (Bu, mənim işimdir).

Sonra da Gündüzün: - Mən də rəssamam, - sözlərindən təsirlənib əlavə etdi:

- Xoçu sozdat obrazı dobra i zla, blaqodorya klassikam literaturı (Ədəbiyyat klassiklərindən faydalanıb xeyirlə şərin obrazını yaratmaq istəyirəm).

Və Gündüzə növbəti tablonu göstərdi:

- Zdes ya ispolzoval Slova o polke İqoreve (Burda mən İqor polku haqqında dastandan istifadə etmişəm).

Gündüzün maraqla tabloya baxmasını görüb dərhal da soruşdu:

- A vı çto resuyete (Bəs siz nə çəkirsiniz)?

Gündüz söylədi ki, impressionistdir. İnsanların iç dünyasını, əşyaların daxili quruluşunu, həyatın tam halda görünməyən hissələrini kətana köçürür. Rus rəssam lap maraqlandı. Soruşdu ki, nə əcəb indi - 3-cü minillikdə, 3-cü nəsil texnologiyaların meydan suladığı bir vaxtda öz dövrünü yaşayıb arxivə yuvarlanmış bir janra müraciət edir? Gündüz cavabında dedi ki, ideyalarını həyata keçirmək üçün məhz bu janrı yetərli hesab edir.

Rus rəssamla tamaşa etdikləri növbəti əsər balıqçı barədə idi. Balıqçı dənizə atdığı toru dartıb çıxarırdı, tora xeyli balıq düşmüşdü. Rəssam gümüşü balıq rəngini elə canlı vermiş, balıq pulcuqlarını elə dəqiq çəkmişdi ki, adama lap ləzzət edirdi.

- Nu kak (Necədir)? - deyə rus rəssamı soruşdu.

Gündüz etiraf etdi ki, balığı və toru bu cür dəqiqliklə, bəlkə də, çəkə bilməz. Ancaq onu da söylədi ki, daha dəqiqini fotoaparat çəkir. Deməк, bu cür dəqiqlik elə də vacib deyil. Rəssam fotoqraf deyil ki.

Xeyli düşünüb onu da əlavə etdi ki, o, özü bu tablonu çəkəsi olsaydı, tora düşən balıqların üzündə ölüm xofu, balıqçının üzündə sevinc ifadəsi verərdi. Torun bir küncündə yırtıq qoyardı və o yırtıqdan bir balıq sürüşüb suya düşərdi. Balığın bərəlmiş gözlərində isə azadlığa təşnəlik hissləri verərdi...

Rus rəssam «Hər kəsə öz dəst-xəti daha yaxşı görünür» deyimini təkrarlayıb tablolarına baxan gənc qızlara yaxınlaşdı, onlarla salamlaşıb əsərləri barədə təəssüratlarını soruşdu.

Gündüz rəssamın qəfil gedişindən pərt oldu, mobil telefonunda saata baxdı, hələ iyirmi dəqiqə də burada qala bilərdi...

Digər rəssamların da işlərinə baxdı. Vaxtı tamam olanda çıxışa doğru addımladı. Ancaq nə düşündüsə dayandı, geriyə qayıdıb bayaqkı rəssama yaxınlaşdı. Rəssam balıqçı tablosuna heyran qalan qızlara avtoqraf verirdi.

Gündüzü görcək sual dolu baxışlarla ona baxdı. Gündüz onun alnına qaldırdığı eynəyinin qızılı çərçivəsini süzə-süzə soruşdu ki, siz bayaq dediniz, ədəbiyyat klassiklərindən faydalanıb xeyir və şər obrazını yaratmaq istəyirsiz, Nizami Gəncəvini tanıyırsız?

Rus rəssam söylədi ki, hə, gərək ki, qədim dövrlərdə Şərqin böyük şairi və filosofu olub. Onu da əlavə etdi ki, deyəsən, fars şairidir.

Gündüz həyəcanla bildirdi ki, Nizami Gəncəvi Azərbaycan şairidir. Gəncəvi, yəni Gəncədən olan deməkdir. Gəncə isə Azərbaycanın mədəniyyət mərkəzlərindən, ən böyük şəhərlərindən biridir.

Rəssam başını buladı:

- Ya ne znal (Mən bilmirdim).

Gündüz həvəslə söylədi ki, əgər o, «Xeyir və Şər» mövzusunda dəyərli bir əsər yaratmaq istəyirsə, Nizaminin yaradıcılığına müraciət etsin. Ölməz «Xəmsə» ona elə bol material verəcək ki, silsilə əsərlər yaradacaq. Hətta Nizaminin məhz «Xeyir və Şər» adında əsəri də var.

Rəssam çox maraqlanmışdı:

- A atkuda mojna nayti yevo proizvedeniya na russkom yazıke (Bəs onun əsərlərini rus dilində haradan tapa bilərəm)?

Gündüz ona axtarış saytlarına girib rus dilində Nizami Gəncəvinin həyat və yaradıcılığı barədə məlumatlara nəzər yetirməyi tövsiyə etdi. Rəssam mütləq bunu edəcəyinə söz verdi.

Gündüz onunla sağollaşıb ayrılarkən, onu da söylədi ki, siz birdən düşünərsiz, mən Nizamini yalnız azərbaycanlı olduğu üçün tərifləyirəm. İnanın ki, bu, belə deyil. Nizaminin mənim tərifimə ehtiyacı yoxdur. Onun möhtəşəmliyini isə tək bircə faktla sübut edə bilərəm. 1941-ci ilin oktyabrında blokadada olan Leninqradın əhalisi soyuqdan və aclıqdan qırılırdı. Ancaq bununla belə, insanlar mərkəzə, eləcə də Strelna, Peterqof, Puşkin, Kronştadt, Pavlovsk kitabxanalarına gedib Nizami Gəncəvinin kitablarını alıb oxuyurdular.

Rəssam tam təəccüb içində soruşdu:

- Eto pravda (Bu, həqiqətdir)?

Gündüz gözündə işıq sözünə davam etdi ki, əlbəttə, həqiqətdir. Və sual verdi ki, o, Nikolay Tixonovu tanıyırmı?

- Rəssam: - Oo, koneçno, velikiy russkiy, sovetskiy poet (Əlbəttə, böyük rus, sovet şairidir), - dedi.

Gündüz söhbətinə davam etdi və bildirdi ki, 1941-ci ilin 19 Oktyabrında Leninqradın mərkəzində - Smolnı rayonunda, Ermitajda faşist təyyarələri tərəfindən güclü bombardmana baxmayaraq böyük Nizaminin 800 illik yubileyi keçirilib. Tədbiri də Nikolay Tixonov aparıb.

Rəssam lap təəccübləndi, dedi ki, blokadada olan Leninqrad barədə çox oxuyub, çox filmlərə baxıb. Şaxta, aclıq, ölüm qorxusu güc gələn bir vaxtda yəni insanlar başqa xalqa mənsub olan bir şairin yubileyini necə keçirə bilərdilər axı? Bu, inanılmazdır!

Gündüz davamında söylədi ki, yubiley tədbirindən də sonra ədəbiyyat və siyasət adamları şairin şərəfinə badə qaldırıblar. Və Nizaminin misraları şaxtalı gündə bu adamları isindirib.

Rəssam söz verdi, Rusiyaya qayıdan kimi mütləq Nikolay Tixonovun xatirələrini tapıb oxuyacaq, Nizaminin əsərləri ilə mütləq tanış olacaq və mütləq onun əsərləri əsasında nəsə çəkəcək...

Oho. Gecikirdi axı. Gündüz rəssamla tələsik sağollaşıb sərgi salonundan çıxdı.

Marşruta verməyə pulu olmadığından, az qala, qaça-qaça küçə boyu irəliləməyə alışmışdı. Ümumiyyətlə, piyada gəzməyə öyrəşmişdi. Çox vaxt evdən emalatxanaya piyada gedib gəlirdi. Eləcə də gedəsi olduğu digər yerlərə.

Yorulmaq ona yad idi…

İstiqlaliyyət küçəsini keçib İçərişəhərlə Neftçilər prospektinə adladı, oradan da Azneftə tərəf səmt götürdü. Gecikirdi deyə həmişəkindən daha sürətlə getməyə məcbur idi. Ona görə də təngnəfəslik hiss edirdi, xəstəlikdən sonra özündə bir zəiflik də duymağa başlamışdı…

Bir qədərdən sonra dayandı. Yol kənarındakı ağaca söykənib nəfəsini dərdi. Gözləri qaralırdı…

Yox, gecikmək olmazdı. Getmək lazım idi. Təqribən 500 metrdən sonra onu böyük pullar gözləyirdi… Bütün həyatını dəyişəcək böyük pullar…

- Sizə kömək lazımdır?

İtini gəzməyə çıxaran gənc oğlan yanında dayanmışdı.

- Yox, çox sağ olun. Bir şey yoxdur, - deyərək oğlanı yola saldı.

Nə yaxşıdır ki, insanlar hələ də bir-birlərinə kömək etmək istəyirlər…

… Az sonra Rəyasət müəllimin əyləşdiyi binada idi. 2-ci mərtəbəyə çıxdı, üzərinə 204 lövhəsi vurulmuş kabinetin qapısını döydü.

- Gəl! - içəridən gələn səsin sahibinin cüssəsiz, kiçik bir adam olduğunu zənn etdi.

Ancaq qapını açıb içəri keçəndə başı daz qırxılmış yekəpər bir kişini masa arxasında oturan gördü. Axı necə ola bilərdi, belə bir bədən yiyəsi o cür zəif səslə danışsın?

- Nə məsələdir?

Gündüz oturmaq istəyirdi. Elə yorulmuşdu ki, oturub nəfəsini dərməsəydi, bir stəkan su içməsəydi, sanki, üzüqoylu yerə yıxılacaqdı.

- Siz Əlövsət müəllimsiz? Mənə Rəyasət müəllim dedi ki...

Bu vaxt yekəpərin masasının üstünə düzülmüş telefonlardan biri - ağ rənglisi zəng çaldı və o, telefonu götürdü. Oturmaq təklifinin gəlmədiyini görən Gündüz lap dilxor oldu, ayağının birini boşaldıb digərinə güc verdi ki, növbə ilə ayaqları dincələ bilsin.

Yekəpər cır səsi ilə danışmaqda idi:

- Yox, yerin məlum, Qəçrəş tərəfə getmişdik, Əlövsət canı... Ha-ha-ha... Onlarsız iş keçər? İkisini aparmışdıq... Yox a kişi, maloletkalar idi, ölmüşlər su sonasına bənzəyirdilər... Ha-ha-ha...

Gündüz kiçik kabinetin başdan-başa Əlövsətin nəfəsinin qoxusu ilə dolduğunu hiss etdi. Bu nəfəsə tər və hansısa bahalı bir ətir qoxusu da əlavə olunmuşdu... Yamanca tanış gəlirdi bu Əlövsət ona...

Bəlkə, əyləşsin? Kabinet yiyəsi ədəbsizlik edib onu ayaq üstündə saxlamır?! O da ədəbsizlik edib təklifsiz əyləşsin. Yox, olmaz. Ayıb olar... Bəs nə etsin?

Əlbəttə, bir addım arxaya çəkilib divara söykənsin. Kürəyini divara söykəsə, ayaqlarına elə də güc düşməz...

Əlövsət telefonla danışmağında idi:

- Sən təzələmirsən?... Niyə?... Yox, məndə bu, azardır. Hər yeni ildə təzələməsəm, ürəyim partlayar... Nə götürəsiyəm əşi, kasıb adamam, Ferrari götürməyəcəm ki... Ha-ha-ha. Ə, sən öl yox, Əlövsət canı yox. Adi Porşe götürəcəm...

Gündüzə indi ayaq üstündə dayanmaq nisbətən asan idi. Divar ona yaxşıca kömək edirdi. Axı hardan bu qədər tanış gəlirdi Əlövsət ona? Cırsəsli yekəpər. Sanki, lap yaxından tanıdığı, hətta oturub-durduğu bir adam idi o...

... Bu lənətə gəlmiş qoxu da bir yandan...

... Axır ki, tanıdı. Cabbarov Əlövsət Mikayıl oğlu. Onlarla paralel sinifdə oxuyurdu. Həmid ona cır səsinə görə «Qız Əlövsət» deyirdi, o da qorxaq olduğundan cavab verə bilmirdi. İlk dəfə cırnamışdı, onda da Həmid ağzının üstündən birini ilişdirmişdi. Həmişə 2 alırdı, oxumağı da yox idi. Gərək ki, 7-ciyə keçəndə sinifdə qaldı... Yüz faiz o idi.

Bir istədi tanışlıq versin Əlövsətə. Ancaq sonra düşündü ki, birdən Əlövsət məktəb illərinin hayıfını alar, onun pulunu verməz.

Əlövsət axır ki, söhbəti yekunlaşdırıb dəstəyi asdı:

- Hə, eşidirəm səni.

Gündüz, heç olmasa, indi ondan əyləşmək təklifi gözləyirdi. Bu təklifin gəlmədiyini görüb lap dilxor oldu. O vaxt Həmid bu alçağı əzişdirəndə, gərək, bir-iki dənə də bu qoyardı onun mitilinə.

- Mənə Rəyasət müəllim dedi ki, bu gün sizdən...

Lənət sənə, kor şeytan. İndi də Əlövsətin qara rəngli telefonu zəng çaldı. O, telefonu qulağına tutub danışmağa başladı:

- Hə, Rəhman, eşidirəm... Yox, bir ay nədir, heç bir gün də olmaz. Pul vaxtında çatdırılmalıdır... Dedim ki, yox... A kişi, mənə nə? Anan əməliyyat olunub, Allah şəfa versin. Ancaq pul sabah mənim qabağımda olmalıdır... Dedim ki, yox!

Dəstəyi yerinə çırpdı.

- Buna bir bax. Bir ay... Yox bir, bir il. Sənə elə gəlmək gələrəm ki!

Sonra Gündüzə baxıb acıqla söylədi:

- Ay kişi, gəlmisən, sözünü de də. Bayaqdan elə key kimi sifətimə baxırsan. Nə lazımdır?

Gündüz bu qəfil hücumdan özünü itirdi. Dili topuq vura-vura birtəhər söylədi:

- Mən pul üçün gəlmişəm.

- Yoxdur pul. Elə yetən pul istəyir. Elə bil, bura Qızıl Xaç, ya da Qızıl Aypara Cəmiyyətidir. Bəlkə Mərhəmət fondudur? Ya da, xəbərim yoxdur, lombarddır?

- Mənə Rəyasət müəllim dedi ki, bir həftədən sonra, yəni bu gün gəlib sizdən üç min dollar götürüm.

- Rəyasət müəllim haçan deyib? Xatırlamıram. Kimsən ki, sən?

- Rəssamam, Gündüz Ələkbərli.

Yorğunluq və kəsif qoxunun dözülməzliyinə indi də bir həyəcan qatıldı. Əlövsət onun adını qarşısındakı dəftərçədən axtarmağa başladı. Birdən adı çıxmadı, bəs onda? Ola bilərdi ki, Rəyasət müəllim tapşırıq verəndə, bu «Qız Əlövsət» onun adını yazmağı unudardı...

- Hə var, Gündüz Ələkbərli.

Sanki, Gündüzün çiyinlərindən ağır bir yük götürüldü. Əlövsətin arxasında iri, ağ seyf var idi. Pullar, çox yəqin ki, orada idi. Bir az keçəcəkdi və o, çıxarıb üç min dolları verəcəkdi... Gündüzü xoşbəxtlərin xoşbəxti edəcəkdi...

Kaş bu, tez baş verəydi. Bircə onun telefonuna zəng gəlməyəydi. Gəlsəydi...

Tərsliyə bir bax. İndi də mobil telefonuna zəng gəldi.

- Ooo, Nəmiş... Çoxdandır, səsin gəlmir, qardaş... Neynədin? Razı sala bildin?.. Çox gözəl. Neçəyə satır?... İki yüz əlli minə? Onu xarab eləyər. İki yüz iyirmi bəsidir... Uşaq de-

yilik ki, bu işdə baş ağartmışıq... Oranın dəyəri maksimum iki yüz iyirmidir... Yox, elə bir planım yoxdur. Mənzildir də, alıb atacam enzeyə. Məsəl var e, saxla samanı, gələr...

Yenə gözləri qaralmağa başladı. Yox, səhhəti ciddi pozulub. Xəstəliyi çox ağırdır, pulu alan kimi, ilk növbədə, müalicənin üstünə düşər, iş qoy gözləsin. Bəs sərgi? Yubanır axı. Payız gəlib, sentyabrı artıq yola salıblar...

- Adın var burda. Onda sən belə elə. Get, iki aydan sonra gəl.

Sanki, Gündüzün başına bir vedrə qaynar su tökdülər. Necə yəni, get, iki aydan sonra gəl?

Kəkələyə-kəkələyə dedi:

- Bəs, axı... Rəyasət...

Əlövsət cır səsini bir qədər qaldırdı:

- Ay kişi, gəl, iki aydan sonra apar. Burda başa düşülməyən nə var?! İndi əlimizdə pul yoxdur.

Gündüz onu yola gətirməyə cəhd etdi:

- Bilirsiz, bu pullar çox vacibdir. Mən rəssamam. Böyük Nizami Gəncəvinin ideyalarını rəngkarlıqla...

- Ay kişi, bir dayan...

- ... Dünyaya tanıtmaq istəyirəm. Qoy dünya bilsin ki, bizim necə böyük...

- Ay kişi! İstəyirsən, Nizami Gəncəvini tanıt, istəyirsən, Rəşad Dağlını. Bu, sənin şəxsi işindir. Get, iki aydan sonra gəl. İndi pul yoxdur. Başa düşdün?

Gündüz ağır-ağır kabinetdən çıxdı. Sanki, ayaqlarından daş asılmışdı. Bir neçə addım irəliləyib pilləkəndə əyləşdi. Ağrıları şiddətlənmişdi.

Lap şiddətlənmişdi...

# 20-ci HİSSƏ

Biz həyatı əksər hallarda bizə bəxş etdiyi nəsnələrə görə yox, bəxş edəcəklərinə görə sevirik. Küləkli havada qismətinə adi deyil, yelkənli qayıq sürmək düşən şəxs yelkəni qaldırmağı unutduğundan, qayığı yelkənsiz sürür. Bir bu mənzərəni təsəvvür edin. Budur, statistik zəhmətkeş insan obrazı.

Həmid restoranın foyesində təqribən 2 il bundan öncə Moskvada tanış olduğu, kifayət qədər tanınmış iqtisadçı Fərid Səfərli ilə söhbətləşirdi:

- Fərid müəllim, sizcə, o statistik zəhmətkeş insan yelkəni niyə qaldırmır?

- Dedim axı, unudur. Hər kəs əlində olan imkanlardan maksimum yararlana bilməz axı.

- Həmid əmi, atam deyir ki, gəlsin də, - Gündüzün oğlu Rizvan idi onu çağıran. Uşağın başını sığallayıb dedi:

- Deynən beş dəqiqəyə gəlirəm.

Çoxdan idi istəyirdi, dostların hamısı ailəvi bir yerə yığışsınlar, yeyib-içsinlər. Axır ki, bu gün birtəhər toplaşmışdılar. Qoşqar xaricdə idi, Tural tək gəlmişdi, həyat yoldaşını gətirməmişdi. İlk öncə bu təklifə həvəslə razılaşan və yığışacaqları günü səbirsizliklə gözləyən Gündüz bu səhər Həmidin zənginə çox üzgün cavab vermiş, ağrıdığını, heç yerə çıxmaq istəmədiyini söyləmişdi. Nəhayət,

Həmidin uzun sorğu-sualından sonra dilxorçuluğunun səbəbini söyləmişdi: «Rəyasət müəllim pulu yenə vermədi, dedi, iki ay da gözlə».

Həmid: «Sənin bu Rəyasət müəllimlərin bəyəm haçan pul verib ki?» - söyləyərək onu dolamış, birtəhər gəlməyə razı salmışdı. Gündüz, Ülkər, Aydan və Rizvan - tam heyətlə gəlmişdilər.

Bir də Həmidlə Əminə.

7 nəfərlik kampaniya yenicə yeyib-içməyə başlamışdı ki, Həmid Fərid Səfərlini foyeyə adlayan yerdə görmüşdü. Cəld hamıdan üzr istəyib onun dalınca getmişdi.

- Bəs gecə və gündüz barədə söylədiyiniz? Gecədən sonra gündüzün gələcəyini gözləyənlər, dediyiniz kimi, nikbin insanlardır. Əksinə, gözləməyənlərsə, bədbindir. Bəs elə o nikbin dediyiniz insanlar yəni düşünmür ki, gündüzdən sonra hər halda gecə gələcək?

Fərid Səfərli gülümsədi:

- Əslində, hər iki adamçün eyni vaxtda səhər açılır və eyni vaxtda axşam düşür. Ancaq bu eynilikdə biri faydalı, digəri zərərli şey tapır.

Moskvada Krokus sərgi salonunda tanış olmuşdular. İqtisadi nailiyyətlər sərgisinə xüsusi olaraq gələn Həmid uğur qazanan hər bir brend barədə kataloq və jurnallardan özünə böyük kolleksiya toplamış, yüzlərlə iş adamı ilə tanış olub bir portfel vizit kartları götürmüşdü. Fərid Səfərli ilə tanışlıq isə onun həyatında xüsusi iz buraxmışdı.

Fərid Səfərli Rusiya iqtisadiyyatındakı Azərbaycan izlərinə toxunaraq bizimkiləri bu nəhəng mexanizmdə aparıcı hissələrdən hesab etmişdi:

- Görürsünüzmü, illər öncə bazarniklər kimi xarakterizə edilən bizlər, əslində, böyük qüvvəyik. Burada Vahid Ələkbərov var, Araz Ağalarov var, İsgəndər Xəlilov var, Telman İsmayılov var. Bu gün dünyanın ən mötəbər sərgiləri bizim Krokusda keçirilir. Bu gün mən Rusiyanın bir neçə şəhərində bizim Zaminbankın filialına daxil olub pul əməliyyatları apara bilirəm. Bunlar qürurverici şeylərdir.

Ardınca doğma Türkiyədə biznes sahəsində uğur qazanan Mübariz Mənsimovun adını çəkmişdi. Dünya sularında üzən gəmilərimizdən ağızdolusu danışmışdı...

Həmid də öz işindən, «Azəri» müəssisəsinin uğurlarından söz açmışdı. Onu da söyləmişdi ki, daim axtarışdadır, məşhur iş adamlarının hamısının həyatını oxuyub, kimin nədən və necə başlamasını öyrənib. O da istəyir ki, adları sadalanan şəxslərin sırasına yüksəlsin...

... Fərid Səfərli gümüş portsiqarından bir siqar çıxarıb yandıraraq sual etdi:

- Nobel mükafatçısı Pol Kruqmanı oxuyursuz? Onun Nyu-York Taymsdakı bloqunu oxuyun, dünya iqtisadiyyatında baş verən proseslərin axarında olacaqsız, eləcə də sabahkı günə proqnoz verməyi bacaracaqsız. Mən indi bilirsiz, neynirəm?

Həmid maraqla soruşdu:

- Neynirsiz?

Fərid Səfərli gözündəki eynəyi çıxarıb onun şüşəsinə nəfəsini verdi, sonra cib yaylığı ilə şüşəni təmizləyə-təmizləyə söylədi:

- Bir neçə şirkət və bank rəhbəri var ki, onlara dünya birjalarında nə almağı və nə satmağı məsləhət verir, əldə edilən qazancdan faiz götürürəm.

Həmid lap təəccübləndi:

- Yəni heç səhv məsləhət, yanlış proqnoz vermirsiz?

- Yox, burada peşəkarlıq, çoxməlumatlı olmaq öz sözünü deyir. Dollar və avro nisbətinin kəskin fərqi fonunda əmtəələrin dəyərdən düşməsi, Çin iqtisadiyyatının yüksəlişinin qlobal böhranın fəsadlarından doğması, əlvan metallurgiya və qızıl dalğasının enerji daşıyıcıları sahilinə həmləsi… Bütün bunları görmək və duymaq üçün elə də böyük istedad lazım deyil ki…

Balaca Rizvanın növbəti gəlişini görən Fərid Səfərli sağollaşdı:

- Yaxşı, sizi gözləyirlər. Məni də həmçinin.

Həmid nə illah elədisə, onu öz masalarına dəvət edə bilmədi. Hər halda, ayaqüstü də olsa, İqbalın yaratdığı problemlərdən söz açdı, məsləhət istədi.

Fərid Səfərli başını buladı:

- Çox zaman biz həddən artıq centlmenlik edirik, nəticə isə acınacaqlı olur. Dostunuz hər şeyi qanun çərçivəsində edib. Demək, ədaləti bərpa etmək üçün yeganə çıxış yolu qeyri-qanunilikdir. Belə işlərlə xüsusi şəxslər məşğul olur, müəyyən faiz hesabına həmin kriminal avtoritetlər ölmüş məbləği dirildə bilir.

Onunla sağollaşıb məclisə qayıdan Həmid Gündüzün iradları ilə üzləşdi:

- Yekə oğlansan, bizi yığmısan bura, özün gedirsən başqası ilə söhbətləşməyə.

Həmid üzrxahlıq edib söylədi:

- O, xırda-mırda adam deyil e, Rusiya ekonomikasında vacib simadır - Fərid Səfərli.

Gündüzün üzünün ifadəsi dəyişdi:

- Vacib simadır? Bəlkə, mənim layihəm barədə ona məlumat verəsən? Axı bu layihəyə sponsor tapılmasa...

Həmid onun sözünü kəsdi:

- Ay Gündüz, sən Allah, bəsdir də. Yığdın e bizi boğaza, bu layihənlə.

Həmidlə Əminə başda oturmuşdular, sağ böyürlərində - Əminənin yanında Ülkər, sonra Aydanla Rizvan əyləşmişdilər... Sonra Gündüz. Dairəvi masanı Tural qapadırdı.

- Tural, sən niyə ağzına su almısan? Bir söz də sən de. Məgər bu impressionizm səni boğaza yığmadı?

Tural sakitcə gülümsədi. Təbiətən qaraqabaq idi, heç danışmağı sevməzdi. Uşaqlıqdan necə idisə, heç dəyişməmişdi. Neft şirkətində mühəndis işləyirdi. Həmid onu zorla dilə tutub bura gətirə bilmişdi. Gələndə də tək gəlmişdi, həyat yoldaşını «bir az nasazdır» bəhanəsi ilə özüylə gətirməmşdi...

- Yaxşı, hansı sağlığa içirik?

Həmid soruşdu. Tural yenə dinməz durdu. Bayaqkı sözlərinə görə Həmiddən inciyən Gündüz isə sifətini turşudub oturmuşdu.

- Qoşqarın yeri məlum, - deyib Həmid öz badəsini araqla doldurdu. Sonra az öncə Fərid Səfərlidən eşitdiyi sözləri ucadan söylədi:

- Biz həyatı əksər hallarda bizə bəxş etdiyi nəsnələrə görə yox, bəxş edəcəklərinə görə sevirik. İçək bu sağlığa!

Əlini «Fanta» şüşəsinə uzadan Rizvan onu aşırtdı, Ülkər cəld uşağın əlindən vurdu:

- Sənə yüz dəfə demişəm, özünü görməmiş kimi aparma!

Əminə Ülkərin qolundan tutdu:

- Siz Allah, eləməyin, uşaqdır da.

Ülkər narahat halda salfetlərlə masanın üstünü silməyə başladı, Gündüz də əsəbi halda Rizvanın üstünə çəmkirdi:

- Heyvanın biri heyvan, Fanta acısan?

Həmid müdaxilə etdi:

- Ey! Nə istəyirsiz mənim balaca dostumdan? Dağıdıb, əcəb eləyib.

Sonra ofisiantı çağırıb ona masanın üstünü silməyi tapşırdı.

Gündüz arağının içinə limon sıxıb başına çəkdi. Ayağa durub özünə bir qədəh də araq süzdü. Bayaqkı incikliyini, deyəsən, unutmuşdu. Söylədi:

- Mən istəyirəm, bu badəni təzə evlənənlərin - Həmidlə Əminənin sağlığına içək. Əgər kişi sağ ayağı ilə axsayırsa, gərək, sol ayağı ilə axsayan bir qadını tapıb özünə həyat yoldaşı eləsin. Bu halda, onlar tarazlaşarlar və müvazinətlərini saxlayarlar. Vay o hala ki, qadın kişini tamamlamasın... Mən yüz faiz əminəm, Əminə məhz Həmidin yarısıdır. O xoşagəlməz hadisədən, alınmayan toydan sonra, o toyun qanıqaraçılığından sonra mən bu gənc sevənləri belə xoşbəxt görməyimə çox sevinirəm. Söz verirəm, mənim əziz dostumu - ürəyimin bir parçası olan Həmidi xoşbəxt etdiyi üçün növbəti əsərimi Xoşbəxtlik gətirən qızcığaz adı altında Əminəyə həsr edəcəm.

Bu tostdan təsirlənib Həmid ayağa durdu, gəlib Gündüzü öpdü.

Əminə isə lap uşaq kimi əl çalaraq «urra» qışqırdı.

... Aydan özünə paytaxt salatı qoymaq istəyirdi, Ülkər onun üstünə çəmkirdi. Əminə yenə Ülkərə irad tutdu:

- Siz niyə bu uşaqları qoymursuz, doyunca yesinlər? Hər şey ofisiantlara qalasıdır?

Sonra Əminə Aydanın qabını götürüb ona salat qoydu, ümumi qabdan qabırğa kababı götürüb Rizvana uzatdı:

- Al, qaqaş, ye.

Rizvan qorxa-qorxa öncə anasının, sonra atasının üzünə baxdı.

Bu dəfə Həmid səsini qaldırdı:

- Siz lap diktatorsuz ki. Yazıq uşaqları niyə belə sıxırsız?!

Gündüzün: - Yesin də, nə deyirik ki, - söyləməsi ilə Rizvanın kababı dişinə çəkməsi bir oldu.

Növbəti qədəhləri içdilər. Həmid Əminəyə göz gəzdirdi. Əminə təzə aldırdığı sinəsi açıq, tünd-qəhvəyi, uzun libasdaydı. O, necə də cazibədar idi. Cizgiləri, sanki, qələmlə çəkilmişdi. Bircə qüsuru yox idi. Boyu, çəkisi, bədən quruluşu, sifəti...

Gündüz Turalı məcbur edirdi ki, tost desin. O da yaxasını kənara çəkirdi.

Əminə ilə Ülkər söhbətləşirdilər. Əminə astaca ailə həyatının çətinliklərindən danışırdı:

- Hərdən istəyirəm, Həmidçün piti, dolma, düşbərə - bu sayaq şeylər bişirim. Telefonla zəng edirəm, anam bir-bir nəyi necə eləməyi deyir. Yenə görürsən, nəsə çatmır. Düzdür, Həmid bunu üzümə vurmur, ancaq elə istəyirəm ki, hər şey yaxşı olsun.

Ülkər heyranlıqla onu dinləyirdi:

- Hələ nə yaşın var?! Yaşadıqca təcrübən artacaq. Siftə bütün qadınlar üçün çətin olur. Ancaq zaman keçdikcə hər şeyə alışırsan... Əsas odur ki, çox gəncsən, gözəlsən...

Aydanla Rizvan «Fanta» ilə «Cola»-nı qarışdırıb içirdilər...